AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 3

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2020

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Əsgər Rəsulov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2020, № 3

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2020

www. filologiyameseleleri.net

DİLÇİLİK

İSMAYIL TEMİROĞLU
Filologiya üzrə fəlsəfə doktoru, dosent
BDU
Zahid Xəlilov küçəsi
ismayilm@mail.ru

DİLİN LEKSİK-SEMANTİK QURULUŞUNUN ƏSAS CƏHƏTLƏRİ VƏ MƏNA DƏYİŞMƏLƏRİ HAQQINDA

Nəzəri dilçilikdə semantika (xüsusilə leksik semantika) sahəsində aparılmış tədqiqatlarda söz və onun mənası, mənanın məntiqi-linqvistik mahiyyəti, məna dəyişmələrinə təsir edən amillər və s. barədə müxtəlif, bəzən bir-birinə zidd olan fikirlərə rast gəlinir. Məqalədə bu fikirlər ümumiləşdirilmiş, sistemləşdirilərək konkret mövqelərə münasibət bildirilmiş, araşdırmaların gələcək istiqamətlərinin müəyyənləşdirilməsinə cəhd edilmişdir.

Müasir dövrümüzdə məna problemi dilçiliklə yanaşı piyazi məntiqin, məntiqi semantikanın da obyekti kimi öyrənilir. Çox zaman bu sahələrin qənaət və anlayışları mexaniki olaraq dilçiliyə köçürülür və bu da öz növbəsində «məna» anlayışının dil statusunu kölgə altına alır, onun real mənzərəsini qeyri-müəyyən hala salır. Buna görə də «məna» anlayışının dilçiliyin payına düşən hissəsi konkret şəkildə, xüsusi anlayışlarla dəqiqləşdirilmiş, onun özünəməxsusluğu müəyyənləşdirilmişdir.

Məna dəyişmələri nəzəriyyəsinin sonrakı inkişafında, təkmilləşməsində xalis dil, onun tarixi və sosial səbəbləri məna dəyişməsinin əsası hesab edilir. Dildaxili səbəblərdən yaranan məna dəyişmələri sözün müxtəlif sintaktik mühitlərdə işlənməsindən asılı olur; tarixi səbəblər o zaman həlledici rol oynayır ki, predmet dəyişir, ad olduğu kimi qalır. Sosial səbəb deyərkən müəyyən sözün bu və ya digər sosial qrupdan başqa qrupun dilinə keçməsilə yaranan məna dəyişmələri nəzərdə tutulur. Məna dəyişmələri prosesi təmiz dil kökləri ilə izah olunur.

Açar sözlər: söz, sistem, struktur, semantika, kontekst, nəzəri.

Söz müəyyən fonetik səslənmə ilə müəyyən mənanın dialektik vəhdətindən ibarət tarixi anlayışdır. Bu və ya digər məna yalnız müəyyən səs qabığında mövcud olduğu kimi dil və nitq faktı ola biləcək mənasız fonetik birləşmə də

yoxdur. Belə bir zəruriyyət sözün vəhdətdə olan müxtəlif tərəflərinin (səslənmə – məna) ayrı-ayrılıqda müstəqil inkişafına, dəyişməsinə mane olmur. Sözün ən çox dəyişməyə meyl edən və əksər halda dildaxili tələblərlə idarə olunan məna tərəfi forma tərəfinin sabitliyi ilə müşayiət olunur, yeni məzmun ifadə edən sözün ümumi xassəsi hər dəfə yeni fonetik qabığın meydana çıxması ehtiyacını aradan götürür.

Söz dilin əsas vahidi kimi bir neçə mühüm komponentlərin yığımıdır. Hər şeydən əvvəl söz zəruri olaraq zahiri səs formasının və daxili formanın – mənanın vəhdətidir. Bu əsas komponentlər sözün bütün dillər üçün universal olan mahiyyətini təşkil edir. Hər cür səs kompleksi müəyyən fonetik əlamətə və görkəmə malik olsa da, mənasız söz ola bilmədiyi kimi, məna da yalnız müəyyən səs formasında ümumi dil faktı kimi realdır. Bu dialektik birlik dilçiliyin bütün dövrlərində söz nəzəriyyəsinin əsasında dayanmışdır.

Dil haqqında elmin müxtəlif inkişaf dövrlərində ayrı-ayrı məktəb və cərəyanların bütövlükdə dilə yanaşma yönündə fərqlər müşahidə olunsa da, «məna» anlayışı məntiqi-linqvistik problem kimi həmişə diqqət mərkəzində olub. Hətta mənanı linqvistik fenomen kimi şübhə altına alan, onu dilçilik araşdırmalarından kənarda təsəvvür edənlər belə, istər-istəməz dolayısı ilə məna anlayışına toxunmadan, öz nəzəri mülahizələrində ona başqa adla olsa da, üz tutmadan keçinə bilməmişlər. Doğrudan da, məna bir növ dilin özü, cövhəridir, dilin müxtəlif funksiyalarından danışmaq və onun məzmun planına toxunmamaq, yaxud onu inkar etmək mümkün deyildir.

Müasir dövrümüzdə məna problemi dilçiliklə yanaşı piyazi məntiqin, məntiqi semantikanın da obyekti kimi öyrənilir. Çox zaman bu sahələrin qənaət və anlayışları mexaniki olaraq dilçiliyə köçürülür və bu da öz növbəsində «məna» anlayışının dil statusunu kölgə altına alır, onun real mənzərəsini qeyri-müəyyən hala salır. Buna görə də «məna» anlayışının dilçiliyin payına düşən hissəsi konkret şəkildə, xüsusi anlayışlarla dəqiqləşdirilməli, onun özünəməxsusluğu dəqiq şəkildə müəyyənləşdirilməlidir. Moris və Karnap semantikanın obyektini belə müəyyənləşdirir: Semantika işarə və onun desiqnatı (işarələnən) arasındakı münasibətlə məşğul olur. Moris yazır ki, işarənin desiqnatı işarənin özünə görə nəzərə gələndir. Desiqnat obyekt deyil, obyektlər tipi, yaxud obyektlər sinfidir.

Formal semantikanın tədqiqat obyektində və anlayışlarındakı mövcud qeyri-müəyyənliyi, bəzən müşahidə olunan ziddiyyəti R.S.Stalneyker şərh edərək yazır: Formal semantika danışanın məqsədini nəzərə almadan cümlələrin həqiqilik (dürüstlük) şəraitini təsvir edir. Dildən insanlar müxtəlif məqsədlər, xüsusilə propozisiyaların ifadəsində istifadə edir. Bu halda propozisiyanın özü abstrakt mahiyyət olub, həqiqiliyə (doğruluğa) şərait yaradır. Semantika dilin yalnız bu aspektini öyrənir" (1, 420).Məna probleminin müxtəlif aspektləri araşdırılarkən obyektiv aləmlə, müəyyən insan kollektivinin təcrübəsilə bağlı qeyri-dil semantikası və sırf dil semantikası fərqlənir; qeyri-dil semantikası müəyyən dil formasından kənarda

mövcuddur, dil semantikası isə göstərənlə göstərilənin vəhdətidir və bu vəhdətsiz dil mənasından danışmaq olmaz.

Məlumdur ki, hər bir dilin sistemi iyerarxik münasibətdə olan müxtəlif xassəli laylardan təşkil olunmuş mürəkkəb strukturdur. Bu layların hər biri öz funksiyası, mahiyyəti ilə bir-birindən fərqlənsə də, ümumi bir aparıcı xəttə xidmət etmə baxımından bir bütövün (dilin) hissələri, vahid sistemin yarımsistemləri kimi fəaliyyət göstərir. Dil layları bir çox əlamətlərə görə bir-birindən fərqlənir. Lakin onların oppozisiyasında əsas əlamət layların vahidlərinin mənaya malik olub-olmamasıdır. Bu cəhətdən dilin səs quruluşu (fonetikası) qalan laylara (leksika, morfologiya, sintaksis) qarşı durur, birtərəfli dil vahidi kimi yalnız səslənmədən (forma) ibarət olan fonem, ikitərəfli (forma və məzmun) vahidlərə (söz, morfem, cümlə) qarşı durur, onlardan köklü surətdə fərqlənir.

Özlüyündə söz linqvistik anlayış kimi olduqca mürəkkəb fenomendir və onun bütün əlamətlərini ehtiva edən definisiya çox çətindir. Təəccüblü deyildir ki, indiyədək dilçilikdə sözün hamının qəbul etdiyi ümumi tərifi yoxdur. Bütövlükdə obyektiv aləmlə, təfəkkür prosesi ilə bağlı olan söz problemi, onun linqvistik mahiyyəti öz elmi həlli üçün bir-birilə üzvi surətdə bağlı olan, bir-birini tamamlayan, bilavasitə sözün mürəkkəb, çoxcəhətli reallığını müəyyənləşdirə bilən bəzi kardinal məsələlərin aydınlaşdırılmasına möhtacdır: dilin işarəviliyi, ayrıca söz anlayışı, dil və nitq, sözün məna tipologiyası, dil və təfəkkür, söz və kontekst, məna dəyişmələri və s.

Müasir dilçilikdə leksik semantikanın ümumi nəzəri problemləri ilə yanaşı konkret dillərin lüğət tərkibinin müəyyən sahələri ilə bağlı araşdırmalar (emprik semasiologiya) da xüsusi yer tutur.

Empirik semasiologiyada ümumi nəzəri mülahizələrin düzgünlüyü yoxlanılır və yeni nəzəri ümumiləşdirmələr üçün materiallar hazırlanır. Bəzi tədqiqatlarda nəzəri və empirik dilçilik bir-birinə qarşı qoyulur, nəzəri araşdırmaların rolu yersiz şişirdilir. A.M.Kuznetsov bu məsələyə haqlı etiraz edərək yazır: "İstənilən çılpaq nəzəriləşdirilmiş faktlar və hay-küylü terminlər, eləcə də faktların interpretasiyasız üzdən sadəcə təsviri dilçilik elminin inkişafına xidmət edə bilməz, buna görə də linqvistikanı nəzəri və empirik (fizikada olduğu kimi, nəzəri və eksperimental) hissələrə ayırmaq olmaz" (2, 4).

Doğrudan da, bu şəkildə qarşılaşdırma dilin başqa yaruslarında, bəlkə də, mümkündür, vahidlərinin sonsuzluğu və bu sonsuzluqdan doğan qanuna-uyğunluğun müxtəlifliyi leksik-semantik yarusda əksinə lüğət tərkibini parçalamağı, onu mikrosistemlərə ayırıb öyrənməyi, alınan nəticələri ümumiləşdirməyi tələb edir. Ənənəvi olaraq lüğət tərkibinin doğma sözlər, alınma sözlər, ədəbi dil sözləri, dialekt sözləri, neologizmlər, arxaizmlər, omonimlər, antonimlər, sinonimlər və s. bölünməsi də məhz həmin qənaətin nəticəsidir. Bu çətinliyin qarşısını almaq üçün son dövrlər lüğət tərkibi müəyyən sahələr – nitq hissələri üzrə araşdırılır. Müəyyən qrup sözlərin semantik xüsusiyyətlərindəki universallıqla yanaşı, xüsusi hallar da aşkar edilir. Və bu xüsusi hallar leksik-semantik həddin bir sıra məsələlərinin dəqiqləşməsinə yardım edir. Semantikada

getdikcə geniş işlənən paradiqma anlayışı da bu arzudan irəli gəlir. Bu cəhətə əsaslanıb haqlı olaraq leksik semantikanı sintaksislə əlaqələndirirlər. Azərbaycan dilində də bir çox söz qruplarını, xüsusilə çoxmənalı sözlərin və sifətlərin, əvəzliyin semantikası sintaktik mühit nəzərə alınmadan öyrənilə bilməz.

Sözləri sintaktik mövqelərinə görə təsnif etmək müəyyən mənada mümkün və faydalıdır. Lakin bunu bütün sözlərə eyni ölçü ilə şamil etmək özünü doğrultmur. Azərbaycan dilində sifətlərin sintaktik mövqeyi demək olar ki, sabitdir. Belə ki, sifətlər bir qayda olaraq isimlərlə ifadə olunmuş cümlə üzvlərinin təyini olur. Leksik semantika etibarilə müxtəlif sifətlər eyni konstruksiya daxilində eyni mövqedə işlənə bilir. Lakin bu eynilik həmin sifətlərin nəinki semantik eyniliyinə, hətta semantik uyğunluğuna belə şəhadət vermir. Sifətlərin semantik yaxınlığını və eyniliyini onların aid olduğu, təyin etdiyi söz qrupunun inteqral semantik əlamətə malik olub-olmaması müəyyənləşdirir. Əgər sifətin təyin etdiyi adlar çoxluğu diferensial semantik əlamətlərlə bir-birinə qarşı dururs, sintaktik mövqe eyniliyi, sintaqmatik uyğunluq sifətlərin də semantik cəhətdən bir-birindən fərqini yox edə bilmir. Əksinə, sifətlərin aid olduğu adlar eyni bir paradiqmatik cərgəyə daxildirsə, (heç olmazsa bir minimal semantik komponentə görə) sifətlərin də semantik yaxınlığından, məna uyğunluğundan danışmaq olar. Bu ölçü ilə yanaşdıqda çoxmənalı sifətlərin məna təsnifatını aparmaq, müxtəlif məna variantlarının sərhədini müəyyənləşdirmək, sifətlərin əsas və törəmə mənalarını dəqiqləşdirmək mümkündür. Müqayisə üçün rəng bildirən sifətlərin müxtəlif sözlərlə əlaqələnmə imkanına diqqət etmək kifayətdir: *ağ kağız, qara parça, qırmızı bayraq – ağ gün, qarabəxt, qıpqırmızı gün…*

Dil elə qurulmuşdur ki, danışan fikrini ifadə edərkən bu və ya digər sözü onun daxil olduğu, semantik cəhətdən yaxın olan sözlərin içərisindən seçir və müvafiq sözlərlə əlaqələndirir. Buna uyğun olaraq dinləyən eşitdiyi sözləri mənaca yaxın sözlərlə tutuşdurur və verilən informasiyanı dəqiq anlayır. Bu, dildəki sözlər arasındakı iki əlaqə formasının sayəsində mümkün olur: şaquli əlaqə (paradiqmatika), üfüqi əlaqə (sintaqmatika). Paradiqmatik əlaqədə sözlər müəyyən semantik əlamətə, ümumiliyinə görə birləşir: məsələn, sözlərin tematik qrupu (*ağ, qırmızı, qara, göy, yaşıl*), sinonim cərgə (*gözəl, göyçək, cazibəli*), antonim qarşılaşma (*pis, yaxşı, gözəl, çirkin*), sözün çoxmənalılığı və s.

Sintaqmatik münasibət paradiqmatik əlamətləri reallaşdırır, onların xətti düzülüşünü təmin edir. Ümumən eyni paradiqmaya daxil olan dil vahidləri sintaqmatik münasibətdə olduğu sözlərə uyğun gəlir. Sözlərin paradiqmatik xüsusiyyəti ilə sintaqmatik xüsusiyyəti arasında qanunauyğun əlaqə özünü göstərir.

Dildə olan sözlər sistemin ünsürləri kimi bir-birindən təcrid edilmiş şəkildə deyil, qarşılıqlı əlaqə və münasibətdədir. Bu əlaqə və münasibətlərin bəzisi üzdə, bəzisi isə dilin çox dərin qatlarındadır və sistemin ümumi, daxili qanunları ilə idarə olunur. Şübhəsiz, dilin lüğət tərkibindəki sözlərin semantik müxtəlifliyi onun asılılıq, sərbəstlik, müstəqillik dərəcəsində də özünü göstərir. Məsələn, fellərin isimlərdən, isimlərin əvəzlikdən və s. bu cəhətdən fərqi vardır. Sifətlər

əlamət və keyfiyyət bildirən söz qrupu kimi semantik cəhətdən isimlərdən asılıdır. Çünki sifətlərin ifadə etdiyi məzmun əşyadan ayrılmazdır, əşyasız əlamət də yoxdur.

«Azərbaycan dilinin semasiologiyası» kitabında bu münasibətlə oxuyuruq: «Əşyanı təşkil edən əlamətlər məcmusundan yalnız müəyyən bir əlamətin seçilməsi işinin özündə fərdi, subyektiv cəhət vardır. Əslində hər bir qrammatik əşya sonsuz miqdarda əlamətlər məcmusundan ibarətdir. Məsələn, hər hansı ən adi bir əşya adını, tutaq ki, «alma» sözünü nəzərdən keçirək. Bu əşyanın ən müxtəlif əlamətləri olduğu üçün onu müxtəlif cəhətdən sifətləndirmək mümkündür. Odur ki, hər bir sifət – fərd ilə, fərdin zövqü, dərrakəsi, əhvali-ruhiyyəsi, əşyaya münasibəti və s. ilə bağlı olacaqdır» (3, 15).

…Gənc qrammatiklərin görkəmli nümayəndəsi G.Paulun «Dil tarixinin prinsipləri» əsərində polisemiya hadisəsi ilə bilavasitə bağlı olan sözün məna dəyişmələri problemi ayrıca və geniş təhlil olunur. Dilin müxtəlif laylarından, o cümlədən səs dəyişmələrindən (yeninin yaranması, köhnənin aradan çıxması) fərqli olaraq, daha mürəkkəb proses kimi sözün məna inkişafında «…ilk vaxtlar bir qayda olaraq, yeni məna köhnə mənaya calanır, nəticədə köhnə öz yerini yeniyə verdikdə bu, tamamilə yeni bir prosesdir, ancaq zəruri olaraq birincidən qidalanır» (4, 93).

Sözün semantik strukturunda, onun ayrı-ayrı nitq aktlarında işlənməsində üzə çıxan mənaların sərhədini dəqiqləşdirmək üçün Paul iki məna tipini qeyd edir: uzual və okkazional məna; «uzual məna deyərkən cəmiyyətin hər bir üzvündə olan məzmun ümumiliyi, təsəvvürlər yığımı, okkozional məna isə danışıq anında sözlə bağlanan mənadır, nitq mənasıdır ki, bu məna da həm danışan, həm də dinləyən tərəfindən eyni şəkildə anlaşılandır» (4, 94).

Uzual və okkazional məna anlayışı müasir dilçilikdə işlənən invariant-variant, əsas məna, leksik-semantik variant, dil və nitq mənaları termininə uyğun gəlir.

Sözün məna dəyişmələrinin əsasında dil sistemi ilə fərdi nitq aktının münasibətini qoyan G.Paul yeni mənanın yaranmasını nitq aktı ilə bağlayır, bu prosesdə aparıcı rol oynayan dildaxili və dilxarici prosesləri – sosial, tarixi, psixoloji – nəzərə almadan, özünün qəbul etdiyi məntiqi sxemə əsaslanır. Bu təsnifatın əsasında sözlə əlaqələnən təsəvvürün tutumu və məzmununun dəyişməsi dayanır. Başqa sözlə, təsəvvürün statusundakı dəyişmə məna dəyişmələrinə impuls verir, onun səbəbi kimi çıxış edir. Bu məntiqi sxem əsasında G.Paul məna dəyişmələrini belə təsnif edir:

1.«Həcmin daralması və məzmunun zənginləşməsi» (mənanın xüsusiləşməsi); 2. Təsəvvürün məzmununun genişlənməsilə bağlı olaraq «məzmunun kasıblaşması»; 3. «Məkan, zaman, yaxud kauzal əlaqələr əsasında adın köçürülməsi»; 4. Bu üç bölgünün heç birinə daxil olmayan başqa məna dəyişmələri».

Bəzi ziddiyyətlərinə baxmayaraq, G.Paulun məna dəyişmələrinin müxtəlif tiplərini əhatə edən təsnifatı uzun bir dövr müxtəlif dil araşdırmaları üçün çıxış nöqtəsi olmuş, onun bir çox bölgüləri indi də öz dəyərini itirməmiş, müxtəlif

semasioloji araşdırmaların nəzəri əsasına çevrilmişdir.Sonralar formal məntiqi anlayışın əksinə olaraq məna dəyişmələrinin əsasına psixoloji motiv qoyulur və bu məktəbin görkəmli nümayəndəsi V.Vundt semasioloji hadisələrə yanaşmanın yeganə əsasını psixoloji yol hesab edərək psixoloji assosiasiyaların ümumi qanunlarını məna dəyişmələrində aparıcı saysa da, ümumi təsnifatda Paulun bir çox anlayışlarının orbitindən çıxa bilmir, başqa şəkildə, başqa bünövrə üzərində onu təkrar etməli olur.V.Vundtun konsepsiyasını səciyyələndirərək V.V.Zvegintsev yazır: «Vundt dil işarəsini mənadan ayırır və bunların hər birinə avtonomluq verir və müstəqil inkişafetmə imkanı təsəvvür edir. Onun bu bağışlanmaz ziddiyyəti məntiqi olaraq başqa ziddiyyətlər doğurur. Xalqın tarixi ilə sıx bağlı olan dilin semantik aspektini o, tarixin fövqündə təsəvvür edir, sözün daşıdığı tarixi-funksional səciyyə kölgədə qalır. Onun araşdırmalarında bəzən tarixi şərtlərə üz tutulsa da, psixoloji assosasiyaların yaranma şəraitini qabartma məqsədi daşıyır» (5, 23).Məna dəyişmələri nəzəriyyəsinin sonrakı inkişafında, təkmilləşməsində A.Meye Vundtun səhvlərini düzəldir, xalis dil, tarixi və sosial səbəbləri məna dəyişməsinin əsası hesab edir. Dildaxili səbəblərdən yaranan məna dəyişmələri sözün müxtəlif sintaktik mühitlərdə işlənməsindən asılı olur; tarixi səbəblər o zaman həlledici rol oynayır ki, predmet dəyişir, ad olduğu kimi qalır (məs.: *pero*); Sosial səbəb deyərkən müəyyən sözün bu və ya digər sosial qrupdan başqa qrupun dilinə keçməsilə yaranan məna dəyişmələri nəzərdə tutulur. (Məsələn, *əməliyyat* sözünün işlənməsi kimi: *cərrahiyyə əməliyyatı, hərbi əməliyyat* və s.) (6, 16). Məna dəyişmələri prosesini təmiz dil kökləri ilə izah etməyə çalışan E.Vellander göstərir ki, ayrı-ayrı situasiyalarda, müəyyən kontekstdə bu və ya digər sözün buraxılması onun mənasının başqa sözə keçməsilə nəticələnir, yeni funksional mövqe təzə semantik dəyər kimi özünü göstərir. Bu mülahizə müasir dilçilikdə geniş tədqiqat obyektinə çevrilmiş söz və kontekst problemi ilə səsləşir, G.Paulun, «okkazional və uzual» məna tiplərini yada salır. Qeyd etmək lazımdır ki, Vellanderin «xalis semantik dəyişmələri»nin səbəbi kontekst müxtəlifliyinin üzərində qurulsa da, bu prosesdə dilxarici gerçəkliyin iştirakı da özünü göstərir.

Xarici dilçilikdə geniş yayılmış və geniş təsir əhatəsinə malik olan H.Şperberin nəzəriyyəsində məna dəyişmələri ayrıca sözün deyil, onun müəyyən konstruksiyalarda işlənməsi nəticəsində üzə çıxan keyfiyyət, hadisə hesab edilir və bu prosesin (məna dəyişmələrinin) səbəbi sözün emosional rəngi ilə bağlanır. Onun fikrincə, bizi düşündürən, beynimizi məşğul edən müəyyən bir mövzudan tez-tez danışmaq istəyirik. Bu istək başqa temadan danışanda da həmin anlayışları yada salır və bizi həyəcanlandıran o assosiasiyalar müxtəlif emosional rəngli sözlərin həmin istiqamətdə işlənməsinə səbəb olur. Müxtəlif sözlərin eyni mətləblə bağlı xatırlanması, işlənməsi onlarda məna kəsişmələrinin yaranmasına, məna əvəzlənməsinə gətirib çıxarır. Bu prosesə uyğun olaraq o, məna dəyişmələrinin ekspansiya və attraksiya kimi tiplərini fərqləndirir.

D.N.Şmelyev məna dəyişmələrinin emosional səbəbləri konsepsiyasını belə yekunlaşdırır: «Sözdə emosional moment olduqca əhəmiyyətlidir və nəzərə

alınmalıdır. Lakin onunla semantik dəyişmələrin bütün mexanizmini izah etmək olmaz. Belə yanaşmada dilin inkişaf mənzərəsi yalnız saadələşdirilmir, həm də təhrif edilir » (6, 18).

Sözün məna dəyişmələrinin səbəbləri sırasında dildaxili faktorların xüsusi yeri vardır. Məna anlayışı onun bağlandığı bütün sferalarla əlaqədə olsa da, məna dəyişmələri son nəticədə dil reallığının faktı kimi təsvirə gəlir və müxtəlif dil vahidlərinin kompleks müdaxiləsi ilə gerçəkləşir. Məna dəyişmələrini sırf linqvistik əsasda dil səbəbləri fonunda təsvir edən S.Ulman dördüzvlü sxem təklif edir və semantik dəyişmələri aşağıdakılarla bağlayır:

1. İki sözün mənası arasındakı oxşarlıqla; 2. İki sözün mənaları arasındakı kontaktla; 3. İki ad arasında oxşarlıqla; 4. İki ad arasındakı kontaktla.

Müxtəlif dilçilərin əsaslandırmağa çalışdığı semantik dəyişmələrlə bağlı qanunların əksinə olaraq K.Baldinqer yazır: «Biz qəti şəkildə deyirik ki, hər bir leksik-semantik yenilik fərdi, anonim yaradıcılıq aktıdır. Bu akt bir çox amillərdən – psixoloji, fizioloji, qrammatik, mədəni və tarixi – qanunauyğun şəkildə asılıdır. Məna dəyişmələri isə yalnız təfəkkürün ümumi qanunlarına tabedir» (6, 20). XX əsrin dilçiliyi dil hadisələrinə və bütövlükdə dilə öz sələflərinin atomizmindən fərqli olaraq sistem kimi baxması ilə seçilir. Bu qənaətə görə dil bir-birilə müəyyən qanunauyğun əlaqədə və xüsusi münasibətdə olan ünsürlərin əmələ gətirdiyi vahid tam kimi sistem təşkil edir. Bu mənada dilin müvafiq laylarına uyğun olaraq fonoloji, morfoloji, sintaktik, leksik sistemlər insanın nitq fəaliyyətini müxtəlif şəkildə təşkil və əks etdirən mürəkkəb dil strukturunu yaradır. Bu strukturda bütün vahidlər bir-birilə qarşılıqlı surətdə bilavasitə, yaxud bilvasitə bağlıdır.

Vahidləri kəmiyyətcə məhdud olan fonetika və morfologiyadan fərqli olaraq leksikaya sistem kimi yanaşan araşdırıcılar lüğət tərkibinin əhatə dairəsinin genişliyindən, vahidlərinin çoxluğundan irəli gələn müəyyən çətinliklə qarşılaşır. Lakin bu çətinlik leksik-semantik layın çoxsaylı vahidləri arasında müəyyən qruplaşmanın, üzvi əlaqənin reallığını inkar etmir. Hələ XIX əsrin axırında M.M.Pokrovski sözlər arasında müxtəlif əlaqələrdən bəhs edərək yazırdı ki, «sözlər və onların mənaları bir-birindən ayrıca həyat yaşamır, şüurumuzdan asılı olmadan ruhumuzda müxtəlif qruplar şəklində əlaqələnir, bu qruplaşmaların əsasında isə oxşarlıqlar və ziddiyyətlər dayanır» (7, 82).

Sözün məna dəyişmələrinə də yeni yanaşma və yeni şərh tələb edən leksikanın sistemliliyi özünü ən çox sözlərin semantik (məfhumi) sahələr üzrə təsvirində nəzərə çarpır. Müəyyən sahələrə toplanan sözlər çoxluğunu (məs., qohumluq terminləri, rəng bildirən sifətlər, bədən üzvləri ifadə edən sözlər, konkret və mücərrəd isimlər və s.) ümumi əlamətlər (kateqorial, semantik) əsasında birləşir və qonşu sahələrdən seçilir. Belə çoxluğun müəyyən üzvündə baş verən semantik dəyişmə, təbii şəkildə həmin sahənin başqa vahidlərinə, eləcə də qonşu sahələrə də təsir göstərir. Çünki sözlərin belə yığımı ümumi şəkildə

birləşmir, onların nitqdə xətti işlənmə mövqeləri arasında da eynilik, yaxınlıq özünü göstərir.

Leksikada sistemliyin başqa bir ölçüsü sözlərin müəyyən sözyaratma tiplərinə münasibətlə ifadə olunur. Belə ki, söz qruplarının semantik əlamətinə uyğun müəyyən sözdüzəltmə morfemləri ilə işlənməsi, yaxud işlənməməsi onun hüdudunu və başqa vahidlərlə əlaqəsini müəyyənləşdirir.

Dilçilik ədəbiyyatında lüğət tərkibinin ənənəvi təsnifatı da (dialekt və ədəbi dil sözləri, doğma sözlər və alınmalar, aktiv və passiv sözlər və s.) leksikanın sistemliliyini nümayiş etdirir.

Sözün leksik mənası mürəkkəb struktur-semantik vahid olmaqla sözün fonetik-morfoloji tərkibində ayrıca ifadə vasitəsinə (yaxud formasına) malik olmayan komponentlərdən təşkil olunmuşdur. Bu komponentlər (sem, semantik əlamət, diferensial əlamət, bəsit məna) məfhumun məzmununu təşkil edən denotatların mühüm əlamətlərinə uyğun gəlir və sözün də leksik mənasının əsasında dayanır. Müxtəlif leksik vahidlərin mənasında eyni bir semin təkrarı da onları bir sahədə birləşdirən ümumi əlamət kimi leksikanın sistemliyini göstərir.

Semasiologiyada sahə nəzəriyyəsinin ayrı-ayrı nümayəndələrinin araşdırmalarında meyar müxtəlifliyi özünü göstərir. Bəzi araşdırıcılar sözlər çoxluğunu məntiqi, bəzilərisə denotativ əsasda təsvir və təhlil edirlər: «Trir və Veysqerber dil materialından deyil, dilin abstrakt məfhumlara bölünməsindən çıxış edirlər. Onların fikrincə, bu əsas bütün leksemləri əhatə edir. İpsen, Yolles, Portsik və b. araşdırıcılar isə əksinə "sahə" anlayışını xalis dil əlaqələri əsasında tənsif edirlər» (6, 29).

Leksikada sistemliliyi xüsusi dil əlaqələri kimi sözlərin mənaları arasında assosiativ əlaqələrlə bağlayan və assosiativ sahələrin mümkünlüyünü qəbul edən İsveçrə alimi Ş.Balli yazır ki, dil sistemini biz geniş və mnemonik assosiasiyalar şəklində təsəvvür edirik. Bütün danışanlar üçün oxşar olan bu assosiasiyalar dilin bütün hissələrinə yayılır (8, 30).

Doğrudan da, bütün dillərdə hər hansı bir söz müəyyən semantik xətlərlə müxtəlif sahələrlə bağlı olan vahidlərlə əlaqələnir və yada düşür: *məktəb* sözü *şagird, müəllim, sinif otağı, parta, lövhə… oxumaq, yazmaq, şəkil çəkmək…* kimi mənaca uzaq olan sözləri vahid assosiativ sahəyə toplayır; Müxtəlif əlamətləri ifadə edən sifətlər müəyyən predmetlərin xassəsi kimi müxtəlif hərəkət, proses adları kimi işlənən feillər müəyyən subyektin əlaməti kimi yaddaşımızda yaşayır və s. Deməli, lüğət tərkibində *individual* semantik əlamətlərinə, kateqorial mənasına, qrammatik səciyyəsinə görə ilk baxışda bir-birindən seçilən sözlər çoxluğu əslində daxili məntiqi-linqvistik əlaqələrlə qarşılıqlı şəkildə bağlanaraq xüsusi sistem təşkil edir; bu əlaqələr müxtəlifliyi sözlərin semantik dəyişmələrinin əsasını təşkil edir.

Polisemiya hadisəsinin formalaşması və təkamülü də özlüyündə dilin leksik-semantik həddində xüsusi dəyişmə tipi kimi özünü göstərir. Dilxarici gerçəkliklə bilavasitə təmasda olan öz çevikliyi, dinamikliyi ilə ona maksimum

reaksiya verən lüğət tərkibi, bir tərəfdən, hazır alınmaları öz fonduna qəbul edir, digər tərəfdən, mövcud lüğət vahidlərinin semantik strukturunu genişləndirir, onun funksional imkanını genişləndirir.

Sözün məna strukturunun polisemantikləşmə istiqamətində gedən inkişafı birbaşa dil kollektivinin təfəkküründə gedən proseslə bağlıdır. Bu proses, bir tərəfdən, dildəki müxtəlif semantik qrupların münasibət və əlaqəsini səfərbərliyə almaqdırsa, digər tərəfdən, obyektiv gerçəklikdəki müxtəlif varlıqların məntiqi əlaqəsini, daxili münasibətlərini dərk etməklə bağlıdır.

Bu qənaət dildə semantik dəyişmələrin (o cümlədən polisemiyanın) təsadüfi səciyyə daşımayan, dil sisteminin və xalq yaddaşının qanunları ilə köklənən, nizamlanan bir hadisə olduğunu dəqiqliklə göstərir. Sözün məfhuma, formanın mənaya, təsəvvürə münasibətinin genezisi ilə bağlanır.

Dilin leksik səviyyəsində və polisemiyanı ümumi lüğət tərkibinin təkmilləşməsi, dilin ifadə imkanlarının zənginləşməsi kimi izah edən nəzəriyyənin əksinə olaraq, bəzən sözün müstəqilliyini, bütövlükdə polisemiya hadisəsinin obyektivliyini şübhə altına alanlar da vardır.

Sözün müstəqilliyini şübhə altına alanlar hər şeydən əvvəl ona əsaslanırlar ki, dildə yalnız bütövlər real şəkildə mövcuddur: bütöv cümlə, bütöv cümlə qrupları, bütöv mətn, bütöv bədii əsər… Halbuki bu butövlərin nitq parçaları kimi qurulmasında və ümumən nitq zəncirinin praktik şəkildə hissələrə parçalanmasında, hüdudlanmasında (istər yazılı, istərsə də şifahi nitq formasında) söz sintaktik dayaq rolunu oynayır. Məhz sözün semantik (və müəyyən mənada formal) müstəqilliyi tədqiqatçıya da, dildə danışanlara da imkan verir ki, kino lenti kimi bütöv nitq deyimlərini söz-kadrlara, tərkib hissələrə parçalasın, bütövü onu təşkil edən ünsürlərə bölsün. Nitqdə sözün və eləcə də bütün dil vahidlərinin konkret kommunikativ dəyər qazanması, xüsusilə semantik xassəli vahidlərin müəyyənlik qazanması ayrı-ayrı əlaqələnmələrin sayəsində mümkün olur. Hər dəfə sözün semantik müstəqilliyi aydınca nəzərə çarpır. Tipoloji cəhətdən müxtəlif qruplarda birləşən dillərin hər birində sözün mövqeyində, onun ayrı-ayrı hissələrinin münasibətində, sözün kontekstlə əlaqəsində xüsusi hallar müşahidə olunur. İltisaqi dillərdə sözün nisbiliyi, kontekstdə semantik asılılığı ilə yanaşı bir çox dillərdən fərqli olaraq, Azərbaycan dilində söz kökünün əsas məna mərkəzi kimi müstəqilliyi onun təkcə semasioloji avtonomluğunu deyil, həm də kök-şəkilçi (yaxud şəkilçilər) münasibətində formal sərhəd toxunulmazlığını təmin edir. Buna görə də müxtəlif dillərdə söz tipləri iki əsas cəhətə görə fərqləndirilir: a) Bu və ya digər dilin ümumi tipoloji səciyyəsi: b) Dilin tarixi inkişaf səviyyəsi (Budaqov 1983, 19).

Sözün əsas dil vahidi kimi müstəqilliyinin və toxunulmazlığının ardıcıl müdafiəçisi R.A.Budaqov sözə və sözün mənasına belə tərif verir: «Söz dilin əsas kateqoriyalarından biridir. Gerçəklik hadisələrini işarələyir, müəyyən insan kollektivi tərəfindən eyni cür başa düşülür, qrammatik cəhətdən formalaşır. Araşdırıcının fikrincə, sözün mənası isə əsasında məfhum dayanan məzmundur. Bu cə-

hət sözün yalnız bizim fikirlərimizi deyil, hisslərimizi də ifadə etməsinə əsla mane olmur» (9, 18).

Sözün qeyri-reallığı nəzəriyyəsinin tərəfdarları əsas linqvistik dəlil kimi ondan çıxış edirlər ki, lüğət tərkibindəki vahidlərin böyük bir qismi çoxmənalıdır, sözün ayrı-ayrı mənalarının aktuallaşmasında kontekst mühüm rol oynayır. Bu asılılıqdan irəli gələn forma ilə məna arasındakı tərs mütənasiblik guya sözün bir dil vahidi kimi qeyri-müəyyənliyini şərtləndirir, onu tamamilə asılı vahidə çevirir. Dilçilik tarixində görkəmli mövqeyi olan F. de Sössür, L.Yelmslyev, N.Xomski kimi dilçilər də sözün mahiyyətindəki qeyri-müəyyənliyə, mürəkkəbliyə, sözün əlamətlərinin müxtəlif dillərdəki özünəməxsusluğuna əsaslanıb onun reallığını şübhə altına alırdılar.

Eyni bir sözün müxtəlif mənalara malik olması çoxmənalığa ayrı-ayrı hissələrdən təşkil olunmuş xüsusi struktur kimi baxmağa imkan verir. Bu strukturun ünsürləri dilin ümumi leksik-semantik həddinin fonunda reallıq qazansa da, ayrıca sözün malik olduğu və kompleks amillərin müdaxiləsinə təzahür edən xassəsi kimi alınmalıdır. Buna görə də dilçilikdə sözdaxili semantik paradiqmatika deyəndə polisemantik sözün məna strukturu nəzərdə tutulur və sözün ayrı-ayrı mənalarının əlaqə və münasibətləri təhlil edilir. Olduqca mürəkkəb semantik hadisə olan polisemiya dil-təfəkkür, dil-gerçəklik, dil-nitq, diaxroniya-sinxroniya kimi qlobal problemlərlə bağlandığından və hər problemin tərkibində ayrıca dəyərə malik olduğundan bəzən polisemiya sinxron hadisə kimi inkar edilir, ona yalnız diaxroniyaya xas olan xüsusi hal kimi (mənanın genişlənməsi, daralması, xüsusiləşməsi, abstraklaşması və s.) yanaşılır. Polisemantik sözün məna imkanlarının yaranma bünövrəsi bir çox dil hadisələri kimi, şübhəsiz, müəyyən tarixi dövrdə qoyulur və sonrakı təkamül onun mümkün semantik imkanlarının üzə çıxmasını şərtləndirir, sonsuzluğa qədər – dilin bütün fəaliyyəti boyu davam edən bu proses, təbii ki, hər sonrakı dövrdə müəyyən nəticə kimi alınmalıdır, nəticə isə sonrakı inkişafın bünövrəsi kimi fəaliyyət göstərməlidir. Buna görə də müəyyən sinxron kəsimdə sözün məna iyerarxiyası tamamilə təbii real dil faktı kimi, əvvəlki dövrlərdə başlanmış inkişafın nəticəsi kimi təhlil oluna bilər və təhlil olunmalıdır.

Semasiologiyada polisemiyanın tədqiqində geniş tətbiq olunan leksik-semantik variant anlayışı da sözün sinxroniyada malik olduğu xassədir. Belə ki, leksik-semantik variantların məna ümumiliyinə malik olan paradiqması əslində polisemantik sözün mahiyyətini təşkil edir, ümumi semə və diferensial əlamətə malik olma müxtəlif mənaların bir bütöv strukturun tərkib hissələri kimi alınmasını, sözün mənasının sistemliyini şərtləndirir. Və bu struktura daxil olan mənalar arasında biri əsas, aparıcı rol oynayır, qalanar həmin əsas məna ətrafında yaranır, ondan asılı olub, törəmə məna adlanır və bu şəkildə məna iyerarxiyası fəaliyyət göstərir, iyerarxiyada əsas və əlavə məna anlayışı sinxroniyada müəyyənləşən münasibətdir, çünki tarixi inkişafda sözün məna tipologiyasında dəyişmə müşahidə olunur, müəyyən dövrdə əlavə məna mövqeyi

başqa bir dövrdə əsas məna kimi işlənə bilər, yaxud əksinə. Bu dəyişkənlik obyektiv aləmə münasibətlə tənzimlənir.

Müasir dilçilikdəki mülahizələrlə ötəri tanışlıq, aydınca göstərir ki, leksik semantikanın əsas anlayışları, xüsusilə sözün mənasının parametrləri, mahiyyəti, onun müxtəlif aspektləri, tərkib hissələri ilə bağlı dərindən araşdırılmalı, dəqiqləşdirilməli məsələlər çoxdur. Gələcək araşdırmalarda ümumi səciyyə daşıyan nəzəri fikirlərə üstünlük verməkdənsə, konkret dillərdə aparılan tədqiqatların nəticələrinə söykənən, faktlarla sübut olunan istiqamət aparıcı mövqeyə çıxmalıdır.

Ədəbiyyat

1. Novoe v zarubejnoy linqvistike. Vıp. 16, M., 1985.
2. Kuzneüov A.M. Strukturno-semantiçeskie parametrı v leksike. M,, 1980.
3. Verdiyeva Z., Ağayeva F., Adilov M. Azərbaycan dilinin semasiologiyası. Bakı, 1979.
4. Paulğ Q. Prinüipı istorii əzıka. M., 1960.
5. Zveqinüev V.A. Semasioloqiə. İzd. MQU, 1957.
6. Şmelev D.N. Oçerki po semasioloqii russkoqo əzıka. M., 1964.
7. Pokrovskiy M.M. İzbrannıe rabotı po əzıkoznaniö. M., 1959.
8. Balli Ş. Obhaə linqvistika i voprosı franüuzskoqo əzıka. M., 1955.
9. Budaqov R.A. Vvedenie v nauku o əzıke. M., 1965.

İ.Temioqlu

On the main features of the lexical-semantic structure of the language and its meaning values

Summary

In the linguistic field, semantics (especially lexical semantics) words and their meanings, spiritual-linguistic content of the meaning, the factors that affect the changing of the meaning, etc. have been touched upon in the article. These opinions are generalized and systematized to specific positions as well as the outbreak of misunderstandings and the need for investigations have been analyzed in the article as well.The problem of the meaning is investigated not only in the field of the mathematics but also as the object of the logical semantics in modern linguistics. In some cases the savings and understanding in these fields are copied to the linguistics, and it is observed that this affects the language status of the concept of the “meaning” and makes its real position indifferent. That is why the concept of the “meaning” from the linguistic point of view has been specified, and its typicality has been defined in the article.

The pure language, it history and social reasons are known to be the basic forms of the meaning changing. The meaning changing that are formed because of

the in-language factors depend on the usage of a word in different syntactic atmosphere. The article states that the historical factors are noticed to have special role in that case the main changing and the name remains as it is. The social reason demonstrates the meaning changing when the word is used in different social groups. Finally, the article states that meaning changes are explained through pure language roots.

Key words: word, system, structure, context, theoretical

Исмаил Темироглы

Об основных особенностях лексико-семантического строения языка и изменениях в семантике

Резюме

В теоретическом языкознании в исследованиях области семантики (в частности лексической семантики) встречаются противоречивые и разнообразные идеи относительно слова и его значения, логико-лингвистического содержания значения, относительно фактов, влияющих на изменения значений и т.д. В статье обобщены эти идеи, выражено отношение к конкретным позициям, предприняты попытки определить дальнейшие направления исследования.В настоящее время проблема семантики наряду с языкознанием изучается как объект математической логики, логической семантики. Очень часто выводы и понятия этих областей механически переводятся на языкознание и это в свое время накладывает тень на языковой статус понятия «значения», его реальную картину делает неопределенной. И поэтому понятие «значения» в языковедческом плане специально конкретизировалось, и были определены его своеобразия.В последующее развитие теории изменения значений, его совершенствования, язык, его исторические и социальные причины считаются основой изменения значений.

Изменения значений, возникших по внутриязыковых причинам зависит от использования слова в различной синтаксической среде; исторические причины играют роль в том случае, когда предмет меняется, а наименование остается.Говоря о социальных причинах имеется ввиду изменения значений, возникших в результате перехода определенного слова из одной социальной группы в другую. Процесс изменения значений объясняется корнями языка.

Ключевые слова: слово, система, структура, семантика, контекст, теория.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 01.01.2020
Filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

VÜQAR QARADAĞLI
Filologiya üzrə fəlsəfə doktoru
Zahid Xəlil küçəsi
Bakı Dövlət Universiteti

HƏFS İLƏ VƏRŞ RƏVAYƏTLƏRİNDƏ SAİTİ İNFLEKSİYA

Xülasə

Məqalədə Qurani-Kərimin islam aləmində ən geniş yayılmış Asim qiraətindən edilən Həfs və Nafe qiraətindən edilən Vərş rəvayətləri arasında müşahidə edilən saiti infleksiya fərqlərinin təhlili aparılır, hər rəvayətdə baş verən hadisələr ayrı-ayrılıqda izlənilir. Problemə dair bəzi fikirlərə münasibət bildirilir, fonetik hadisələri yenidən təhlil edərək uyğun qiymət verməyə cəhd göstərilir. Tədqiqatın elmi yeniliyi rəvayətlərarası fərqlər əmələ gətirən saiti infleksiya halları müsəlman-ərəb tədqiqatçılarının tərtib etdiyi ümumiləşmə prinsiplərindən deyil, hadisələrin təhlil və təsnifatı aparılır, baş verən hadisənin səbəbi müəyyənləşdirilir. Rəvayətlərdə, xüsusilə geniş elmi auditoriyaya az tanış olan Vərş rəvayətində ərəb dili səslərində baş verən hadisələrin müəllifin müqayisəli-qarşılaşdırma metodu əsasında apardığı təhlili həm elmi, həm də təcrübi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Hasil olunmuş qənaət ondan ibarətdir ki, müəllif müsəlman-ərəb tədqiqatçılarının tərtib etdikləri ümumi prinsiplərindən kənara çıxa bilib və rəvayətlərdə baş verən saiti infleksiyanın növləri və səbəblərinin müəyyənləşdirilməsinə müvəffəq olmuşdur.

Açar sözlər: saiti infleksiya, Qurani-Kərim, Asim qiraəti, Həfs rəvayəti, Nafe qiraəti, Vərş rəvayəti, imalə, güclü imalə, zəif imalə, təqlil.

Tədqiqat üzərində çalışarkən bir çox mövcud transkripsiya sistemlərinə (GAL Supplement, Revue des Etudes Islamiques (Paris), Arabica (Paris), İslam Ansiklopedisi, The Encyclopedia of Islam, Encyclopedie l'Islam, Şarkiyat Mecmuası (İstanbul), Türk İlmi Transkripsiyon Sistemi, İlahiyat Fakültesi Dergisi (Ankara), DİA [31, 41, 308]) müraciət etdiyimizə baxmayaraq onlardan heç birinin Quran səslərinin ifadəsi yetərincə tələblərinə cavab vermədiyi problemi ilə üzləşdik. Qurani-Kərimin əhatə etdiyi səsləri latın əlifbası ilə tam və dolğun şəkildə ifadəsinin qeyri-mümkün olduğunu qəbul etsək də, ən azı latın qrafikasının imkanı daxilində Quran səslərinin daha dolğun ifadəsi üçün yeni fonetik transkripsiya sisteminin tərtibinə ehtiyac duyduq. Tədqiqatda tətbiq edilən xüsusi transkripsiya sisteminin – ***TT-HAFS/ASIM*** (*Təcvid Transkripsiyası, Həfs/Asim, Bakı*) tərəfimizdən işlənib hazırlanmışdır.

TT-HAFS/ASIM

(*Təcvid Transkripsiyası, Həfs/Asim, Bakı*)

’ – *həmzə*	ẓẓ – qoşa *za*
̓ – zəifləmiş *həmzə*	ẓ-ẓ – sözlərin kəsişməsində *zəl*-dən sonrakı mövqedə qoşa səslənən *za*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *za*
b – saitöncə mövqedə *bə*	‘ – *ayn*
bb – saitöncə mövqedə qoşa *bə*	‘‘ – qoşa *ayn*
b-b – sözlərin kəsişməsində qoşa *bə*; sözlərin kəsişməsində *bə*-dən sonrakı mövqedə qoşa səslənən saitöncə *bə*	‘-‘ – sözlərin kəsişməsində *ayn*-dan sonrakı mövqedə qoşa *ayn*
b – *bə* və ya *mim*-in bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *bə*	ğ – *ğayn*
b̊ – üzərində vəqf icra olunduğu halda *bə*	f – ***fə***
b̊b̊ – *vəqf* icra olunduğu halda qoşa *bə*	ff – qoşa *fə*
t – *tə*; *vəqf* icra olunmadığı halda *tə-mərbutə*	f-f – sözlərin kəsişməsində *fə*-dən sonrakı mövqedə qoşa *fə*
tt – qoşa *tə*; *dəl*-dən sonrakı mövqedə qoşa səslənən *tə*	q – saitöncə mövqedə *qaf*
t-t – sözlərin kəsişməsində qoşa *tə*; sözlərin kəsişməsində *dəl*-dən sonrakı mövqedə qoşa səslənən *tə*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *tə*	qq – saitöncə mövqedə qoşa *qaf*
s̲ – *sə*	q̊ – *qaf* və ya *kəf*-in bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *qaf*
s̲s̲ – qoşa *sə*	q̊q̊ – *vəqf* icra olunduğu halda *qaf*
s̲-s̲ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *sə*	q̊q̊ – *vəqf* icra olunduğu halda qoşa *qaf*
c – saitöncə mövqedə *cim*	k – ***kəf***
cc – saitöncə mövqedə *qoşa cim*	kk – qoşa *kəf*; *qaf*-dan sonrakı mövqedə qoşa səslənən *kəf*
č – *cim*-in bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *cim*	l – incə ***ləm***
č – *vəqf* icra olunduğu halda *cim*	ll – qoşa incə *ləm*
cč – *vəqf* icra olunduğu halda qoşa *cim*	l-l – sözlərin kəsişməsində *ləm*-dən sonrakı mövqedə qoşa incə *ləm*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa səslənən incə *ləm*; *Allah* kəlməsində *kəsrə*-dən sonrakı mövqedə qoşa incə *ləm*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən incə *ləm*
ḥ – *ha*	ḷ-ḷ – *Allah* kəlməsində *dəmmə* və ya *fəthə*-dən sonrakı mövqedə qoşa orta (qalın) *ləm*
ḥḥ – qoşa *ha*	m – saitöncə mövqedə *mim*
x – *xa*	m̃ – *mim* və ya *bə*-nin bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *mim*; *vəqf* icra olunduğu halda *mim*
xx – qoşa *xa*	m̃ – *bə*-dən öncəki mövqedə *mim*; *bə*-dən öncəki mövqedə nazal *mim*-ə çevrilmiş nazal *nun* və ya *tənvin*
d – saitöncə mövqedə *dəl*	m̃m̃ – qoşa nazal *mim*
dd – saitöncə mövqedə qoşa *dəl*	m̃-m̃ – sözlərin kəsişməsində *mim*-dən sonrakı mövqedə qoşa nazal *mim*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *mim*
d-d – sözlərin kəsişməsində qoşa *dəl*; sözlərin kəsişməsində *tə*-dən sonrakı mövqedə qoşa səslənən *dəl*; sözlərin kəsişməsində *dəl*-dən sonrakı mövqedə qoşa səslənən saitöncə *dəl*; [’əl-]	n – saitöncə mövqedə *nun* və ya *tənvin*

artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *dəl*	
ď – *dəl* və ya *tə*-nin bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *dəl*	ñ – *həmzə*, *ha*, *xa*, *ayn*, *ğayn* və ya *hə*-dən öncəki mövqedə *nun* və ya *tənvin*; *vəqf* icra olunduğu halda *nun*; *tənha*; قِنْوَانٌ, صِنْوَانٌ, صِنْوَانٍ, بِسَ ١ وَٱلْقُرْءَانِ, بُنْيَانٌ, بُنْيَانًا, بُنْيَانَهُمْ, بُنْيَانَهُمْ, بُنْيَانَهُ, ٱلدُّنْيَا, نَ ۚ وَٱلْقَلَمِ sözlərindəki *nun*; *vəqf* icra olunduğu halda *nun*
ḍ̌ – *vəqf* icra olunduğu halda *dəl*	ṇ̃ – *tə*, *sə*, *cim*, *dəl*, *zəl*, *zəy*, *sin*, *şin*, *fə* və ya *kəf*-dən öncəki mövqedə *nun* və ya *tənvinin* bildirdiyi incə nazal səs
dḍ̌ – *vəqf* icra olunduğu halda qoşa *dəl*	ṇ̃ – *sad*, *dad*, *ta*, *za* və ya *qaf*-dan öncəki mövqedə *nun* və ya *tənvinin* bildirdiyi qalın səs
z̲ – *zəl*	ññ – qoşa nazal *nun*
z̲z̲ – qoşa *zəl*	ñ-ñ – sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *nun*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən nazal *nun*
z̲-z̲ – sözlərin kəsişməsində *zəl*-dən sonrakı mövqedə qoşa səslənən *zəl*; sözlərin kəsişməsində *sə*-dən sonrakı mövqedə qoşa səslənən *zəl*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *zəl*	h – ***hə***; *vəqf* icra olunduğu halda *tə-mərbutə*
r – incə *ra*	hh – qoşa *hə*
rr – qoşa incə *ra*	h-h – sözlərin kəsişməsində *hə*-dən sonrakı mövqedə qoşa *hə*
r-r – sözlərin kəsişməsində *ra*-dan sonrakı mövqedə qoşa incə *ra*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa səslənən incə *ra*; [’əl-] artiklindəki *ləm*-dən qoşa səslənən incə *ra*	ṵ – saitöncə mövqedə ***vav***
ṛ – qalın (orta) *ra*	ṵṵ – qoşa *vav*
ṛṛ – qoşa (qalın) *ra*	ṵ-ṵ – sözlərin kəsişməsində *vav*-dan sonrakı mövqedə qoşa ***vav***
ṛ-ṛ – sözlərin kəsişməsində *ra*-dan sonrakı mövqedə qoşa orta (qalın) *ra*; sözlərin kəsişməsində *ləm*-dən sonrakı mövqedə qoşa səslənən orta (qalın) *ra*; sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa səslənən orta (qalın) *ra*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən orta (qalın) *ra*	ṵ̃-ṵ̃ – sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *vav*
z – *zəy*	y – saitöncə mövqedə ***yə***
zz – qoşa *zəy*	yy – qoşa ***yə***
z-z – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *zəy*	ỹ-ỹ – sözlərin kəsişməsində *nun* və ya *tənvin*-dən sonrakı mövqedə qoşa nazal *yə*
s – *sin*	â – *sad*, *dad*, *ta*, *za*, *xa*, ğayn və *qaf*-dan sonrakı mövqedə *fəthə*
ss – qoşa *sin*	a – *ha*, *ra* (ṛ), *ayn*, *ləm* (ḷ), *vav* və qoşa nazal *vav*-dan sonrakı mövqedə *fəthə*
s-s – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *sin*	ä – *həmzə*, *bə*, *tə*, *s̲ə*, *cim*, *dəl*, *z̲əl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*, *yə*-dən sonra və *sad*, *dad*, *ta*, *za*, *xa*, ğayn, *qaf*, *ha*, *ra* (ṛ), *ayn*, *ləm* (ḷ), *vav* və qoşa nazal *vav*-dan öncəki mövqedə *fəthə*
ş – *şin*	ə – *həmzə*, *bə*, *tə*, *s̲ə*, *cim*, *dəl*, *z̲əl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*, *yə*-dən sonra və *həmzə*, *bə*, *tə*, *s̲ə*, *cim*, *dəl*, *z̲əl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*-dən öncəki mövqedə *fəthə*
şş – qoşa *şin*	e – *həmzə*, *bə*, *tə*, *s̲ə*, *cim*, *dəl*, *z̲əl*, *ra* (r), *zəy*, *sin*, *şin*, *fə*, *kəf*, *ləm* (l), *mim*, *nun*, *hə*, *yə*-dən sonra və

	yə-dən əvvəl gələn *fəthə*
ṣ-ṣ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *şin*	i – *kəsrə*
ṣ – *sad*	u – *dəmmə*
ṣṣ – qoşa *sad*	â, ā, ä, ə; ī; ū – iki qısa sait ölçüsündə uzun sait
ṣ-ṣ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *sad*	ââ, āā, ää, əə; ii; ūū – dörd qısa sait ölçüsündə uzun sait
ḍ – *dad*	âââ, āāa, ääää, əəə; iiu; ūūu – beş qısa sait ölçüsündə uzun sait
ḍḍ – qoşa *dad*	�â, āāā, ääää, əəə; iii; ūūū – altı qısa sait ölçüsündə uzun sait
ḍ-ḍ – [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *dad*	ññ – تأمننا (12:1) sözündəki [ññ] səs birləşməsinin tələffüz edilən vaxt ərzində dodaqların (sanki [u] səsini tələffüz edərək) qabağa uzadılması (*işmam*)
ṭ – saitöncə mövqedə *ta*	u – [u] saitinin örtülü (ötəri) tələffüzü (تأمننا (12:1) sözündə *təşdid* işarəli *nun* hərfinin bildirdiyi qoşa səsin arasına [u] qısa saiti daxil edib onun örtülü (ötəri) şəkildə tələffüzü; *ixtilas*)
ṭṭ – saitöncə mövqedə qoşa *ta*	âu, au, äu; ây, ay, əy, ey – iki qısa sait ölçüsündə diftonq
ṭ-ṭ – sözlərin kəsişməsində *tə*-dən sonrakı mövqedə qoşa səslənən *ta*, qoşa samit; sözlərin kəsişməsində *ta*-dan sonrakı mövqedə qoşa səslənən saitöncə *ta*; [’əl-] artiklindəki *ləm*-dən sonrakı mövqedə qoşa səslənən *ta*	âuū, auū, äuū; âyȳ, ayȳ, əyȳ, eyȳ – dörd qısa sait ölçüsündə diftonq
ṭt – *tə*-dən öncəki mövqedə *ta*-nın süzgün *tə*-yə keçməsi (*qəlqələsiz*)	âuūū, auūū, äuūū; âyȳȳ, ayȳȳ, əyȳȳ, eyȳȳ – altı qısa sait ölçüsündə diftonq
ṭ – *ta* və ya *tə*-nin bildirdiyi səsdən başqa istənilən samitdən öncəki mövqedə *ta*	´ – vurğu işarəsi (ấ, á, ắ, ə́, é, í, ú, ấ, ấ, ắ, ə́, é)
ṭ – *vəqf* icra olunduğu *ta*	‖ – vəqf
ṭṭ – *vəqf* icra olunduğu halda qoşa *ta*	(1), (2), (3)... ...(286) – ayəsonu vəqf
ẓ – *za*	‖ – səktə

Qurani-Kərimdən olan istinadlar iki nöqtə ilə aralanan sol tərəfdə surənin sıra sayı və sağ tərəfdə müvafiq surə daxilində ayənin sıra sayı verilir, məsələn, əl-Fatihə surəsinin 4-cü ayəsi: 1:4, yaxud Yasin surəsinin 79-cu ayəsi: 36:79.

Transkripsiyada güclü saiti infleksiya (*imalə*) [e/ē], zəif saiti infleksiya (*təqlil*) isə [æ/ǣ] işarələri ilə göstərilir.

NV əsasında basılmış Quran nəşrlərinin əksəriyyətində güclü saiti infleksiya (*imalə*) və zəif saiti infleksiyanın (*təqlil*) baş verdiyi yerlər fəthə işarəsinin yazılmaması və xüsusi işarə/işarələr ilə qeyd olunur. Məqalədə saiti infleksiyanı göstərməkdən ötrü istifadə etdiyimiz xüsusi işarələri işlətdiyimiz şriftin verdiyi imkanı daxilində nəşrlərdəki işarələrə oxşadılmasına cəhd edilib.

Giriş. Müəllifin məqsədi məqalədə Asim qiraətindən edilən Həfs rəvayəti (bundan sonra – AH) [31, 15, 118-119] ilə Nafe qiraətindən edilən Vərş rəvayəti (bundan sonra – NV) [31, 43, 63] arasında saiti infleksiya, vokalik dəyişmə, metafoniya, saitlərin dəyişməsi, saitlərin əvəzlənməsi və ya ərəb umlautu hallarını aşkarlamaq, onları növlərinə görə təsnif etmək, baş verən fərqli hadisələri öyrənib fonetik təbiətini izləmək, bir çoxunda morfoloji əsasdan qaynaqlandığını müəyyənləşdirmək, aparılmış tədqiqatlarla tanış olub maraqlandıran məsələləri təhlil etmək, hasil edilə-

cək mümkün yeni nəticələrin elmi ictimaiyyətin müzakirəsinə çıxarılmasını təmin etməkdən ibarətdir.

Müqəddimə. Məlum olduğu kimi, Qurani-Kərim ilahi Kitab olmaqla təkcə dini səciyyə kəsb etmir, o, müasir ərəb ədəbi dilinin qaynağı, ümumilikdə ərəb dilinin ən möhtəşəm abidəsidir. İllər uzunu Azərbaycanda qadağa altında olan Qurani-Kərim bu aspektdən öyrənilməmiş tədqiqat obyekti kimi aktuallığını saxlayır. Qurani-Kərimin nəinki az işlənən, hətta dünyada ən geniş yayılmış rəvayətləri belə Azərbaycanda müqayisəli şəkildə tədqiqat obyekti olmamışdır. Odur ki, sözügedən iki rəvayətdə *imalə* ilə bağlı müşahidə edilən fərqlərin təhlili təlim-tədris əsnasında baş verən fonetik hadisələrin təbiətini daha dərindən izahına xidmət edəcək, doğru təsəvvürün formalaşmasına kömək edəcəkdir ki, bu da mövzunun aktuallığını üzə çıxaran amil kımi çıxış edir. Bu baxımdan, mövzu öz yeniliyi, müəllifin hasil etdiyi yeni qənaətlər isə özəlliyi ilə seçilir.

İmalə: saiti infleksiya və ya ərəb umlautu. Saiti infleksiya ərəb dilçililərinin böyük əksəriyyəti, Orta Əsr ərəb-müsəlman alimləri tərəfindən, əsas etibarilə, «meyl» anlamında olan *imalə* (الإمالة) istilahı ilə nəzərdən keçirilir. Sözügedən hadisə tədqiqat obyektimiz olan rəvayətlərdə fəthə işarəsinin və ya fəthə işarəsi ilə özündən sonra uzun sait bildirən hərf, yaxud işarənin bildirdiyi səslərin, yəni [ə], [ä], [a] qısa və [ə̄], [ǟ], [ā] uzun saitlərinin müvafiq olaraq [i] və [ī] səslərinə meyli nəticəsində *imalənin* növündən asılı olaraq ara mövqelərdə qərarlaşan [ē], [æ] və [ǣ] saitlərinin hasil edilməsini nəzərdə tutur. Meylin güclü, yaxud zəif olmasından asılı olaraq fərqli səslər əldə olunur. Belə ki, [ə], [ä], [a] qısa və [ə̄], [ǟ], [ā] uzun saitlərinin müvafiq olaraq [i] və [ī] səslərinə güclü meyl etməklə [e] və [ē] (dilimizdəki *rektor* [rektor] və *nemət* [nēmət] sözlərindəki kimi), zəif meyl etməklə isə [æ] və [ǣ] (dilimizdəki *mer* [mær], *el* [æl], *etnos* [ætnos] və *elan* [ǣlan], *emal* [ǣmal], *etibar* [ǣtibar] sözlərindəki kimi) səsləri əldə olunur. Güclü meyl hadisəsi *imalə*, bəzən *güclü imalə*, zəif meyl hadisəsi isə «azaltma; kiçiltmə; məhdudlaşdırma» anlamında olan *təqlil* (التقليل), bəzən *zəif imalə* kimi ədəbiyyatda nəzərdən keçirilir. Hadisə həm də meyl kimi ona görə göstərilir ki, burada bir səsin digəri ilə, yəni fərqli mövqelərdə olan fəthənin ([ə], [ä], [a], uzun sait kimi [ə̄], [ǟ], [ā]) kəsrəyə ([i], uzun sait kimi [ī]) çevrilməsi (*qəlb*), yaxud əvəzlənməsi (*ibdal*) kimi baş düşülməsin [9, 12]. Ümumiyyətlə, qeyd olunmalıdır ki, müasir ərəb dilçilərinin nadir halları istisna etməklə ifrat mühafizəkar mövqedən çıxış edir və *imalə* hadisəsini şərh edərkən islamın erkən dövründən qəbul olunmuş istilahları müasir fonologiya elmində əsaslandırmağa cəhd edirlər [34, 159-168]. (Burada onu da qeyd etmək münasib olardı ki, olduqca müasir, qabaqcıl tələblərə cavab verən qəliz və zəngin kompüter proqramları belə, əski istilahlarla, bu istilahların əsasında tərtib olunmuş şərhlərlə oxucuların sərəncamına təqdim olunur [4; 5; 15, 203; 17, 51; 22]. Eyni mövqe Qurani-Kərimdə baş verən hadisələri müasir dilçiliyin tələbləri ilə tədqiq etməyini bəyan edən tədqiqatda da sərgilənir [2, 41]; bəzən də XXI əsrdə yazılmış əsərin 14 əsr keçməmiş kimi ərəb dili hadisələrinə Orta Əsr alimlərinin baxış

bucağından verdiyi təhlillər təəccüb doğurur [18]. "Klassiklərin" tərtib etdikləri fonoloji sistemin XX əsrədək dəyişilmədiyini A.Roman da təsdiq edir [39, 125; 40]).

İmalə hadisəsinə diqqət yetirən alimlər sırasında dilçi-alimlərdən Sibəveyhi (765-796) [43, 4, 235-249], əl-Mübərrəd (826-898) [35, 3, 42-44], İbn Cinni (934-1002) [26, 156-160; 27, 1, 50-53], İbn Yəiş (1158-1245) [30, 9, 53-66], İbn əl-Hacib (1174-1249) [24, 305-310], əs-Süyutinin (1445-1505) [45, 3, 375-385], qiraət alimlərindən isə İbn Mücahid (859-936) [29, 143-151, 672, 688], İbn Xaləveyh (?-980) [28], Əbu Əli əl-Farisi (900-987) [16], Məkki ibn Əbu Talib (966-1045) [33, 2, 168-208], Əbu Əmr əd-Dani (981-1053) [12; 13, 46-53], Əbu Tahir İsmail ibn Xələf (?-1063) [1], İbn əl-Cəzəri (1350-1429) [25, 1, 23], Əhməd ibn Muhəmməd əl-Qəstəllani (1447-1517) [38], Əhməd ibn Muhəmməd əl-Bənnanın (?-1705) [8, 1, 247-294] adlarını və əsərlərini qeyd etmək lazımdır. Əs-Süyuti *imalə* mövzusuna ilk toxunan alim kimi Əbu əl-Əsvəd əd-Düəlini (603-688) – ona bu sahədə yol göstərənin isə Əli ibn Əbu Talibin (ə.; 601-661) olduğunu bildirir [46, 158]. Adları çəkilən alimlərin əsərlərində bu və ya digər şəkildə *imalə* hadisəsi qeyd olunur, tərifi verilir, bəzilərində səbəb və növləri göstərilir, bəzilərində isə Quranda rast gəlinən yerlərdə qısaca bəhsi verilir. Əsərlərində məsələyə kifayət qədər yer ayırmış alimlər sırasında Sibəveyhi, İbn Cinni, İbn Yəiş, əs-Süyuti, Məkki ibn Əbu Talib, Əbu Əmr əd-Dani və əl-Bənna olmuşdur. Məsələn, Məkki ibn Əbu Talib əsərinin böyük bir fəslini *imaləyə* həsr edərək [33, 2, 168-208], onun baş vermə səbəbləri kimi "kəsrəni, əsl kök samitinə işarə edilməsini və imalə xatirinə imalə edilməsini" bildirir [33, 2, 170]. O, *imalənin* ərəb ləhcələrində geniş yayıldığını göstərir, yeddi qaredən rəvayət olunan qiraətlərdə növlərini, işlənmə şərtlərini açıqlayır [33, 2, 168-208]. Əl-Qəstəllani isə *imalənin* yaranma səbəblərindən söhbət açaraq onları ya özünü qoruyub saxlamış [y] və [i] səsləri, ya da nəzərdə tutulan "təqdiri" [y] ilə bağlayır [38, 1040-1041]. *İmaləyə* həsr olunmuş ilk müstəqil (dövrümüzə gəlib çatmamış, yaxud hələ aşkar edilməmiş) əsərin müəllifi kimi əd-Dani Əbu Übeyq əl-Qasim ibn Səllamı (774-838) göstərir [42, 19], lakin əldə olan ən qədim əsər İbn Ğəlbunun (921-999) qələmindən çıxmışdır («İstikmal») [41].

Müasir ərəb dilçi-alimlərinin *imalə* hadisəsinə maraqları sovuşmur. Burada xüsusilə Əbdülfəttah Şələbinin «Qiraətlər və ərəb dialektlərində imalə» adlı fundamental əsəri [42, 24], İbn Ğəlbunun göstərilən əsərinin hər tərəfli tədqiqinin nəticəsi olub Əbdüləziz Əli Səfərin «Quran qiraətlərində imalə və təfxim» adlı ayrı bir monoqrafiyası buna misal kimi çəkilə bilər. Əsərlərdə bu sahədə görülmüş işlər incələnir, *imalə* hadisəsi hər tərəfli öyrənilir. Bu sahədə fərqli fikirlərlə xüsusi seçilməyən digər elmi əsərlər də yazılmışdır. Onlara ümumi nəzər saldıqda qeyd olunmalıdır ki, müasir ərəb dilçiliyində alimlərin əksəriyyəti sözügedən hadisəni ənənəvi dilçilikdə olduğu kimi *imalə* olaraq nəzərdən keçirirlər. Nadir tədqiqatlarda hadisəni *gliding* (süzgünlük) [11, 732], *inclination* (meyillilik) [3, 18], *intonation or dialectic deviation* (intonasiya (modulyasiya), yaxud ləhcə fərqi) [44, 92] istilahları ilə əvəzləyib tədqiq edirlər. Həm *gliding*, həm *inclination* istilahlarının kəsb etdiyi

tutum Orta Əsr ərəb, müsəlman alimlərinin işlətdiyi *imalənin* nəzərdə tutduğu anlamından daha dəqiq deyil, çünki hər ikisi, sadəcə olaraq, *meyl* (*imalə*) sözünün fərqli ingilis versiyalarıdır; *intonation*, yaxud *ləhcə fərqi* istilahlarına gəlincə isə, burada açıq şəkildə hadisənin məğzinə varma istəyi hiss olunmur. Söhbətin məhz vokalik dəyişmədən getdiyi üçün *saiti infleksiya* istilahı, zənnimizcə, baş verən hadisəni daha dəqiq təsvir edir. Qənaətimizlə üst-üstə düşən fikirlərə gəlincə deməliyik ki, *infleksiya* istilahı nəzərdən keçirdiyimiz çoxsaylı əsərdən yalnız birində qəbul olunduğu ilə rastlaşdıq [9, 11]. Əbdüləziz Səfər isə *imaləyə* çağdaş fonetik istilah tətbiq edərək onu haqlı olaraq "umlaut mexanizmi" kimi qəbul etdiyini gördük [41, 1, 219]. Sözügedən hadisənin səbəblərini araşdırarkən, Əbdüləziz Səfər istisna olmaqla, demək olar ki, alimlərin hamısı saiti infleksiyanın baş verdiyi sözün kökündəki zəif *y* samitini, səslərin ahəngini göstərir (məsələn, İbrahim Ənis [6, 60], Məhmud Fəhmi Hicazi Sibəveyhinin məntiqindən çıxış edib imalənin səbəblərindən birinin idğamdan (uyuşmadan, uyğunlaşmadan – **V.Q.**) qaynaqlandığını göstərir [23, 86-87], əksəriyyət isə bu iki səbəbə üçüncüsünü əlavə edib Quran xəttini də saiti infleksiyanın yaranma səbəbi kimi göstərirlər [33, 2, 193]. Qəribədir ki, saiti infleksiyanın yaranma səbəblərindən biri kimi sözün kökündəki zəif *y* samiti göstərilsə də, hadisənin morfoloji səciyyə kəsb etdiyi haqqında yalnız Əbdüləziz Səfərin əsərində rast gəldik [41, 1, 271]. Həqiqətən, saiti infleksiya hallarını təhlil etdikdən sonra bəlli olur ki, saiti infleksiya ləhcə təzahürü olmaqla yanaşı, baş verdiyi halların bir çoxunda sırf fonetik, bir çoxunda isə "morfoloji yaddaşa" malik fonetik hadisə kimi çıxış edir. Biz bilirik ki, rəvayətlərdə baş verən saiti infleksiya yalnız kök samiti *y* olan sözlərdə baş vermir, o, əksər hallarda uzun saitə çevrilmiş həm *yə*, həm də *vav* kök samiti olan halda baş verir. Yəni, baş verən saiti infleksiya əksər hallarda həm *yə*, həm də *vav* zəif samitinin uzun saitə ([ə̄], [ā̄] və ya [ā]) çevrilmiş sözlərdə baş verir. Bu halda məntiqlə yanaşsaq *yə* uzun saitə ([ə̄] və ya [ā̄]) çevrilmiş sözlərdə saiti infleksiyanın baş verdiyi normal hal kimi görünürsə (*yə* zəif samitin *i* saiti ilə yaxınlığına görə), bunu *vav* zəif samitin uzun saitə ([ā]) çevrilmiş sözlərə aid etmək olmur, çünki bu kimi sözlərdə saiti infleksiya *a*-dan *i*-yə deyil, *a*-dan (*vav* zəif samitin *u* saiti ilə yaxınlığına görə) *u*-ya olmalı idi. Bu sualı İbrahim Ənis açıq şəkildə öz əsərində qoyur və sual cavabsız qalır [6, 60]. Lakin, zənnimizcə, suala cavab olaraq bildirilməlidir ki, və qənaətimiz də elə budur – ki, uzun saitə çevrilmiş istər *yə*, istərsə də *vav* olduğu halların hər ikisi səslənmədə eyni eşidilir və halların ikisi də uzun saitin *yə*-dən çevrilmiş kimi qəbul edilib saiti infleksiyanın *a*-dan *i*-yə doğru meyl etməsinə səbəb olur. Statistik hesab da göstərir ki, saiti infleksiyanın baş verdiyi *vav*-dan çevrilmiş uzun sait halları (cəmi 226 hal) 3,4 dəfə saiti infleksiyanın baş verdiyi *yə*-dən çevrilmiş uzun sait hallarından (cəmi 765 hal) azdır, bu da uzun saitin *yə*-dən çevrilmiş hallarının "qələbəsi" kimi qarşılanıb ümumi qayda, norma kimi NV-də qəbul olunmasına səbəb olub. Beləliklə, saiti infleksiyanın baş verməsinin şərtləri kimi bir çox halda II kök samitinin [r] samitinin olub-olmaması və bu kök samitinin ardı ilə gələn [y] və ya [ỵ] səsindən uzun saitə çevrilmiş səslə

"morfoloji yaddaşla qarşılıqlı əlaqəsi", bir çox halda sabit modellərdə baş verdiyi onun fonetik hadisə olması ilə yanaşı əksər hallarda morfoloji əsasa söykənməsini deməyə imkan verir. O da qeyd olunmalıdır ki, sözügedən hadisənin morfoloji yöndən əsassaslandırmanı hədər zəhmət kimi görüb hər hadisənin özəl səbəbi olduğunu qəbul edən fikrə rast gəlinir [9, 14]. O ki qaldı Quran xəttinin saiti infleksiyanın yaranma səbəblərindən biri kimi göstərilməsinə, fikrimizcə, bu, tamamilə yanlış yanaşmadır. Çünki yazı ilkin deyil, törəmədir. Quranın özəyi yalnız şifahi səslənmədir, qiraətdir, rəvayətdir və yazı onun əksi kimi çıxış edir, bu və ya digər hadisənin izahı kimi çıxış edə bilməz.

Qərb ərəbşünasları da sözügedən hadisəyə biganə qalmamışlar. Belə ki, XIX-XX əsrlərin qovşağında yaşayıb yaratmış avstriyalı ərəbşünas Maks Qrünertin (1849-1929) *imalənin* tədqiqinə həsr etmiş eyni adlı əsərləri hələ 1876-cı ildə işıq üzü görür [20; 21]. Müqəddimə və beş fəsildən ibarət əsərində Qrünert *imalənin* tədqiqi tarixinə nəzər salır, *imalə* istilahına aydınlıq gətirir. Doğrudur, alim onun səs, yaxud morfoloji əsasla yaranma səbəbinə varmır, *imalənin* yazı ilə müəyyənləşdiyini göstərir. Lakin, alman alimi ona gözəl tanış olan alman dilinin fenomeni hesab edilən *umlaut* hadisə ilə paralel aparıb olduqca dəqiq şəkildə *imaləni* "ərəb umlautu" kimi səciyyələndirir. Başqa alman ərəbşünasları Avqust Fişer (1865-1949) və Qothelf Berqştrasser (1886-1933) də *imaləyə* yer ayırmışlar. Q.Berqştrasser 1929-cu ildə Qahirə Universitetində verdiyi mühazirələr əsasında işıq üzü görmüş «Ərəb dilçiliyinin inkişafı» əsərində [10] imaləyə dair tarixi ekskurs edir, haqqında ümumi məlumat diqqətə çatdırır. Qərb alimlərinin ərəb dilinə həsr olunmuş və *imalə* hadisəsini açıqlayan əsərlər arasında ərəb dilçiliyi tarixinin tədqiqatçısı, Bayroyt Universitetinin (Almaniya) professoru Conatan Ovensin [37, 197] klassik ərəb dilində və müasir ərəb dialektlərinə, həmçinin, əsasən ərəb dialektlərinin fonologiya və morfologiyasına həsr olunmuş Solford Universitetinin (Böyük Britaniya) professoru Canet Vatsonun [47, 124-125] əsərlərində bu və ya digər şəkildə *imalə* hadisəsinə toxunulur.

Məlumdur ki, yeddi qaredən edilən on rəvayət arasında əl-Kisaidən (737-805) edilən həm Əbu əl-Haris (?-854), həm də əd-Duri (767-860) rəvayətləri saiti infleksiyanın geniş işlənməsi ilə xüsusi seçilirlər. Xoş haldır ki, əl-Kisainin qiraət sistemi Azərbaycanda ayrı tədqiqat işinin mövzusu olmuş və tədqiqatçı Mirniyaz Mürsəlov qarşısına qoyduğu elmi öhdəlikləri müvəffəqiyyətlə yerinə yetirmişdir. Tədqiqatda əl-Kisainin tətbiq etdiyi saiti infleksiya halları sistemləşdirilərək təsnif edib və qiraət elminin prinsipləri əsasında şərhi verilmişdir. Tədqiqatın tələblərinə uyğun olaraq saiti infleksiya bir hadisə kimi geniş nəzərdən keçirilmir, qısa şəkildə məğzi diqqətə çatdırılır, növləri kimi «"imaleyi-kübra" və "imaleyi-süğra" olaraq iki yerə» ayrıldığı göstərilir [36, 73]. Bununla yanaşı, müəllif «imaleyi-kübra kəlməni qiraət edərkən fəthənin kəsrəyə meyl etdirilməsi» kimi doğru göstərdiyi halda, «imaleyi-süğra isə fəthə hərəkəsinin səsini, fəthə ilə kəsrə arasında oxumaqdır» kimi göstərərək [36, 73] qeyri-dəqiqliyə yol verir, müəllifin istinad etdiyi mənbədə aydın ifadə forması tapmış fikir diqqətə olduğu kimi çatdırılmır. Daha dəqiq ifadə belə olmalı idi: "imaleyi-süğra fəthə ilə kəsrə arasında əmələ gələn səs ilə fəthə arasında

qərar tutur. Bu halda "imaleyi-süğra" "imaleyi-kübra" ilə fəthə arasında olan səsi nəzərdə tutardı. Yəni, əgər "imaleyi-kübra" [a] ilə [i] səsləri arasında əmələ gəlib [e] səsinin hasil olunmasına gətirib çıxarırsa, "imaleyi-süğra" [a] ilə [e] səsləri arasında əmələ gəlib [æ] səsinin hasil olunmasına gətirib çıxarır.

Bir məsələyə, ötəri olsa da, toxunmaq istərdik. Bu və ya digər rəvayətdə həmzənin realizə və qeyri-realizə ilə qiraəti halı kimi [19], imalənin də baş verib-verməməsi onu göstərir ki, bir qiraət sistemi bir ləhcə üzərində deyil, birdən artıq ləhcənin təzahürünü özündə cəm edir. Həmin fikri ərəb ədəbi dilinə də aid edib demək olar ki, o, formalaşmış ümumi fikir kimi Qüreyş ləhcəsi əsasında deyil, Qüreyş və daha artıq ləhcə hallarını özündə ehtiva edir.

İmalə Ərəbistan yarmadasının mərkəzi və şərqində bədəvi həyat sürən Təmim, Əsəd, Təyy, Bəkr ibn Vail, Əbdülqeys və Bənu Təğlib qəbilələrinin, *imalənin* işlənməməsi isə, yəni səsin tam realizə ilə tələffüzü yarmadanın qərbində yaşayan, əsasən, Qüreyş, Övs, Xəzrəc, Səqif, Həvazin, Səd ibn Bəkr, Kinanə qəbilələrinin tələffüz vərdişlərinin təzahürüdür, ərəb dilinin ləhcə fərqlərini özündə əks etdirən hadisədir [6, 53-61]. Tərəfimizdən saiti infleksiya, vokalik dəyişmə, metafoniya, saitlərin dəyişməsi, saitlərin əvəzlənməsi və ya umlaut kimi qəbul edilmişdir. Diqqətə çatdırılmalıdır ki, umlaut dedikdə, biz onu alman umlautundan fərqləndirir, onun kəsb etdiyi [14, 2, 311] dar mənada başa düşülməsini qeyd edirik. Çünki Quran qiraətlərində müşahidə edilən uzun və qısa saitlərdə vokalik infleksiya yeni qrammatik formaların yaranmasına xidmət etmir, yalnız saitin mutasiyası kimi çıxış edir. Məhz bu mənada hadisəni ərəb umlautu kimi səciyyələndirmək mümkündür.

AH ilə NV-də saiti infleksiyanın növləri. AH ilə NV arasında uzun və qısa saitlərin infleksiya hallarını təhlil etdikdən sonra müəyyən etmək olmuşdur ki, onların 4 növü müşahidə edilir:

1. [ə̄]/[ē] infleksiyası – AH-də tam realizə ilə tələffüz əvəzinə NV-də güclü saiti infleksiya (*fəth* əvəzinə *imalə*);

2. [ē]/[ǣ] infleksiyası – AH-də güclü saiti infleksiya əvəzinə NV-də zəif saiti infleksiya (*imalə* əvəzinə *təqlil*);

3. [ə̄]/[ǣ] infleksiyası – AH-də tam realizə ilə tələffüz əvəzinə NV-də zəif saiti infleksiya (*fəth* əvəzinə *təqlil*);

4. [ə̄]/[ə̄], yaxud [ǣ] alternativli infleksiyası – AH-də tam realizə ilə tələffüz əvəzinə NV-də ya tam realizə ilə (infleksiya baş vermədən), ya da zəif saiti infleksiya (*fəth* ya olduğu kimi qalır, ya da *təqlil*).

Ümumilikdə, qeyd olunmalıdır ki, AH ilə NV arasında saiti infleksiya yalnız NV-nin səciyyəvi xüsusiyyətidir.

AH-də bir yerdə (11:41) müşahidə edilən güclü saiti infleksiya halı istisna kimi qəbul edilməlidir.

NV-də saitin infleksiya halları müşahidə edilən yerlərdə saitin AH-də tam realizə ilə tələffüzü AH üçün norma sayılmalıdır.

Saiti infleksiya səciyyəli NV məhz zəif saiti infleksiya növü NV üçün norma kimi qəbul edilə bilər.

NV-də bir yerdə (20:1) müşahidə edilən güclü saiti infleksiya halı istisna kimi qəbul edilməlidir.

NV-də zəif saiti infleksiya halları dilarxası [ā̃], [ā], dilarxası və bir qədər dilortası [ā̃] və ya dilönü [ə] uzun sait, həmçinin dilarxası [a] qısa sait müəyyən olunmuş mövqelərdə müvafiq olaraq dilarxası-dilortası [ǣ] uzun saitə, dilarxası-dilortası [æ] qısa saitlə əvəzlənir.

NV-də zəif saiti infleksiyanın səbəbləri. NV-də zəif saiti infleksiyanın səbəbləri kimi qısa və ya uzun saitin aşağıdakı mövqeləri çıxış edir:

1. [r] II kök samitindən sonra [y], yaxud [ỵ] zəif III kök samitinin əmələ gətirdiyi uzun sait;

2. فُعْلَى, فَعْلَى, فِعْلَى ilə فُعَالَى, فَعَالَى modellərində [r] III kök samitindən sonrakı uzun sait;

3. İndiki-gələcək zamanda يَرَىٰ felinin fərqli formalarında və ٱلتَّوْرَىٰةَ xüsusi isimdə *r* samitindən sonrakı uzun sait;

4. ح [ḥā] (حمٓ [ḥā mīīm̃]), ر [ṛā] (الٓر ['ə́lif lāāām̃ ṛā], الٓمٓر ['ə́lif lāāām̃-m̃īīīm̃ ṛā]), ه [hā] və ي [yā̃] (كٓهيعٓصٓ [kāāāf hā yā̃ 'ayīīīṣ̃ā̃ā̃ā̃d]) müqəttəə hərflərinin adlarındakı uzun sait;

5. Sözlərin ortası və ya sonundakı [ā̃ri], [āri] və ya [əri] səs birləşməsindəki uzun sait;

6. ٱلْكَٰفِرِينَ sözündəki uzun sait;

7. Keçmiş zamanda رَأَىٰ (رَءَا) felinin fərqli formalarında qısa və uzun sait;

8. ٱلْعُزَّىٰ və لَظَىٰ xüsusi isimlərdə uzun sait.

NV-də alternativli zəif saiti infleksiyanın səbəbləri. NV-də alternativli zəif saiti infleksiyanın səbəbləri kimi uzun saitin aşağıdakı mövqeləri çıxış edir:

1. [r] olmayan II kök samitindən sonra [y], yaxud [ỵ] zəif III kök samitinin əmələ gətirdiyi uzun sait;

2. فُعْلَى, فَعْلَى, فِعْلَى ilə فُعَالَى, فَعَالَى modellərində [r] olmayan III kök samitindən sonrakı uzun sait;

3. عَسَىٰ, بَلَىٰ, مَتَىٰ və أَنَّىٰ köməkçi sözlərdə, مُوسَىٰ, عِيسَىٰ və يَحْيَىٰ xüsusi isimlərdə, يَٰٓأَسَفَىٰ, يَٰوَيْلَتَىٰ və يَٰحَسْرَتَىٰ ifadələrində son uzun sait.

1. [ə]/[ē] infleksiyası

20:1-də AH-də tam realizəsi ilə tələffüz olunan ه müqəttəə hərfi [hā] (طه [ṭā̃ hā]) NV-də güclü saiti infleksiya ilə qiraət edilir: [hē] ([ṭā̃ hē]). Bu, NV-də Qurani-Kərim boyu güclü saiti infleksiyanın baş verdiyi yeganə haldır. Hadisənin müqəttəə hərfinin adında baş verdiyinə görə, yaranma səbəbi haqqında mülahizə irəli sürmək çətindir. Ehtimal etmək olar ki, burada saiti infleksiyanın baş verməsi هاءٌ sözünün

fonetik dəyişikliyə uğramış zəif II kök samitinə bir "xatırlatma" Təmim, Əsəd, Təyy, Bəkr ibn Vail, Əbdülqeys və Bənu Təğlib qəbilələrinin ləhcə özəlliyidir.

Əgər NV-də sözügedən mövqedə, yəni müqəttəə hərflərinin adlarında [ā], [ā̃], [ə] zəif saiti infleksiya ilə tələffüzü NV üçün rəvayət norması hesab edilə bilərsə (müqayisə et: [ḥǣ], [rǣ], [hǣ], [yǣ]), 20:1-də [hə] müqəttəə hərfinin adında müşahidə edilən güclü saiti infleksiya [hē] rəvayət normasının pozulması kimi qəbul edilməli və NV üçün istisna hal kimi dəyərləndirilməlidir.

NV-də güclü saiti infleksiya nəticəsində dilönü [ə] dilortası [ē] ilə əvəzlənir.

2. [ē]/[ǣ] infleksiyası

هَا [-hə] III şəxsin təkində, qadın cinsində bitişən əvəzliklə işlənən مَجْرًى [məcran] ismi (مَجْرَاهَا [məčṛā́hə]) 11:41-də AH-də güclü saiti infleksiya ilə qiraət edilir: مَجْرٰهَا [məčrḗhə]. Bu, AH-də Qurani-Kərim boyu ümumilikdə saiti infleksiyanın baş verdiyi yeganə haldır. AH-də işlənən مَجْرًى [məcran] ismi NV-də مُجْرًى [mucran] kimi işlənir, yəni burada ümumi isim/ismi-məful fərqi müşahidə edilir. NV-də هَا [-hə] III şəxsin təkində, qadın cinsində bitişən əvəzliklə işlənən مُجْرًى [mucran] ismi-məfulu zəif saiti infleksiya ilə qiraət edilir: مُجْرٰهَا [mučrǣ́hə]. Rəvayətlərdə baş verən saiti infleksiyanın fərqli təzahürləri sözün III kök samiti yerində baş verir. III kök samitinin isə ى olduğunu nəzərə alsaq, onun həm güclü (AH-də), həm də zəif (NV-də) saiti infleksiyanın baş verməsinin köklü səbəbini aşkar etmiş olarıq. Çünki ى zəif samit olmaqla özündə yarımsait xüsusiyyətini cəm edir. Sait xüsusiyyəti isə [i] olduğundan, o, saiti infleksiyanın baş verməsinin səbəbi kimi çıxış edir. Hər iki qiraətdə akkomodasiya sayəsində *r* samiti incələşir.

Əgər AH-də sözügedən mövqedə, yəni II kök samiti [r], III kök samiti zəif [y] olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā] tam realizə ilə tələffüzü AH üçün rəvayət norması hesab edilə bilərsə (müqayisə et: ['iftäṛā́hu], ['ədṛā́kum̃], ['iştäṛā́hu]), 11:41-də [məčṛā́hə] sözündə müşahidə edilən güclü saiti infleksiya [məčrḗhə] rəvayət normasının pozulması kimi qəbul edilməli və AH üçün istisna hal kimi dəyərləndirilməlidir. NV üçün isə, əksinə, baş verən zəif saiti norma kimi çıxış edir və II kök samiti [r], III kök samiti zəif [y] olan sözlərdə [ṛā] səs birləşməsindəki uzun sait zəif infleksiya ilə tələffüz edilir: [mučrǣ́hə] (müqayisə et: ['iftärǣ́hu], ['ədrǣ́kə], ['iştärǣ́hu]).

AH-də güclü saiti infleksiya nəticəsində dilarxası qalın [ā] dilortası incə [ē] ilə əvəzlənir.

NV-də isə zəif saiti infleksiya baş verir və dilarxası qalın [ā] dilarxası-dilortası [ǣ] ilə əvəzlənir.

3. [ə]/[ǣ] infleksiyası

Burada [ə]/[ǣ] uzun saiti infleksiyası dedikdə, həm də [ā̃]/[ǣ], [ā]/[ǣ], [ā̃]/[ǣ] uzun sait və [a]/[æ] qısa sait infleksiyası halları, yəni bütün hallarda tam realizə ilə qiraət əvəzinə zəif saiti infleksiya (*fəth* əvəzinə *təqlil*) nəzərdə tutulur. Sözügedən

uzun və qısa sait infleksiya hallarını təhlil etdikdən sonra onları yaranma səbəbləri və özəl xüsusiyyətlərinə görə 9 qrupa ayırmaqla təsnifi mümkün olmuşdur:

1) II kök samiti [r], III kök samiti zəif [y] və ya [ỵ] olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası;

2) [r] III kök samitli فُعْلَى, فَعْلَى, فِعْلَى ilə فُعَالَى, فَعَالَى modellərində olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası;

3) İndiki-gələcək zamanda يَرَىٰ felinin fərqli formalarında və ٱلتَّوْرَىٰةَ xüsusi isimdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası;

4) ح [ḥā] (حمٓ [ḥā mīīīm̃]), ر [ṛā] (الٓر ['ə́lif lāāām̃ ṛā], المٓر ['ə́lif lāāām̃-m̃īīīm̃ ṛā]), ه [hā] və ي [yā̃] (كٓهيعٓصٓ [kāāāf hā yā̃ 'ayīīī̃ṣ̃ā̃ā̃ā̃d]) müqəttəə hərflərinin adlarında [ā]/[ǣ], [ā̃]/[ǣ] və ya [ā]/[ǣ] infleksiyası;

5) Sözlərin ortası və ya sonundakı [ā̃ri], [āri] və ya [āri] səs birləşməsindəki [ā̃]/[ǣ], [ā]/[ǣ] və ya [ā]/[ǣ] infleksiyası;

6) ٱلْكَٰفِرِينَ sözünün fərqli formalarında [ā]/[ǣ] infleksiyası;

7) Keçmiş zamanda رَأَىٰ (رَءَا) felinin fərqli formalarında [a]/[æ] və [ā]/[ǣ] infleksiyası;

8) ٱلْعُزَّىٰ xüsusi isimdə [ā]/[ǣ] və لَظَىٰ xüsusi isimdə [ā̃]/[ǣ] infleksiyası;

9) 20, 53, 70, 75, 79-80, 87, 92-93 və 96-cı surələrdə istisna saiti infleksiya halları.

1) II kök samiti [r], III kök samiti zəif [y] və ya [ỵ] olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası

II kök samiti [r], III kök samiti zəif [y] və ya [ỵ] olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiya hallarını öz növbəsində aşağıdakı kimi nəzərdən keçirmək məqsədəuyğundur: II kök samiti [r], III kök samiti zəif [y] olan isim və sifətlərdə; II kök samiti [r], III kök samiti zəif [y] olan feillərdə; II kök samiti [r], III kök samiti zəif [ỵ] olan feildə. Göründüyü kimi, burada infleksiyanın baş verməsinin səbəbinin morfoloji əsası var. Belə ki, bir tərəfdən [r] samiti II kök samiti, digər tərəfdən uzun saitin "morfoloji yaddaşı" kimi zəif [y] və ya [ỵ] samitinin III kök samiti kimi çıxış etməsi uzun saitin infleksiyana gətirib çıxarır. (Bütün hallarda NV-də baş verən infleksiya hallarında *r* samiti akkomodasiya sayəsində incələşir.)

II kök samiti [r], III kök samiti zəif [y] olan isim və sifətlərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası, əsasən, ٱلْقُرَىٰ və ٱلثُّرَىٰ sözləri ilə məhdudlaşır. Belə ki, ٱلْقُرَىٰ və ٱلثُّرَىٰ AH-də ['əl-qúṛā], ['əṯ-ṯā́ṛā] sözlərindəki [ṛā] səs birləşməsindəki uzun sait tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: ['əl-qúrǣ], ['əṯ-ṯə́rǣ]. Bununla yanaşı, yalnız vəqf etdikdə baş verən hallara da rast gəlinir. Belə ki, مُفْتَرًى وَ [muftā́ṛaỵ-ỵa], ٱلْقُرَى ٱلَّتِى ['əl-qúṛal-lə́tī]), قُرًى (قُرًى ظَٰهِرَةً [qúṛañ-ẓā́híṛatəñ], قُرًى مُّحَصَّنَةٍ [qúṛam̃-m̃uḥaṣṣā́nətiñ]) üzərində vəqf etdikdə infleksiya baş verir: [muftə́rǣ‖], ['əl-qúrǣ‖], [qúrǣ‖] (AH-də: [muftā́ṛā‖], ['əl-qúṛā‖], [qúṛā‖]).

II kök samiti [r], III kök samiti zəif [y] olan feillərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası ٱقْتَرَىٰ (ٱقْتَرَىٰهُ, يُقْتَرَىٰ, أَقْتَرَىٰ), أَدْرَىٰكَ (أَدْرَىٰكُمْ), ٱشْتَرَىٰ (ٱشْتَرَىٰهُ), يَتَوَرَّىٰ, تَعَرَّىٰ, تَتَمَارَىٰ feillərini əhatə edir. Belə ki, AH-də ['iftā́ṛā] (['iftäṛā́hu], [yuftā́ṛā], ['əftā́ṛā]), ['ədṛā́kə] (['ədṛā́kum̃]), ['iştā́ṛā] (['iştäṛā́hu]), [yətäẓā́ṛā], [tā́'ṛā], [tətəmā́ṛā] feillərindəki [ṛā] səs birləşməsindəki uzun sait tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: ['iftā́rǣ] (['iftärǣ́hu], ['əftā́rǣ], [yuftā́rǣ]), ['ədrǣ́kə] (['ədrǣ́kum̃]), ['iştā́rǣ] (['iştärǣ́hu]), [yətäẓā́rǣ], [tā́'rǣ], [tətəmā́rǣ].

II kök samiti [r], III kök samiti zəif [ẓ] olan feildə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası ٱعْتَرَىٰكَ (11:54) felində rast gəlinir. Belə ki, AH-də ['i'täṛā́kə] feilindəki [ṛā] səs birləşməsindəki uzun sait tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: ['i'tərǣ́kə] kimi qiraət edilir.

Sözügedən mövqedə, yəni II kök samiti [r], III kök samiti zəif [y] və ya [ẓ] olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā] tam realizə ilə tələffüzü AH üçün rəvayət normasıdır. NV-də isə, əksinə, zəif saiti infleksiya norma kimi çıxış edir.

NV-də zəif saiti infleksiya nəticəsində dilarxası [ā] dilarxası-dilortası [ǣ] ilə əvəzlənir.

2) [r] III kök samitli فُعْلَى, فَعْلَى, فِعْلَى ilə فُعَالَى, فَعَالَى modellərində olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası

[r] III kök samitli فُعْلَى, فَعْلَى, فِعْلَى ilə فُعَالَى, فَعَالَى modellərində olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiya hallarını öz növbəsində aşağıdakı kimi nəzərdən keçirmək məqsədəuyğundur: [r] III kök samitli فُعْلَى, فَعْلَى, فِعْلَى modellərində olan sözlərdə; [r] III kök samitli فُعَالَى, فَعَالَى modellərində olan sözlərdə. Göründüyü kimi, burada infleksiyanın baş verməsinin səbəbinin morfoloji əsası var. Belə ki, bir tərəfdən [r] samiti II kök samiti, digər tərəfdən uzun saitin "morfoloji yaddaşı" kimi zəif [y] və ya [ẓ] samitinin III kök samiti kimi çıxış etməsi, həmçinin sözlərin müəyyən modeldə olması uzun saitin infleksiyana gətirib çıxarır. (Bütün hallarda NV-də baş verən infleksiya hallarında *r* samiti akkomasiya sayəsində incələşir.)

[r] III kök samitli فُعْلَى, فَعْلَى, فِعْلَى modellərində olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası aşağıdakı sözləri əhatə edir: ذِكْرَىٰ (ذِكْرَىٰهَا, لِذِكْرَىٰ, ذِكْرَىٰهُمْ, ٱلذِّكْرَىٰ), أُخْرَىٰ (أُخْرَىٰكُمْ, أُخْرَىٰهُمْ, لِأُخْرَىٰهُمْ, ٱلْأُخْرَىٰ), بُشْرَىٰ (يَبْشُرَىٰ, بُشْرَىٰكُمْ, ٱلْبُشْرَىٰ, بِٱلْبُشْرَىٰ), أَسْرَىٰ (ٱلْأَسْرَىٰ), تَتْرَىٰ, شُورَىٰ, ٱلْكُبْرَىٰ, لِلْيُسْرَىٰ, ٱلشِّعْرَىٰ, لِلْعُسْرَىٰ. Belə ki, AH-də [ẕíkṛā] ([ləẕíkṛā], [ẕikṛā́hə], [ẕikṛā́hum̃], ['əẕ-ẕíkṛā]), ['úxṛā] (['uxṛā́kum̃], ['uxṛā́hum̃], [li'uxṛā́hum̃], ['əl-'úxṛā]), [búşṛā] ([yə búşṛā], [buşṛā́kum̃], ['əl-búşṛā], [bil-búşṛā]), ['ésṛā] (['əl-'ésṛā]), [tə́tṛā], [şū́ṛā], ['əl-kúbṛā], [lil-yúsṛā], ['əş-şí'ṛā], [lil-'úsṛā] sözlərindəki [ṛā] səs birləşməsindəki uzun sait tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: [ẕíkrǣ] ([ləẕíkrǣ], [ẕikrǣ́hə], [ẕikrǣ́hum̃], ['əẕ-ẕíkrǣ]), ['úxrǣ] (['uxrǣ́kum̃], ['uxrǣ́hum̃], [li'uxrǣ́hum̃], ['əlú-xrǣ], [búşrǣ] ([yə búşrǣ], [buşrǣ́kum̃], ['əl-búşrǣ], [bil-búşrǣ]), ['ésrǣ] (['əlé-srǣ]), [tə́trǣ], [şū́rǣ], ['əl-kúb-rǣ], [lil-yúsrǣ], ['əş-şí'rǣ], [lil-'úsrǣ]. Bununla yanaşı, yalnız vəqf etdikdə baş verən hallara da rast gəlinir. Belə ki, ٱلْكُبْرَى (ٱلْكُبْرَى ٢٢ أَذْهَبِ إِلَىٰ ['əl-kúbṛá-ẕhəbí-lə]), ذِكْرَى

(ذِكْرَى ٱلدَّارِ [zíkṛad-dā́ri]) üzərində vəqf etdikdə infleksiya baş verir: [’əl-kúb̆rā‖] (AH-də: [’əl-kúb̆ṛā‖]), [zíkrā‖] (AH-də: [zíkṛā‖]).

[r] III kök samitli فَعَالَى, فُعَالَى modellərində olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası aşağıdakı sözləri əhatə edir: ٱلنَّصَارَىٰ (نَصَارَىٰ), سُكَارَىٰ (بِسُكَارَىٰ), أُسَارَى. Belə ki, AH-də [’əñ-ñäṣā́ṛā] ([näṣā́ṛā]), [sukā́ṛā] ([bisukā́ṛā]), [’usā́ṛā] sözlərindəki [ṛā] səs birləşməsindəki uzun sait tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: [’əñ-ñäṣā́rǣ] ([näṣā́rǣ]), [sukā́rǣ] ([bisukā́rǣ]), [’usā́rǣ]. Bununla yanaşı, yalnız vəqf etdikdə baş verən hala da rast gəlinir. Belə ki, ٱلنَّصَارَىٰ (ٱلنَّصَارَىٰ ٱلْمَسِيحُ [’əñ-ñäṣā́ṛal-məsī́ḥu]) üzərində vəqf etdikdə infleksiya baş verir: [’əñ-ñäṣā́rǣ‖] (AH-də: [’əñ-ñäṣā́ṛā‖]).

Sözügedən mövqelərdə, yəni [r] III kök samitli فَعَالَى, فُعَالَى, فَعْلَى, فِعْلَى ilə فَعَالَى, فُعَالَى modellərində olan sözlərdə [ṛā] səs birləşməsindəki [ā] tam realizə ilə tələffüzü AH üçün rəvayət normasıdır. NV-də isə, əksinə, zəif saiti infleksiya norma kimi çıxış edir.

NV-də zəif saiti infleksiya nəticəsində dilarxası [ā] dilarxası-dilortası [ǣ] ilə əvəzlənir.

3) İndiki-gələcək zamanda يَرَىٰ felinin fərqli formalarında və ٱلتَّوْرَاة xüsusi isimdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiyası

İndiki-gələcək zamanda يَرَىٰ felinin fərqli formalarında və ٱلتَّوْرَاة xüsusi isimdə [ṛā] səs birləşməsindəki [ā]/[ǣ] infleksiya hallarını öz növbəsində aşağıdakı kimi nəzərdən keçirmək məqsədəuyğundur: indiki-gələcək zamanda يَرَىٰ felinin fərqli formalarında; ٱلتَّوْرَاة xüsusi isimdə. Göründüyü kimi, feildə infleksiyanın baş verməsinin səbəbi fonetik və “morfoloji yaddaşa” malik fonetik hadisəyə əsaslanır. Burada bir tərəfdən [r] samiti, digər tərəfdən feildə uzun saitin “morfoloji yaddaşı” kimi zəif [y] samitinin III kök samiti kimi çıxış etməsi infleksiyanı əmələ gətirir. Xüsusi isimdə isə sırf fonetik hadisə, yəni bir tərəfdən [r] samiti, digər tərəfdən uzun [ā] saiti infleksiyaya gətirib çıxarır (ehtimal etmək olar ki, uzun saitin yazıda əlif-məqsurə ilə yazılması “təqdiri” yə samitini nəzərdə tutur). (Bütün hallarda NV-də baş verən infleksiya hallarında *r* samiti akkomasiya sayəsində incələşir.)

İndiki-gələcək zamanda يَرَىٰ felində [ṛā] səs birləşməsindəki uzun saitin [ā]/[ǣ] infleksiyası işləndiyi fərqli formalarını əhatə edir: يَرَىٰ, يَرَىٰ, أَرَىٰ, أَرَىٰنِي, أَرَاكَ, أَرَاكُمْ, أَرَاهُ, فَأَرَاهُ, تَرَىٰ, تَرَىٰنِي, فَتَرَاهُ, تَرَاهُمْ, يَرَاهَا, يَرَاكُمْ, تَرَاكُمْ, نَرَىٰ, نَرَاكَ, لَنَرَاكَ, نَرَاهَا, لَنَرَاهَا, يُرَىٰ. Belə ki, AH-də [yā́ṛā], [’ā́ṛā], [’äṛā́nī], [’äṛā́kə], [’äṛā́kum̃], [fə’äṛā́hu], [tā́ṛā], [täṛā́nī], [fətäṛā́hu], [täṛā́hum̃], [yäṛā́hə], [yäṛā́kə], [yäṛā́kum̃], [nā́ṛā], [näṛā́kə], [lənäṛā́kə], [näṛā́hu], [lənäṛā́hə], [yúṛā] formalarında [ṛā] səs birləşməsindəki uzun sait tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: [yórǣ], [’órǣ], [’órǣ́nī], [’órǣ́kə], [’órǣ́kum̃], [fə’órǣ́hu], [tórǣ], [fətórǣ], [tərǣ́nī], [fətərǣ́hu], [tərǣ́hum̃], [səyórǣ], [fə́səyórǣ], [yərǣ́hə], [yərǣ́kə], [yərǣ́kum̃], [nórǣ], [nərǣ́kə], [lənərǣ́kə], [nərǣ́hu], [lənərǣ́hə], [yúrǣ]. Bununla yanaşı, yalnız vəqf etdikdə baş verən hallara da rast gəlinir. Belə ki, يَرَى (يَرَى ٱلَّذِينَ [yā́ṛal-ləẕī́nə]), سَيَرَى (سَيَرَى ٱللَّهُ [səyā́ṛaḷ-ḷā́hu]), فَسَيَرَى (فَسَيَرَى ٱللَّهُ [fəsəyā́ṛaḷ-ḷā́hu]), أَرَى (أَرَى ٱلْهُدَّهُدَ [’ā́ṛal-húd̆hudə]), تَرَى (تَرَى ٱلَّذِينَ [tā́ṛal-

ləzīnə]), تَرَى ٱلْمُجْرِمِينَ [tā́ṛal-mučrimī́nə], تَرَى ٱلْفُلْكَ [tā́ṛal-fúlkə], تَرَى ٱلشَّمْسَ [tā́ṛaş-şə́mīsə], تَرَى ٱلْأَرْضَ [tā́ṛalā́-ṛḍâ], تَرَى ٱلنَّاسَ [tā́ṛañ-ñə́sə], تَرَى ٱلْجِبَالَ [tā́ṛal-cibə́lə], تَرَى ٱلْعَذَابَ [tā́ṛal-‘azə́bə], تَرَى ٱلْمَلَٰٓئِكَةَ [tā́ṛal-mələə́ə’íkətə], تَرَى ٱلظَّٰلِمِينَ [tā́ṛaz-ẓā́limī́nə], تَرَى ٱلْمُؤْمِنِينَ [tā́ṛal-mūminī́nə]), فَتَرَى ٱلَّذِينَ [fətā́ṛal-ləzī́nə], فَتَرَى ٱلْمُجْرِمِينَ [fətā́ṛal-mučrimī́nə], فَتَرَى ٱلْوَدْقَ [fətā́ṛal-ṿə́dqâ], فَتَرَى ٱلْقَوْمَ [fətā́ṛal-qâumə]), نَرَى (نَرَى ٱللَّهَ [nā́ṛaḷ-ḷā́hə]) üzərində vəqf etdikdə infleksiya baş verir: [yə́rē‖], [səyə́rē‖], [fəsəyə́rē‖], [’ə́rē‖], [tə́rē‖], [fətə́rē‖], [nə́rē‖] (AH-də: [yā́ṛā‖], [səyā́ṛā‖], [fəsəyā́ṛā‖], [’ā́ṛā‖], [tā́ṛā‖], [fā́ṛā‖], [nā́ṛā‖]). II şəxsin cəmində, kişi cinsində bitişən əvəzliklə işlənən أَرَىٰكُمْ feli AH-də [’ā́ṛākəhum̃] (8:43), NV-də (8:44) istisna olaraq aşağıda şərhi veriləcək alternativli infleksiya ilə qiraət edilir: [’ā́ṛākəhum̃/’ərā́kəhum̃]).

ٱلتَّوْرَىٰةَ xüsusi isimdə [ṛā] səs birləşməsindəki uzun saitin [ā]/[ē] infleksiyası işləndiyi fərqli formalarını əhatə edir: ٱلتَّوْرَىٰةُ, ٱلتَّوْرَىٰةِ, ٱلتَّوْرَىٰةَ, بِٱلتَّوْرَىٰةِ. Belə ki, AH-də [’ət-täuṛā́tu], [’ət-täuṛā́ti], [’ət-täuṛā́tə], [bit-täuṛā́ti] formalarında [ṛā] səs birləşməsindəki uzun sait tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: [’ət-täurā́tu], [’ət-täurā́ti], [’ət-täurā́tə], [bit-täurā́ti].

Sözügedən mövqelərdə, yəni indiki-gələcək zamanda يَرَىٰ felinin fərqli formalarında və ٱلتَّوْرَىٰةَ xüsusi isimdə [ṛā] səs birləşməsindəki [ā] tam realizə ilə tələffüzü AH üçün rəvayət normasıdır. NV-də isə, əksinə, zəif saiti infleksiya norma kimi çıxış edir.

NV-də zəif saiti infleksiya nəticəsində dilarxası [ā] dilarxası-dilortası [ē] ilə əvəzlənir.

4) Müqəttəə hərflərinin adlarında [ā]/[ē], [ā̄]/[ē] və ya [ə]/[ē] infleksiyası

Müqəttəə hərflərinin adlarında [ā]/[ē], [ā̄]/[ē] və ya [ə]/[ē] infleksiyası ح [ḥā] (حمٓ [ḥā mīīīm̃]), ر [ṛā] (الٓر [’ə́lif lə́ə́ə́m̃ ṛā], الٓمٓر [’ə́lif lə́ə́ə́m̃-m̃īīīm̃ ṛā]), ه [hə] və ي [yā̄] (كٓهيعٓصٓ [kə́ə́ə́f hə yā̄ ‘ayə́ə́ə́ṣə́ə́ə́d]) hərflərinin adlarındakı uzun saitin [ā]/[ē], [ā̄]/[ē] və ya [ə]/[ē] infleksiyası hallarını əhatə edir: حمٓ, الٓر, الٓمٓر, كٓهيعٓصٓ. Belə ki, AH-də [ḥā], [ṛā], [hə], [yā̄] müqəttəə hərflərindəki uzun sait tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: [ḥē], [rē], [hē], [yē].

Sözügedən mövqelərdə, yəni müqəttəə hərflərinin adlarında [ā], [ā̄], [ə] uzun saitinin tam realizə ilə tələffüzü AH üçün rəvayət normasıdır. NV-də isə, əksinə, zəif saiti infleksiya norma kimi çıxış edir. İstisna halı 20:1-də [hə] müqəttəə hərfinin adında müşahidə edilən güclü saiti infleksiya ([hē]) əmələ gətirir.

NV-də zəif saiti infleksiya nəticəsində dilarxası [ā], dilarxası və bir qədər dilortası [ā̄] dilarxası-dilortası [ē] ilə əvəzlənir.

5) Sözlərin ortası və ya sonundakı [ā̄ri], [āri] və ya [əri] səs birləşməsindəki [ā̄]/[ē], [ā]/[ē] və ya [ə]/[ē] infleksiyası

Sözlərin ortası və ya sonundakı [ā̄ri], [āri] və ya [əri] səs birləşməsindəki [ā̄]/[ē], [ā]/[ē] və ya [ə]/[ē] infleksiyası aşağıdakı sözləri əhatə edir: ٱلنَّارِ (نَارٍ, نَارِ), ٱلنَّهَارِ (نَهَارٍ, بِٱلنَّهَارِ), دِيَٰرِهِمْ (دِيَٰرِكُمْ, دِيَٰرِنَا, ٱلدِّيَٰرِ), ٱلدَّارِ (دَارِكُمْ, دَارِهِمْ, دَارِ, بِدَارِهِ), ٱلْأَبْصَٰرِ (بِٱلْأَبْصَٰرِ,

ٱلْحِمَارِ, (ٱلْأَنصَارِ) أَنصَارِ, (لِلْأَبْرَارِ) ٱلْأَبْرَارِ, ٱلْكُفَّارِ, (ءَاثَٰرِهِمَا) ءَاثَٰرِهِمْ, (أَبْصَٰرِهِنَّ) بِأَبْصَٰرِهِمْ, أَبْصَٰرِهِمْ, (كَٱلْفُجَّارِ) ٱلْفُجَّارِ, ٱلْفَهَّارِ, (أَقْطَارِهَا) أَقْطَارِ, (أَدْبَارِهِمْ) أَدْبَارِهَا, (أَدْبَارِكُمْ) بِٱلْأَسْحَارِ, كَفَّارٍ, (حِمَارِكَ) قَرَارٍ, (ٱلْقَرَارِ) ٱلْأَخْيَارِ, ٱلْإِبْكَارِ, ٱلْأَحْبَارِ, ٱلْغَارِ, أَخْبَارِكُمْ, ٱلْبَوَارِ, أَوْزَارِ, أَوْبَارِهَا, أَشْعَارِهَا, سَحَّارٍ, أَسْفَارِنَا, ٱلْأَشْرَارِ, ٱلْغَفَّارِ, كَٱلْفَخَّارِ, بِقِنطَارٍ, بِدِينَارٍ, هَارٍ, جَبَّارٍ (بِجَبَّارٍ), صَبَّارٍ, بِمِقْدَارٍ. Belə ki, AH-də [’əñ-ñə́ri] ([nə́ri], [nə́riñ]), [’əñ-ñəhə́ri] ([nəhə́riñ], [biñ-ñəhə́ri]), [diyə́rihiṁ] ([diyə́rikuṁ], [diyə́rinə], [’əd-diyə́ri]), [’əd-də́ri] ([də́rikuṁ], [də́rihiṁ], [də́ri], [bidə́rihi]), [’əl-’əb̆ṣâri] ([bil-’əb̆ṣâri], [’əb̆ṣârihiṁ], [bi’əb̆ṣârihiṁ], [’əb̆ṣârihiññə]), [’əṣə́rihiṁ] ([’əṣə́rihimə]), [’əl-kuffə́ri], [’əl-’əb̆ṛâri] ([lil-’əb̆ṛâri]), [’äñṣâriñ] ([’əl-’äñṣâri]), [’əl-ḥimə́ri] ([ḥimə́rikə]), [kəffə́riñ], [bil-’əsḥâri], [’əd̆bə́rihə] ([’əd̆bə́rikuṁ], [’əd̆bə́rihiṁ]), [’äq̆ṭâri] ([’äq̆ṭârihə]), [’əl-qâhhə́ri], [’əl-fuccə́ri] ([kəl-fuccə́ri]), [qâṛâriñ] ([’əl-qâṛâri]), [’əl-’äxyə́ri], [’əl-’ib̆kə́ri], [’əl-’äḥbə́ri], [’əl-ğâri], [’äxbə́rikuṁ], [’əl-bäv̆âri], [’äuzə́ri], [’äubə́rihə], [’əṣ‘ârihə], [säḥḥâriñ], [’əsfə́rinə], [’əl-’əṣṛâri], [’əl-ğâffə́ri], [kəl-fäxxâri], [biqiñṭâriñ], [bidīnâriñ], [hâriñ], [cəbbə́riñ] ([bicəbbə́riñ]), [ṣâbbə́riñ], [bimiq̆də́riñ] sözlərində [ā̂ri], [āri] və ya [ə̄ri] səs birləşməsindəki uzun sait tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: [’əñ-ñǽri] ([nǽri], [nǽriñ]), [’əñ-ñəhǽri] ([nəhǽriñ], [biñ-ñəhǽri]), [diyǽrihiṁ] ([diyǽrikuṁ], [diyǽrinə], [’əd-diyǽri]), [’əd-dǽri] ([dǽrikuṁ], [dǽrihiṁ], [dǽri], [bidǽrihi]), [’ə́lə-b̆ṣǽri] ([bílə-b̆ṣǽri]), [’əb̆ṣǽrihiṁ], [bi’əb̆ṣǽrihiṁ], [’əb̆ṣǽrihiññə]), [’əṣǽrihiṁ] ([’əṣǽrihimə]), [’əl-kuffǽri], [’ə́lə-b̆ṛǽri] ([lílə-b̆ṛǽri]), [’äñṣǽriñ] ([’ə́lä-ñṣǽri]), [’əl-ḥimǽri] ([ḥimǽrikə]), [kəffǽriñ], [bílə-sḥǽri], [’əd̆bǽrihə] ([’əd̆bǽrikuṁ], [’əd̆bǽrihiṁ]), [’äq̆ṭǽri] ([’äq̆ṭǽrihə]), [’əl-qâhhǽri], [’əl-fuccǽri] ([kəl-fuccǽri]), [qâṛǽriñ] ([’əl-qâṛǽri]), [’ə́lä-xyǽri], [’ə́li-b̆kǽri], [’ə́lä-ḥbǽri], [’əl-ğǽri], [’äxbǽrikuṁ], [’əl-bäv̆ǽri], [’äuzǽri], [’äubǽrihə], [’əṣ‘ǽrihə], [säḥḥǽriñ], [’əsfǽrinə], [’ə́lə-ṣṛǽri], [’əl-ğâffǽri], [kəl-fäxxǽri], [biqiñṭǽriñ], [bidīnǽriñ], [hǽriñ], [cəbbǽriñ] ([bicəbbǽriñ]), [ṣâbbǽriñ], [bimiq̆dǽriñ]. AH-də ٱلْجَارِ [’əl-cə́ri], جَبَّارِينَ [cəbbərī́nə] və خَتَّارٍ [xâttə́riñ] sözləri NV-də istisna olaraq aşağıda şərhi veriləcək alternativli infleksiya ilə qiraət edilir: ٱلْجِارِ [’əl-cə́ri/’əl-cǽri], جَبِّارِينَ [cəbbərī́nə/cəbbərī́nə] və خَتِّارٍ [xâttə́riñ/xât-tǽriñ]. Burada baş verən bir çox halda eyni modeldə baş verməsini əsas götürüb onun morfoloji əsasa söykənməsini iddia etmək mümkün olsa da, zənnimizcə, müşahidə edilən sırf fonetik hadisədir, müəyyən uzun saitin müəyyən səs birləşməsindən gəldiyi halda baş verdiyi infleksiyasıdır.

Sözügedən mövqelərdə, yəni sözlərin ortası və ya sonundakı [ā̂ri], [āri] və ya [ə̄ri] səs birləşməsindəki [ā̂], [ā] və ya [ə̄] tam realizə ilə tələffüzü AH üçün rəvayət normasıdır. NV-də isə, əksinə, zəif saiti infleksiya norma kimi çıxış edir.

NV-də zəif saiti infleksiya nəticəsində dilarxası [ā̂], [ā], dilönü [ə̄] dilarxası-dilortası [ǣ] ilə əvəzlənir.

6) ٱلْكَٰفِرِينَ sözünün fərqli formalarında [ə̄]/[ǣ] infleksiyası

ٱلْكَٰفِرِينَ sözündə [ə̄]/[ǣ] infleksiyası onun işləndiyi fərqli formalarını əhatə edir: ٱلْكَٰفِرِينَ, لِلْكَٰفِرِينَ, كَٰفِرِينَ, بِٱلْكَٰفِرِينَ, بِكَٰفِرِينَ. Belə ki, AH-də [’əl-kə̄firī́nə], [lil-kə̄firī́nə], [kə̄firī́nə], [bil-kə̄firī́nə], [bikə̄firī́nə] formalarında [ə̄] saiti tam realizə ilə, NV-də isə

infleksiya ilə qiraət edilir: [’əl-kæfirī́nə], [lil-kæfirī́nə], [kæfirī́nə], [bil-kæfirī́nə], [bikæfirī́nə]. Burada baş verən infleksiya sırf fonetik hadisədir, müəyyən uzun saitin müəyyən səs birləşməsindən [irī] əvvəl gəldiyi halda baş verdiyi infleksiyasıdır. Çünki, eyni sözün digər modelində infleksiya baş vermir, məsələn, ٱلْكَٰفِرُونَ [’əl-kāfiṛū́nə].

Sözügedən mövqedə, yəni ٱلْكَٰفِرِينَ sözünün [’əl-kāfirī́nə], [lil-kāfirī́nə], [kāfirī́nə], [bil-kāfirī́nə], [bikāfirī́nə] fərqli formalarındakı [ā] uzun saitinin tam realizə ilə tələffüzü AH üçün rəvayət normasıdır. NV-də isə, əksinə, zəif saiti infleksiya norma kimi çıxış edir.

NV-də zəif saiti infleksiya nəticəsində dilönü [ā] dilarxası-dilortası [ǣ] ilə əvəzlənir.

7) Keçmiş zamanda رَأَىٰ (رَءَا) felinin fərqli formalarında [a]/[æ] və [ā]/[ǣ] infleksiyası

Keçmiş zamanda رَأَىٰ (رَءَا) felində saitlərin ([a]/[æ] və [ā]/[ǣ]) infleksiyası işləndiyi fərqli formalarını əhatə edir: رَءَاكَ, رَءَاهُ, فَرَءَاهُ, رَءَاهَا. Belə ki, AH-də [ṛá’ā], [ṛa’ā́kə], [ṛa’ā́hu], [fäṛa’ā́hu], [ṛa’ā́hā] رَأَىٰ (رَءَا) felinin fərqli formalarında həmzədən əvvəl və sonra gələn saitlər tam realizə ilə, NV-də isə infleksiya ilə qiraət edilir: [ṛǽ’ǣǣ], [ṛæ’ǽǣkə], [ṛæ’ǽǣhu], [fäṛæ’ǽǣhu], [fəṛæ’ǽǣhā]. (Bütün hallarda NV-də baş verən infleksiya hallarında *r* samiti akkomodasiya sayəsində incələşir.) Bununla yanaşı, yalnız vəqf etdikdə baş verən hallara da rast gəlinir. Belə ki, رَءَا, رَءَا ٱلْقَمَرَ, رَءَا ٱلشَّمْسَ, رَءَا ٱلَّذِينَ, رَءَا ٱلْمُجْرِمُونَ ifadələrindəki sözlər arasında vəqf edilmədiyi halda həm AH, həm də NV-də göstərilən saitlər tam realizə ilə qiraət edilir: [ṛá’əl-qā́mäṛa], [ṛá’əş-şə̄m̃sə], [ṛá’əl-ləẕī́nə], [ṛá’əl-mučrimū́nə], [ṛá’əl-mu’minū́nə]/[ṛá’əl-mūminū́nə]. Feil üzərində vəqf etdikdə isə NV-də infleksiya ilə qiraət edilir: [ṛǽ’ǣ‖]. Burada baş verən infleksiyanın eyni modeldə baş verməsini əsas götürüb onun morfoloji əsasa söykənməsini qəbul etmək mümkündür.

Sözügedən mövqedə, yəni keçmiş zamanda رَأَىٰ (رَءَا) felinin [ṛá’ā], [ṛa’ā́kə], [ṛa’ā́hu], [fäṛa’ā́hu], [ṛa’ā́hā] fərqli formalarındakı həmzədən əvvəl və sonra gələn saitlər (qısa [a] və uzun [ā]) tam realizə ilə tələffüzü AH üçün rəvayət normasıdır. NV-də isə, əksinə, hər ikisisinin zəif saiti infleksiyası norma kimi çıxış edir.

NV-də zəif saiti infleksiya nəticəsində dilarxası [a] və dilönü [ā] dilarxası-dilortası [æ] və [ǣ] ilə əvəzlənir.

8) ٱلْعُزَّىٰ xüsusi isimdə [ā]/[ǣ] və لَظَىٰ xüsusi isimdə [ā̃]/[ǣ] infleksiyası

ٱلْعُزَّىٰ (53:19) xüsusi ismi (İslamdan əvvəl Ərəbistan yarımadasında sitayiş olunan tanrıçalardan birinin adı) və لَظَىٰ (70:15) xüsusi ismi (Cəhənnəmin, cəhənnəm odunun adlarından biri) AH-də uzun saitləri tam realizə ilə: [’əl-‘úzzā] və [lā́ẓā̃], NV-də isə infleksiya ilə [’əl-‘úzzǣ] və [lā́ẓǣ] qiraət edilir.

Sözügedən mövqedə, yəni ٱلْعُزَّىٰ və لَظَىٰ xüsusi isimlərdəki [ā] və [ā̃] uzun saitinin tam realizə ilə tələffüzü AH üçün rəvayət normasıdır. NV-də isə, əksinə, zəif saiti infleksiya norma kimi çıxış edir.

NV-də zəif saiti infleksiya nəticəsində dilarxası [ā̃], dilönü [ə] dilarxası-dilortası [æ] ilə əvəzlənir.

9) 20, 53, 70, 75, 79-80, 87, 92-93 və 96-cı surələrdə saiti infleksiyanın istisna halları

20, 53, 70, 75, 79-80, 87, 92-93 və 96-cı surələrdə infleksiyanın istisna halları aşağıda şərhi verilən alternativli infleksiyanın istisnalarını əhatə etdiyi üçün şərhi alternativli infleksiya bölümündə verilir.

4. [ə]/[ə], yaxud [æ] alternativli infleksiyası

Ərəb, müsəlman alimləri alternativli infleksiya hadisələrini təsnif edərək əsas prinsip kimi sözlərin yazılışında istifadə olunan *əlif-məqsurə* işarəsini və tərkibində zəif samit olduğunu bildirmək üçün ümumiləşdirilmiş istilahdan istifadə edirlər: ذوات الياء [7]. Biz bu ifrat ümumiləşdirmədən ehtiyat edib fərqli təsnif prinsiplərini tətbiq etdik, çünki hadisənin baş verdiyi sözlərdə həm *əlif-məqsurə* işarəsinin işlənməsi prinsipinə tam riayət olunmur (məs.: دُنْيَا, أَقْصَا sözləri *əlif-məqsurə* ilə yazılmır; yaxud عَلَىٰ, إِلَىٰ, حَتَّىٰ, لَدَى [lədə] ön qoşmalarında infleksiya baş vermir), həm də kök samitləri arasında zəif samitin olması şərt kimi bütün halları əhatə etmir (məs.: خَطَايَا).

Alternativli infleksiya bir hadisə kimi özündə qapanmayıb, digər hadisələrlə qarşılıqlı əlaqə yaradır. Belə ki, alternativli infleksiyain [’] səsindən sonra gələn uzun saitin (*məddi-bədəlin*) kəmiyyətləri və *l* samitinin qalın, yaxud incə səslənməsi ilə qarşılıqlı əlaqələri var.

Məddi-bədəl ilə alternativli infleksiyain qarşılıqlı əlaqəsi ondan ibarətdir ki, məddi-bədəl 2 qısa sait kəmiyyətində uzadıldığı təqdirdə alternativli infleksiya yalnız fəth, 4 qısa sait kəmiyyətində uzadıldığı hada yalnız 4, 6 qısa sait kəmiyyətində uzadıldığı halda isə həm tam realizə ilə, həm də zəif saiti infleksiya ilə qiraət edilə bilər. Bu səbəbdən, 3 seçimi olan məddi-bədəlin və 2 seçimi olan alternativli infleksiyanın əmələ gətirdiyi yalnız 4 qiraət variantı mümkün olur, məsələn, ءَاتَىٰهُمْ feli AH-də [’ətə̃̄hum̃], NV-də isə [’ətə̃̄hum̃/’əətæ̃hum̃/’əəətə̃̄hum̃/’əəətæ̃hum̃] kimi qiraət etmə seçimi var.

l samitinin qalın, yaxud incə səslənməsi ilə alternativli infleksiyain qarşılıqlı əlaqəsi ondan ibarətdir ki, *l* samiti qalın ([ḷ]) tələffüz edildiyi halda alternativli infleksiya tam realizə ilə, incə tələffüz edildiyi halda isə zəif saiti infleksiya ilə qiraət edilir, məsələn, تَصْلَىٰ feli AH-də [tə̃ṣlə̃], NV-də isə ya [tə̃ṣḷā], ya da [tə̃ṣlæ̃] kimi qiraət edilə bilər.

Burada [ə] uzun saitin alternativli infleksiyası dedikdə, həm də onun fərqli çalarları olan [ā̃], [ā], [ā̃] uzun saitlərin infleksiyası halları nəzərdə tutulur. Bütün hallarda tam realizə ilə qiraət əvəzinə alternativli zəif saiti infıeksiya (*fəth* əvəzinə ya *fəth*, ya da *təqlil*) nəzərdə tutulur. Sözügedən uzun saiti infleksiya hallarını təhlil etdikdən sonra onları yaranma səbəbləri və özəl xüsusiyyətlərinə görə 3 qrupa ayırmaqla təsnifi mümkün olmuşdur:

1) II kök samiti [r] olmayan, III kök samiti zəif [y] və ya [ṵ] olan sözlərdə [ə], [ā̃], [ā] və ya [ā̃] səslərinin alternativli infleksiyası;

2) III kök samiti [r] olmayan فُعْلَى, فَعْلَى, فِعْلَى ilə فُعَالَى, فَعَالَى modellərində olan sözlərdə son uzun saitin alternativli infleksiyası

3) عَسَىٰ, بَلَىٰ, مَتَىٰ və أَنَّىٰ köməkçi sözlərdə, مُوسَىٰ, عِيسَىٰ və يَحْيَىٰ xüsusi isimlərdə, يَٰوَيْلَتَىٰ, يَٰأَسَفَىٰ və يَٰحَسْرَتَىٰ ifadələrində son uzun saitin alternativli infleksiyası.

1) II kök samiti [r] olmayan, III kök samiti zəif [y] və ya [ṵ] olan sözlərdə [ə], [ā̈], [ā] və ya [ā̂] səslərinin alternativli infleksiyası

II kök samiti [r] olmayan, III kök samiti zəif [y] və ya [ṵ] olan sözlərdə [ə], [ā̈], [ā] və ya [ā̂] səslərinin alternativli infleksiyası hallarını öz növbəsində aşağıdakı kimi nəzərdən keçirmək məqsədəuyğundur: II kök samiti [r] olmayan, III kök samiti zəif [y] olan isim və sifətlərdə; II kök samiti [r] olmayan, III kök samiti zəif [y] olan feillərdə; II kök samiti [r] olmayan, III kök samiti zəif [ṵ] olan isim və sifətlərdə; II kök samiti [r] olmayan, III kök samiti zəif [ṵ] olan feillərdə.

II kök samiti [r] olmayan, III kök samiti zəif [y] olan isim və sifətlərdə [ə], [ā̈], [ā] və ya [ā̂] səslərinin alternativli infleksiyası ٱلْهُدَىٰ ['əl-húdə̄] (بِٱلْهُدَىٰ [bil-húdə̄], هُدَاىَ [hudə̆yə], هُدَىٰهُمْ [hudə̆hum̃], فَبِهُدَىٰهُمْ [fəbihudə̆hum̃], هُدَىٰهَا [hudə̆hā]), ٱلْمَأْوَىٰ ['əl-mə́'ṵā] (مَأْوَىٰهُ [mə'ṵ̆hu], مَأْوَىٰكُمْ [mə'ṵ̆kum̃], مَأْوَىٰهُمْ [mə'ṵ̆hum̃], فَمَأْوَىٰهُمْ [fəmə'ṵ̆hum̃]), ٱلْمَوْلَىٰ ['əl-mä́ulə̄] (مَوْلَىٰ [mä́ulə̄], مَوْلَىٰهُ [mäulə̆hu], مَوْلَىٰنَا [mäulə̆nə̄], مَوْلَىٰكُمْ [mäulə̆kum̃], مَوْلَىٰهُمْ [mäulə̆hum̃]), ٱلْأَعْمَىٰ ['əl-'ä'mə̄] (أَعْمَىٰ ['ä'mə̄], كَٱلْأَعْمَىٰ [kəl-'ä'mə̄]), أَوْلَىٰ ['äulə̄] (فَأَوْلَىٰ [fə'äulə̄]), ٱلْهَوَىٰ ['əl-häṵā] (هَوَىٰهُ [häṵ̆hu]), أَهْدَىٰ ['əhdə̄] (بِأَهْدَىٰ [bi'əhdə̄]), مَثْوَىٰهُ [məṯṵ̆hu] (مَثْوَاىَ [məṯṵ̆yə], مَثْوَىٰكُمْ [məṯṵ̆kum̃]), مَثْنَىٰ [mə́ṯnə̄], فَتَىٰهَا [fətə̆hā] (لِفَتَىٰهُ [lifətə̆hu]), أَبْقَىٰ ['əbqä̂], ٱلْأَذَىٰ ['əl-'əẓə̄] (أَذَىٰهُمْ ['əẓə̆hum̃]), تُقَىٰةً [tuqä̂təñ] (تُقَاتِهِ [tuqä̂tihi]), مَحْيَآيَ [mäḥyə̆yə] (مَحْيَاهُمْ [mäḥyə̆hum̃]), ٱلنَّوَىٰ ['ən-ñäṵā], ٱلزِّنَىٰ ['əz-zínə̄], أَحْصَىٰ ['äḥṣä̂], إِنَىٰهُ ['inə̆hu], أَخْزَىٰ ['äxzə̄], ٱلْعَمَىٰ ['əl-'ámə̄], أَتْقَىٰكُمْ ['ətqä̂kum̃], أَدْهَىٰ ['əd̆hə̄], مَرْعَىٰهَا [mäṛ'ä̂hə̄], مُنتَهَىٰهَا [mun̄tə̆hə̆hə̄] isim və sifətlərindəki III kök samiti yerində uzun sait tam realizə ilə, NV-də isə alternativli infleksiya ilə qiraət edilir: ٱلْهُدَىٰ ['əl-húdə̄/'əl-húdǣ] (بِٱلْهُدَىٰ [bil-húdə̄/bil-húdǣ], هُدَاىَ [hudə̆yə/hudæ̆yə], هُدَىٰهُمْ [hudə̆hum̃/hudæ̆hum̃], فَبِهُدَىٰهُمْ [fəbihudə̆hum̃/fəbihudæ̆hum̃], هُدَىٰهَا [hudə̆hā/hudæ̆hā]), ٱلْمَأْوَىٰ ['əl-mə́'ṵā/'əl-mə́'ṵǣ] (مَأْوَىٰهُ [mə'ṵ̆hu/mə'ṵ̆æ̆hu], مَأْوَىٰكُمْ [mə'ṵ̆kum̃/mə'-ṵ̆æ̆kum̃], مَأْوَىٰهُمْ [mə'ṵ̆hum̃/mə'ṵ̆æ̆hum̃], فَمَأْوَىٰهُمْ [fəmə'ṵ̆hum̃/fəmə'ṵ̆æ̆hum̃]), ٱلْمَوْلَىٰ ['əl-mä́ulə̄/'əl-mä́ulǣ] (مَوْلَىٰ [mä́ulə̄/mä́ulǣ], مَوْلَىٰهُ [mäulə̆hu/mäulæ̆hu], مَوْلَىٰنَا [mäu-lə̆nə̄/mäulæ̆nə̄], مَوْلَىٰكُمْ [mäulə̆kum̃/mäulæ̆kum̃], مَوْلَىٰهُمْ [mäulə̆hum̃/mäulæ̆hum̃]), ٱلْأَعْمَىٰ ['ə́lä-'mə̄/'ə́lä-'mǣ] (أَعْمَىٰ ['ä'mə̄/'ä'mǣ], كَٱلْأَعْمَىٰ [kə́lä-'mə̄/kə́lä-'mǣ]), أَوْلَىٰ ['äulə̄/'äulǣ] (فَأَوْلَىٰ [fə'äulə̄/fə'äulǣ]), ٱلْهَوَىٰ ['əl-hə́ṵā/'əl-hə́ṵǣ] (هَوَىٰهُ [häṵ̆hu/häṵ̆æ̆hu]), أَهْدَىٰ ['əhdə̄/'əhdǣ] (بِأَهْدَىٰ [bi'əhdə̄/bi'əhdǣ]), مَثْوَىٰهُ [məṯṵ̆hu/məṯṵ̆æ̆hu] (مَثْوَاىَ [məṯṵ̆yə/məṯṵ̆æ̆yə], مَثْوَىٰكُمْ [məṯṵ̆kum̃/məṯṵ̆æ̆kum̃]), مَثْنَىٰ [mə́ṯnə̄/mə́ṯnǣ], فَتَىٰهَا [fətə̆hā/fətæ̆hā] (لِفَتَىٰهُ [lifətə̆hu/lifətæ̆hu]), أَبْقَىٰ ['əbqä̂/'əbqǣ], ٱلْأَذَىٰ ['ə́lä-ẓə̄/'ə́lä-ẓǣ] (أَذَىٰهُمْ ['əẓə̆hum̃/'əẓæ̆hum̃]), تُقَىٰةً [tuqä̂təñ/tuqæ̆təñ] (تُقَاتِهِ [tuqä̂tihi/tu-qæ̆tihi]), مَحْيَآيَ [mä́ḥyə̆ə̆ə̆y/mä́ḥyæ̆æ̆æ̆y] (مَحْيَاهُمْ [mäḥyə̆hum̃/mäḥyæ̆hum̃]), ٱلنَّوَىٰ ['ən-ñäṵā/'ən-ñäṵǣ], ٱلزِّنَىٰ ['əz-zínə̄/'əz-zínǣ], أَحْصَىٰ ['äḥṣä̂/'äḥṣǣ], إِنَىٰهُ ['inə̆hu/'inæ̆hu], أَخْزَىٰ ['äxzə̄/'äxzǣ], ٱلْعَمَىٰ ['əl-'ámə̄/'əl-'ámǣ], أَتْقَىٰكُمْ ['ətqä̂kum̃/'ətqæ̆kum̃], أَدْهَىٰ

Автор полемизирует с отдельными исследователями звуков арабского языка, определяет свое отношение к тем или иным процессам хамзы в разных ситуациях. Научная новизна заключается в попытке выйти за рамки застоявшихся обобщительных формулировок и представлений среднековых грамматистов, которым в отдельных случаях все еще придерживаются современные арабские исследователи. Процессы, имеющие место в передаче Варша вызывают определенный научный интерес, так как, данная передача получила распространение на «мусульманском Востоке» и исследуется, в основном, египетскими, марокканскими, алжирскими, тунисскими и др. «восточными мусульманами».

Передача Варша почти вовсе не знакома или знакома информативно научной аудитории Азербайджана – представительнице «мусульманского Запада».

Работа представляет интерес с точки зрения поэтапного выявления процессов комбинаторных изменений хамзы всем, кто тем или иным образом связан с изучением звуковой стороны языка, преподаванием фонетических основ, в частности, арабского языка.

Ключевые слова: *вокалическая инфлексия, Коран, чтение Асима, передача Хафса, чтение Нафи, передача Варша, сильная ималя, слабая ималя, таглиль*.

V.Garadaghli

Comparative studying of modification of /'/ (hamza)
in differenses between hafs and warsh transmissions

Summary

The article analyzes the combination and positional changes of the Hamza in the differences between the widespread readings of the Koran in the Muslim world: the reading of Asim in the Hafs transmission and the reading of Nafi' in the Warsh transmission. The phonetic processes of Hamza occurring in the transmissions are studied both in separate transmissions and in comparison with each other. The author, utilizing the comparative method, analyzes all cases of differences in Hamza in the two transmissions and classifies them according to the ongoing process.The author debates with individual scholars on the sounds of the Arabic language and defines his attitude to certain processes of Hamza in different situations.Scientific novelty consists in an attempt to go beyond the framework of stagnant generalized formulations and representations of Medieval grammarians, which in some cases are still adhered to by modern Arab scholars. The processes taking place in the Warsh transmission evoke a certain scientific interest, since this version has become popular in the "Muslim East" and is studied mainly by Egyptian, Moroccan, Algerian, Tunisian and other "Eastern Muslim scientists".This transmission of Warsh is almost completely unknown or only known to the informatively scientific audience of Azerbaijan – the representative of the "Muslim West". The work is of interest from the point of view of the phased identification of the processes of combinatorial changes of the Hamza to all those who are in one way or another connected with the study of the sound side of the language, the teaching of phonetic foundations, in particular, in the Arabic language.

Key terms: vocalic inflection, Qur'an, Coran, Koran, Quran, Asim, Nafi, reading, Hafs, Warsh, transmission, heavy imala, light imala, taqlil.

Redaksiyaya daxil olma tarixi: 20.10.2019
Çapa qəbul olunma tarixi:14.01.2020
Filologiya elmləri doktoru, professor Çimnaz Mirzəzadə tərəfindən çapa tövsiyə olunmuşdur

AFAQ AĞAYEVA
Filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
e-mail: afag.agayeva 58@ gmail.com

AZƏRBAYCAN DİLİ HAQQINDA
(Texniki ali məktəblərdə Azərbaycan dili və nitq mədəniyyəti məşğələləri üçün nəzəri material)

Xülasə

Bu məqalədə texniki ali məktəb tələbələri üçün nəzərdə tutulmuş məlumatlar verilir. "Azərbaycan dili" termininin ilk dəfə işləndiyi haqda fikirlər çatdırılır. Türk dilinin mənşəyi ilə bağlı Dm. Yeremeyevin məlumatı verilir. Həm elmi məqsədlə, həm də mövzunun maraqlı olması üçün dillərin yaranma nəzəriyyə və əfsanələri təsvir edilir.

Afat Qurbanov həmin nəzəriyyələri çox maraqlı tərzdə qurmuşdur.

Digər tərəfdən isə məktəb dövründən bildiyi bir informasiya təkzib edilir. Yəni guya əşyalara Dədə Qorqud ad vermişdir. Halbuki, Dədə Qorqud real şəxsiyyət olmayıb. Bədii əsərin surəti olub.

Şah İsmayıl Xətainin dövründə türk dili - Azərbaycan dili dövlət dili hesab edilirdi.

Dostoyevskiyə görə, xalq – dil deməkdir. Dil deyəndə də, xalq nəzərdə tutulmalıdır. "Kitabi- Dədə Qorqud" dastanları məhz xalq dilində olduğu üçün ömrü uzundur.

Dədə Qorquddan sonrakı dvrü isə Nəsimi dövrü adlandırmaq olar. Nəsimi dilimizə yeni təşbehlər, ifadələr gətirdi (XIV əsr).

XV-ci əsrdə Xətainin "Dəhnamə"si xüsusi əhəmiyyətə malikdir. Həmin poemada türk mənşəli sözlər - 70%-dir.

H.Əliyevin hakimiyyəti dövründə bu sahədə çox mühüm işlər görüldü. Azərbaycan dili rəsmi dövlət dili oldu. Lakin dili qorumaq həm də gənclərin, tələbələrin vəzifəsidir!

Açar sözlər: Azərbaycan dili, türk dili, ünsiyyət, xalq, dövlət.

Texniki ali məktəbin tələbələri "Azərbaycan dili haqqında məlumat" mövzusunu keçərkən nələri bilməlidirlər? Təqdim olunan məqalədə sözü gedən mövzu üçün tərtib etdiyim mətni vermək istəyirəm.

Dilçi alimlər "Azərbaycan dili" termininin ilk işlənmə tarixini XI əsrdən hesablayırlar. Azərbaycanlı şair və alim Xətib Təbrizi (XI əsr) öz müəllimi ilə mükali-

mə vaxtı Azərbaycan əhalisinin dilini Azrəbi dili adlandırmışdır.

B.Xəlilov XII əsrdə "Azərbaycan dili" kəlməsinin dəfələrlə işləndiyini qeyd edir: "Azərbaycan dili" termininin hansı dövrdən işlənməsi də maraq doğurur. Dilçilik elmində belə bir fikir mövcuddur ki, guya "Azərbaycan dili" termini XX əsrin 30-cu illərinin məhsuludur. Halbuki, son tədqiqatlara görə bu termin ən azı 700 il bundan əvvəl işlənməyə başlanmışdır. "Azərbaycan dili" terminə Hinduşah Naxçıvaninin (1292-1370) lüğətində təsadüf olunmuşdur.

Dm. Yeremeyevin verdiyi məlumata görə isə türk dilinin mənşəyi tyurk qəbiləsinin dilindən götürülmüşdür. Rus terminologiyasında "turok" və "tyürk" sözləri işlədilir. Bizim eyni dildə danışmağımız bəzən bizi
yaxınlaşdırmaq əvəzinə, uzaqlaşdırır.
Danışdıqca uzaqlaşdırır!
H.Həsənoğlu
(epiqraf)

Dillərin yaranması ilə bağlı müxtəlif nəzəriyyələr və əfsanələr mövcuddur. Professor Afat Qurbanov əfsanələrdən birini şərh edərək yazır ki, guya qeyri-təbii qüvvə tərəfindən yaradılmış insanlar müəyyən zaman yaşadıqdan sonra kim tərəfindən yaradıldıqları haqqında düşünmüş və həmin qüvvəni görmək istəmişlər.

Buna görə də, hələ vahid dildə "danışan" insanlar bir yerə yığılmış, şəhər salmış və göyə qalxmaq üçün bir qüllə qurmağa başlamışlar. Onlar bu qülləni sürətlə gündən-günə ucaltmışlar. Bundan qəzəblənən Allah insanlardan onun yanına gələ bilməsinin qarşısını almaq üçün tədbir tökməli olmuşdur. O bu məqsədlə qülləni tikən insanların hər birinə müxtəlif dil vermişdir. Bundan sonra ayrı-ayrı dildə danışan insanlar bir-birini başa düşməmiş və bu işdən əl çəkmişlər.

Başqa nəzəriyyəyə görə, guya hər bir qəbilənin, tayfanın və xalqın içərisindən çıxmış dahi şəxsiyyətlər öz qəbilə, tayfa və xalqının dilindəki sözləri yaratmış və bunun da əsasında müxtəlif dillər əmələ gəlmişdir.

Belə ki, məsələn, Azərbaycan xalqı arasında təkcə adamların deyil, hətta bütün əşya adlarının da Qorqud tərəfindən qoyulduğu barədə rəvayət vardır. Bu rəvayətdə deyilir ki, bütün şeylərə ad qoymuş Dədə Qorqud sonradan dərk etmişdir ki, dörd adı yanlış qoymuşdur.

Azərbaycan dilindəki əşyaların Dədə Qorqud tərəfindən adlandırılmasına dair olan bu rəvayətdə həqiqət yoxdur. Çünki xalqımızın tarixində Dədə Qorqud adlı real şəxsiyyət olmamışdır. Dədə Qorqud xalq bədii təfəkkürünün məhsulu olan dastanlarda yaradılmış bədii surətdir. Şübhəsiz ki, əgər belə şəxsiyyət olsa idi, əşyaları o yox, bütün xalq adlandırmalı idi və belə də olmuşdur.

Bu tipli mülahizə və görüşlər bir sıra başqa qədim ölkələrdə, o cümlədən Amerika, Afrika və Avropada da olmuşdur. Reallığa gəldikdə isə görürük ki, əşyaları ad-

landırmaqda yox, dili qoruyub saxlamaqda, inkişaf etdirməkdə və ünsiyyət vasitəsinə çevirməkdə ayrı-ayrı dahi şəxsiyyətlərin rolu inkaredilməzdir. Belə şəxsiyyətlərdən biri də Şah İsmayıl Xətaidir.

Coğrafi sərhədləri Kiçik Asiyadan Orta Asiyaya, Şirvandan İraqa qədər uzanan Şah İsmayıl Xətainin qurduğu nəhəng Səfəvilər dövlətinin rəsmi dövlət dili türk dili (Azərbaycan dili) hesab edilirdi.

Heratdan başlayaraq Bağdada qədər böyük ərazi zolağında Azərbaycan dili ünsiyyət vasitəsi kimi tanınırdı. O dövr Qərb ölkələrindən bu yerlərə səyahətə gələn ekspedisiyaların fikrincə türk dili "saraydan tutmuş yüksək rütbəli və mötəbər şəxslərin evlərinə kimi yayılmış və nəticədə elə olmuşdur ki, şahın hörmətini qazanmaq istəyən hər bir kəs bu dildə danışırdı".

XVII-XIX əsrlərdə **türk dili** İraqdan başlayaraq Hindistana qədər böyük bir ərazidə ilk dövrlər məişət səviyyəsində millətlərarası ünsiyyət vasitəsinə çevrilmiş, sonralar isə cəmiyyətdə baş verən proseslərlə əlaqədar olaraq əvvəlcə ərəb, sonra fars dillərini sıxışdırmışdır, danışıq dilinə və ədəbi dilə çevrilmişdir.

Azərbaycan dili müstəqil Azərbaycan dövlətinin rəmzləri olan himn, gerb, bayraq kimi müqəddəsdir (B.Xəlilov). Dostoyevski **xalq** sözünü **dil** sözü ilə sinonim sayırdı. Dilimizin əzəli başlanğıcı görkəmli alim Əbdüləzəl Dəmirçizadənin sürgündən qorxmayaraq Azərbaycan dilində yazıldığını israr etdiyi "Kitabi-Dədə Qorqud"la başlanır.

"Dədə Qorqud"da bu gün belə çətinlik çəkmədən anlayacağımız parçalar çoxdur. Bu parçalarda xalq şüuru, xalq dili əsas yer tutduğundan, onların ömrü də uzundur. "Dədə Qorqud"un təqribən 1000 il bundan əvvəl yazılmasına baxmayaraq, dili sadə və mənalıdır.

Professor Buludxan Xəlilov qeyd edir ki, "Dədə Qorqud"dan sonra Azərbaycan dilinin inkişafındakı xüsusi mərhələni Nəsimi dövrü adlandırmaq olar. Nəsimi Azərbaycan dilini əsrinin qabaqcıl fikir və arzularını ifadə edən yüksək bir dil səviyyəsinə qaldırdı. Nəsimi dilimizi təbliğat və təşviqat dilinə çevirdi.

Nəsimi dilimizə tamamilə yeni təşbehlər, ifadələr, fikirlər gətirdi. Bəzən Nəsimini anlamaq çətinliyi onun dilinin qəlizliyindən deyil, ifadə etdiyi fəlsəfi fikirləri dərk etmək üçün müəyyən tarixi, elmi, fəlsəfi hazırlığın yoxluğundan irəli gəlir.

XV əsrin nümayəndəsi olan Xətainin əsərləri içərisində "Dəhnamə" xüsusilə seçilir. Bu poema dil tariximiz üçün çox əhəmiyyətli bir əsərdir. "Dəhnamə" poemasının lüğət tərkibi üzərində aparılmış statistik təhlilə nəzər salsaq, bu poemanın 15 beytlik bir parçasında Azərbaycan-türk mənşəli sözlər – 70 (59%), qeyri-türk mənşəli sözlər – 32 (47%)-dir; buradan: *a*) anlaşıqlı sözlər – 40 (30%); *b*) qeyri-anlaşıqlı sözlər – 22 (17%) təşkil edir.

Heydər Əliyevin qayğısı sayəsində Azərbaycan dilinin istifadə imkanları ilə bağlı aşağıdakı mühüm işlər görüldü:

1) Azərbaycan dilinin rəsmi dövlət dili olması təmin edildi.

2) Azərbaycanda uşaq bağçalarından başlamış ali məktəblərə qədər təhsilin ana dilində aparılmasına üstünlük verildi.

3) Kütləvi informasiya vasitəsilərinin dili kimi Azərbaycan dilinə üstünlük verildi.

4) Azərbaycan dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirildi və onların bir qismi «Müasir Azərbaycan dili» dərsliyinə görə Dövlət mükafatına layiq görüldü.

5) Dünyada yaşayan 51 milyondan çox azərbaycanlının hər biri anladı ki, onların doğma ana dili Azərbaycan dilidir. Ona görə də xarici ölkələrdə yaşayan azərbaycanlılar yaşadıqları ölkələrdə Azərbaycan dilində radio, televiziya verilişləri yayımlamalı, qəzet və jurnallar nəşr etdirməli, məktəblər yaratmalıdırlar. Odur ki, bu istiqamətdə xeyli işlər görüldü.

6) Dövlət orqanlarında çalışanların hər biri Azərbaycan dilinə təkcə ünsiyyət vasitəsi kimi deyil, həm də dövlət dili kimi yanaşmalı oldular.

7) Azərbaycan dili elm, mədəniyyət, siyasət, iqtisadiyyat, hüquq və s. dili kimi özünü təsdiq etdi və s..

8) Respublika Prezidentinin 9 avqust 2001-ci il fərmanı ilə avqustun 1-i ana dili və əlifba günü kimi təsis edildi.

Heydər Əliyev Azərbaycan dilini təkcə ünsiyyət vasitəsi kimi qiymətləndirmir, həm də doğma ana dilinin arxasında klassiklərimizin, milli-mənəvi dəyərlərimizin, millətin özünün dayandığını öz nitqində həmişə nəzərə çatdırırdı.

Bu gün Azərbaycan dili türk dilləri ailəsinin ən inkişaf etmiş dillərindən biridir. Hazırda Azərbaycan dilini öyrənməklə məşğul olan ayrıca bir elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir. Azərbaycan dilini öyrənməklə Azərbaycan Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu ilə yanaşı, universitetlərin dilçilik kafedraları da ciddi araşdırmalar aparır.

Azərbaycan dilinin qloballaşma şəraitində tələblərə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı 2013-2020-ci illər ərzində bu istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Dili qorumaq təkcə dilçilərin deyil, əziz tələbələr, sizin də müqəddəs vəzifənizdir. Görkəmli alim, akademik Nizami Cəfərov verdiyi müsahibələrin birində demişdir ki, ingilislərin ingilis dili qrammatikasını necə mənimsədiklərini yoxlamaq üçün İngiltərə vətəndaşları arasında düzgün yazı qaydaları üzrə müsabiqə keçirilmişdir. Ölkə üçün təəssüfləndirici haldır ki, bu müsabiqədə I yeri ingilislər yox, koreyalılar tutmuşdur.

Biz onlardan nümunə götürməyək. Litva xalqı kimi edək: öz dilində danışmayan adam cərimə olunur.

Mövzunu ulu öndər H.Əliyevin Azərbaycan dili haqqında fikirlərindən bir parça ilə bitirmək istəyirəm:

“Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.

Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.

Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir. XX əsrdə xalqımızın bu sahədə əldə etdiyi uğurları yüksək təqdirə layiqdir. Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində böyük inkişaf yolu keçərək lüğət tərkibini zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur.

Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir”.

Heydər Əliyev

Ədəbiyyat

1. Cəfərov M. Ağıla və qəlbə işıq saçan sözlər. Bakı, Nurlan, 2014, 568 s..
2.Çobanov M. Azərbaycan dili (Nitq mədəniyyəti). Bakı, Elm, 2006, 151 s..
3. Çobanov M. Azərbaycan şəxs adları. Bakı, Təhsil, 2017, 106 s..
4.Xəlilov B. Azərbaycan dili: milli varlığımız, mənəvi sərvətimiz. Bakı, Bakı Çap Evi, 2013, 268 s..
5.Qurbanov A. Ümumi dilçilik, I hissə (dərslik). Bakı, Maarif, 1989, 568 s..

А.Агаева

Об Азербайджанском Языке
(Теоретический материал для уроков Азербайджанского языка и культуры речи в технических ВУЗ-ах)

Резюме

В данной статье предоставляется важная и интересная информация о языке для технических ВУЗ-ов. Говорится о первичном использовании термина «Азербайджанский язык». Приводится цитата Дм. Еремеева. Предоставляются интересные теории и легенды о появлении языков. А.Курбанов очень тщательно работал над составлением этих текстов.

В школе нынешние студенты изучали такую версию, что всем предметам дал название Деде Коркуд. Но здесь, в данном материале

опровергается этот тезис. Потому, что Деде Коркуд не был реальной личностью.

Он был лишь персонажем. Во время царствования Шах Исмаила Хатаи тюркский, т.е. азербайджанский язык считался государственным языком. Ф.М.Достоевский под словом «народ» подразумевал «язык». Значит, когда говорим «язык», надо подразумевать «народ».

Именно по той причине, что язык Книги «Деде Коркуд» близок и доступен народу, он живет и по сей день.

Следующую эпоху можно назвать именем Насими (XIV век). Он использовал новые метафоры, новые фразы.

А в XV веке славился «Дехнаме» Хатаи.

70% лексического состава поэмы были словами тюркского происхождения.

Но в годы правления Г.Алиева азербайджанскому языку уделяли особое внимание. Азербайджанский язык стал государственным языком. А в развитии родного языка должны активно участвовать и студенты, и молодое поколение!

Ключевые слова: Азербайджанский язык, тюркский язык, общение, народ, государство.

A.R.Agayeva

About The Azerbaijani Language
(Theoretical material for the classes of Azerbaijani language and speech culture in technical universities)

Summary

Important and interesting information on the language at the technical universities has been presented in the article. Primary use of the term «Azerbaijani language» is spoken. D.Eremeyev's citation is presented. Interesting theories and legends on the languages occurence are presented. A.Kurbanov worked very thoroughly on compiling these texts.

At school current students studied such a version that all objects were named by Dede Korkud. But in this material this thesis is disproved. Because, Dede Korkud wasn't a real person.

He was only a character. During Shah Ismayil Khatai's ruling, Turkish, that is, the Azerbaijani language was considered the official language. F.M.Dostoyevski under the word «people» meant «language».

Therefore, when we say «language» we must mean «people».

It is that for reason that the language of the book «Dede Korkud» is close and available to the people, it is alive to this day.

The next era can be called by Nasimi's name (XIV century). He used new metaphors, new phrases.

And «Dehname» by Khatai was famous in XV century.70% lexical content of the poem were the word of Turkish origin. But during A.Aliyev's ruling the Azerbaijani language was paid special attention. The Azerbaijani language became official language. And in the development of the native language both students and young generation should take an active part.

Key words: Azerbaijani language, Turkish language, communication, people, state.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 01.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Yusif Yusifov
tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL DƏNZİYEVA
Lənkəran Dövlət Universteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
General Həzi Aslanov xiyabanı
kenuldeniz@mail.ru

AZƏRBAYCAN FOLKLOR MATERİALLARINDA TƏKTƏRKİBLİ CÜMLƏ STRUKTURLARI

Xülasə

Müasir dövrdə folklor materialları itmək üzrədir. Ona görə də xalqın milli mədəniyyətini özündə əks etdirən bu materiallar üzərində tədqiqat aparmaq zəruridir. Folklor materiallarında işlənən sadə cümlələr baş üzvlərin iştirakına görə cüttərkibli və təktərkibli olmaqla iki qrupa bölünür. Cüttərkibli cümlələr hər iki baş üzvün iştirakı ilə qurulan cümlələrdir. Təktərkibli cümlələr isə baş üzvlərdən yalnız birinin əsasında formalaşır. Belə cümlələr qurularkən digər baş üzvə ehtiyac olmur.

Təktərkibli cümlələrin bir qismində mübtəda, digər qismində isə xəbər iştirak etmir. Bu baxımdan mübtədasız təktərkibli cümlələr və xəbərsiz təktərkibli cümlələr olmaqla iki qrupa bölünür. Mübtədasız təktərkibli cümlələrə qeyri-müəyyən şəxsli cümlələr, ümumi şəxsli cümlələr və şəxsiz cümlələr, xəbərsiz təktərkibli cümlələrə isə adlıq cümlə daxildir.

Qeyri-müəyyən şəxsli cümlələr qeyri-müəyyən şəxs tərəfindən icra edilən iş və hərəkəti bildirmək üçün işlədilən təktərkibli sadə cümlələrdir. Ümumi şəxsli cümlələr iş və hərəkətin hamıya aid olduğunu bildirən təktərkibli cümlə strukturlarıdır. Folklor materiallarında işlənən şəxssiz təktərkibli cümlə strukturlarında mübtəda olmur, fikir predmeti xəbərlə birlikdə təsəvvür edilir. Folklor materiallarında təktərkibli cümlə strukturlarından olan adlıq cümlələrə də rast gəlinir. Belə cümlələrdə əşyanın, hadisənin mövcudluğu intonasiyanın köməyi ilə təsdiq edilir.

Azərbaycan folklor materialları təktərkibli cümlə strukturları ilə zəngindir. Bu cümlə strukturları fikrin qısa, yığcam, emosional ifadəsinə xidmət göstərir. Bunların toplanılıb araşdırılması tarixi sintaksisə zəngin material verəcəkdir.

Açar sözlər: cümlə, təktərkibli cümlə, qeyri-müəyyən şəxsli cümlə, ümumi şəxsli cümlə, şəxssiz cümlə, adlıq cümlə

Müasir dövrdə qloballaşma şəraitində folklor materialları itməyə doğru meyillidir. Ona görə də xalqın milli mədəniyyətini özündə əks etdirən bu materiallar üzərində tədqiqat aparmaq zəruridir. Xüsusən, folklor sintaksisi az tədqiq olunan sahədir. Eləcə də folklor sintaksisinə daxil olan cümlə strukturları yazılı ədəbi dil baxımından tədqiq olunsa da, şifahi dil nümunələri olan folklor materialları əsasında ayrıca sistemləşdirilib tədqiqata cəlb olunmamışdır. Belə ki, cümlə strukturları milli folk-

lorumuzun mahiyyətini, məzmununu, semantikasını, üslubunu əks etdirən dil vasitələridir. Bu vasitələrin toplanıb tədqiq edilməsi milli mədəniyyətimizin yaşatması baxımından çox əhəmiyyətlidir.

Bundan əlavə folklor materiallarındakı cümlə strukturları milli mədəniyyətimizi əks etdirən tonik, ritmik, melodik ahəngdarlığa malik nitq parçalarıdır. Nitq prosesində bu parçalardan əsaslı şəkildə istifadə etməklə nitqin emosionallığını, ahəngdarlığını, ifadəliliyini təmin etmək olur. Bunların toplanılıb araşdırılması nitq mədəniyyətinin də inkişafında böyük əhəmiyyət kəsb edəcəkdir.

Cümlə bitmiş fikr ifadə edən və dilin qrammatik normaları əsasında formalaşan sintaktik vahiddir. Nitq prosesində cümlələr vasitəsilə ünsiyyət qurulur və fikir mübadiləsi edilir. Cümlənin tərkibini təşkil edən vahidlər hər bir dilin daxili qanunlarına uyğun olaraq məna və qrammatik cəhətdən bir-biri ilə əlaqələnərək cümləni yaradır. Məsələn: Mən maraqlı kitab oxuyuram – cümləsindəki vahidlər: "mən oxuyuram", "kitab oxuyuram" – qrammatik cəhətdən, "maraqlı kitab" isə məna cəhətdən bir-biri ilə əlaqələnmiş və fikrin ifadəsinə xidmət göstərmişdir.

"Cümlə predikativliyə, modallığa, bitkinlik intonasiyasına malik olan bir səslə, bir sözlə, bir söz birləşməsi və sözlərin müxtəlif şəkildə birləşməsi ilə ifadə oluna bilir. Məsələn:

- Bizim qonşu Kərim...
- A... A... A...
- Bəli, hə, hə...
- O nə qayırıb, de görüm? (Sabir)
- Bu maşınları nə üçün qırmızı rəngləyirlər?
- Yanğın əlamətidir. (S.Əhmədov)

Bu misralarda nöqtələrlə (və nöqtə hüdudunda sual işarələri ilə) ayrılmış hər bir nitq vahidi müəyyən fikri ifadə edir və cümlə hər bir dil vahidindən – səslərdən, sözlərdən, söz birləşmələrindən formalaşa bilir." (4 , 77)

Dildə cümlənin böyük əhəmiyyəti vardır. Belə ki, ünsiyyət vasitəsi olan dil cümlələrdən təşkil olunmuşdur. Dildəki cümlələr quruluşuna görə sadə və mürəkkəb olmaqla iki qrupa bölünür. Bir qrammatik əsası olan cümlələr sadə, iki və daha artıq qrammatik əsası olan cümlələr mürəkkəb cümlə adlanır. Məsələn: Ürəyinə görə Allah payını versin! Allah köməyin olsun! (Alqış) – cümlələrinin bir qrammatik əsası olduğu üçün sadədir.

O şalı, şalı, şalı
Örtək başına şalı.
Gələnlər görsün, bilsin,

Bizim gəlin həyalı (toy mahnısı) – nümunədəki "Gələnlər görsün, bilsin, bizim gəlin həyalı" – cümləsinin iki qrammatik əsası olduğu üçün mürəkkəb cümlədir.

Sadə cümlələr baş üzvlərin iştirakına görə cüttərkibli və təktərkibli olmaqla iki qrupa bölünür. Cüttərkibli cümlələr hər iki baş üzvün iştirakı ilə qurulan cümlə-

lərdir. Təktərkibli cümlələr isə baş üzvlərdən yalnız birinin əsasında formalaşır. Belə cümlələr qurularkən digər baş üzvə ehtiyac olmur.

Təktərkibli cümlələrin bir qismində mübtəda, digər qismində isə xəbər iştirak etmir. Bu baxımdan mübtədasız təktərkibli cümlələr və xəbərsiz təktərkibli cümlələr olmaqla iki qrupa bölünür. Mübtədasız təktərkibli cümlələrə qeyri-müəyyən şəxsli cümlələr, ümumi şəxsli cümlələr və şəxssiz cümlələr, xəbərsiz təktərkibli cümlələrə isə adlıq cümlə daxildir.

Qeyri-müəyyən şəxsli cümlələr qeyri-müəyyən şəxs tərəfindən icra edilən iş və hərəkəti bildirmək üçün işlədilən təktərkibli sadə cümlələrdir. "Qeyri-müəyyən şəxsli cümlələrin ifadə etdiyi iş və hərəkətin əksərən icraçısı olur – iş bir və ya bir qrup şəxs tərəfindən icra edilir. Lakin həmin şəxslər bir subyekt, bir mübtəda kimi cümlədə öz ifadəsini tapa bilmir, qeyri-müəyyən şəkildə qalır və cümlənin qeyri-müəyyən şəxsli cümlə kimi formalaşmasına səbəb olur. Belə cümlələrin xəbəri həmişə üçüncü şəxsin cəmində olur." (4 , 179)

Azərbaycan folklor materiallarında qeyri-müəyyən şəxsli cümlə strukturlarına geniş təsadüf olunur. Xəbəri üçüncü şəxsin cəmində olan belə cümlələr müxtəlif vasitələrin köməyi ilə formalaşır. Folklor şifahi dil materialı olduğu üçün buradakı cümlə strukturlarının yaranmasında prosodiya vasitələri olan intonasiya, fasilə, ritm və s. üstünlük təşkil edir. Məsələn:

Apardılar gülümü,
Elədilər zülümü.
Nə qoydular danışım,
Nə kəsdilər dilimi. (toy mahnısı)

Həmcins xəbərli qeyri-müəyyən şəxsli cümlə strukturu əsasında qurulan bu nümunənin formalaşmasında prosodiya vasitəsi olan sadalama intonasiyasının da xüsusi rolu vardır. Belə ki, intonasiya həmcins xəbərləri sadalamaqla həm qrammatik cəhətdən, həm də fikrin emosional-hissi cəhətdən ifadəsində cümlələrin qurulmasına xidmət göstərmişdir.

Folklor materiallarında işlənən qeyri-müəyyən şəxsli cümlələrin xəbəri feilin xəbər formasının üçüncü şəxsinin cəmində, əsasən, indiki və qeyri-qəti gələcək, bəzən də şühudi keçmiş və qəti gələcək zamanda olan feillərlə ifadə olunur. Məsələn: Oğlanın adını dərviş dediyi kimi, Qəmər qoydular. Qəməri dayəyə tapşırdılar. ("Şəms-Qəmər" nağılı)

Aşıq, elli deyirlər,
Durna telli deyirlər.
Burda bir gözəl ölüb,
Bizim elli deyirlər. (bayatı)

Nümunədəki xəbəri "qoydular", "tapşırdılar" şühudi keçmiş zaman, "deyirlər" isə indiki zamanda olan feillərlə ifadə olunan qeyri-müəyyən şəxsli təktərkibli cümlə strukturlarıdır.

"Qeyri-müəyyən şəxsli cümlədə iş real və qeyri-real ola bilər. Bu da müəyyən işin həyata keçib-keçməməsi ııə bağlıdır." (1, 268) Bu baxımdan folklor materiallarında təsadüf olunan "Şah papağı xəzinəyə qoydurdu və əmiri axtarmağa başladılar" (Əmir ilə şah qızı nağılı) – cümləsində işin icrası real xarakterdədir.

Əzizim, nə çaram var,
Bir sağalmaz yaram var.
Dirəksiz dam tikiblər,
Ondan başqa haram var (bayatı) – nümunəsindəki "Dirəksiz dam tikiblər" – qeyri-müəyyən şəxsli cümləsində isə işi icra edən qeyri-realdır.

İkinci dərəcəli üzvlərin iştirakına görə qeyri-müəyyən şəxsli cümlələr müxtəsər və geniş olur. Müxtəsər qeyri-müəyyən şəxsli cümlələr, əsasən, xəbərdən ibarət olur və çox vaxt tabeli mürəkkəb cümlələrdə baş cümlə kimi işlənir. Məsələn: Dedilər ki, hamı meydana toplaşsın. Tapşırdılar ki, kim hansı oğlanı istəyirsə, almanı ona atsın. ("Ağ atlı oğlan"ın nağılı)

Geniş qeyri-müəyyən şəxsli cümlələrdə baş üzvlərlə yanaşı ikinci dərəcəli üzvlər olan təyin, tamamlıq və zərflik də iştirak edir. Məsələn: İçəri girib gördü, bir oğlanı zindana salıblar ki, misli bərabəri, nə insdə, nə cinsdə, nə mələkdə var. (Şəms-Qəmər nağılı)

Ümumi şəxsli cümlələr iş və hərəkətin hamıya aid olduğunu bildirən təktərkibli cümlə strukturlarıdır. "Ümumi şəxsli cümlələr hamıya aid olan, hər yerdə, həmişə müşahidə edilən, bir qayda şəklini almış iş, hərəkət və hadisəni, ümumiləşmiş şəxsi bildirir." (4, 183)

Bu xüsusiyyətləri daşıdığına görə belə cümlə tiplərinə folklor materiallarında geniş rast gəlinir. Ümumi şəxsli cümlələrdə hamı tərəfindən qəbul edilmiş hökmlər ifadə olunduğundan çox vaxt folklor nümunələri olan atalar sözləri və məsəllər bu cümlə strukturları formasında olur. Məsələn: Yıxılana balta çalmazlar (Məsəl). İlanın quyruğunu yox, başını əzərlər. (Atalar sözü) Paydan pay ummazlar. (Atalar sözü) və s.

"Atalar sözləri və nəsihətlərdən ibarət ümumi şəxsli cümlələrin xəbəri feilin əmr, şərt şəkilləri, bütün zaman və şəxslərlə ifadə oluna bilər."(2,139) Demək, ümumi şəxsli cümlələrin xəbəri feilin müxtəlif formalarında olan sözlərlə ifadə olunur. Belə cümlələrin bir qisminin xəbəri feilin əmr şəklində olur. Məsələn: Adımı sənə qoyum, özgəni yana-yana qoyum! (Atalar sözü) Adını tut, qulağın bur. (Atalar sözü) Özünə baxma, sözünə bax. (Atalar sözü)

Folklor materiallarında işlənən bir qism ümumi şəxsli cümlə strukturlarının xəbəri feilin xəbər formasının II şəxsinin təkində olur və hamıya aid hərəkət, hökmü ifadə edir. Məsələn: Bağa baxarsan, bağ olar, baxmazsan dağ olar. (Atalar sözü) Aşpaz dükanıdır: Az verərsən – az yeyərsən, çox verərsən – çox yeyərsən. (Atalar sözü) Bığı buraxmısan, saqqala salam vermirsən. (Məsəl) Üz verərsən, astar da istər. (Atalar sözü) Yeməklə doymayan, yalamaqla doymaz. (Atalar sözü)

Nümunələrdən göründüyü kimi bu tipli cümlələrin əksəriyyətinin xəbəri felin xəbər formasının qeyri-qəti gələcək zaman, üçüncü cümlənin birinci xəbəri nəqli

keçmiş zaman, ikinci xəbəri indiki zaman, beşinci cümlənin ikinci xəbəri isə qəti-gələcək zamanda olan feillərlə ifadə olunmuşdur.

Folklor materiallarında təsadüf olunan ümumi şəxsli cümlə strukturlarının böyük əksəriyyətinin xəbəri feilin xəbər formasının qeyri-qəti gələcək zamanının təsdiq və inkarının III şəxsin cəmində olan feillərdən ibarətdir. Xalq zəkasının, müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi sayılan atalar sözü və məsəllərin çox hissəsi bu forma əsasında yaranmışdır. Məsələn: Yeməyənin malını yeyərlər, özünü də söyərlər. (Atalar sözü) Yer var danışarlar, yer var sözü udarlar. (Atalar sözü) Qaranlıq quyuya daş atmazlar. (Məsəl) Acizə toxunmazlar. (Atalar sözü) Varlılığa güvənməzlər. (Atalar sözü) Qaranı ağa, ağı qaraya qatmazlar. (Atalar sözü) Keçənə güzəşt deyərlər. (Atalar sözü)

Atalar sözləri və məsəllər üçün daha çox səciyyəvi olan bu tipli cümlə strukturlarının bir qismini elliptik cümlələr təşkil edir. Məsələn: Malı malla ölçərlər, canıcanla. (Atalar sözü) Toya toy deyiblər, yasa yas. (Atalar sözü) Heyvanı budundan dağlarlar, insanı ürəyindən. (Məsəl) və s. İkinci komponenti natamam olan belə ümumi şəxsli cümlə strukturları prosodiya vasitələrinin köməyi ilə yaranır və buraxılmış üzvü cümlənin öz məzmununa görə müəyyənləşdirilir.

Qeyd edək ki, folklor materialları şifahi dil əsasında yarandığından elliptik cümlələrlə çox zəngindir. Bunu tədqiqata cəlb etdiyimiz təktərkibli cümlə strukturlarında da müşahidə etmək olur. Bu baxımdan xəbəri feilin xəbər formasının qeyri-qəti gələcək zamanının təsdiq və və inkarının III şəxsinin cəmində olan sözlərlə ifadə olunan ümumi şəxsli cümlə strukturları üstünlük təşkil edir: Heyvanın dişinə baxarlar, insanın işinə. (Atalar sözü) Atın arığına qarı deyərlər, igidin yoxsuluna dəli. (Atalar sözü) və s.

Xəbəri III şəxsin cəmində işlənən sözlərdən ibarət ümumi şəxsli cümlə strukturlarına bayatılarda da rast gəlinir. Məsələn:

Əzizim ağlamazlar,
Gülərlər, ağlamazlar.
Qürbətdən ölən kəsin,
Gözlərin bağlamazlar. (bayatı)

Nümunədə feilin xəbər şəklinin qeyri-qəti gələcək zamanının həm təsdiq, həm də inkarının III şəxsinin cəmində olan sözlərlə ifadə olunmuş ümumi şəxsli cümlə strukturları işlənmişdir.

Folklor materiallarında işlənən şəxssiz təktərkibli cümlə strukturlarında mübtəda olmur, fikir predmeti xəbərlə birlikdə təsəvvür edilir. "Şəxsiz cümlələrdə məqsəd dinləyənin diqqətini iş görənə cəlb etməkdən ibarət olmayıb prosesi, işi bildirməkdir. Buna görə də şəxssiz cümlələrdə subyekt qrammatik mübtəda formasında ifadə edilmir və xəbərin formasına görə də onu aşkara çıxarmaq mümkün olmur" . (5, 266)

Xəbərin ifadə vasitələrinə görə şəxssiz cümlələr ismi və feili xəbərli olmaqla iki qrupa bölünür. İsmi xəbərli şəxssiz cümlələrin xəbəri adlarla, ismi birləşmələr, is-

mi frazeoloji vahidlər və s. ifadə olunur. Məsələn: Padşah dedi: - Sabah toyundur. (Şəms-Qəmər nağılı) Bu gün ayın onudur, Sarı məxmər donudur. (toy nəğməsi)

Folklor materiallarında ismi xəbərli elliptik cümlə strukturları da geniş işlənir. Məsələn:

Mübarək, ay mübarək,

Qardaş toyun mübarək! (toy nəğməsi) – folklor nümunəsi üç elliptik şəxssiz ismi xəbərli cümlə əsasında formalaşmışdır.–dır[4] xəbərlik şəkilçisi buraxılmış hər üç cümlənin sərhədi prosodiya vasitəsi olan intonasiya ilə müəyyənləşir. Şifahi nitq materialı olan bu cümlələr yüksələn tonla başlayır. Sonra ton tədricən alçalır və fasilə ilə kəsilir.

Folklor materiallarında feili xəbərli şəxssiz cümlə strukturlarına da təsadüf edilir. Belə cümlələrin əksəriyyətinin xəbəri feili frazeoloji vahidlərlə ifadə olunur. Məsələn: Ananın südünə and iç ki, acığın tutmayacaq. ("Tapdığın nağılı") Hamı güləndə padşahın da dodaqları qaçdı. ("Pəri xanım" nağılı)

Folklor materiallarında təktərkibli cümlə strukturlarından olan adlıq cümlələrə də rast gəlinir. Belə cümlələrdə əşyanın, hadisənin mövcudluğu intonasiyanın köməyi ilə təsdiq edilir. Məsələn: Şah Abbas cənnət məkan, tərəziyə verdi təkan. İki qoz, bir girdəkan ("Daşdəmirin nağılı") – nümunələrdə Şah Abbas cənnət məkan, iki qoz, bir girdəkan adlıq cümlələrdir və bu cümlələrdə predikativlik intonasiya ilə bildirilir.

"Adlıq cümlələrin əsasında adlıq halda olan sözlər və birləşmələr durur. Cümlənin özəyini təşkil edən sözlər, birləşmələr mübtədaya uyğun gəlir, ona görə də adlıq cümlələrin mübtəda əsasında formalaşdığı göstərilir." (4 , 191)

Bu baxımdan folklor materialı olan atalar sözlərinin də bir qismi adlıq cümlə formasındadır. Məsələn: Köhnə hamam, köhnə tas. Yumru qaya, yumru daş, keçəl baş və s.

Belə cümlələr də intonasiya vasitəsilə formalaşır və bitmiş fikir ifadə edir.

"Adlıq cümlələr qrammatik cəhətdən cümlə kimi formalaşmayan, intonasiya əsasında bitmiş fikir ifadə edən söz və ya söz birləşmələridir." Bu cümlələr yazıda yığcamlıq, aydınlıq və konkretlik yaradır. Şair və yazıçılar əsərlərində adlıq cümlələr vasitəsilə canlı mənzərə yaradır, fikri daha qısa və daha yığcam verirlər (4 , 219).

Bu xüsusiyyət qeyd olunduğu kimi, folklor materiallarına da aiddir. Xüsusən dərin məna, hikmət ifadə edən atalar sözləri üçün belə cümlə strukturları daha çox səciyyəvidir: Düz söz, bir söz; Duz çörək-düz çörək. Bir inad, bir murad. Uzun sözün qısası və s.

Beləliklə, Azərbaycan folklor materialları təktərkibli cümlə strukturları ilə zəngindir. Bu cümlə strukturları fikrin qısa, yığcam, emosional ifadəsinə xidmət göstərir. Bunların toplanılıb araşdırılması tarixi sintaksisə zəngin material verəcəkdir.

Ədəbiyyat:

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. "Müasir Azərbaycan dili", Sintaksis, IV hissə, Bakı-1985, 468 səh.
2. Cəfərzadə M. "Azərbaycan dilinin dialekt sintaksisi", Bakı-1990, 350 səh.
3. Həsənov H. "Nitq mədəniyyəti və üslubiyyatın əsasları", Bakı-1999, 288 səh.
4. Kazımov Q. "Müasir Azərbaycan dili. Sintaksis.", Bakı-2007, 496 səh.
5. "Müasir Azərbaycan dili. Sintaksis." , III cild, Bakı, 1981, 443 səh.

K.Denziyeva

Structures of monocontented sentences in azerbaijan folklor materials

Summary

In the context of globalization, folklore materials tend to disappear. Therefore, it is necessary to do research on these materials that reflect the national culture of the people. Simple sentences are subdivided into two groups, which are double-sided and tactful for the presence of the chief members. Multiple sentences are sentences made with the presence of both members. Complex sentences are formed on the basis of only one member. No other principal part is needed when such sentences are established.Some of the monocontented sentences do not include the subject and the other does not include the predicate. In this context, the sentences are divided into two groups, including without any subject and without any predicate. Sententes without any subject include indefinite personal sentences, common personal sentences, impersonal sentences, and monocontented sentences without any predicate include nominative sentences.Unidentified sentences are simple sentences used to describe the actions and activities performed by an unknown person. Common person sentences are complex sentence structures that indicate that work and action are common to all. İmpersonal sentence structures used in folklore material are not available in any way, the subject matter is imagined together with the predicate. Folklore material is also found in the adjective sentence, which is a complex sentence structure. In such sentences, the existence of an object or event is confirmed by the intonation.

Thus, Azerbaijani folklore materials are rich in complex sentence structures. The structures of this sentence serve to provide a brief, compact, emotional expression of the thought. Collecting and researching them will provide rich material for the syntax of history.

Key words: sentence, mono-contented sentence, indefinite personal sentence, common personal sentence, impersonal sentence, nominative sentence

Ключевые слова: предложение, однозначное предложение, неопределенное личное предложение, общее личное предложение, безличный предложение, именительное предложение

К.Дензиева

Монуконтентированные предложения конструкций в азербайджанских фольклорных материалах

Резюме

В условиях глобализации фольклорные материалы имеют тенденцию исчезать. Поэтому важно проводить исследования на этих материалах, которые отражают национальную культуру людей. Простые предложения подразделяются на две группы, которые являются двусторонними и тактическими для присутствия главных членов. Несколько предложений составляются при наличии обоих участников. Сложные предложения формируются на основе только одного члена. Никакой другой важной части не требуется, когда такие предложения установлены.Некоторые из однозначных предложений не включают предмет, а другие не включают предикат. В этом контексте предложения делятся на две группы, без какого-либо предмета и без предикатов. К предложениям без какого-либо предмета относятся неопределенные личные предложения, обычные личные предложения, безличные предложения и однозначные предложения без каких-либо именных предложений.Неопознанные предложения просто используются для описания действий и действий, совершенных неизвестным лицом. Предложения обычного человека - это сложные структуры предложений, которые показывают, что работа и действие являются общими для всех. Структуры имперских предложений, используемые в фольклорных материалах, недоступны ни в коем случае, предмет представлен вместе с предикатом. Фольклорный материал также находится в прилагательном предложении, которое представляет собой сложную структуру предложения. В таких предложениях существование объекта или события подтверждается интонацией.Таким образом, азербайджанские фольклорные материалы богаты сложными структурами предложений. Структуры предложений служат для обеспечения краткого, компактного, эмоционального выражения мысли. Их сбор и исследование обеспечат богатый материал для синтаксиса истории.

Redaksiyaya daxil olma tarixi: 20.08.2019
Çapa qəbul olunma tarixi: 04.01.2020
Filologiya elmləri doktoru, professor Qəzənfər Kazımov tərəfindən çapa tövsiyə olunmuşdur

ZƏRİFƏ AVİLOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
MƏFKURƏ HÜSEYNOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Tibb Universiteti
S.Vurğun 167
zarifa@mail.ru
huseynova.10.@mail.ru

NƏRİMAN NƏRİMANOVUN AZƏRBAYCAN DİLİNİN, ƏDƏBIYYATININ VƏ MƏTBUATININ İNKİŞAFINDA ROLU

Xülasə

Azərbaycanın görkəmli ictimai xadimi, yazıçısı, publisisti və həkimi olan N.Nərimanov 1872-ci ildə Tiflisdə yoxsul bir ailədə anadan olmuşdur.

N.Nərimanov ilk təhsilini Tiflisdə almışdır. Sonra Qori müəllimlər semimnariyasında, daha sonra isə Odessa şəhərindəki Tibb Universitetində təhsilini tamamlamışdır.

N.Nərimanov Odessada oxuduğu vaxt tələbələrdən ibarət teatr dərnəyi yaratdı. Bu dərnək Krımın Bağçasaray, Simferopol və başqa şəhərlərində tamaşalar göstərirdilər. Bu barədə Bağçasarayda çıxan "Tərcüman" qəzetində də maraqlı məlumatlar vardır. Nərimanov "Nadir şah" tarixi faciəsini də Krımda səhnəyə qoymaq təşəbbüsündə olmuşdur. Lakin çar senzurası buna icazə verməmişdir. Çünki bu əsərdə şahların devrilməsi fikri çar senzurasını qorxutmuşdu.

1906-cı ildə N.Nərimanov Bakıya qayıdır. O, burada zəhmətkeş kütlələri inqilabi mübarizəyə hazırlamaq üçün "İrşad" qəzetində "Cümə söhbəti" və "Həyat" qəzetində "Həftə fəryadı" başlığı altında məqalələr çap etdirir. O, bu yazılarında günün ən aktual məsələlərinə toxunur, mütləqiyyətin mürtəce siyasətinin mahiyyətini açıb göstərir.

1906-cı ildə Zaqafqaziya müsəlman müəllimlərinin I qurultayı açıldı. N.Nərimanov və H.Zərdabi qurultaya sədr seçildilər. Qurultayın nümayəndələri təklif etdilər ki, bütün siyasi məsələlərə N.Nərimanovun sədrliyi ilə baxılsın.

1909-cu ildə inqilabi fəaliyyətinə görə Nərimanov həbs edilib, Həştərxana sürgün edilir. O, burada da ictimai-siyasi fəaliyyətini davam etdirir.

Nərimanov 1909-1910-cu illərdə "Xolera – Vəba", "Çexotka – Vərəm", "Aləmi – nisvan", "Tibb və İslam" və s. elmi-publisist məqalə və kitablarını nəşr etdirir.

N.Nərimanov 1920-ci ildə Azərbaycan SSR-in I Xalq Xarici İşlər Komissarı, Azərbaycan SSR İnqilab Komitəsinin Sədri, Azərbaycan SSR Xalq Komissarları

Sovetinin 1-ci sədri, ZSFSR-da 1-ci sədri, SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin ZSFSR-da 1-ci Sədri olmuşdur.

Açar sözlər: Nəriman Nərimanov, Tiflis, Azərbaycan dili, mətbuat orqanları, ziyalılar, ilk qiraətxana, "Nadanlıq", "Şamdan bəy", komediyaları, "Bahadur və Sona" romanı, Odessa, "Tərcüman" qəzeti.

Azərbaycanın görkəmli və ictimai xadimi, yazıçısı, publisisti və həkimi olan Nəriman Nərimanov 1872-ci ildə aprel ayının 14-də Tiflisdə yoxsul bir ailədə anadan olmuşdur. Müəllif bu məqalədə əsas məqsədə keçməzdən əvvəl N.Nərimanov haqqında vacib olan bir sıra məsələləri oxucuların nəzərinə çatdırmağı özünə borc bilir.

Nəriman Nərimanov 1920-ci ildə Azərbaycan SSR-in 1-ci Xalq Xarici İşlər Komissarı; Azərbaycan SSR İnqilab Komitəsinin Sədri; Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1-ci Sədri; ZSFSR İttifaqı Sovetinin 1-ci Sədri, SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin ZSFSR-da 1-ci Sədri olmuşdur.

N.Nərimanovun yaşayıb-yaratdığı dövrdə müsəlman ölkələrində (Şərqdə) bir çox mütərəqqi işlər görülmüş, o cümlədən qəbul edilən ilk konstitusiya məhz onun adı ilə bağlıdır.

N.Nərimanovun hakimiyyəti dövründə Azərbaycan xalqının adət və ənənələrinə dərin hörmət edilmiş, bütün dini və ənənəvi bayramlar rəsmi olaraq qeyri iş günü hesab olunmuşdur. N.Nərimanov maarifpərvər şəxsiyyət, eyni zamanda, görkəmli və çox qayğıkeş, savadlı bir həkim, vətənpərvər, sözün əsl mənasında, təmiz bir insan, yazıçı – dramaturq olmuşdur. O, özü üçün, ailəsi üçün yox, daha çox xalqı üçün, milləti üçün, vətəni üçün yaşamışdır. O, "Bahadur və Sona" romanının və ilk tarixi faciə olan "Nadir şah" əsərinin müəllifidir.

N.Nərimanov ilk təhsilini (1879) Tiflisdə Qafqaz şeyxülislamının nəzarəti altında olan altısinifli məktəbdə alır. Zaqafqaziya maarif müfəttişliyinə tabe olan bu məktəbdə proqrama şəriət, Azərbaycan, fars cə ərəb dilləri daxil edilsə də, dərslər, əsasən, rus dilində keçilirdi. Odur ki, Nəriman dərslərinə ciddi hazırlaşır, çoxlu mütaliə edirdi. O həm də Qori şəhərindəki Zaqafqaziya müəllimlər seminariyasında təhsilini davam etdirmək arzusu ilə yaşayırdı.

1885-ci ildə Nəriman Zaqafqaziya müəllimlər seminariyasına daxil olur. Seminariya həyatı onun hərtərəfli inkişafına qol-qanad verir. O, burada oxuduğu zaman Azərbaycan, rus və Avropa ədəbiyyatı klassiklərini həvəslə öyrənməyə başlayır. O, əsərlərini də həmin illərdən yazmağa başlayır. Seminariyanı bitirdikdən sonra Qızılhacılı kəndinə təyinat alır.

Beləliklə, N.Nərimanov 1890-cı il sentyabrin 1-dən Tiflis quberniyasının Borçalı qəzasındakı Qızılhacılı kəndində ibtidai məktəbdə müəllimlik fəaliyyətinə başlayır. O, bu kənddə kəndlilərin ağır həyatını öz gözləri ilə görür və kəndlilər arasında maarifi təbliğ edir. Hələ seminariyada yazmağa başladığı "Nadanlıq" dramını tamamlamaq üçün kənd həyatı ona zəngin material verir.

Kənd məktəbində bir il işlədikdən sonra Nərimanov Bakıya köçür. Burada progimnaziyada müəllimlik edir. Bir müddətdən sonra Bakı oğlan gimnaziyasına eyni vəzifəyə köçürülür. N.Nərimanov bu vaxtdan etibarən Bakıda geniş ictimai-siyasi fəaliyyətə başlayır. Qabaqcıl ziyalıların köməyi ilə 1894-cü ildə ilk dəfə olaraq kütləvi xalq qiraətxanası açır. Məhz bu işinə görə o, bütün ziyalılar və oxumuş adamlar arasında böyük hörmət qazanır. Bunlarla yanaşı, yoxsul şagirdlərin və tələbələrin xeyrinə tamaşalar təşkil edir, dərsliklər tərtib edir, bədii əsərlər və məqalələr yazır. Nərimanovun Azərbaycan dilinin qrammatikası, ruslar üçün Azərbaycan dili və azərbaycanlılar üçün rus dili dərslikləri məhz həmin dövrdə yazılmış və bu dərsliklər də tələbələrə və müəllimlərə çox fayda vermişdir.

Bu dövrdə Nərimanov ədəbiyyat və incəsənət sahəsində yorulmadan çalışırdı. O, 1894-cü ildə "Nadanlıq" pyesini, 1895-ci ildə "Dilin bəlası, yaxud Şamdam bəy" komediyasını, 1896-cı ildə məşhur "Bahadur və Sona" romanının birinci hissəsini, 1899-cu ildə isə "Nadir şah" faciəsini nəşr etdirir. Eyni zamanda, rus yazıçısı N.V.Qoqolun məşhur "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə edir.

N.Nərimanov ictimai fəlakətdən xilas yolunu, yalnız elm, maarif və mədəniyyətdə görürdü. O, 1902-ci ilinin may-iyun aylarında imperator III Aleksandr adına Bakı oğlan Gimnaziyasında ekstern imtahan verib şəhadətnamə aldı. Həmin ilin iyun ayında Odessa şəhərindəki Tibb Universitetinə qəbul olundu.

N.Nərimanov Odessada oxuduğu vaxt tələbələrdən ibarət teatr dərnəyi yaratdı. Nərimanovun iştirakı ilə bu dərnək məzuniyyət günlərində Krımın Bağçasaray, Simferopol və başqa şəhərlərində tamaşalar göstərməyə başladı. Bu barədə Bağçasarayda çıxan "Tərcüman" qəzetində də maraqlı məlumatlar vardır. 1903-cü il yanvarın 15-də həmin qəzetdə "Qafqazlılar Krımda" sərlövhəli məqalədə bir dəstə qafqazlı tələbənin Bağçasaray və Simferepolda V.Mədətovun "Qırt-qırt", N.Nərimanovun isə "Nadanlıq" pyesinin tamaşaya qoyduqlarını bildirir.

N.Nərimanov "Nadir şah" tarixi faciəsini də Krımda səhnəyə qoymaq təşəbbüsündə olmuşdur. Lakin çar senzurası buna icazə verməmişdir. Çünki bu əsərdə şahların devrilməsi fikri çar senzurasını qorxutmuşdu.

1906-cı ildə N.Nərimanov Bakıya qayıdır. O burada zəhmətkeş kütlələri inqilabi mübarizəyə hazırlamaq üçün "İrşad" qəzetində "Cümə söhbəti", "Həyat qəzetində "Həftə fəryadı" başlığı altında məqalələr çap etdirir. O, bu məqalələrdə günün ən aktual məsələlərinə toxunur, mütləqiyyətin mürtəce siyasətinin mahiyyətini açıb göstərir.

1906-cı ildə Zaqafqaziya müsəlman müəllimlərinin I qurultayı açıldı. N.Nərimanov və H.Zərdabi qurultaya sədr seçildilər. Qurultayın nümayəndələri təklif etdilər ki, bütün siyasi məsələlərə N.Nərimanovun sədrliyi ilə baxılsın.

Bu qurultaydakı iclasların birində məktəblərdə Azərbaycan dili təlimi məsələsi müzakirə olundu. Bu müzakirələrdə N.Nərimanov yeni dərs proqramı düzəltməyin, ana dilində yeni dərsliklərin yazılmasının vacib bir məsələ olduğunu

irəli sürdü. O, müəllimləri millətin dərdinə əlac axtarmağı, dövlətin qarşısında tələblər irəli sürməyi vacib hesab edirdi.

1906-cı ilin axırlarında N.Nərimanov təhsilini davam etdirmək üçün Odessaya gedir. 1906-1908-ci illərdə Azərbaycanın qabaqcıl adamları təhsilini başa vurması üçün ona həmişə maddi yardım göstərirlər. Beləliklə, N.Nərimanov universiteti bitirib, yenidən Bakıya qayıdır.

1909-cu ildə Nərimanov partiyanın tapşırığı ilə Tiflisə gedir. Həmin ilin martında İnqilabi təbliğat apardığına görə həbs edilir. Yeddi ay Metex qalasında saxlanıldıqdan sonra Həştərxana sürgün edilir. Nərimanov Həştərxanda da ictimai-siyasi fəaliyyətini davam etdirir. Nərimanov yerli qəzetlərdə məqalələr yazır, mühazirələr oxuyur, tezliklə yerli zəhmətkeşlərin rəğbətini qazanır. Elə buna görə də Həştərxan zəhmətkeşləri onu şəhər dumasına üzv seçirlər.

N.Nərimanov sürgündə polisin güclü nəzarəti altında olsa da, ədəbi-bədii və elmi fəaliyyətini dayandırmır.

1911-ci il avqust ayında Nərimanovun sürgün müddəti başa çatır. Lakin o maddi vəziyyətin ağırlığına görə Bakıya qayıda bilmir. Ona görə də bir müddət Həştərxanda qalmalı olur. Burada onun, "Bürhani-tərəqqi" qəzetində "Arı bəy" gizli imzası ilə çıxan "Telefon" sərlövhəli məqalələri Azərbaycan publisistikası tarixində istər forma, istərsə də məzmunca yeni idi. Bu əsərlərdə müəllif günün ən vacib, aktual və təxirəsalınmaz məsələlərinə toxunurdu.

N.Nərimanov 1909-1910-cu illərdə "Xolera – Vəba", "Çexotka – Vərəm", "Aləmi-nisvan", "Tibb və İslam" və s. elmi-publisist məqalə və kitablarını nəşr etdirir.

N.Nərimanov 1913-cü ildə Bakıya qayıdır və müalicəxana açır. Qara şəhərdəki pulsuz şəhər xəstəxanasında müdir vəzifəsinə təyin olunur. Eyni zamanda Xalq universitetində elmi-kütləvi mövzuda müntəzəm olaraq mühazirələr oxuyurdu.

N.Nərimanov "sözün həqiqi mənasında" əsl xalq həkimi idi. Onun "müalicə-xanasına" təkcə azərbaycanlılar deyil, bütün millətlərdən olan insanlar gəlirdilər.

O, həmin dövrdə həm həkimlik edir, həm yazıb-yaradır, həm də inqilabi fəaliyyətini davam etdirir. Nərimanov "Bir kəndin sərgüzəşti"ni (1915), "Pir" povestini (1917) və tibbə aid bir sıra əsərlərini yazıb çap etdirir. Eyni zamanda, Genin "Edam" əsərini tərcümə edir, "Bahadır və Sona" romanını səhnələşdirir.

Sovet hökuməti ilə diplomatik əlaqə yaradan ilk xarici dövlətin – Əfqanıstanın səfirini Moskvada N.Nərimanov qarşılamış və "Sovet diplomatiyası tarixində ilk dəfə Azərbaycan dilində ona müraciət edərək salamlamışdı. Nərimanov bildirmişdi ki, onun səfirlə azərbaycanca danışması Sovet Rusiyasında bütün millətlərin bərabərhüquqlu olmasını göstərir".

İ.V.Stalin Hindistan elçisi müsəlman professor Prasadla danışıqlar aparmağı da Nərimanova tapşırmışdı.

N.Nərimanov Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetinin ilk sədri olmuşdur. Bu dövrdə o, zəhmətkeş xalq kütlələrinin ən çox etibar etdiyi bir başçı və havadarı olmuşdur. O, sözün əsl mənasında, xalqın məhəbbətini

qazanmışdır. Ağamalıoğlu öz xatirələrində yazırdı: "Respublika daxilindəki səfərində N.Nərimanov yoldaşı müşayiət etdiyim vaxt Azərbaycanın zəhmətkeş əhalisi arasında onun nə qədər böyük nüfuza malik olduğunu öz gözlərimlə görüb inandım... Hər yerdə N.Nərimanov yoldaşı bütün xalq səmimi, təntənə ilə qarşılayırdı.... Bu görüşlərdə N.Nərimanov xalqa yaxın və tanış dil tapmağı və qarşıya qoyulmuş məsələləri həll etməyi bacarırdı... .

1922-ci ildə N.Nərimanov İtaliyada Genuya şəhərində keçirilən beynəlxalq konfransda iştirak etmiş və o, öz Genuya xatirələrini respublika mətbuatında çap etdirmişdir.

Bu illərdə Nərimanov ölkədə ədəbiyyat və incəsənətin inkişafına xüsusi diqqət və qayğı göstərirdi. Elə bunun nəticəsində də 1921-ci ildə onun təşəbbüsü ilə Azərbaycan və rus dillərində "Sənaye nəfisə" jurnalı dərc olunmağa başladı.

1922-ci ildə (may ayında) N.Nərimanov Zaqafqaziya Federasiyasının İttifaq sovetinə sədr seçildi. SSRİ təşkil ediləndə isə o, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin ilk dörd sədrindən biri oldu.

N.Nərimanov bütün ömrü boyu xalqın etimadını doğrultmuş və məsul vəzifələrdə namusla çalışmışdır. Nərimanov hansı vəzifədə olmasından asılı olmayaraq, daima ədəbi yaradıcılığını davam etdirmişdi. Dövri mətbuatda onun maraqlı ədəbi-publisist məqalələri çap edilirdi.

1925-ci ilin fevral ayında SSRİ MİK yanında Elmi şərqşünaslıq İttifaqı N.Nərimanovun ədəbi və ictimai siyasi fəaliyyətinin 30 illiyi münasibətilə xatirə gecəsi keçirmişdir. Bu gecəyə Moskva, ölkəmizin ayrı-ayrı respublikalarından, o cümlədən Şərq ölkələrinin müxtəlif xalqlarının nümayəndələri gəlmişdilər. Bu yığıncaqda N.Nərimanov şərqşünaslıq cəmiyyətinin fəxri üzvü seçildi.

1925-ci ildə mart ayının 19-da N.Nərimanov qəflətən vəfat etdi. Qızıl meydan bu görkəmli dövlət xadimini öz qoynuna aldı.

Ədəbiyyat

1. Mir Cəlal Paşayev, F.C.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Maarif nəşriyyatı, Bakı, 1960.
2. Teymur Əhmədov. Görkəmli ictimai-siyasi xadim, böyük ədib N.Nərimanovun anadan olmasının 140 illiyinə həsr edilir. "Nurlar", 2010.
3. Azərbaycan Sovet Ensiklopediyası. Bakı – 1983. VII cild.

Z.Avilova
M.Huseynova

Nariman Narimanov during Azerbaijan language, literature and press
Role in development

Summary

An outstanding public figure, writer, publicist and doctor of Azerbaijan, N. Narimanov was born in 1872 in a poor family in Tbilisi.

N.Narimanov got his first education in Tbilisi. Then he completed his edication at the teachers' seminary in Gori and later at the Medical University in Odessa.

During his studies in Odessa, Narimanov created a student theater circle. This circle performed in the cities of the Crimea, in Baghdasar, Simferopol and other cities. There is also interesting information about this in the newspaper "Tarshmanman" in Baghdasaray. Narimanov also initiated the tragedy of the "Nadir shah" to be staged in Crimea. However, tsarist censorship did not allow it. Because the idea of the overthrow of kings in this work scared the tsarist censorship.

In 1906 N. Narimanov returned to Baku. He published articles in the newspaper "Irshad" under the heading "Friday talk" and "Scream of the Week" to prepare the working masses for a revolutionary struggle. In his writings, he touches on the most pressing issues of the day, revealing the essence of the absolute policy of absolutism.

In 1906 the first Congress of Transcaucasian Muslim Teachers was opened. N. Narimanov and H. Zardabi were elected chairman of the congress. Representatives of the Congress suggested that all political issues should be considered under the chairmanship of N. Narimanov.

In 1909 Narimanov was arrested for his revolutionary activities and exiled to Astrakhan. He continued his social and political activities there.

Narimanov published his books "Cholera - Plague", "Chekhotka-Tuberculosis", "World - Nisan", "Medicine and Islam" and scientific-publicist articles and books in 1909-1910.In 1920 N. Narimanov was the First Commissioner of Foreign Affairs of the Soviet Socialist Republic of Azerbaijan, Chairman of the Revolutionary Committee of the Soviet Socialist Republic of Azerbaijan, 1st Chairman of the USSR People's Commissars' Council, 1st Chairman of the USSR.

Keywords: Nariman Narimanov, Tbilisi, Azerbaijani, Press, intellectuals, first reading, "Nadash", "Shamdan bey", comedy, novel "Bahadur and Sona", Odessa, "Translator" newspaper.

З.Авилова
М.Гусейнова

Роль нариман нариманова в развитии азербайджанского языка, литературы и прессы

Резюме

Выдающийся общественный деятель, писатель, публицист и врач Азербайджана Н. Нариманов родился в 1872 году в бедной семье в Тбилиси.

Н.Нариманов получил свое первое образование в Тбилиси. Затем он закончил обучение в учительской семинарии, а затем в Медицинском университете в Одессе.Во время учебы в Одессе Нариманов создал студенческое театральное объединение. Это объединение выступало в городах Крыма, в Багдасе, Симферополе и других городах. Об этом также есть интересная информация в газете «Таршманман» в Багдасарае. Нариманов также инсцинировал трагедию "Надир-шаха" в Крыму. Однако царская цензура этого не допустила. Потому что идея свержения королей в этой работе напугала царскую цензуру.В 1906 году Н.Нариманов вернулся в Баку. Он публикует статьи в газете «Иршад» под заголовками «Пятничные разговоры» и «Крик недели», чтобы подготовить трудящиеся массы к революционной борьбе. В своих трудах он затрагивает самые актуальные проблемы современности, раскрывая суть абсолютной политики абсолютизма. В 1906 году был открыт первый съезд учителей закавказских мусульман..В 1909 году Нариманов был арестован за революционную деятельность и сослан в Астрахань. Он продолжает свою общественную и политическую деятельность здесь.Нариманов издал свои книги «Холера - чума», «Чехотка-туберкулез», «Мир - нисан», «Медицина и ислам» в 1909-1910 годах. публикует научно-публицистические статьи и книги.В 1920 году Н.Нариманов был первым комиссаром иностранных дел Советской Социалистической Республики Азербайджан, председателем Революционного комитета Советской Социалистической Республики Азербайджан, первым председателем Совета народных комиссаров СССР, первым председателем СССР. Он был первым председателем.

Ключевые слова: Нариман Нариманов, Тбилиси, Азербайджан, пресса, интеллигенция, первое чтение, «Надаш», «Шамдан бей», комедия, роман «Бахадур и Сона», Одесса, газета «Переводчик».

Redaksiyaya daxil olma tarixi: 20.082019
Çapa qəbul olunma tarixi:15.01.2020
Filologiya elmləri doktoru, professor Natəvan Hacıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

FƏRİDƏ ŞAHLAROVA
Filologiya üzrə fəlsəfə doktoru,dosent
ZAMİRƏ MƏMMƏDOVA
Azərbaycan Dövlət İqtisad Universiteti
İstiqlaliyat pr.6
fəridəzamirə@gmail.ru

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ İNKARLIQ KATEQORİYASININ LİNQVİSTİK TƏHLİLİ

(Azərbaycan,rus və ingilis dilləri materialları əsasında)

XÜLASƏ

İnkarlığın linqvistik təbiəti geniş tədqiq edilmiş məsələlərdən biridir.İnkarlıq həm ümumi aspektlərdən, həm də konkret dilin materialları üzrə, həm də müxtəlif dillərin materialları əsasında müqayisəli şəkildə araşdırılsa da, onun tipoloji aspektdən qiymətləndirilməsi, belə vasitələrin dilin yarusları üzrə bölgüsünə az diqqət yetirilmişdir.

Qohum və qohum olmayan dillərin, müxtəlif sistemli dillərin materialları əsasında inkarlığın öyrənilməsi bu sahədə ümumi faktaloji materialı artırmış, problemin daha geniş müstəvidə araşdırılması üçün zəmin yaratmışdır. Şübhəsiz ki, müxtəlif sistemli dillərdə, o cümlədən ingilis və Azərbaycan dillərində inkarlıq vasitələrinin müqayisəli-tipoloji tədqiqi böyük maraq doğurur.”Sırf qrammatik və struktur-tipoloji tədqiqatla məhdudlaşan araşdırmalarda təsdiq və inkar kateqoriyalarının məzmun və ifadə planlarının qarşılıqlı münasibətinin, eləcə də qarşılıqlı əlaqəsinin incə məqamları, onun semantic-üslubi və kommunikativ-praqmatik aspektləri açılmır” Ona görə də müxtəlif sistemli dillərdə qeyd edilən kateqoriyanın müqayisəli şəkildə araşdırılmasına ehtiyac artmışdır.

Dil forması kimi qəbul edilən inkar təstiqlə birlikdə fikrin iki formasının-anlayış və mühakimənin mahiyyətidir. İnkara bütün dillər üçün universali kimi baxmaq olar. “Qrammatik kateqoriya dedikdə, həmcins əşya və hadisələrin müəyyən qruplar üzrə toplanması haqqında anlayış nəzərdə tutulur. … Qrammatik mənalar və onların dildə ifadə vasitələrinin vəhdəti qrammatik kateqoriya adlanır”. İnkarlıq da belə kateqoriyalardan biridir. Təstiq/inkar kateqiyasının semantic potensialının təhlili zamanı “təstiq/inkar”,”pozitiv/neqativ” terminlərinin başa düşülməsində meydana çıxan bəzi anlaşılmazlıqları aradan qaldırmaq lazım gəlir

Açar sözlər: inkarlıq kateqoriyası, İngilis dili,ikiqat inkarlıq, mononeqativlik,dilçilik.

.M.Hüseynzadə göstərir ki,”sözün öz əsas mənasından başqa, onun nitqdə cümlə daxilində bir və ya bir neçə qrammatik mənası olur. Sözün qrammatik mənası leksik mənasından çox olur. …qrammatik məna nitqdə sözün anlaşılmasını dəqiqləşdirir. ...sözlərin bir-biri ilə əlaqəsini göstərir, ...danışan şəxsin haqqında danışdığı əşya və ya hadisəyə münasibətini bildirir.B.Xəlilova görə, “qrammatik məna sözün formal elemetlərinin, şəkilçilərinin, köməkçi sözlərin, köməkçi vasitələrin ifadə etdiyi mənadır. Qrammatik məna sözün əsas mənasına sonradan əlavə edilir”.

Türk dilləri sintetik quruluşlu olduğuna görə bu dillərdə inkarlığın özunəməxsus qrammatik göstəriciləri, eləcə də onların ayri-ayri nitq areallarında bir sira variantları formalaşmışdır.Türk dillərində feilin inkar şəkilçilərinə müxtəlif fonetik variantlarda rast gəlinsə də, praformanın – ma, -mə variantları olmasa qənaətinə gəlmək mümkündür. Bu dillərdə inkarlıq şəkilçiləri, başlıca olaraq, -ma, -mə, -m şəkilçilərindən və onların digər fonetik variantlarından ibarətdir. Türk dilində -ma, -me, -m; özbək dilində -ma; uyğur dilində -ma(-mə, -mi);qazax dilində -ma, -me, -ba, -be, -pa, -pe; qırğız dilində: -ba(-be); çuvaş dilində: -ma (-me),-mas(-mes)və s.

M.Hüseynzadə göstərir ki,” Azərbaycan dilində “inkarlıq kateqoriyası xüsusi şəkli əlamətlərlə ifadə olunur. Bunun şəkli əlaməti –ma, -mə (m) şəkilçiləridir ki, bunlar felin quruluşundan asılı olmayaraq feil kökünə bütün sözdüzəldici və sözdəyişdirici şəkilçilərdən əvvəl əlavə olunurş yalnız feilin məna növ şəkilçiləri inkarlıq şəkilçilərindən əvvəl feil kökünə əlavə oluna bilir”.(**1.-səh:23-29**).Azərbaycan dilində 19 növ inkar vasitəsi mövcuddur:

1) -ma(-mə, -m) morfemi-dominant vasitə;

2) inkar ədatları-deyil, yox;

3) inkar əvəzliyi və zərfləri(leksik-qrammatik vasitələr): heç kim, heç kəs, heç biri/heç birisi, heç zaman/heç vaxt/ heç bir zaman, heç bir vaxt, heç cür/ heç cürə, heç vəchlə/ heç bir vəchlə, heç bir şey/heç yanda, heç yerdə, heç yandan, heç yerdən və s.;

4) koordonativ inkar bağlayıcısı:nə...nə, nə... nə də ki, nə və nə də ki;

5) privstiv frazeoloji vahidlər(leksik-qrammatik vasitələr);

6) ”yox” və “xeyr” sözləri; 7)”ömründə, dünyada,dünyasında,qətiyyən,əsla,”qəti”sözləri;8)”heç” sözü və bu sözün fəal assosiativ əlaqə sahəsi(heç) bir damcı da, bir gilə də, bir qırıq da və s.;9)eksplisit inkar komponentli frazeoloji vahidlər; responsible-irresponsible və s.**Adullayev”Alman kontesti”**əsərində qeyd edir ki,Unönşəkilçisi Hind-Avropa dillərinin çoxunda müxtəlif formalarda işlənir. Bu, məhsuldar önşəkilçi olub müxtəlif nitq hissələrindən yeni sözlər əmələ gətirir. İnkar vasitəsi daha çox sifət və zərflərdə artırılır.The only thing that makes me unhappy is that I’m making you unhappy –Məni sevindirməyən yeganə şey, mənim səni sevindirməməyimdir.”(**2-səh:16**)

Mis- ümumgerman mənşəli önşəkilçidir. Bu prefiks çox zaman fellərdən törəmə əsaslar yaradır. Əmələ gələn yeni sözlərdən bəziləri yanlışlıq, səhv, bəziləri isə inkarlıq ifadə edir. Məsələn, miscalculate- hesablamada səhv etmək; mistrust-inanmamaq. I have never begunnovel with more misgiving/ The barometer is useless^ it is as misleading as the newspaper forecast.**Dis**- latın mənşəli prefiksdir. Bu önşəkilçinin artırılması ilə düzələn sözlər keyfiyyətin, əlamətin və ya fəaliyyətin yoxluğunu bildirir. Məsələn: I do not want the reader to think I am making a mystery of whatever it was that happened to Larry during the war that so profoundly affected him, a mystery that I shall disclose at a convenient moment.Dildə inkarlıq leksik-qrammatik kateqoriyadır. İnkarlıq leksik, qrammatik, o cümlədən də sintaktik yolla ifadəsini tapır. Dil universalisi kimi inkar dilin müxtəlif səviyyələrində leksik, qrammatik və fonetik səviyyələrdə qeydə alınır. İnkarlığın leksik və qrammatik ifadə vasitələri arasında kəskin fərq yoxdur.To deny (etməmək, həll etməmək, qərara gəlməmək); He denied breaking into the shop (Murthy). To doubt (şübhə etmək): I doubt whether he was really ablo to do that (Christie).Bir sıra zərflər ingilis dilində inkar

mənasında işlənir. Məsələn, hardly –we could hardly understand him (Christie); scarcely-She scarcely seems to care, does she? (Murthy**)..A.Axundov və N.Məmmədov "Dilçiliyə giriş"**əsərində yazırlar ki,"Azərbaycan dilində də inkarı ifadə edən əsas leksik vasitələrdən biri "yox" sözüdür. Bu sözün hansı nitq hissəsinə aid edilməsi,, onun dəqiq semantikasının təyini çətindir. "Yox" sözü inkar hissəciyi funksiyasında çıxış edir. Cümlədə müxtlif mövqelərdə duraraq bu söz inkarı bildirir**."(3-s.123-129)** Bu zaman ya əvvəlki fikirlə razılaşmamaq, əvvəlki mülahizəni rədd etmək, nədənsə imtina etmək və s. baş verir. "Yox" sözünün ədatlarla birgə işlədilməsi zamanı inkar güclənir. İnkarın implisit ifadəsi məqsədilə Azərbaycan dilində "olmaz" forması da geniş istifadə olunur.

Danişiq dilinin sintaksisi üçün təstiq cümlələrinin inkar cümləsi funksiyasında işlədilməsi də baş verir.İngilis dilində inkar zərfləri, əvəzlikləri və ya inkar bağlayıcıları ilə düzəlir. "Not, no, nothing, nobody, no one, none, neither, neither...nor, never, nowhere@ ingilis dilində istifadə olunan belə inkar vasitələrindəndir.No inkar vasitəsi isimlərlə işləndikdə "not a/not any" mənalarını ifadə edir.

Bu zaman "no" və "not"eyni məqamlarda işlənə bilir. Fellerlə işlənmə zamanı "not" inkarına üstünlük verilir.He has no monet./ He doesn't have any money.İngilis dilində "not" çox zaman köməkçi feldən sonra gəlir. Zaman formasında iki fel olduqda "not" birinci feldən sonra işlənir.

Beləliklə, aydın olur ki, həm mononeqativ, həm də polineqativ quruluşlarda inkarlıq elementlərinin işlənməsi dilin qrammatikası və bu dildə formalaşmış, bitmiş və ya nisbi bitmiş inkarlıq məzmunun, fikirlərin ötürülməsi dilin kateqorial qrammatik vasitələrinin işlənmə və variativlik xüsusiyyətlərindən aslıdır.

Ədəbiyyat:

1.M. Hüseynzadə M. Müasir Azarbaycan dili. Baki Maarif, 1973.səh:23-29.
2.Абдуллаев С. Немецкий контекст. Баку xxl YNE.» Аффирмативный глаголы»Б.1981.стр:16.
3. Məmmədov N, Axundov A, Dilçiliyə giriş. Baku: Maarif, 1980.s.123-129.
.

Ф.Шахларова,
З.Маммадова

Лингвистический анализ категория отрицание
в разносистемных языках

Резюме

В статье рассматриваются общие вопросы категории отрицания В разносистемных языках на материале английского и азербайджанского языков. определяется корпус средств выражения указанных языках.

Лексические, морфологические и синтаксические средства отрицания азербайджанского английского языков изучаются и сравнительном аспекте исследование показывает, что при оформлении общеогритательных предложений в мононеrативной системе, возникает необходимость использования слов, относящийся конкретной лексико грамматической группе, в определенной пакт еской позиции.

Другими сип словами, отрицательным элементам полинеrтивной системы соответс- вуют определенные слова в ой системе. Как в мононегативной, так полинегативной струкурах передача высказываний зависит от особенностей вариативности и использования категориальных грамматических средств языка, их можно определить как сопутс- твующие отрицани

Ключевые слова: категория отрицания,Английский язык, двойное отрицание, мононегативность,языкознание.

F.Shakhlarova,
Z.Mammadova

Linguistics analysis of negation in languages belonging to different families

Summary

The article studies the category of negation in languages belonging to different language families, i.e. to the English and Azerbaijani languages The means of expression of negation in the mentioned languages is defined. Lexical, morphological and syntactical means of negation in the Azerbaijani and English languages are studied comparatively. Research shows that usage of certain words of lexical-semantics group in certain syntactic situation is necessary during formation of common negative sentence of mononegative system.

In other words, some complied words of mononegative system appropirate to negative elements of plynegative system. They are likely to be determined words accompaning negativeness. The tranmission of ideas both in mononegative and plynegative depends on usage of categorical grammatical means of

language and variability features.She had met innumerable people of all kinds and I think she summed them up shreüdly enough according to the standards of the small Virginian town where she was born and bred.

He'd have invented the most extravagant and incredible sins to confess to. Must you talk in that awful dry inhuman way?. Ne was indefstigable.

Key words: negation category, double negation,mono-negation,linguistics.

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 15.01.2020
filologiya üzrə fəlsəfə doktoru, dosent Yusif Süleymanov
tərəfindən çapa tövsiyə olunmuşdur

TOFİQ QULİYEV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: t-guliyevs-52@mail.ru
Azerbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ SOMATİK İDİOMATİK BİRLƏŞMƏLƏRİN MİLLİ-MƏDƏNİ XÜSUSİYYƏTLƏRİ

Milli-mədəni xüsusiyyətlər idiomatik birləşmələrin əsasən etimologiyası ilə müəyyənləşdiyi üçün müasir ingilis dilində onların yaranma mənbəyi çox müxtəlifdir. V.A.Kunina görə onları üç əsas qrupa bölmək olar: 1) sırf ingilis frazeoloji vahidlər (FV); 2) əcnəbi dillərdən alınma FV; 3) ingilis dilinin amerikan variantından alınma FV [2, s.47].

İdiomatik birləşmələrin (İB) əksəriyyəti sırf ingilis İB-dir, məhz bu İB milli xüsusiyyətləri daha çox əks etdirir, çünki onların həqiqi müəllifi sadə xalqdır. Bu xalq İB vasitəsilə ənənələrini, müxtəlif realiləri və adətlərini əks etdirir. İB-nin mənbəyi tarixi faktlar, İncil, Şekspirin əsərləri və bir çox digər ingilis yazıçılarının əsərləri, həmçinin uşaq şeirləri və nağıllardır.

Dil materiallarının aparılmış təhlininin nəticələri sırf ingilis somatik idiomatik birləşmələrinin (SİB) təsnifatını verməyə və onların milli-mədəni xüsusiyyətlərini əks etdirən bir neçə qrupa bölməyə imkan verdi.

1. İngilis xalqının adət-ənənələrini əks etdirən somatik idiomatik birləşmələr (SİB):

"Long in the tooth" İB – qoca. Bu birləşmə bazarlıq zamanı atların dişlərini yoxlamaq adəti ilə bağlıdır. Atlarda uzun dişlər qocalıq əlaməti sayılırdı.

Açar sözlər: İngilis dili, somatik idiomatik birləşmələr, milli-mədəni xüsusiyyətlər, adət-ənənələr, inanclar

"Whom have you got in the mind for this committee?" – asked the squire abruptly. "My father", said Michael, "and we'd thought of Marquess of Shropshire". – ***"Very long in the tooth"****. "But very spry" – said Sir Lawrence.* – Komitə üçün siz kimi nəzərdə tutursunuz? – skvayr qəflətən soruşdu. Atamı, – Maykl dedi. – Markiz Şropşir haqqında da düşünürdük. **Çox qocadır.** Lakin çox cəlddir – ser Lorens dedi. (J.Galsworthy, "Swan Song". P.II, ch.6).

"Chip on one's shoulder" İB – digər insanların biri haqqında dəyərsiz və ya vecsiz insan kimi düşünülən zaman yaranan qəzəb hissi. – təkəbbürlük, dalaşqanlıq – Bu İB amerikan uşaqları arasında çiyində çubuq daşımaq və dalaşmaq arzusunda olan hamıya onu vurub salmaq kimi qəbul edilmiş adəti əks etdirir.

Böyük Britaniyada keçirilən cıdır yarışlarının rolu nəzərə alınsa, atlarla bağlı İB-nin yaranmasını başa düşmək olar. Məsələn, *"neck to neck"* – eyni vəziyyətdə olmaq, geri qalmamaq (hərfən: "boyun boyuna").

2. İnanclarla bağlı SİB:

İngilis xalqının inanclarını əks etdirən SİB-dən biri olan *"medical (middle) finger"* həmçinin *"ring finger"* adlanır. Adsız barmağın belə çoxsaylı adlarının olması onunla şərtlənir ki, qədim inanca görə bu barmaqdan onu ürəklə birləşdirən əsəb siniri keçir və buna görə bu barmaqla dərmanı əzən adam onun sağlamlıq üçün ziyan olub-olmamasını dərhal hiss edə bilir. Bu İB-nin nə Azərbaycan, nə də rus dilində analoqu var.

3. Ədəbiyyatla bağlı SİB:

a) Şekspirin əsərlərindən alınma SİB:

Bir çox somatizmlər ingilis dilinə Şekspirin əsərləri vasitəsilə keçib. Bilindiyi kimi, Şekspirin əsərləri ingilis mədəniyyətində daha geniş yayılmışdır və ümumiyyətlə, ingilis ədəbiyyatının rəmzi sayılır. İngilis dilini zənginləşdirən frazeologizmlərin sayına görə, V.Şekspirin əsərləri İncildən sonra ikinci yeri tutur. Şekspirin əsərlərindən alınma somatizmlərə aşağıdakıları misal göstərmək olar:

to wear one's heart upon one's sleeve for daws to peck at (Othello) – hisslərini açıq biruzə vermək, açıqürəkli olmaq. Müasir ingilis dilində bu birləşmə, ümumiyyətlə, ixtisar olunmuş şəkildə işlənir: *to wear one's heart upon one's sleeve;*

the green eyed monster (Othello) – göygözlü bədheybət, qısqanclıq;

to one's heart's content (Merchant of Venice) – tam ürəyincə;

б) Somatizmlərin yaranmasının mənbəyi kimi digər ingilis yazıçılarının əsərləri də iştirak edir. Məsələn: *bite the hand that feeds you* – səni yedizdirən əli dişləmək (E. Burke, Thoughts and Details on Scarcity);

not for ears polite – yaxşı tərbiyə görmüş adamların qulağı üçün deyil (A.Pope, Essay on Man);

be under somebody's thumb – kiminsə əlində olmaq, arvadının təsiri altında olmaq (S. Richardson, The History of Sir Charles Grefindson);

catch (take) somebody red-handed – kimisə cinayət üstündə tutmaq (W. Scott, Ivanhoe). Bu ifadə eyni məna ilə XVI əsrdən şotland hüquq terminologiyasında işlənirdi. Müasir ingilis dilində daha çox *"to catch somebody red-handed"* ifadəsi işlənir.

4. İncil ilə bağlı SİB:

an eye for an eye, a tooth for a tooth – gözə göz, dişə diş;

a man after his own heart – ürəyincə olan adam;

in the twinkling of an eye – bir göz qırpımında;

out of the mouths of baby – çağanın dili ilə;

the skin of my teeth – çətinliklə yol açmaq;

keeping your head – ayıq başla mühakimə etmək;
feet of clay – hərfən: gilli ayaqlar, zəif;
face like flint – donuq sifət;
ash my hands of it – məsuliyyətdən qaçmaq. [3]

5. Tarixi faktları əks etdirən SİB:

"Raw head and bloody bones" İB – iki çarpaz sümüklə kəllənin təsviri 2) müqəvva, nəsə qorxulu bir şey (xüsusilə, uşaqlar üçün). – Bu ifadə dənizlə bağlıdır. Orta əsrlərdə dəniz quldurları gəmilərə basqın edirdilər. Onların gəmilərinin bayrağında şər rəmzi daşıyan iki çarpazlanmış sümüklə kəllə təsvir olunurdu.

"Dead hand" İB (hüquq. "ölü əl"), hüquqi şəxsin daşınmaz əmlaka sahib olması (kiminsə adına keçirilməsi mümkünsüz); etim. Latın *in manu mortua.*

"The heart of Mid Lothian" İB – Qəddarlığı ilə məşhur olan Edinburq həbsxanası (1817-ci ildə sökülən zindanın adı). *He looks as if he were just about to honour with his residence the* ***Heart of Mid Lothian.*** *"You are mistaken - he is just delivered from it".* O, elə görünürdü ki, sanki öz gəlişi ilə **Edinburq həbsxanasına** şərəf verməyə hazırlaşır. – Siz səhv edirsiniz; onu oradan təzəcə buraxıblar. (W. Scott, "The Heart of Mid Lothian"ch.I).

"Be thumbs down" İB – əleyhinə olmaq, qadağan etmək;

"be thumbs up" – lehinə olmaq, rəğbətləndirmək, icazə vermək. Bu İB tarixlə bağlıdır. Qədim Romada imperatorun və ya tamaşaçıların əllərinin hərəkəti məğlub olmuş qladiatorun taleyini həll edirdi; aşağı endirilmiş baş barmaq ölüm, yuxarı qaldırılmış baş barmaq həyat demək idi.

6. Dini qayda-qanunları əks etdirən SİB:

"Pope's eye" İB – qoyun budunun yağlı tikəsi. Bu İB ən yaxşı torpaqların, malların və s. katolik kilsəsinin başçısı Papaya vermək adəti ilə bağlıdır. Buradan da *"pope's head"* – tavanı təmizləmək üçün süpürgə (rişxənd.) və "pope's nose" – (qızardılmış) quşun budu İB yaranmışdır.

7. Ölçü bidirən SİB:

"Up to the eye" İB-nin ingilis dilində iki mənası var:

1) *up to the eye in debt* – boğazacan borc içində olmaq.

A neighbour's estate, mortgaged ***up to the eyes****, was sold under the hammer.* **Boğazacan borcun içində** olan qonşunun malikənəsi hərracda satıldı. (Ch. Reade, "Born to Good Luck").

2) *up to the eye in work* – işin içində batmaq, çox işi olmaq.

Mr. Blake was ***up to his eyes*** *in the business of the House of Commons.* Cənab Bleykin İcmalar Palatasında **çox işi var idi**. (Collins, "The Moonstone", the first period, ch. XXIII).

Bilindiyi kimi, bütün dillərdə *"head"* komponentli bir çox İB "təfəkkür", *"eyes"* – "görmə" və ya "qavrama", *"foot"* – "gəzinti, özünü ələ alma", *"hand"* –

*"*malik olma" bildirir. Lakin bu dillərin hamısında bəzi məna dəyişiklikləri müşahidə olunur.

İngilis dilində "eyes" nəinki qavrama və görmə ifadə edir, həmçinin "təfəkkür" semantik qrupuna da aid ola bilir. Məsələn, *"four **eyes** see more than two"* – ağıl ağıldan üstündür. Bu nümunədən göründüyü kimi, İB-nin dıgər dildə uyğunluğu olmaya bilər və Azərbaycan dilində somatizmsız işlənə bilər. Digər bir nümunə:

"Wet the other eye" İB – yenə içmək.

*Moisten your day, **wet the other eye**, drink, man.* Hə, **boğazınızı yaşlayın**, bir qurtum da için. (Ch. Dickens "The Old Curiosity Shop"). Bu İB-də ingilis *"eye"* sözü "boğaz" leksemi ilə əvəz olunur. Növbəti nümunələri nəzərdən keçirək:

"Fly in the face" İB – iddialı olmaq, açıq-açığına məhəl qoymamaq. Məsələn: *"But I should have you know, Miss Edwards" resumed the governess in a tone of increased severity, "that you shall not be permitted **to fly in the face** of your superiors in this exceedingly gross manner".* Lakin, xanım Edvardz, bilin! – direktor öz nitqinə davam etdi, – heç kim sizə sizdən üstün olan adamları öz ləyaqətsiz davranışınızla təhqir etməyə icazə verməz. (Ch. Dickens, "The Old Curiosity Shop." Ch. XXXI*).* Bu İB-nin Azərbayvan dilində ekvivalenti yoxdur.

"At somebody's hand" İB – kiminsə tərəfindən. Bu İB-nin birbaşa analoqu yoxdur və *hand* sözü Azərbaycan dilinə tərəf kimi tərcümə olunur.

*Jane, if aid is wanted, seek it **at my hands**; I promise you that*. Ceyn, əgər kömək lazımdırsa, **mən tərəfdən** bunu əldə edə bilərsiniz; mən sizə söz verirəm. (Ch. Bronte "Jane Eyre", ch. XIX). *But I am no beggar; I look for no favours **at your hands** … .* Lakin mən dilənçi deyiləm, **sizin tərəfinizdən** mən heç bir yaxşılıq gözləmirəm (Stevenson. "Kidnapped", ch. III);

Be out of smb's hands – kimdənsə asılı olmamaq.

*I tried to prevent your being dragged in so scandalously, but the situation **was out of the hands**.* Mən çalışdım sizin bu utanc gətirən işə qarışdırılmağınızın qarşısını alım, lakin bu situasiya **kimdənsə asılı deyildi.** (J.Aldridge, The Diplomat).

Aşağıdakı İB-də leksem-somatizmlərin əvəzlənməsini müşahidə etmək olar:

*Before smb's **face*** – **burnunun** altında olmaq;

*in smb's **fingers*** – kiminsə **əlində**;

*wipe smb's **eyes*** – **burnunu** ovmaq.

İngilis SİB-in Azərbaycan dilində somatizmsiz işlənməsi:

a green hand – səriştəsiz, təcrübəsiz;

an old hand – bir işdə səriştəsi olan, təcrübəli.

Ədəbiyyat

1. Kirkpatrick E.M., Schwarz C.M. Chamber Idioms. Edinburgh: Chambers, 1982, 432 p.

2. Кунин А. В. Фразеология современного английского языка. М.: Международные отношения, 1972 г. – 289 с.
3. Longman Dictionary of English Idioms. London. 1980, 387 p.
4. Шитова Л.Ф., Брускина Т.Л. English Idioms and Phrasal Verbs. Англо-русский словарь идиом и фразовых глаголов. - 2-е издание, исправленное. - СПб.: антология, 2004. - 256 с.
5. https://www.pinterest.com/english-and-american-idioms-meaning-and-origins/

İstifadə edilmiş bədii ədəbiyyat siyahısı

6. Galsworthy J. Swan Song. P.II, ch.6.
7. Burke E. Thoughts and Details on Scarcity. Ch.III.
8. Pope A. Essay on Man. Ch.I
9. Richardson S. The History of Sir Charles Grefindson. Ch.IV.
10. Scott W. Ivanhoe. Ch.II.
11. Scott W. The Heart of Mid Lothian. Ch.I.
12. Reade Ch. Born to Good Luck. Ch.V. Progress Publishers. 1970.
13. Collins W. The Moonstone. The first period. Ch. XXIII. Progress Publishers. Moscow. 1965.
14. Dickens Ch. The Old Curiosity Shop. Ch. LXII. Foreign Languages Publishing House. Moscow. 1956.
15. Bronte Ch. Jane Eyre. Ch.XIX.
16. Stevenson R. Kidnapped. Ch.III. Foreign Languages Publishing House. Moscow. 1954.
17. Aldridge J. The Diplomat. Ch. 49. Foreign Languages Publishing House. Moscow. 1955.

T.Quliyev

National-Cultural Peculiarities of Somatic Idiomatic Constructions in English

Summary

The article deals with the national-cultural peculiarities of somatic idiomatic constructions (SIC) in English. As national-cultural peculiarities are mainly defined by etymology of idiomatic constructions, from this point of view sources of origin of idiomatic constructions in the modern English language are various. Most idiomatic constructions of the English language are originally English, and just these idiomatic constructions most of all reflect national peculiarities of idiomatic constructions, as their real author are common people, who by means of idiomatic constructions reflected traditions, different realities and customs of the English people. The sources of the given idiomatic constructions are historical facts, Shakespeare's works, and

works of many other writers, childish verses, and fairy tales. The results of the carried out analysis of the linguistic materials allowed classifying original English SIC and dividing them into several groups, reflecting their national-cultural peculiarities.

1. SIC reflecting traditions and customs of the English people:

IC “long in the tooth” - old. This IC has the link with the custom to check the teeth of the horse while buying it. A long tooth of a horse was considered of its being old. 2. SIC connected with superstitions: One of the SIC of the English language reflecting superstitions of the people is IC “medical (middle) finger”, which is also called “ring finger“. 3. SIC of literary origin: a) SIC borrowed from Shakespeare’s works. For example: the green eyed monster (Othello) - envy; б) the source of forming SIC can be other works of English writers. For example: bite the hand that feeds you (E.Burke, Thoughts and Details on Scarcity); 4. SIC connected with Bible: an eye for an eye, a tooth for a tooth; 5. SIC reflecting historical facts: IC “raw head and bloody bones” – an image of a skull with two crossed bones, 2) пугало. 6. SIC reflecting religious law and rules: IC “pope's eye” – a fatty part of mutton. 7. SIC meaning a unit of measure: IC "up to the eye" has got two meanings in English: 1) up to the eye in debt – to owe a lot. 2) up to the eye in work – to be too busy.

Key words: the English language, somatic idiomatic constructions, national cultural peculiarities, customs, traditions, superstitions

Т.Гулиев

Национально-культурная специфика соматических идиоматических сочетаний в английском языке

Резюме

В статье рассматривается национально-культурная специфика соматических идиоматических сочетаний (СИС) в английском языке. Так как национальная культурная специфика во многом определяется этимологией идиоматических сочетаний (ИС), то с этой точкой зрения источники происхождения ИС в современном английском языке очень разнообразны. Большинство ИС английского языка являются исконно английскими, и именно эти ИС наиболее отражают национальную специфику ИС, так как их истинным автором является простой народ, который посредством ИС отражал традиции, различные реалии и обычаи английского народа. Источником данных ИС выступают исторические факты, шекспеpизмы, библеизмы, а также произведения многих других писателей, детские стихотворения и сказки. Результаты проведённого анализа языкового материала позволили провести классификацию исконно английских СИС и подразделить их на несколько групп, отражающих их национально-культурную специфику.

1. СИС, отражающие традиции и обычаи английского народа: ИС “long in the tooth” - старый, песок сыплется. Это ИС связано с обычаем проверять зубы у лошади при покупке, длинные зубы у лошади считались признаком старости. 2. СИС, связанные с поверьями: Одним из СИС английского языка отражающим поверье народа является ИВ “medical (middle) finger”, который также называется “ring finger“. 3. СИС литературного происхождения: а) СИС, заимствованные из произведений Шекспира. the green eyed monster (Othello) - чудовище с зелёными глазами, ревность; б) Источником образования соматизмов также выступают и другие произведения английских писателей. Например: bite the hand that feeds you - укусить руку, которая кормит тебя (E. Burke, Thoughts and Details on Scarcity); 4. СИС библейского происхождения: an eye for an eye, a tooth for a tooth - око за око, зуб за зуб. 5. СИС, отражающие исторические факты: ИС “raw head and bloody bones” - изображение черепа с двумя скрещёнными костями.

6. СИС, отражающие религиозные правила и законы: ИС “pope's eye” - жирная часть бараньей ноги. 7. СИС, отражающие меры измерения: ИС "up to the eye" имеет в английском языке два значения: 1) up to the eye in debt - по уши в долгу; 2) up to the eye in work - по горло в работе.

Ключевые слова: Английский язык, соматические идиоматические сочетания, национально-культурная специфика, обычаи, традиции, поверья

Redaksiyaya daxil olma tarixi: 20.20.2019
Çapa qəbul olunma tarixi: 14.01.2020
Filologiya elmləri doktoru, professor Məsməxanım Qazıyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNAL SƏFƏRLİ
ADİU(UNEC), Azərbaycan dili kafedrası, dosent
Ünvan: AZ 1001, Bakı, İstiqlaliyyət küç.6
banus78@mail.ru

AZƏRBAYCAN DİLİNİN DİALEKT VƏ ŞİVƏLƏRİ MÜASİR DÖVRÜN TƏLƏBLƏRİ KONTEKSTİNDƏ

Xülasə

Dialektologiya dilçiliyin bir sahəsi olub dialekt və şivələri öyrənir. Dilçilikdə dilin dialekt üzvlənməsi "ləhcə", "şivə qrupu" və "şivə" terminləri ilə adlandırılır.

Dialekt sözlər məhdud dairədə (ərazidə) işlədilən sözlər məcmusu nəzərdə tutulur. Dialektologiyanın əsas anlayışları və terminlər bunlardır: şivə, şivələr qrupu, ləhcə, dialekt, keçid şivə, qarışıq şivə və izoqloss.

Şivə isə dilin dialekt bölünməsinin ən kiçik vahididir. O, bir və ya bir neçə yaşayış məntəqəsi sakinlərinin nitqində yaranır. Əsas dil xüsusiyyətlərinə malik olan şivələr də birləşib qrup əmələ gətirir. Bir neçə şivə isə birləşərək ləhcəni yaradır. Ləhcə dilin dialekt bölünməsinin ən böyük vahididir. İzoqloss coğrafi xəritədə bu və ya digər dil hadisəsinin yayılma sərhədini göstərən xətti bildirir. Göründüyü kimi, dialekt daha geniş ərazini, şivə isə dialekt daxilində daha məhdud bölgəni əhatə edir.

Müasir Azərbaycan dilində də dialektlər və şivələr qalmaqdadır. Bununla belə, hər bir ədəbi dil zaman keçdikcə dəyişikliyə uğradığı üçün dialektlərə də bu baxımdan təsir göstərir. Məqalədə dialekt və şivələrin müasir tələblərə uyğun dəyişmə prosesi öyrənilir.

Qarabağın işğalından sonra köçkünlərin, Qərbi Azərbaycandan didərgin düşən qaçqınların başqa bölgələrdə məskunlaşması İrəvan və Qarabağ subdialektlərin digər dialektlərlə qarışmasına səbəb olmuşdur. Bu dialektlərin araşdırılması, qorunub-saxlanması da vacib amillərdəndir

Yazılı dildə - ədəbiyyatda öz əksini tapan dialektlər dialektizm adlanır. Dialektizmlər də müasir dövrün tələblərinə uyğun şəkildə istifadə edilir.

Azərbaycan dialektologiyası müasir tələblər kontekstində tədqiqatlara cəlb olunmaqdadır. Məqalədə yeni araşdırmalara da nəzər salınmışdır.

Açar sözlər: dialektologiya, dialekt, dialektizm, şivə, ədəbi dil, dilçilik.

Dilin lüğət tərkibinin qeyri-fəal hissəsini təşkil edən, müəyyən ərazidə işlənən və başa düşülən sözlər dialektlər adlanır. Ədəbi dilin lüğət tərkibinin zənginləşməsində mühüm yerlərdən də birini dialekt leksikası tutur. "Dialektlər ədəbi dilin maddi əsasıdır, onun qida mənbəyidir, dil sistemi həlqəsindən kənarda deyildir" (15,187). "Şivə isə dilin dialekt bölünməsində ən kiçik vahiddir" (24,4)

Müasir Azərbaycan dilində dialektlərin əmələ gəlmə yollarından danışarkən onları iki yerə ayırırlar:

1. Eyni mənşəli tayfa dillərinin vahid xalq dilinin yaranma prosesində müstəqilliyini itirərək şivələrə çevrilməsi;

2. Vahid xalq dilinin müxtəlif dil xarici amillərin təsiri ilə öz müstəqilliyini itirməklə şivələrə çevrilməsi.

Azərbaycan dilinin dialekt və şivələrinin müasir dövrün tələbləri kontekstində araşdırarkən müxtəlif istiqamətlərdə və prizmlardan nəzər yetirəcəyik.

Dialekt dil fərqliliyi olub, özünü müəyyən bir bölgədə yaşayan insanların ünsiyyəti zamanı göstərir. Dialekt özünəməxsus lüğəti ilə fərqlənən bütöv nitq ünsiyyətinə malik bir sistemdir. Ənənəvi olaraq, dialekt dedikdə, adətən, kənd ərazi dialektləri nəzərdə tutulsa da, son zamanlar şəhər dialektlərinin tədqiqi də maraq doğurur.

Müasir dialektologiyada dialektlər tədqiq edilərkən onların sərhədlərinin müəyyənləşməsi də ön planda dayanır. "Dilin dialektləri izoqloss topaları əsasında müəyyən edilir" (12, 9) İzoqloss çox zaman "eyni dil xüsusiyyətləri" mənasında işlədilir. İzoqlosların doğru təyin edilməsi, dialektizmlərin sərhədlərinin müəyyən edilməsi də çətin prosesdir.

Dialekt sözlər ədəbi dil normalarına uyğun gəlmir. Bu sözlər konkret bir bölgədə yaşayan insanların dilində kök salmış leksik vahidlər olub, V.V.Vinoqradovun əsərlərində ədəbi dillə əlaqələndirilmişdir.

"Bizdə hələ şivə sözləri ilə ədəbi dil sözlərinin sərhədi az öyrənilmişdir. Ümumxalq, canlı danışıq dili sözlərinin ədəbi dilə keçməsi yolları hələlik müəyyənləşdirilməmişdir" (25,214).

Müasir Azərbaycan dilçiliyində dialektlərin öyrənilməsi qarşıya qoyulan məqsədlərdəndir. Ümumiyyətlə, aparılan dialektoloji tədqiqatlara nəzər yetirdikdə aydın olur ki, Azərbaycan dialekt və şivələri uzun müddət üç istiqamətdə öyrənilmişdir.

1. Azərbaycan dialekt və şivələrin monoqrafik tədqiqi;
2. Dialekt və şivələrin coğrafiyası əsasında öyrənilməsi;
3. Dialekt və şivələrin lüğətinin tərtib edilməsi.

Azərbaycan dialektlərinin öyrənilməsi XX əsrin 20-30-cu illərinə aiddir. Dilçi alim N.Aşmarinin "Nuxa şəhəri türk şivələrinin ümumi icmalı" (1926) əsəri dialektoloji tədqiqatlarda ilk monoqrafiya hesab edilir. Alimin təlimatları ilə Azərbaycanın müxtəlif bölgələrindən 60 minə yaxın dialekt toplanılır. "Toplanan materiallar əsasında "Azərbaycan türk xalq şivələri lüğəti" adlı əsərin birinci cildi (A hərfi) və ikinci cildi (B hərfi) 1930-cu ildə nəşr olundu. XX əsrin 30-cu illərində ilk elmi dialektoloji tədqiqat aparan İdris Zaman oğlu Həsənovun fəaliyyəti də diqqəti cəlb edir (9, 5). Lakin repressiya qurbanı olan İdris Həsənova bu işi sona qədər yetirmək nəsib olmur.

1952-ci ildə A.Vəliyevin müdafiə etdiyi "Abşeron yarımadasının qərb rayonları şivələri" adlı namizədlik dissertasiyası da bu sahədə olan tədqiqlərdəndir. 1956-cı ildə çapdan çıxmış, M.Şirəliyev, K.Ramazanov, R.Rüstəmov tərəfindən tərtib edilmiş "Azərbaycan dili dialekt və şivələrinin monoqrafik tədqiqinə aid proqram" digər təd-

qiqatçılar üçün bələdçi rolunu oynamışdır. Bu vəsaitə qədər müəlliflərin bu sahədə ayrı-ayrılıqda tədqiqat işləri – M.Şirəliyevin "Bakı dialekti" (1949,1957), "Azərbaycan dialektologiyasının əsasları" (1962, 1968), R.Rüstəmovun "Azərbaycan dialektologiyası proqramı" (1953), "Quba dialekti" (1961), "Azərbaycan dili dialekt və şivələrində feil" (1965) və başqa əsərlər mövcuddur. Azərbaycan Elmlər Akademiyasının 1945-ci ildə təşkil olunması ilə dialektologiyanın da inkişafına geniş vüsət verdi.

Müstəqillikdən sonra dialektologiyaya da xüsusi önəm verilmişdir. 1990-cı illər dialektologiyaya yeni nəfəs gəlmişdir. «Azərbaycan dilinin dialektoloji atlası» dünyanın görkəmli dilçi alimlərinin də diqqətini çəkmişdir. "Atlas haqqında ABŞ-da, Almaniyada, Türkiyədə, Fransada, Macarıstanda, Finlandiyada, Bolqarıstanda və başqa ölkələrdə müsbət rəylər çap edilmiş, yüksək dəyərləndirilmişdir. Atlasla paralel şəkildə 12 mindən artıq sözü əhatə edən ikicildlik «Azərbaycan dilinin dialektoloji lüğəti»i də tərtibi edilmişdir. Həmin lüğətin I cildi (A-L) 1999, II cildi isə (M-Z) 2003-cü ildə Türkiyənin Dil Qurumu xətti ilə Ankara şəhərində nəşr edilmişdir" (27).

Son dövrlər bu sahədə də irəliləyişlər özünü göstərir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsində və ölkədə dilçiliyin inkişafına dair" 9 aprel 2013-cü il tarixli Dövlət Proqramının 6.3.5-ci bəndində yer alan Azərbaycan dilinin dialekt və şivələrinin müasir dövrün tələblərinə uyğun öyrənilməsi də zəruri şərtlərdəndir.

Dialektologiyanın son tədqiqlərində yeni baxış öz sözünü deməklə yanaşı, müasir tələblərə də cavab verir. Elbrus Əzizovun "Azərbaycan dilinin tarixi dialektologiyası", Gülxanım Vəliyevanın "Azərbaycan dialektologiyası", müxtəlif bölgələrin dialektlərinə həsr olunan monoqrafiyalar - Əbülfəz Quliyev, Nuray Əliyevanın müştərək tədqiqi "Naxçıvan dialekt və şivələri", Məhərrəm Məmmədlinin "Azərbaycan dilinin Təbriz dialekti" (2008), "Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları" (2003), "Azərbaycan dialektologiyası" və bu kimi əsərlər müasir tələblərə cavab verir.

Dilçiliyin yeni sahəsi olan tarixi dialektologiyanın formalaşması və inkişafı isə dialektlərin müasir tələblər kontekstində araşdırılmasını zəruri edir. 1976-cı ildən Tarixi dialektologiyanın yaradılması yolunda addımlar atılmışdır. İlk addım isə Tofiq Hacıyev ilə Elbrus Əzizovun Alma-Ata şəhərində Ümumittifaq türkologiya konfransındakı "Azərbaycan dili tarixi dialektologiyasının tarixi-linqvistik əsasları" adlı müştərək məruzəsi olmuşdur. "Dil tarixi və dialektologiyanın ümumi məsələləri üzrə keçirilmiş bir sıra müşavirələrdə T.Hacıyev, V.Aslanov, M.İslamov, S.Əlizadə, İ.Vəliyev, B.Sadıqov və başqalarının məruzələri Azərbaycan dili tarixi dialektologiyasının ümumi və xüsusi məsələlərinin həlli baxımından çox əhəmiyyətlidir" (11, 12).

İkinci istiqamət dialekt və şivələrin coğrafiyası əsasında öyrənilmə məsələsidir. Müasir dövrdə bu istiqamətdə müəyyən problemlər ortaya çıxa bilər. İşğal olunan, habelə itirdiyimiz qədim Azərbaycan torpaqlarında yaşamış əhalinin də əsrlərlə formalaşdırdığı dialektləri də tədqiq etmək bir sıra çətinliklər yaradır. Qarabağın işğalından sonra köçkünlərin, Qərbi Azərbaycandan didərgin düşən qaçqınların başqa bölgələrdə məskunlaşması İrəvan və Qarabağ subdialektlərin digər dialektlərlə qarış-

masına səbəb olmuşdur. Bu dialektlərin araşdırılması, qorunub-saxlanması da vacib amillərdəndir. Bunun üçün qaçqın və köçkünlərin məskunlaşdıqları ərazilərə gedib yaşlılarla ünsiyyət qurmaq, dialekt sözləri toplamaq lazımdır.

Ümumiyyətlə, dialektlər ilə folklor nümunələrinin toplanması paralel şəkildə aparılmalıdır. Son zamanlar bu amil unudulur. Belə ki, folklor ekspedisiyalarında mütləq dialektoloqun da iştirakı vacibdir. Folklorşünas özünə maraqlı gələn nümunələri toplayan zaman dialektoloq da dialektləri qələmə almalı, onun işlənmə dairəsini müəyyənləşdirməlidir. Son zamanlar folklor nümunələrinin toplanma və tərtibində bəzən dialekt və şivə xüsusiyyətləri unudulur, bəzən səhv salınır. Bu səbəbdən də toplayıcı dialekt və şivə xüsusiyyətlərinə bələd olmalı, digər halda isə dialektoloqlardan kömək istəməlidir. Dialektoloji müşahidə zamanı yerli əhalinin danışığındakı səslər və onların variantları, sözlərdəki qoşa sait və samitlərin tələffüz şəkli, yerdəyişməsi və digər fonetik hadisələr müəyyənləşməli, morfoloji xüsusiyyətlər nəzərə alınmalıdır.

İşğal altında olan ərazilərdən qaçqın və köçkün düşən əhali zaman-zaman məskunlaşdıqları yerlərin də dialektlərini mənimsəməyə başlayır. Bəzən söyləyici işlətdiyi sözün mənasını tam şəkildə bilmir, cümlə kontekstinə uyğun işlətmir. Söyləyici bəzən hansı bölgənin dialektindən istifadə etdiyinin fərqində belə olmur. Bu hallar isə dialektoloq üçün çətinlik yaradır. Ona görə də toplama materiallarını tərtib edən dialektoloqlar bölgə xüsusiyyətlərinə tam bələd olmalı, dialektləri qruplaşdırarkən bu amilləri unutmamalıdır.

Qərb ləhcəsinə daxil olan Qarabağ dialekti və onun toplanması vacib, eyni zamanda aktual məsələlərdəndir. Bu dialektin ilk tədqiqi olaraq C.Hacıbəylinin "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəridir. Əsər türkoloq A.N.Samoyloviçin məsləhəti ilə yazılmış və 1933-cü ildə Fransada çap olunmuşdur. Kitab B.Ağayevin tərcüməsi ilə Bakıda nəşr edilmişdir. Bundan başqa, həmin illərdə "Azərbaycan yurd bilgisi" jurnalında S.Talıbxanbəylinin silsilə məqalələrində Qarabağ və İstanbul şivələri qarşılaşdırılmışdır. İ.Məmmədovun "Azərbaycan dilinin Qaryagin (Füzuli) rayonu şivələri", İ.Quliyevin "Azərbaycan dilinin Ağcabədi rayonu şivələri" mövzusunda tədqiqat işləri təqdirəlayiqdir.

2017-ci ildə Sevinc Qəmbərovanın "Azərbaycan dilinin Qərb şivələri və türk dilinin Qars şivələrinin leksikasinin müqayisəli-linqvistik təhlili" mövzusunda dissertasiyası müdafiə olunmuşdur. Tədqiqat işində Qarabağ dialektinin şivələri də təhlil edilmişdir.

2018-ci ildə Azərbaycanda tələbələrin hazırladıqları ilk elmi tədqiqat işi kimi "Azərbaycan dilinin Qarabağ şivələrinin lüğət tərkibi" adlanan kitabın ilk nüsxəsi nəşr olunmuşdur. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın dəstək verdiyi bu iş bir çox tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilmişdir: "AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dilinin dialektologiyası şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Kifayət İmamquliyeva kitaba yazdığı ön sözdə

tələbələrin bu nailiyyətini dilçiliyin, dialektologiya sahəsinin inkişafına verilmiş böyük töhfə adlandırıb. Kitabın elmi redaktoru, MDU-nun Humanitar fənlər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Namaz Manafov "Azərbaycan dilinin Qarabağ şivələrinin lüğət tərkibi" toplusunda 3711 söz üzərində araşdırma aparıldığını deyib:

"O sözlər Ağdam, Cəbrayıl, Zəngilan, Şuşa, Ağcabədi, Füzuli, Zəngilan, Kəlbəcər və qismən Tərtər rayonları ərazisində mövcud olan şivə və dialektləri özündə birləşdirir. Əsərdə sözlərin qrammatik quruluşu, transkripsiyası və məzmunu elmi əsasını tapıb" (27)

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın 6.3.5. bəndinin (Azərbaycan dilinin müxtəlif dialekt və şivələrinin müasir dövrün tələblərinə uyğun olaraq öyrənilməsinin təmin edilməsi) həyata keçirilməsi məqsədilə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu "Azərbaycan dilinin Qarabağ dialektoloji atlası" hazırlanır (26).

Azərbaycan dialekt və şivələrindən danışarkən Qərbi Azərbaycan ərazisini unutmaq olmaz. İndi Ermənistan adlanan qədim Azərbaycan torpaqlarında yaşayan əhalinin öz şivələri olmuşdur. İrəvan şivəsi bəzən subdialekt kimi götürülür və Cənub ləhcəsinin içərisində tədqiq edilir. Bu ərazidəki çivələrin öyrənilməsi XIX əsrin 60-cı illərinə aiddir.

"Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray, Basarkeçər, Böyük Qarakilsə, Dağ Borçalısı (Calaloğlu, Kalinino), Barana, Ağbaba, Quqark rayonunun Azərbaycan şivələri qərb ləhcələrinin, Dərələyəz, İrəvan, Zəngibasar, Qarakilsə (Sisyan), Meğri, Qafan rayonunun Azərbaycan şivələri isə cənub qrupu ləhcələrinin xüsusiyyətlərini özündə əks etdirir" (6).

Qərbi Azərbaycan şivələrinin leksikasının zənginliyi vaxtilə bu ərazidə yaşayan Azərbaycan xalqının qədimliyindən və indiki Ermənistanın əzəli torpaqlarımız olduğundan xəbər verir. Filologiya üzrə elmlər doktoru, professor İbrahim Bayramovun 2011-ci ildə çap etdirdiyi "Qərbi Azərbaycan şivələrinin leksikası" (Bakı: "Elm və təhsil") dəyərli əsərlərdəndir.

Sevindirici haldır ki, müəyyən zaman çərçivəsində digər bir xalqla qaynayıb-qarışan, 1988-ci ildən torpaqlarından didərgin düşən Qərbi azərbaycanlılar öz şivələrini qoruyub-saxlamış, nəsildən-nəslə ötürə bilmişdir.

Gürcüstan ərazisində yerləşən əzəli torpaqlarımızdakı azərbaycanlılar da öz ləhcələrini unutmur, qoruyub digər nəslə ötürür. Gürcüstan ərazisində yerləşən qədim Azərbaycan torpaqlarında dialekt və şivələrin toplanıb nəşr edilməsində boşluqlar vardır. Bununla belə, internet səhifələrdə bu ərazilərdə olan dialektlər öz əksini tapmışdır. Məsələn, Darvaz kəndinin "darvaz.com" adlı saytında "Darvaz dialektoloji lüğət"i yer almışdır. Rusiya Federasiyasının tərkibində olan Dərbənd və Tabasaran rayonlarında yaşayan azərbaycanlılarında da özlərinəməxsus dialektləri mövcuddur.

"1976-1980-ci illərdə akademiyamızın Dilçilik İnstitutunun direktoru akademik Məmmədağa Şirəliyevin təşəbbüsü və təşkilatçılığı ilə dialektologiya şöbəsinin əməkdaşları - B.Tağıyev (1976-1978), S.Behbudov, Ə.Ağayev, Z.Xasiyev (1976-1980), N.Məmmədov (1976-1979), F.Xalıqov (1980), şöbənin müdiri professor Musa İslamovun rəhbərliyi ilə 7 dəfə həmin kəndlərdə dialektoloji ekspedisiyalarda olmuş, toplanan zəngin material əsasında "Azərbaycan dilinin Dərbənd dialekti" adlı tarixi əsər yazmışdılar" (20)."Azərbaycan dilinin Dərbənd dialekti", "Azərbaycan dilinin Meğri şivəsi" və "İraq-türkman ləhcəsi" əsərlərinin ərsəyə gəlməsində Milli Elmlər Akademiyasının Dilçilik İnstitutunun direktoru, akademik Ağamusa Axundovun və Dialektologiya şöbəsinin müdiri professor Qəzənfər Kazımovun rolu böyük olmuşdur. Qəzənfər Paşayevin AMEA-nın Dilçilik İnstitutunun "Dialektologiya" şöbəsinin əməkdaşları ilə birgə yazdığı və maddi köməyi ilə çap etdirdiyi fundamental "İraq-türkman ləhcəsi" (Bakı, "Elm", 2004, 422 s.) adlı əsərə professor Q.Kazımov sanballı giriş məqaləsi yazmışdır.Qeyd edək ki, Dərbənd dialektinə dair materiallar Dərbənd rayonunun 21, Tabasaran rayonunun 7 sırf azərbaycanlılar yaşayan kəndindən toplanmışdır. "Musa İslamov, Bəbir Tağıyev, Seyfi Behbudov, Əlimuxtar Ağayev, Zirəddin Xasıyev tərəfindən dialektologiya elminin son nailiyyətləri əsasında yazılmışdır. İlk dəfə olaraq monoqrafik tədqiqə cəlb olunan Dərbənd dialekti üzərində iş "Azərbaycan dili dialekt və şivələrinin monoqrafik tədqiqinə aid proqram"a uyğun olaraq aparılmışdır. Əsəri yazarkən alimlərimiz təsviri, müqayisəli və tarixi-müqayisəli metoddan istifadə etmişlər"(20).

Bu dialektlərdən danışarkən M.Şirəliyevin rolunu nəzərdən qaçırmaq olmaz. Azərbaycan dili dialektlərinin öyrənilməsində, xüsusilə Kərkük və Dərbənd dialektlərinin, eləcə də indi Gürcüstana daxil olan Borçalı mahalının şivələrinə dair materialların toplanması və tədqiqində böyük rolu vardır. Hər iki dialektin və Borçalı şivələrinin (Borçalıda şivə materialları toplayan ekspedisiyaya şəxsən o özü rəhbərlik edirdi) öyrənilməsinin təşəbbüskarı məhz akademik M.Şirəliyev olmuşdur.

Dialekt və şivələrin lüğətinin tərtib edilməsi də önəmli məsələlərdəndir. Müasir dialektologiyada bu məsələlərə diqqət yetirilir.

Azərbaycan dili dialekt və şivələri XIX əsrin 20-ci illərindən toplanmağa başlanmışdır. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin nəzdində yazıçı Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə 30 cildlik söz toplansa da, yalnız iki cildi çap oluna bilmişdir. Böyük Vətən müharibəsində ictimai-siyasi mühitdə yaranan durğunluq bütün sahələrə öz təsirini göstərmişdir. 50-ci illərdən başlayaraq şivələrin öyrənilməsi prosesi yenidən güclənmişdir. 6300 sözdən ibarət "Azərbaycan dilinin dialektoloji lüğəti" 1964-cü ildə çapdandan çıxmışdır. 1975-ci ildə 20 minə yaxın dialekt və şivənin toplandığı əsər isə uzun müddət çap olunmamışdır. Dilçilik İnstitutunun direktoru Ağamusa Axundov 1991-ci ildə lüğətin çapı üçün Türk Dil Qurumuna müraciət etmişdir. Lakin iki cildlik olan bu lüğət 1999 (I c.) və 2003-cü illərdə çap edilmişdir. Lüğət Behbudov S. tərəfindən yenidən işlənmiş, müxtəlif dialektoloqlar tərəfindən 2500 söz əlavə edilərək 2007-ci ildə çap edilmişdir.

Müasir dialektologiyada dialektizmlərin də tədqiqini unutmaq olmaz. "Ədəbi dil lüğətinin dialektlər hesabına inkişafında və zənginləşməsində, əsas etibarilə bu və ya digər dialektin əhatə etdiyi məhəldən yetişmiş şair və yazıçılar böyük rol oynamışlar" (8,9). Bədii əsərin dilində dialektlərə məxsus olub, ədəbi dildəki sözlərdən fonetik, leksik və qrammatik xüsusiyyətləri ilə fərqlənən leksik vahidlərə *dialektizm* deyilir. Dialektizmlər üçün əsas şərt daha geniş arealda yayılmasıdır. Bu da həmin sözün çoxluq tərəfindən başa düşülməsi üçün vacib amildir.

Müasir dövrdə dialektizmlərin tədqiqi aktual problemlərdəndir. Azərbaycan dilçiliyində dialektizmlərin işlənməsi ilə bağlı olaraq müxtəlif fikirlər səslənsə də, son zamanlar bu məsələdə tədqiqatçılar ortaq fikrə gəlmişdir.

Son dövrlərdə dialektizmlərlə bağlı bir çox araşdırmalar aparılmışdır. Çinarə Qəhrəmanovanın 2014-cü ildə "S.Rəhimovun əsərlərində dialektizmlərin linqvistik xüsusiyyətləri ("Saçlı" romanı və hekayələri əsasında)" mövzusunda dissertasiya işi, 2019-cu ildə çapdan çıxan Qüdsiyyə Qəmbərovanın "İmadəddin Nəsiminin anadilli poetik əsərlərinin diaxronik-dialektoloji tədqiqi" (Bakı, "Elm", 2019, 228 səh.) monoqrafiyası, Kübra Quliyevanın tərtib etdiyi "Bədii ədəbiyyatda dialektizmlər" (Bakı, "Elm və təhsil", 2019, 288 səh.) lüğəti bu sahədə aparılan ən yaxşı araşdırmalar sırasındadır. "Bədii ədəbiyyatda dialektizmlər" lüğətinin xəzinəsini Azərbaycanın müxtəlif bölgələrini təmsil edən müasir yazıçılarımızın əsərləri təşkil edir. Lüğətdəki dialektizmlərin sayı 2200-dən artıqdır.

Son olaraq söyləyə bilərik ki, Azərbaycan dilində mövcud olan dialektlərin hansı bölgədən gəldiyini müəyyən etmək üçün spesifik xüsusiyyətlərini bilmək lazımdır. Dilimizin bütün dialekt və şivələrini öyrənmək, onların mükəmməl lüğətini tərtib etmək dialektologiyanın qarşısına qoyulan məqsədlərdəndir. Unutmaq olmaz ki, dialektlərdən gələn sözlər təkcə ədəbi dilimizin bədii üslubuna deyil, bütün sahələrə, ixtisaslara da öz təsirini göstərə bilir. Hətta terminyaratma prosesində də dialektlər iştirak edə bilir. Məsələn, güzəm - payızda qırxılan yun.

Ədəbiyyat:

1. Axundov A.A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı: "Elm", 2005, 452 s.
2. Axundov A.A. Ümumi dilçilik. Bakı: "Şərq-Qərb", 2006, 280 s.
3. Azərbaycan dialektoloji lüğəti: 2 cilddə, I c., Ankara: "Türk Dil Kurumu", 1999, 374 s.
4. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: "Şərq-Qərb", 2007, 568 s.
5. Azərbaycan dilinin dialektoloji lüğəti: I c., Bakı: "Azərbaycan EA nəşriyyatı" 1964, 480 s.
6. Bayramov İbrahim. Qərbi Azərbaycan şivələrində qədim sözlər. "Azərbaycan məktəbi".-2015.-№ 1.-S.64-68.
7. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə. Leksika. Bakı: "Şərq-Qərb", 2007, 192 s.

8. Cəfərov S.Ə. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1960, 203 s.
9. Əbülfəz Aman oğlu Quliyev, Nuray Yadigar qızı Əliyeva. Naxçıvan dialekt və şivələrinin lüğəti. Naxçıvan: "Əcəmi" nəşriyyatı, 2017, 296 səh.
10. Ələkbərli Ə. Qərbi Azərbaycanın dialektoloji lüğəti. I kitab, İrəvan Çuxuru, Bakı: "Ağrıdağ" nəşriyyatı, 2009, 192 s.
11. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası: Dialekt sisteminin təşəkkülü və inkişafı. Dərs vəsaiti. 2-ci nəşri. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2016, 348 s.
12. Əzizov E. Dialektologiyanın əsas dil anlayışları və terminləri haqqında. Bakı Universitetləri, N4,2005, s.9
13. Hadjibeyli Djeyhoun. La Dialekte et le folklore du Karabagh (Azerbaidjani du Caucase), Yournal Asiatique, Paris: 1933, CCXII, p. 31-144.
14. Hüseynov A. Azərbaycan dialektologiyası. Bakı: APİ nəşri, 1979, 89 s.
15. Xudiyev N. M. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı: "Maarif", 1989, 402 s.
16. Kazımov Q. Azərbaycan dili dialekt və şivələrinin tədqiqi tarixindən. // Filologiya məsələləri. Bakı, 2014, № 1
17. Qəmbərovanın Q. İmadəddin Nəsiminin anadilli poetik əsərlərinin diaxronik-dialektoloji tədqiqi. Bakı: "Elm", 2019, 228 s.
18. Quliyeva K. Bədii ədəbiyyatda dialektizmlər. Bakı: "Elm və təhsil", 2019, 288 s.
19. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild (2 cilddə), Bakı: "Elm və təhsil", 2010, 452 s.
20. Paşayev Q. Azərbaycan dilinin qərib dialektləri. Azərbaycan, 2010, 9 fevral, s.7
21. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: "Şərq-Qərb", 2008, 416 s.
22. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: "Maarif", 1967, 420 s.
23. Tanrıverdi Ə. Dilimiz, düşüncəmiz. Bakı, "Elm və təhsil", 2017, 362 s.
24. Vəliyev G. Azərbaycan dialektologiyası, Bakı, "Nurlan", 2008, 111 s.
25. Виноградов В.В. История русского литературного языка. М., Наука, 1978, 320 с.
İnternet resursu:
26. Azərbaycan dilinin Qarabağ dialektoloji atlası zəngin materiallar əsasında hazırlanır. https://azertag.az/xeber/
27. Qarabağ şivələrinin lüğət tərkibi. https://www.buqelemun.com/az/
28. http://www.dilcilik.az/dil-tarixi-ve-dialektologiya.htm.

G.Safarli

Dialects and subdialects of Azerbaijani language
in the context of the modern era

Summary

Dialectology is a field of the linguistics, that studies dialects and subdialects. In linguistics the terms of dialect are called "accent", "group of subdialects" and "slangs".Dialectic wrds are set of words that are used in a limited area (territory). The main concepts and terms of the dialectology are: subdialects, group of slangs, dialect, transitional subdialects, mixed subdialects and isogloss.

The subdialect is the smallest unit of the dialect division of the language. Ot appears in the speech of people of one or more settlements. Rhe subdialects with the main features are also grouped. And several subdialects combined to form an accent. An accent is the largest unit of the dialect division of language. Isogloss is a line on a geographical map, that shows the distribution boundary of a particular language events. As you can see, the dialect covers a wider area and the subdialects cover a more limited area within the dialect.In modern Azerbaijani language there are also dialects and subdialects. Nonetheless, as each literary language changes over time, dialects are also affected in this regard. In the article we studied the changing process of dialects in accordance with modern requirements.After the occupation of Karabakh internally displaced people (IDP) and refugees from Western Azerbaijan settled in other regions. As a result of this settlements the subdialects of Yerevan and Karabakh mixed with other dialects. Studing and preservation of these dialects is also one of the important factors.The dialects reflected in the written language-literature are called dialecticism. Dialecticisms are used in accordance with the requirements of modern era.The dialectology of Azerbaijan is involved in researchs in the context of modern requirements. In the article we also have look at new researchs.

Keywords: *dialectology, dialect, dialecticisms, subdialect, literary language, linguistics.*

Г. Сафарли

Диалект и говоры Азербайджанского языка
в контексте современных требований

Резюме

Диалектология является частью лингвистики и изучает диалекты и говоры. В лингвистике диалектное членение обозначается терминами «диалект», «группа говоров» и «говор». Диалектные слова означают совокупность слов, используемых в ограниченном регионе (территории). Основными понятиями и терминами диалектологии являются: говор, группа говоров, диалект, переходный говор, смешанный говор и изоглосса. Говорявляется наименьшей единицей диалектного членения. Он образуется в речи жителей одного или нескольких населенных

пунктов. Говоры, обладающие основными языковыми характеристиками, объединяются, создавая группу. А несколько говоров, объединяясь, создают диалект. Диалект является крупной единицей диалектного членения. Изоглосса обозначает линию на географической карте, указывающую границы расспространения того или иного языкового явления. Как видно, диалект охватывает более широкую территорию, а говор более ограниченную область внутри диалекта. В современном азербайджанском языке также существуют диалект и говоры. В связи с тем, что с течением времени каждый литературный язык претерпевает изменения, по этой же причине воздействие оказывается и на диалекты. В статье изучается процесс изменения диалектов и говоров в соответствии с современными требованиями. Расселение беженцев из Западного Азербайджана и оккупированных территорий Карабаха в других регионах стало причиной смешения Иреванского и Карабахского субдиалектов с другими диалектами. Исследование, сохранение этих диалектов также является одним из важных факторов. Диалекты, нашедшие свое отражение в письменном языке, в литературе, называются диалектизмом. Диалектизмы также используются в соответствии с современными требованиями.

Азербайджанская диалектология исследуется в контексте современных требований. В статье также рассматриваются и новые исследования в данной области .

Ключевые слова: диалектология, диалект, диалектизм, говор, литературный язык, лингвистика.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 14.01.2020
Filologiya elmləri doktoru, professor Maarifə Hacıyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

RƏFİQ CƏFƏROV
Azərbaycan Texniki Universiteti
Azərbaycan dili və pedaqogika kafedrası
Filologiya üzrə fəlsəfə doktoru,dosent
H.Cavid pr.25

QLABOLLAŞAN DÜNYADA DİLLƏRİN İNTEQRASİYASI PROSESİNDƏ RUS DİLİ VASİTƏSİLƏ AZƏRBAYCAN DİLİNƏ KEÇƏN AVROPA MƏNŞƏLİ SÖZ VƏ TERMİNLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Azərbaycan dilinin terminologiyası milli və beynəlxalq terminlər sistemindən ibarətdir. Bu qarşılıqdı sözlər Azərbaycan dili qrammatikasına müəyyən tələblərinə tabe olur.İqtisadi terminlərin düzgün istifadə edilməsi məsələləri yalnız terminologiyanın deyil, bütövlükdə dilçiliyin də vacib məsələlərindən biridir. Son illər dildə terminlərin sayının artması müşahidə edilmişdir. Terminlərin kəmiyyət inkişafı terminlərin cümlədə sui-istifadəsinə gətirib cıxarır. Terminlərin multivariasiyası terminlərin düzgün işlədilməsinə xələl gətirir.

Konkret nümunələr əsasında, bir çox terminlərin aradan qaldırılmasına yol açılmışdır. Sosial-iqtisadi baxımdan bazar iqtisadiyyatına keçid ilə əlaqədar olaraq, cəmiyyətdə terminlər və alınma sözlər artmaqda davam edir.Bu məqalədə ingilis dilli sözləri və terminləri müxtəlif yollarla təhlil olunur. Bu məqalədə Azərbaycan dilinin ingilis, alman, italyan alınma sözlər vasitəsilə zənginləşdirilməsi nəzərdə tutulur.

Məlumdur ki, alınma sözlər inteqrasiyası dilin daxili strukturuna təsir edir, leksik inteqrasiya isə dilin zənginləşməsində böyük rol oynayır. Yeni vahidlərin yeni anlayışları, keyfiyyəti qaldırmaqla, müəllif bu növ alınma sözlərin semantik çeşidini araşdırır. Bu yazıda, müəllif sözlərin dilçilik təfsirində rolların açıqlanmasını istədi, alınma səbəblərini izah etdi. Müəllif inanır ki, digər dillərdən gələn yeni terminlər doğma deyil, zəngin deyil, əksinə, dil əlaqələri nəricəsində zənginləşdirilmişdir.Dilin yeni sözlərlə zənginləşməsi və ictimai fikirdə yaranan mənaların dəyişilməsi ictimai həyatda və ictimai fikirdə yaranan yeni meyllərlə əlaqədardır. Dünyaya inteqrasiya ilə əlaqədar müxtəlif səhələrlə bağlı terminlər dilimizə daxil olmaqdadır . Dilimizdə elm və texnikanın müxtəlif sahələrində yeni-yeni terminlər dəqiqləşdirilir . Bunun başlıca səbələri son illər müxtəlif ixtisas sahiblərinin olması və yazıları dərc olunan müəlliflərin dilin normalarına əməl etmək və bu məsələdə özlərini tam sərbəst hiss etməsidir. Hər bir dilin lüğət tərkibi inkişaf etməkdədir.

Açar sözlər: Qloballaşan dünya, alınmasözlər, inteqrasiya, termin, Azərb.dili

Cəmiyyət və həyatın inkişafı davam etdiyi müddətdə onun lüğət tərkibi də formalaşır ,inkişaf edir.Bütün tərəqqi və nailiyyətlər ilk növbədə məhz dildə öz

təzahürünü tapır. Tərəqqi və inkişafla bilavasitə bağlı olan dil bu prosesdən kənarda qalmır. Belə ki, baş verən yeni hadisə və proseslər ,kəşf olunan hər hansı bir yeniliklər,onlarla bağlı məfhum və anlayışlar təfəkkür süzgəcindən keçərək dildə yeni sözlərin yaranmasına səbəb olur. Ancaq bu heç də hər zaman eyni

olmur.

Hər bir dil baş verən inkişafa eyni şəkildə uyğunlaşa bilmir. Yəni dildə həmin yeniliyi əks etdirə biləcək yeni söz hər zaman dilin daxili imkanları ilə yaranmır. Bu zaman başqa dillərə müraciət olunur və yeni anlayış və ya məfhumu ifadə edən söz dilə başqa bir dildən alınır.Elə bir dil mövcud deyil ki, onun lüğət tərkibində alınma sözə təsadüf olunmasıdır. Ancaq bu sözlər dildə əksərən ehtiyac duyulduğu üçün alınır və əsasən də terminoloji leksikaya aid olur. Dilin lüğət tərkibinə başqa dillərdən daxil olan sözləri 2 şəkildə qruplaşdırmaq olar : hər hansı bir ixtisas sahəsinə aid olan terminlər və gündəlik ictimai həyatda istifadə edilən ümumiişlək qazanan sözlər. Prof.M.Qasımov özünün "Azərbaycan dili terminologiyasının əsasları" kitabında qeyd edir:"Ancaq mahiyyət baxımından terminalma və sözalma bir-birindən bir o qədər də fərqlənmir . Hər iki halda dil başqa bir dildən sözü olduğu kimi qəbul edir , ondan istifadə edir.Terminalmada isə alınma termin müəyyən sahəyə aidliyi sahə anlayışının ifadə edir və yalnız sahə mütəxəssislərinin dilində işləkdir. Alınma termin heç də hamı tərəfindən anlaşılıb başa düşülmür, ancaq mütəxəssislər tərəfindən qavranılır. . (1- səh.21- 27)

Dilə daxil olan alınmaların böyük bir qismi bəzən dəyişikliyə uğramadan , olduğu kimi daxil olur. Bu tipli alınmaların əksəriyyəti beynəlmiləl sözlərdir. Bu tipli alınmaların əksəriyyəti beynəlmiləl sözlərdir. Yəni o söz məfhum yarandığı zaman ona ilk olaraq verilən adıır. Dünya dillərinin hər birində də o sözü qarşılığı olacaq söz olmadığından və ya başqa səbəblərdən dünya dillərinin hər birində o məfhumu ifadə edəcək bir söz qəbul edilir.

S.A Sadıqova "Azərbaycan ədəbi dilində termin-söz birləşməsi" dissertasiyasında yazır : " Müasir Azərbaycan dili ümumiyyətlə söz yaradıcılığı baxımından geniş imkanlara malikdir. Elə buna görə də bu və ya digər məfhumun ifadəsi üçün termin müəyyənləşdirilərkən ,yaradılarkən ilk növbədə bu dilin tərkibinə dərindən nəzər salınmalı imkan və vasitələrdən səmərəli surətdə istifadə olunmalıdır ".(2-səh:21-24)

Azərbaycan dilçiliyində elmi-tədqiqat işlərində, normativ dərsliklərində Avropa dillərindən alınmalardan ümumi şəkildə bəhs olunmuşdur. Azərbaycan dilçiliyində Avropa dillərində söz alınmasına aid ilk müstəqil tədqiqat işi N.M.Məmmədovanın " Müasir Azərbaycanın ədəbi dilində Avropa mənşəli beynəlmiləl sözlər " adlı namizədlik dissertasiyasıdır. Müəllif beynəlmiləl sözlərin Azərbaycan dilində struktur modellərindən , fonetik morfoloji və leksik-sematik xüsusiyyətlərindən ümumiləşmiş şəkildə bəhs etmişdir. Müasir Azərbaycan dilçiliyində Avropa mənşəli leksik alınmalar problemi daha əhatəli və sanballı şəkildə A.Qarayevin "Azərbaycan dilində Avro-

pa dillərindən alınma sözlər adllı doktorluq dissertasiyasında və S.N.Xəlilovanın "İnternasional terminlər" adlı monoqrafiyasında araşdırılır. **Prof.Nadir Məmmədli** "Alınma terminlər"adlı elmi-tədqiqat işində yazır:" Xüsusilə, son illərdə inteqrasiya və qloballaşma fonunda baş verən yeniliklər çox vaxt beynəlmiləlləşən sözlərlə ifadə olunur. Bu sözlər də əsasən, Avropa dillərində daha doğrusu , onların kökü olan latın və yunan dillərinə məxsusdur. Avropa mənbəli terminlər dilimizdə publisistik məqalələr həmçinin xarici elmi-kütləvi ədəbiyyatın tərcümə edilməsi vasitəsilə daxil olmuşdur. Rus dili latın sözlərini vasitəli və vasitəsiz şəkildə ən çox XVII və XVIII əsrlərdə Qərbi Avropa dillərindən alınmış və mənimsənmişdir"(3, 31-34)

Latın mənşəli terminlərə misal olaraq aşağıdakı iqtisadiyyat terminlərini göstərmək olar. Məs: akkulkasiys, debet,lebitor, depozit, dostasiya,emosiya, inventariyasiya, inteqrasiya, kalkulyasiys, kompeksasiys, lisenziys, komiknal, potensial, konsorseem və s. Latın mənşəli terminlərin Azərbaycan dili iqtisadi terminologiyasına keçid yolları aşağıdakı kimidir.

Latın dili – Fransız dili – Rus dili – Azərbaycan dili

Accidere - accise – акциз – aksiz (mal)

İn+dorsum – endossement – indossament – индоссамент – indossament (mal) Bursa – börse – биржа – birja Optio – option – опсион – opsion (iqt)

investire – investition – инвестисия – investisiya

Azərbaycan müstəqillik qazandıqdan sonra iqtisadi əlaqələrin ,birbaşa əməkdaşlığın əsası olan bazar münasibətləri geniş inkişaf etməyə başladı. İqtisadi, mədəni qarşılıqlı əlaqələrin nəticəsi kimi fransız dilinin Azərbaycan dilinə təsiri konkret olaraq iqtisadiyyat sahəsində yeni terminlərin yaranmasına yol açdı. Aşağıdakı fransız mənşəli iqtisadiyyat terminlər buna misaldır : Cabotage – kabotaj (iqt) Force majeure – fors major (iqt) Cannaissement – konosament (iqt,dəniz) Azərbaycan dili iqtisadi terminologiyasında italyan mənşəli sözlərə nisbətən azlıq təşkil edir . Məsələn : bankrot,qalanterys,impert,lombard,firma və s. İtalyan terminlərinin Azərbaycan dili iqtisadi terminologiyasına keçid yolları müxtəlifdir. İtalyan dili – Rus dili – Azərbaycan dili . Valyuta – валюта – valyuta (mal) Firma – фирма – firma Azərbaycan dili iqtisadi terminologiyasında roman dillərindən müqayisədə german dilləri daha geniş yer tutmuşdur. İngilis - Azərbaycan əlaqələrinin hazırki mərhələsi respublikamızla iqtisadi əlaqələrin genişlənməsi ilə bağlıdır. Azərbaycan dili terminologiyasına ingilis mənşəli terminlərin keçid yollarını aşağıdakı kimi müəyyənləşdiririk: İngilis – Azərbaycan dili ;Business – biznes (iqt) ;Broker – broker ;Discont – discont Marketing – marketing;Manager – menecer ;Tender – tender

Alman dili mənşəli terminlər : Akkreditive , banker , birja , makler , rentabel. Ümumiyyətlə terminlər fikrin konkretliyini təmin edən əsas vasitələrdən biridir . Müvafiq terminlər olmasaydı onda bütün fikirləri təsviri təqribi yolla vermək lazım gələrdi. Nəzərə almaq lazımdır ki, terminlər ilk növbədə elm və texnikaya mənsub va-

hidlərdir. Onlar hər hansı bir sahəyə dair ədəbiyyatlarda geniş istifadə olunur. Bu zaman terminlərin düzgün işlədilməsi, dəqiq seçilməsi çox əhəmiyyətlidir.

Ədəbiyyat:

1.M.Qasımov:"Azərbaycan dili ferminologiyasının əsasları"B."Maarif"nəşr.s.16
2.S.A.Sadıqova:"Azərbaycan ədəbi dilində termin-söz birləşmələri"AR.s.21-24.
3.Nadir Məmmədli:"Alınma terminlər"Bakı."Elm"nəşr., 1997.

Р.Д.Джафаров

Лексико-семантические особенности европейских слов и терминов, переведенных на Азербайджаский язык посредством русского языка в процессе интеграции языков.

Резюме

Терминология азербайджанского языка состоит из системы национальных и интернациональных терминов. Эти заимствованные слова подчиняются определенным грамматическим требованиям азербайджанского языка. Вопросы правильного использования терминов в средствах экономики являются одним из актуальных вопросов не только терминологии, но и языкознания в целом. В последние годы прослеживается тенденция роста количества терминов в языке. Количественный рост терминов способствует к неправильному употреблению терминов. Один и тот же термин часто употребляется в различных вариантах.

Многовариантность терминов затрудняет решение вопроса упорядочения терминов. На основе конкретных примеров выявляются пути устранения многовариантности терминов. Исследуются термины заимствование слова и заимствованное слова в социально экономических терминах, которые используются в обществе с переходом к рыночной экономике. В публикации аннализируется английские слова и термины заимствованные разными путями. Статья рассматривает обогащение азербайджанского языка за счет английских, немецких, итальянских заимствований. Известно что, интеграция заимствований затрачивает внутреннюю структуру языка. В то время лексическая интеграция обогащает принимающий язык новым содержанием, новыми понятийными единицами, поднимая его на качественно новый уровень.

Ключевые слова: глобализированный мир,заимствованные слова, интеграция, термин,Азербайджанский язык

R.Djafarov

Lexical-semantic peculiarities of European words and terminology in the Russian language process in the process of integration of languages in a globalized world

Summary

Terminology of the Azerbaijanian language consists at the system of national and international termines. These interrelated words requires the demands of certain grammatical in the Azerbaijani language. In this article the question at hand is the economic terms. The tendency of the increase of terms in the economic sphere are taking place in recent years. Quantitative increase of terms leads to the wrong usage of terms. Terms that encompass various meanings impede to solve the problem of terms used incorrectly. The reasons of the increase in the number of economic terms are precised in the article.

The publication touches borrowing words and phrases in using in the society while connecting with translation to market economy. The article gives analysis the types of borrowing economic terms by different ways. The author has defined the areals of the words and terns in Azerbaijan language.

Words and terms borrowing from English in different times is object of the article. The meaning expand of lexical- terminological units is investigated in the article.The author tried to clear up the playing role of the terms in the language, explained their entrance to the language.

Key words: globalized world, world acquisition, integration, term, Azerbaijani language.

Redaksiyaya daxil olma tarixi: 20.05.2019
Çapa qəbul olunma tarixi: 18.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent H.Mirzəyev
tərəfindən çapa tövsiyə olunmuşdur

RƏNA HÜSEYNOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Tibb Universiteti
rana@mail.ru

MÜASİR İNGİLİS DİLİNDƏ İNDİKININ ZAMANDA İFADƏSİ

Xülasə

İndiki zaman həm keçmişə, həm də gələcəyə daxil ola bilər, belə ki, onun motivasiya funksiyası hər üç zamanı əhatə edə bilmək qabiliyyətinə malikdir. Present Indefinite zaman formasında ifadə edilən hərəkət səbəbi məqsədin bütün zamanlara münasibətdə həyata keçməsini şərtləndirir.

Digər tərəfdən qeyd edilməlidir ki, bu zaman formasının hüdudlarının sonsuza qədər genişlənməsi, yəni buraya həm keçmişin, həm də gələcəyin aid olması zaman bölgüsünü heçə endirir, zamanlar arasındakı səddi aradan qaldırır. Present İndefinite zaman formasında müşahidə edilən subyekt-obyekt münasibətləri subyektin daxili sferasının əlamətlərinin qapalı dairəsini yaradır. Ən maraqlısı isə odur ki, bu zaman formasında semantikasına görə konkret bir hərəkəti ifadə edən feil, hərəkət deyil, hal-vəziyyət, keyfiyyət, əlamət ifadə edir. Bu feillərə, əsasən, emosiya və hisslərin ifadəsini bildirən feilləri aid etmək olar: to love, to hate, to like, to see, to hear.

Present Continuous subyektin "burada və indi" üçün keçərli olan təsadüfi bacarığı ilə bərabər, həm də onun əsaslı keyfiyyətlərini ifadə etmək imkanına malikdir. Belə ki, əgər bir insan işaatda işləyirsə, deməli, o inşaatçıdır. Deməli, hər hansı bir insan haqqında onun inşaatda işlədiyi deyilirsə, deməli eyni zamanda onun hansə məslək sahibi olduğu da qeyd edilir. Lakin Present Continuous zaman formalı feillərin tətbiq edilməsi ilə sonunun necə nəticələnəcəyi dəqiq olmayan hərəkət və ya iş ifadə edildiyindən bu prosesin iştirakçısı olan subyektin yeni keyfiyyət və bacarığı da ortaya qoyulmuş olur. Present Indefinite zaman formasının müstəqilliyi ondan ibarətdir, bu formada ifadə olunan hərəkət bütün zamanlar üçün neytraldır, burada ən vacib şərt qeyd edilən işin və ya prosesin statik və qapalı dövriyyədə olmasıdır (daimiliyi və təkrar olunması).

Açar sözlər: feil, forma, təkrarlanan hərəkət, zaman, predmet, təbiət hadisələri

Present Indefinite formasında olan feil eynicinsli, təkrarlanan və davamlı olan, eyni zamanda da feillərin mənasından və konkret kontekstdən asılı olaraq fərqli davamlılıq müddəti olan hal və hərəkətin ifadə edilməsi zamanı istifadə edilir. Present Indefinite formasında olan feilləri birbaşa bu formanın ifadə etdiyi mənada işlənə bildiyi kimi, digər semantik çalarlar da ifadə edə bilir (nitq anına qədər artıq baş verib bitmiş hərəkəti və ya gələcəkdə həyata keçirilməsi planlaşdırılan hərəkəti) və

ya da gizli modallıq ifadə edir. Present Indefinite zaman formasından müntəzəm, təkrar və ya hər zaman baş verən hərəkəti göstərmək üçün istifadə edilir (8, 128; 10)

Zaman deyktikdir, belə ki, o, indiki zamanda baş verən prosesləri əlaqələndirir (9, 76). Termin olaraq olaraq indiki, keçmiş və gələcək terminləri Present Indefinite formasının qrammatik semantikasına aid edilməklə, real zamanı, yəni fiziki zamanı deyil, danışanın nöqteyi-nəzərindən ifadə edilən zamanı, yəni danışanın keçmiş, indiki və gələcək hesab etdiyi zaman kəsimini ifadə edir. Başqa sözlərlə ifadə etsək, indiki elə bir davamlı zaman kəsimidir ki, bütöv bir yüzilliyi əhatə edə və eyni zamanda nitq anına daxil edilə bilər.

Bu mülahizə təkrarlanan hadisələrlə, hərəkətlərlə ifadə edilən "universal" adlanan indiki zamana şamil edilir. Həm də bu hərəkətin nitq anı ilə üst-üstə düşməsi heç də mütləqhal kimi dəyərləndirilmir. Bu, daha çox təbiət hadisələrinin təsvirində istifadə edilir: *Early shadows reveal contours, crop marks, so on* (7, 42). Burada işlədilən *reveal* feili nitq anı ilə eyni zamanda baş verən hərəkəti deyil, davamlı olaraq baş verən, eləcə də keçmişdə müşahidə edilən və gələcəkdə müşahidə edilə biləcək hərəkəti ifadə edir. "*Reveal"* feilini Present Indefinite formasında işlədən danışan haqqında məlumat verdiyi hərəkətin qeyd etdiyi hadisəyə aid olduğundan əminliyini ifadə etməklə bunun bu təbiət hadisəsinin əsas səciyyəvi cəhəti olduğunu qeyd edir.

Dövri hərəkətlər və ya hadisələr bəzən predmetin əlamətini ifadə edir və eləcə də bu məqamda işlənən feillər də eyni funksiyanı yerinə yetirərək əlamət bildirməyə xidmət edir. Məsələn, *People's abilities differ, but their rights and opportunities should be the same*. Burada *differ* feili heç bir hərəkət ifadə etmir, o, sadəcə, fərqli fikirlər arasındakı münasibətləri bildirir.

Beləliklə, belə bir mənzərə ortaya çıxır ki, Present Indefinite forması ilə ifadə edilən feilləri iki hissəyə ayırmaq olar: 1) münasibət bildirənlər; 2) hərəkət bildirənlər. Bununla belə, ingilis dilindəki feilləri nəzərdən keçirdikdə məlum olur ki, ikinci qrupdan olan feillər çoxluq təşkil edir. İnsan və ətraf aləm arasındakı münasibətləri ifadə edən feillərin qrammatik mənası, əsasən, semantik situasiyanın təsvir edilməsinə xidmət edir. Bu zaman dinamik deyil, statik, sabit əlamətlərdən söhbət gedir. Məsələn, *Quantum technology flatly contradicts our common sense ideas of how the world works. But since Einstein, we know that light consists of particles called photons* (7, 128).

Bundan fərqli olaraq, ətraf aləmdə baş verən hadisələr hər zaman müəyyən dinamikaya malik olur, yəni müəyyən bir zaman daxilində baş verir və bu zaman situasiyanın dəyişilməsi və bu dəyişikliyin müəyyən bir nəticə ilə, yeniliklə yekunlaşması qaçılmaz olur. Məsələn. *The fact that we think time passes is just an accident of our nervous systems — of the way things look to us* (6, 124). *She goes to bed early. About eight o'clock* (6, 21). Buradakı feil formasını Present Perfectlə dəyişsək, situasiya da dəyişəcək: *Time has passed. She has gone to bed.*

Feillərin münasibət və hərəkət ifadə etməsi baxımından iki qrupa ayrılması onların bədii mətn daxilində kontekstual olaraq istifadə edilməsindən deyil, həm də

bu feillərin özlərinin qrammatik mənaları ilə yanaşı, lüğəvi mənalarından da asılıdır. Məsələn, *consist* feili hər hansı bir dəyişikliyin təsvir edilməsinə xidmət etmir, lakin Present Perfect formasında işlədildikdə yaranmış situasiyanın keçmişdən başlayaraq indiki zamana qədər müəyyən zaman müddətində davam etdiyini ifadə edir.

Present Indefinite formasında hərəkət bildirən feilləri də iki qrupa ayırmaq olar. Belə ki, bu feillərin bəziləri təkrarlanan dövri hərəkəti, digərləri isə yalnız bir dəfəlik həyata keçirilən hərəkəti ifadə edir. İkinci qrupdan olan feillər nitq anı ilə üst-üstə düşən hərəkəti ifadə edir və bu qrupa see, hear, smell, feel tipli feilləri aid etmək olar: "*Take a deep breath. Imagine you are in a beautiful warm garden. Everything is familiar and comforting to you. Directly ahead, you see a door going down to the basement. With each step, you hear voices. You find them pleasant to listen to, easy to listen to"* (6, 132).

Bu feillərin ifadə etdiyi hərəkət danışandan asılı olmayaraq qeyri-iradi olaraq həyata keçirilir, belə ki, bu kimi hərəkətlərin nəticəsində insan ətraf aləmi və gerçəkliyi dərk edir. Lakin bu feilləri predmetlər arasında münasibət bildirən feillərlə eyniləşdirmək olmaz, belə ki, bu iş, hal və ya hərəkətlər zamanı insan duyğu orqanlarının köməyi ilə ətrafda baş verənləri qavrayır (bu hal və hərəkətlərin müəyyən təsirinə məruz qalır), münasibət bildirən feillər isə sadəcə obyektlər arasındakı əlaqəni, bu obyektlərin müəyyən xarakterini və ya əlamətini ifadə edir.

Birdəfəlik və ya qısa müddəli hərəkətlər həm də insanın və qavrama obyektlərinin müəyyən xüsusiyyətlərini bildirən feillərlə də ifadə edilir. Məsələn, hurt, sound, seem, look və s.: *"I banged my knee. It hurts like a* mother" (6, 66). *"You sound a little detached"* (6, 78). Əvvəlki qrupdan olan feillər kimi, bu feillər də insanın ətraf aləmi qavramasını ifadə edir, lakin bu halda insan ətrafda baş verənlərə sadəcə reaksiya vermir, həm də rasional səciyyəli nəticələr əldə edir: *It sounds like he's following that boy* (6, 204).

Nəhayət, üçüncü qrupa insanın və obyektin müəyyən məkan daxilindəki hal və vəziyyətini bildirən feilləri aid etmək olar (stand, hang, lie, sit və s.), məsələn: *Soldiers stand guard on street corners. The Tasman Sea lies between Tasmania and Australia.* Bu feillər də hər hansı bir dinamik hərəkəti ifadə etmir, yəni insanın və ya obyektin fəallığına dəlalət etmir, sadəcə onların müəyyən bir məkanda olduğu vəziyyəti bildirir. Bu feillər dövri olaraq baş verən hərəkətin olduğu məkanda əşyanın vəziyyətini ifadə etdiyindən onların öz mənası neytral səciyyəli olur və to be feilinin funksiyasını yerinə yetirir, məsələn: *A small study for the painting hangs in the J. Paul Getty Museum. The town lies in a small wooded valley*. Bu halda onlar mənaca münasibət mövqeyinə yaxınlıq nümayiş etdirir.

Qeyd etmək lazımdır ki, hərəkətin subyekti insan olduqda bu feilləri to be feili ilə əvəzləmək mümkün deyil, çünki belə olduqda bu feillər insanın müəyyən bir halını ifadə edir, məsələn: *Almost every night I He awake in bed worrying about my family. She's the girl who sits next to me at school*. Bundan əlavə qeyd edilən nümunələrdə hərəkət təkrarlanır. Bu *Almost every night* sözlərindən bəlli olur, ya da bura-

ya digər zaman göstəricilərini də əlavə etmək mümkündür, məsələn: *She's the girl who sits next to me at school every Thursday and Friday.* Təbiidir ki, eyni transformasiyanı *Some remains of the original house still stand* cümləsində etmək mümkün deyil.

Lakin qeyd etmək lazımdır ki, ingilis dilində bir qrup feilin Present Indefinite formasında birdəfəlik, təkrarlanmayan, aktlara ayrılmayan hərəkəti indiki zamanda ifadə etməsi ilə bərabər, bu formada olan ingilis dili feillərinin böyük bir qismi subyektə aid olan dövrü, təkrarlana bilən hərəkəti ifadə edir. Maraqlı cəhətdir ki, bu feillərlə ifadə edilən hərəkətin təkrar edilməsi birdəfəlik akt ola bildiyi kimi, həm də ayrı-ayrı hərəkətləri ifadə edə bilir.

They sell all kinds of rugs in Sedona (6, 3) cümləsindəki söyləmin müəllifi sadəcə əşyaların müəyyən vəziyyətdə olmasına işarə edir. Burada situasiya xarakterizə olunur. "Sell" feilinin mənası "satır, almaq üçün təklif edir" kimi təqdim edilir. Yəni burada dinamik satış prosesindən söhbət getmir. Yəni bu cümlənin subyekti bütün gün ərzində heç bir satış əməliyyatı həyata keçirməsə belə, onların nəsə satmasını inkar etmək olmaz. Beləliklə, aktlara parçalanmayaraq dövr edən hərəkətin əsasında subyektin səciyyəvi xüsusiyyəti və ya qeyri-zamanlılıq mənası ortaya çıxır.

"Qeyri-zamanlılıq" o demək deyil ki, hər hansı bir hərəkət zamandan kənarda baş verir. Bu o deməkdir ki, bu hərəkət zamandan və onun qanunauyğunluqlarından asılı olmayaraq dayanmadan təkrarlanmaqla baş verir. Past Indefinite formasının qeyri-müəyyən zaman mənasında işlənməsi hər hansı bir işin və ya hərəkətin müəyyən obyektə və ya hadisəyə aid olmasını ifadə edir, yəni danışan öz müşahidələri əsasında bunu qeyri-müəyyən zaman formasında ifadə edir.

Məsələn, *Many economic systems predate capitalism* kimi elmi ifadəyə görə əksər iqtisadi sistemlər kapitalizmin yaranmasına şərait yaradır kimi nəticəsi bir çox ölkələrin iqtisadi sisteminin araşdırılmasından sonra (bu ölkələrin hər birinin iqtisadi sistemi kapitalizmə qədər fərqli olub) əldə edilib. Eyni fikri *Hot air rises* tipli cümlələrə də şamil etmək olar. İsti havanın daha yuxarı qalxması kimi qənaətinə gəlinməsi danışanın bunu dəfələrlə müşahidə etməsi ilə əsaslandırılır. Bu tip cümlələrdə Present Indefinite formasından istifadə etməklə o, artıq havanın isindikdən sonra yuxarı qalxması kimi xassəyə malik olmasını söyləyir. Burada havanın müşahidə edilən an yuxarıya qalxmasından söhbət getmir. Əks halda ingilis dilinin qrammatik qanunauyğunluqlarına görə Present Continuous formasından istifadə edilməlidir.

Təbii ki, Present Indefinite forması ilə ifadə olunan hərəkət və iş ümumi və ya universal həqiqətləri ifadə edir. Saysız miqdarda təkrarlanan hərəkət və ya işin digər bir növü isə eyni zaman daxilində təkrarlanan hərəkətdir. Bu halda feil subyektin əlamətini ifadə etmir, məsələn: *We have been told they contribute a million dollars a year* (6, 53). Bu cümlədə sadəcə daim təkrarlanan hərəkət haqqında məlumat verilir və bu hərəkətin universallıq kimi bir səciyyəsi yoxdur.

İstənilən halda Present Indefinite formasında işlənən feil indiki zamana aid olan hal, hərəkət və ya işi ifadə edir.

İngilis dilində feil zamanlarından ən birincisi kimi Present Continuous Tense – indiki davamedici zaman forması qeyd edilir. Bu zaman forması prosesdə olan, bitməyən iş və ya hərəkəti ifadə edir. Present Continuous forması ilə hazırkı anda baş verməkdə olan iş və ya hərəkət ifadə edilir (4). Məsələn: Alex is watching TV (Aleks televizora baxır). Bu zaman forması ilə bağlı xüsusi bir məqamı da qeyd edək: məsələn, belə bir cümlə işlədilir: Ben is driving a car. – Ben (indi) maşın sürür. Bu cümlədə işlədilən feil subyektin indiki zamanda olduğu vəziyyəti ifadə edir. Lakin belə cümlələrdə haqqında danışılan hərəkətin, ümumiyyətlə, subyektə xas olub-olmaması haqqında mülahizə yürütmək çətindir, yəni bu, hələ o demək deyil ki, haqqında danışılan subyekt həmişə sükan arxasında oturur. Burada təsvir edilən hadisələr situativ xarakterli də ola bilər, belə ki, subyekt indi maşını ona görə idarə edir ki, yaranmış situasiyada bunu etməyə məcburdur (ola bilsin ki, avtomobilin əsl sahibi maşını idarə etmək iqtidarında deyil, və ya təcili olaraq düzgün park edilməyən maşının yerini dəyişmək lazımdır və s.). Digər hallarda isə bu subyektə eyni keyfiyyəti şamil etmək olmaz. Analoji vəziyyəti kiminsə hal-hazırda ev tikməsi ilə bağlı (is building) işlədilən cümlələrə də şamil etmək olar. Yəni, bu hələ o anlama gəlmir ki, həmin insan inşaatçıdır və evlər tikmək onun peşəsidir və ya bu gün səhər tezdən qaçan adam hər gün qaçışla məşğul deyil və s. Beləliklə, gerçəkliyi təsvir edən və Present Continuous formasında olan feil əksər hallarda xarici amillərə, şərtlərə bağlı olan situasiyalarda subyektin hərəkətini ifadə edir. Başqa sözlə ifadə etsək, bu cür feil forması təsadüfi olan, nadir hallarda baş verən hadisə və hərəkəti bildirir. Present Continuous forması ilə ifadə edilən hadisələrin nadir və təsadüfi olması onunla bağlıdır ki, bu formada ifadə edilən söyləmdə təsvir edilən hadisələr hal-hazırkı zaman daxilində baş verir. Davam etmə müddətinin bitdiyi andan o yana isə, ola bilsin ki, haqqında danışılan hadisə bir daha təkrarlanmayacaq (o indi üzürsə, bir dəqiqə sonra bu hərəkət tamamilə bitə və bir daha təkrarlanmaya bilər). Bundan əlavə, bu hərəkəti şərtləndirən amil və səbəblər subyektdən asılı olmayaraq zamana nisbətdə müvəqqəti xarakter daşıya bilər (burada və indi prinsipi əsasında). Bu baxımdan hələ qədim zamanlarda zamanla bağlı öz fikir və mülahizələrini qələmə alan Aristotel daimi və mümkün ola bilən (müvəqqəti) səbəbləri fərqləndirirdi. Daimi səbəbləri o, əşyalara bağlı olan əlamət və keyfiyyət kimi dəyərləndirirdi. Məsələn, "həkim olmaq – müalicə etmək" (1, 109). Müvəqqəti, keçici olan səbəblərdə isə bu kimi münasibətlər vacib deyil (1, 109).

Present Continuous gerçək hərəkəti, işi və ya hadisəni ifadə etsə də, burada əsas hədəfə, məqsədə nail olmaq öz əksini tapmır. Burada hərəkətin baş vermə səbəbi, məqsədi qeyd edilir. G.X.Şinqarovun qeyd etdiyi kimi, Present Continuous forması vasitəsilə ifadə edilən münasibətləri şərti olaraq subyekt-obyekt münasibətləri də adlandırmaq olar (5). Bu zaman formasında ifadə edilən feillər subyektin hərəkətinin xarici obyektin təsiri ilə yerinə yetirməsinə işarə edir. Belə ki, sadə indiki zaman formasında (qeyri-müəyyən zaman formasında) hərəkət obyektə tərəf yönələrək (təsir edərək) subyekt tərəfindən icra edilir. Yalnız Present Continuous formasında ontoloji əsasların tamlığı, reallıqla səsləşmə var. Lakin bu reallıq dinamik hərəkətdə ol-

maqla hazırkı zamanla məhdudlaşır. Hadisə və hərəkətin daha sonrakı inkişaf mərhələsində Present Continuous forması üçün keçərli olan səbəb və şərtlər ideallaşaraq, yəni əlamət keyfiyyətə çevrilmə şansı qazanaraq ingilis dilinə xas olan digər qrammatik zaman formaları ilə ifadə edilir.

Səbəb-məqsəd münasibətləri The Present Perfect Tense – indiki bitmiş zaman formasında köklü, əsaslı dəyişikliyə uğrayır. İndiki bitmiş zaman forması hərəkətin müddətinə deyil, onun nəticəsinə işarə edir (4). Məsələn: He has built a house. – O, ev tikdi (indi, hal-hazırda) (bu nəticə indiki zamanda təqdim edilib). Bu söyləmdə artıq tikinti işlərinin real zamanda baş verməsində söhbət getmir (hər hansı bir hərəkət, iş, proses və ya səbəb yoxdur). Tikilməkdə olan tikili evə çevrilir və bunun fonunda hərəkət sıfra enmiş olur (yox olur). Lakin bunun müqabilində burada artıq yerinə yetirilmiş real məqsəd var – ev tikilib. Bununla belə hərəkət və onun səbəbi özünəməxsus transformasiyaya uğrayır. Bu məqamda Hegelin fikirlərinə nəzər salmaq yerinə düşərdi. O yazırdı: "təfəkkürdə formalaşan təsəvvür aktual olaraq qalmaqda davam edir. O orada qeydə alınıb, amma hələ də silinməyib". Müəllif qeyd edir ki, təfəkkürün bu halı dildə tam doğru şəkildə ifadə edilə bilir: "mən bunu görmüşəm (ich habe Dies gesehen)" (3, 253). Bu sözlərdə sadəcə keçmiş olan deyil, onunla bərabər indiki olan da əks olunur. Burada keçmiş nisbi xarakterlidir. Yerinə yetirilmiş və keçmiş olanı ifadə edən haben (var, olmaq) sözündə birbaşa olaraq indiki zamana işarə edilir: sadəcə olmayıb, həm də indi də olmaqda davam edir (3, 253). Nəticənin əldə edilməsi, məqsədin yerinə yetirilməsi Present Perfect formasında ona gətirir ki, hərəkətin başlanğıc səbəbi, nəticənin şərtləndirən səbəb (məsələn, tikinti) tam olaraq sadələşdirilmir, əksinə aradan qaldırılır. Təbiətinə görə keçmişə aid olsa da, indiki zamanda saxlanılır. Present Perfect formasının işarələr sistemi nəticənin varlığına işarə edir, lakin qeyd etmək lazımdır ki, eyni hal, yəni nəticənin olması, məqsədə çatmaq keçmiş zamanın sadə formasında (Past Simple) da ifadə edilir. Məsələn, He built a house (O, ev tikdi) cümləsində nə zamansa, baş vermiş nəticə təsvir edilib. Lakin Past Simple formasında keçmişdə olan nəticə və indiki an arasında bəlli bir zaman müddəti, kəsimi mövcuddur, yəni bu nəticə indiki zamandan tam təcrid edilmiş haldadır. Pavel built his house in 1997 (Pavel öz evini 1997-ci ildə tikib) cümləsinə əsasən bu nəticənin indiki zaman üçün nə dərəcədə aktual olduğunu demək mümkün deyil. Eyni zamanda burada qeyd olunan məlumatda subyektin indiki zaman üçün keçərli olan, hazırkı dönəmə aid olan hər hansı bir keyfiyyəti haqqında da təsəvvür formalaşmır. Burada əldə edilmiş nəticənin konkret olaraq müəyyən keçmiş zaman koordinatına aid edilməsi bu nəticəni doğuran səbəbin tam olaraq "aradan qaldırılmasına" imkan vermir. Keçmişdə baş verənlərin indiki zamandan təcrid edilməsi Aristotelin bu fikri ilə üst-üstə düşür ki, bu cür hadisələri təsvir etmək üçün istifadə edilən feillər öz əsas leksik mənalarında işlənmir, belə ki, onlar zaman kontekstinə görə dəyişikliyə uğrayır. Bu kimi feillər indiki zamana nisbətdə fərqli qütblərdə olan hadisələri ifadə edir (2).

Qeyd etmək lazımdır ki, sadə keçmiş zaman forması olan Past Simple müəyyən zaman daxilində ardıcıl olaraq icra edilmiş hərəkət və ya baş vermiş hadisələri

ifadə edir və nəqli cümlələrdə istifadə edilir. Bundan fərqli olaraq isə, Present Perfect müəyyən zaman kəsimində ardıcıl olaraq və ya bir-biri ilə əlaqəli şəkildə baş verən hərəkəti ifadə etmir (4). Present Perfect formasında səbəb-nəticə münasibətlərindəki ardıcıllıq pozulduğundan bu forma vasitəsilə ardıcıl baş verən hərəkəti ifadə etmək mümkün deyil. Past Simple zaman formasında zamana görə səbəb real nəticəyə uyğun gəlir, lakin Present Perfect zaman formasında məqsəd ciddi ardıcıllıqdan yayınır, yəni belə cümlələrdə məqsəd sanki zamana nisbətdə onun qarşısında dayanan səbəbi açıqlayır. Nəticənin müəyyən zaman koordinatına bağlı olmaması bu zaman forması üçün vacib məqamdır, çünki burada nəticə həmişə onu şərtləndirən səbəb və keyfiyyətin yanında olur. Beləliklə, Present Continuous zaman formasında gerçək, real hərəkət ifadə edilirsə, Present Perfect zaman formasında bu gerçəklik "ideallaşdırılır".

Present Perfect zaman formasında subyektin hər hansı bir iş və ya bacarıq keyfiyyəti göstərilməsə də, bu hərəkət və ya prosesin daxili keyfiyyətə çevrilməsi üçün müddətə işarə edilir. Present Perfect zaman formasında səbəbin subyekt üzərinə köçürülməsi feilin semantikasını zaman baxımından transformasiyaya uğradır. Belə ki, burada subyekt-obyekt münasibətləri subyekt-subyekt münasibətlərinə çevrilmiş olur. Bu zaman formasında indiki zamanın hər hansı bir hərəkətə, işə və ya prosesə təhriketmə funksiyası meydana çıxır. Keçmiş zamana aid olan iş və ya hərəkətin indiki zaman formatına salınması onları aktuallaşdırır. I have lost my key (mən indicə açarımı itirdim) və I lost my key (mən açarımı itirmişən (ümumiyyətlə, nə vaxtsa) ifadələrinin semantik planı eyni ola bilməz. Belə ki, Perfect formasında açarların itirilməsi indi baş verənlər fonunda aktualdır və gələcək zamanda icra ediləcək hərəkətin planlaşdırılmasına zəmin yaradır.

Adi halda Present Continuous zaman forması nitq anı ilə üst-üstə düşür, lakin Present Perfect zaman forması indi davam etməkdə olan zamanın dar diapazonundan kənara çıxaraq keçmişdə baş verənləri də özündə ehtiva edərək gələcək hadisələri planlaşdırmaq keyfiyyətinə malikdir. Present Perfect zaman forması ilə qeyri-zaman zərfliklər olan always (həmişə), never (heç vakt) sözlərinin bir arada işlənməsi müəyyən bir keyfiyyətin istisnasız olaraq bütün keçmiş momentlərə aidliyini bildirir və bu zaman ifadə olunan hərəkətin nəticəsinin indiki zamanda ortaya çıxdığına işarə edir: She has always lived in Moscow (O, həmişə Moskvada yaşayıb). Felin bu zaman forması, zaman koordinatlarından asılı olmayaraq, səbəbin geniş zaman kəsiyinə aid olduğunu ifadə edir. Nəticənin müəyyən bir vaxt koordinatından kənara çıxardıqda, bu nəticəni doğuran səbəbin zamana sıx bağlı olması da rədd edilir.

Yuxarıda qeyd edildiyi kimi, zaman koordinatlarından azad edilən nəticə üzərindən "ideallaşdırılmış" səbəbin də "aradan götürülməsi" baş verir. Present Indefinite zaman formasının ifadə etdiyi hərəkətin nəticəsi isə tam olaraq heç bir konkret zamana bağlı deyil. Beləliklə, abstrakt zaman forması olan Present Indefinite-də səbəb subyekt üzərinə köçürüldüyündən sabit hallar formalaşır. Yəni bu zaman formasında olan feil artıq təsadüfi xarici keyfiyyətləri deyil, subyektin daxili qanunauyğun xa-

rakteristikasını ifadə edir. Bu zaman formasının semantikası subyekt-subyekt kimi səciyyələndirilir (5).

Nəticə etibarilə, qeyd etməliyik ki, "ideallaşdırılmaq" və "qeyri-zamanlılıq" Present Indefinite Tense zaman formasında əks edilən daha sonrakı determinasiyada da təzahür edir. Indefinite sözü mənaca "qeyri-müəyyən" deməkdir. İndiki qeyri-müəyyən zaman formasında hərəkətin davamlılığı deyil, sadəcə olaraq, onun mövcud olub-olmaması ifadə edilir. Bu zaman forması subyektə xas olan iş, hal, hərəkət və ya prosesin, hadisənin daimi, dövri, təkrarlanan olmasına işarə edir. He usually watches hockey – o, adətən, xokkeyə baxır. Present Indefinite zaman formasının əsas özəlliyi onun qeyri-müəyyənliyidir. Məqsədin zaman koordinatından ayrılması artıq Present Perfect zaman formasında başlanğıc əlamətlərini göstərir. Belə ki, burada nəticə hərəkətin necə icra edilməsindən daha vacibdir və ön planlıdır.

Ədəbiyyat:

1. Аристотель. Метафизика / Аристотель. Сочинения : в 4 т. - М. : Мысль, 1976. – Т. 1. – 550 s.
2. Аристотель. Об истолковании / Сочинения : в 4 т. – М. : Мысль, 1978. – Т. 2. – 687 s.
3. Гегель Г.В.Ф. Философия духа / Г.В.Ф. Гегель // Энциклопедия философских наук. – М., 1956 – Ч. 3. – Т.3., s. 253
4. Иванова И.П. Теоретическая грамматика современного английского языка / И.П. Иванова, В.В. Бурлакова, Г.Г. Почепцов. – М. : Высш. школа, 1981. – 285 s.].
5. Шингаров Г.Х. Время, действие, бытие и семантика: метафизические основания глагольного времени. Настоящее время / Г.Х. Шингаров // Вестник Мурманского государственного технического университета. – 2013. – Т. XVI. – № 2. – S. 397–402.].
6. Crichton M. Timeline. Ballantine book. Published by The Random House Publishing Group. 1999. - 496 p.
7. Crichton M. Jurassic Park. Arrow Boors, 1991. - 400 p
8. Rayevskaya N.M.. Modern English Grammar. M., 2004, 290 p.128).
9. Valeika L., Buitkienė J. An Introductory Course in Theoretical English Grammar. Vilnius Pedagogical University, 2003, 135 p. 76
10. https://www.englishgrammar.org/time-expressions-simple-present-tense

R,Huseynova

The expression of Present in tense in modern English language

Summary

The Present tense can enter the past as well as the future, as its motivational function is capable of encompassing all three tense. The action reason expressed in the Present Indefinite tense conditioned the fulfillment of goal of the attitude to all tenses.

It is worth noting that the ever expanding boundaries of the form reduce the time divide and eliminate the time barrier. The object-subject relations observed in the Present Indefinite tense create a closed circle of traits within the subject's inner sphere. The most interesting thing is that the verb expresses a particular movement according to the semantics of this time, not the action, but the state, the quality, the sign. These verbs are mainly related to verbs expressing emotions and feelings: to love, to hate, to like, to see, to hear.

Present Continuous is capable of expressing its fundamental qualities, along with the occasional ability of the subject to be "here and now". So, if a man is working in the construction, he is a builder. So if any person is said to have worked in construction, it is also mentioned that what is his profession. However, as Present Continuous expresses uncertain action or action that results in the use of time verbs, the subject's new quality and ability are also revealed. The independence of the Present Indefinite is that the behavior expressed in this form is always neutral, the most important condition being the static and closed circulation of the work or process mentioned.

Key words: verb, form, repetitive movement, time, thing, nature events

Р.Гусейнова

Выражение настоящего во времени в современном английском языке

Резюме

Настоящее время может войти как в прошлое, так и в будущее, так как его мотивационная функция способна охватить все три времени. Причина действия, выраженная в настоящем неопределенном времени, обусловила достижение цели отношения ко всем временам.

Стоит отметить, что постоянно расширяющиеся границы формы уменьшают временной разрыв и устраняют временной барьер. Отношения объекта и субъекта, наблюдаемые в настоящем неопределенном времени, создают

замкнутый круг черт во внутренней сфере субъекта. Самое интересное, что глагол выражает определенное движение в соответствии с семантикой этого времени не действием, а состоянием, качеством, знаком. Эти глаголы в основном связаны с глаголами, выражающими эмоции и чувства: любить, ненавидеть, любить, видеть, слышать.

Present Continuous способен выражать свои фундаментальные качества наряду со случайной способностью субъекта быть «здесь и сейчас». Итак, если человек работает на стройке, он строитель. Поэтому, если говорят, что кто-то работал на строительстве, также упоминается, что это его профессия. Однако, поскольку Present Continuous выражает неопределенное действие или действие, которое приводит к использованию временных глаголов, также раскрываются новое качество и способность субъекта. Независимость настоящего неопределенного заключается в том, что поведение, выраженное в этой форме, всегда нейтрально, наиболее важным условием является статическая и замкнутая циркуляция упомянутой работы или процесса.

qoyma; tələsən təndirə düşər. Bununla onu demək istəyirik ki, dilin lüğət bazasında xalq yaradıcılığı sözləri daha böyük lay təşkil edir. Dil nöqteyi –nəzərindən də xalq danışıq dili çox zəngindir və qeyri-normativ olur. Buna görə də folklor əsərlərinin dili daha sərbəst olduğu kimi, daha çox aspektli olur. Məhz buna görədir ki, folklor əsrələrində- dastan, nağıl, lətifə və sairədə bəzən tarixilik, tarixi həqiqət, dəqiq şəxsiyyət, dəqiq hadisə axtarmağa ehtiyac olmur. Elə "Molla Nəsrəddin" lətifələrini nəzərə almış olsaq, burada da dediklərimiz bir daha təsdiq olunar. Belə ki, lətifələrin çoxu Molla Nəsrəddin ilə Teymur arasında olan əlaqə və münasibətə, söhbət və dialoqa həsr edilmişdir. Molla Nəsrəddinin tarixi şəxsiyyət olması və onun hansı əsrdə yaşaması məsələsinə toxunan görkəmli folklorşünas, lətifələrin tərtibçisi M.H.Təhmasib yazır: "Azərbaycanda Molla Nəsrəddin lətifələri dəfələrlə toplanaraq nəşr edilmişdir. Nəsrəddin müxtəlif xalqlarda, müxtəlif titullarla məşhurdur. O, gah Xacə Nəsrəddin,gah Xoca Nəsrəddin olur, gah sadəcə Nəsrəddin, gah Xacə və ya Xoca olur. Azərbaycanda o, Molla Nəsrəddin titulu ilə şöhrətlənmişdir.Lakin nə Xoca, nə Xacə, nə də Molla adlandırılması onun din xadimi olmasından irəli gəlməmişdir... Araşdırmalar belə bir ehtimalın meydana gəlməsinə səbəb olmuşdur ki, güya Molla Nəsrəddin, yaxud Xacə Nəsrəddin prototipi xıII əsrin görkəmli Azərbaycan alimi Xacə Nəsrəddin Tusidir. Bu ehtimalı yaradan dəlillər,hələlik araşdırılmamış (əsaslandırılmamş olmasa da... Tusinin " Əxlaqi- Nasiri" əsərində bir sıra lətifələr vardır ki, bunlar onun bir lətifə müəllifi, yaxud onun bir lətifə qəhrəmanı kimi şöhrətlənməsinə səbəb ola bilərdi... Doğrudan da, Tusinin bütün şərq aləmində tanınmış bir alim olması,eləcə də V. A. Qordlevskiyə Molla Nəsrəddini XIII əsrlə bağlamağa əsas verən dəlillərin Tusinin yaşamış olduğu illərə tam uyğun gəlməsi bu ehtimalı daha da qüvvətləndirir(4,5).

Bir görkəmli folklorşünas alimin dediklərini tam təkzib etmədən ona bir neçə kəlmə əlavə etmək istərdik. Lətifələrin çoxunda Mollla Nəsrəddin Əmir Teymurla əlaqəsi verilir. Halbuk ki, Əmir Teymur (1336-1401) Nəsrəddin Tusidən bir əsr sonra yaşamışdır,yəni Teymur Nəsrəddin Tusidən bir əsr sonra doğulmuşdur.

Amma belə bir ehtimal da ola bilər ki, lətifə yaradıcıları məntiqi effekt xatirinə iki böyük fenomenol şəxsiyyəti qarşılaşdırsınlar. Amma bütün hallarda Mollanın ötgün idrak sahibi olması əsas götürülməlidir. Folklor üslubu bir də qeyri-rəsmili ilə yəni rəsmi dildən uzaqlaşıb bədii ifadə yükü ilə yüklənilməsilə seçilir. Məsələn, incitmək əvəzinə-xətrinə dəymək, düşmən olmaq əvəzinə,yağı kəsilmək və s. Bu, hər şeydən əvvəl folklorun öz üslubi ilə bağlıdır.Bu məqalədə Molla Nəsrəddin lətifələrində işlənmiş frazeoloji birləşmələr və onların üslubi imkanlarından bəhs emək istərdik. Hər şeydən əvvəl ,frazeologiyanın özü haqqında bir neçə kəlmə demək lazım gəlir.

Keçmiş Sovet dilçiliyində frazeologiyadan ilk dəfə dilçilik sahəsi kimi V.V.Vinoqradov bəhs etmişdir.O,1947-ci ildə frazeoloji biirləşmələri 3 qrupa bölmüşdür: brikmə, frazeoloji bitişmə, frazeoloji birləşmə (2,22).

Bundan sonra rus dilçiliyində bu sahədə çoxlu araşdırmalar aparılmışdır. Bunların içərisində N. M. Şanskinin araşdırması daha genişdir (5). N. M. Şanski frazeoloji vahidləri daha geniş və hərtərəfli araşdırarq həmin əsərdə belə birləşmələrn üslubi xüsusiyyətlərinə də yer ayırmışdır. O, üslubi cəhətdən frazeoloji birləşmələri dörd qurpa bölür:

1. Məişət-danışıq xarakterli frazeoloji birləşmələr.
2. Kitab üslubu frazeoloji birləşmələr.
3. Frazeoloji arxaizmlər və tarixizmlər.
4. Bədii və publisistik üslubda işlənən tarixizmlər(5,251-252)

Azərbaycan dilçiliyində belə birləşmələrdən ötəri şəkildə B. Çobanzadə, F. Ağazadə"Turk qrameli" kitabında bəhs etmişdir. Frazeoloji birləşmələrdən ilk dəfə geniş şəkildə 1954- cü ildə (Azərbaycanda)M. Hüseynzadə bəhs etmiş və belə birləşmələri təcümə olunmayan söz qrupu kmi səciyyələndirmişdir.(4,32-33)

Bundan sonra bu sahəyə xususi tədqiqat işləri həsr edilmişdir. Hətta namizədlik və doktorluq dissertasiyaları yazılmışdır. Bir məqalə çərçivəsində bundan bəhs etmək mümkün deyil. Təkcə bunu qeyd etmək istərdik ki, Azərbaycan dilçiliyində frazeologiya probleminə doktorluq dissertasiyası həsr etmiş H. A. Bayramov mövzunu həm ekstensiv, həm də intensiv şəkildə araşdırmışdır (2). H. Bayramov müstəqil mənası olmayan sözlərin iştirakı ilə formalaşan frazeoloji birləşmələrə xususi bölmə ayırır.Bunlar arasında mənası olmayan söz-komponentli birləşmələr xususi yer tutur (2,72-76). Bu bölgünün belə adlanmasını mütləq şəkildə qəbul etmək olmaz. Belə ki, müəllifin verdiyi otuz beş misaldan hən- hun sözü ilə düzələn hən- hun eləmək misalı uğurludur. Amma hoqqa çıxarmaq birləşməsindəki hoqqa sözü fars dilində qutu mənasındadır. Belə misallar" Molla Nəsrəddin" Lətifələrində də vardır. Məs. *veyl- viran eylədilər. Bu fillər kəndlərdə əkin ,tikin qoymayıb, hamısını veyl-viran eylədilər* (3,15).

Bundan əlavə, frazeoloji birləşmələrin elə növü də vardır ki, onlarda fikir tamlığı özünü göstərir. Belə frazeoloji vahidləri H. Bayramov frazeoloji cümlə adlandırır. "Molla Nəsrəddin" lətifələrində də belə misallar vardır:

1. Ağzına heç xeyir şey gəlməz (67)
2. Tutduqlarını buraxmırlar(18)
3. Həyasızların siyahısını tutarsan (18)
4. Keyfim çox sazdır (19)

Bu misallar içərisində inkarlıq billdirən (iki cümlə)-nəqli cümlə, biri əmr cümləsi , digəri isə təsdiq bildirən nəqli cümlədir.

Buradan aydın olur ki, frazeoloji cümlələr dildə geniş yayılmışdır.Strukturüslub cəhətdən "Molla Nəsrəddin " lətifələrində cümlənin müxtəlif üzvü məqamında işlənən frazeoloji cümlələr də vardır.

1.Mübtəda rolunda:

Özünü lap ölümə vermək də azdır (16). Bu tipli cümlələr dildə az işlənir, yəni frazeoloji birləşmə ilə ifadə edilən mübtədalar dildə az işlənir. Belə cümlələr feili

sifət məqamında işlənmiş frazeoloji birləşmələrlə ifadə edilir. Bir işi boynuna götürən onu axıra çatdırmalıdır, və ya işini ehtiyatlı tutan heç vaxt uduzmaz(39)

2. Xəbər rolunda çıxış edən frazeoloji vahidlər:

Qeyd etmək lazımdır ki, dünyanın bütün dillərində çox vaxt cümlənin xəbəri frazeoloji ifadələrlə reallaşır. Azərbaycan dilində də xəbəri frazeoloji vahidlərlə ifadə edilmiş cümlələr çoxdur. Bu cəhətdən "Molla Nəsrəddin" lətifələri də istisna deyil.

A .*O, hər il bu yerdə buğda əkir, əlli-altmış pud məhsul götürüb külfətini dolandırarmış*(11).

B. Kəndxuda dediyindən əl çəkmir(14).

Ç. Kəndxudalar istədiklərini eləyib, caamatın başına oyun açırlar.

C. Günlər keçir, həftələr dolanır, aylar başa çatır.

D. Qibleyi-aləm, mən o əncir üçün Sizdən o qədər görmüşəm ki, daha başqa mükafat istəməyə üzüm gəlmir.

3.Təyin rolunda çıxış edən frazeoloji birləşmələr.Frazeoloji birləşmələr təyin rolunda çıxış etmək üçün feili sifət tərkibi şəklində formalaşır.Bu səbəbdən bu tip birləşmələrdə cümlədə mübtəda olur.Amma təyin rolunda çıxış edən birləşmələrə də rast gəlirik.

A. *İnanıram, qardaş! Çünki mən həmişə kəndxuda adı çəkəndə çərən dəymiş qulaqlarını şəkləyərdi (57).*

B. Haqsız məni bu qulluğa qoyan axmaqdır ki, nə bir hır qanır, nə də bir zır (67).

Ç. *İndi pulun üç payını verən şərik tutub, bir pay verən şərikin yaxasından ki,-mənə səndən çox zərər dəyib (79).*

C. Sənin əlindən gələn işlər işlər mənim əlimdən gəlmir(86).

4.Tamamlıq vəzifəsində çıxış edən frazeoloji birləşmələr.

A. *Mollanın arvadı işi belə görəndə ağzını açıb gözünü yumur, dişinin dibindən çıxanı bunlara deyir (52).*

B. Orda-burda ağzına gələn hərzə-hədyanı danışəb bizi biyabr eləyirsən (56).

C. Yolun yarsında əyləşib nahar eləməyə başlayırlar (214).

5. Cümlə üzvlərindən zərflikdə bir çox hallarda frazeoloji birləşmələrlə ifadə oluna bilir.

Başqa folklor materiallarında olduğu kimi, "Molla Nəsrəddin " lətifələrində də zəifliyin bəzi növləri geniş şəkildə, bəziləri isə dar çərçivədə işlənir.

1. Məqsəd zərfliyi məqamında işlənən frazeolloji birləşmələr.Bu zaman qoşmalar da iştirak edir.Məs.

A. *Bu şəhərin əncamını çəkmək üçün o yazdığınız şeylərin heç biri lazım deyil* (81). Bu cümlədə üçün qoşması işlənməyə də bilərdi.

2. Tərzi-hərəkət zərfliyi məqamında.

A. Yenə də günün birində Teymur Ləng Mollaya əmr eləyir ki, sarayda olan axmaqların siyahısını tutub ona versin (90).

B. *Saz-nasaz, gözlərini yumub ölümə hazır dayanır(32*).

3. Kəmiyyət zərfliyi məqamında .Məs.

Qibleyi- aləm mən o əncir üçün sizdən o qədər görmüşəm ki, daha başqa mükafat istəməyə üzüm gəlmir (13).

4.Tərzi-hərəkət zərfliyi məqamında.

a.*Bu tərəfdən şəhərın hakimi də öz yaxın adamları ilə buradan keçirmiş.,Göldə başı –gözü açıq arvadları görüb dayanır başlayır bunlara baxmağa ki, Mollanın arvadı işi belə görəndə ağzını açıb-gözünü yumaraq dişinin dibindən çıxanı bunlara deyir(52).*

b.Dəvə nalbəndə baxan kimi nə gözünü zilləyib baxırsan(62).

Beləliklə ,çox asan sübut olunur ki, şifahi xalq ədəbiyyatı nümunələrində metaforikləşmə güclü olduğu üçün frazeoloji birləşmələr də çoxçeşidli, çoxfunksiyalı olur.Yəni cümlənin bütün üzvlərinin frazeolloji birləşmə şəklində ifadə edilməsi adi haldır.Burada müxtəlif yanaşma prizmaları da üslub və ifadəlilik cəhətdənçoxcəhətli olur.

Belə ki,frazeoloji birləşmələrin komponentləri arasındaki əlaqə və münasibətin əsasında görkəmli Azərbaycan dilçisi A .A. Axundov yeni bölgü təklif edir(1,179).

Bu birləşmşlər və onların bu şəkildə qruplaşdırılması onların üslubi və ifadə imkanlarına da aid edilə bilər.Məs.

1. Frazeoloji ad. Hər hansı bir əsərin adı xalq arasında çoxdan yayılmış sabit birləşmələr şəklində verilir ki, bunun nəticəsində də frazeoloji adlar yaranır.Məsələn,”O olmasın,bu olsun”; ”Yağışdan çıxdıq, yağmura düşdüşdük“; “Dəli yığıncağı “; “Arşın mal alan “; “Od gəlni“; “Yeyərsən qaz ətini, görərsən ləzzətini“ və s.

2. Frazeoloji novatorluq. Belə birləşmələr adi danışıqda işlənmir. Çünki danışıq üslubundasözlər metaforikləşmir. Frazeoloji novatorluq elə birləşmələrin yaranmasına deyilir ki, onlar indiyədək heç kəs tərəfindən yaradılmamış və işlədilməmişdir.

3. And içdi böyüyün əziz

3. canına

Belini yanından əyərək keçdi.

Susadı kasıbın ucuz qanına

Rüşvət kasasılə doldurub içdi.

Bu misaldakı ucuz qan və rüşvət kasası frazeoloji novatorluq məhsuludur.”Molla Nəsrəddin“ lətifələrində də belə ifadələr vardır. Məs .Fitəyə qiymət vermək birləşməsi yalnız mətn daxilində metaforik üslubi dəyər alır.

Teymur Mollaya deyir:

Molla, mən necə adamam? Qiymətli adamam, ya yox?

Molla bir az fikirləşib cavab verir:

-Niyə, bir on tümənə dəyərsən.

Teymur deyir:

-Ay evin tikilsin, on tümən elə mənim belimdəki fitənin qiymətidir.

Molla deyir:

-Elə mən də fitəyə qiymət verirəm də (36).

I. Frazeoloji uyuşma adı altında verilən birləşmələrin komponentləri arasında əlaqə zəif olur. Onlar sanki təsadüfi birləşmə təsiri buraxır.Belə birləşmə bütün qrammatik formalarda işlənir.

1.Məs.*əl çəkmək;* bu birləşmənin komponentləri arasında məna əlaqəsi zəif olduğu kimi hamı tərəfindən bütün üslublarda işlənir.Məs.*Molla getmək istəmirsə də əl çəkmirlər (15).*

2.Həbsə salmaq. *Ona görə də mən gündüz oğurluq eləyəni qanuna və adətə uyğun olmadığına görə həbsə alıb, gecə oğurluq eləyəni azad eləmişdim.Sonra sızin imzanızla bir əmr elədim ki, gecə oğurluq eləyən adamı həbsə almaq lazımdır.*

3.*Teymurun əmri ilə oxatan Mollanı nişanəyə qoyub, oxatmağa başlayır (32).*

Əsərdə belə misallar çoxdur:*üzə vurmaq , səbr gətirmək (15), söhbətə qarışmaq(38), boynuna götürmək(4).*

II. Frazeoloji birləşmələrdə istinad söz-komponent sərbəst olur, buna görə də belə bir birləşmələrnin arasına sözlər daxil ola bılır.Məs. *Gözünə dəymək, özlərini günə vermək (34), ağlına gəlmək (54), keyfini pozmaq (56), ürəindən olmaq (56), özünü yığışdırmaq (60) və s.*

Məsələn. *İnanıram, qardaş! Çünki mən həmişə kəndxuda adı çəkiləndə çərən dəymiş qulaqlarını şəkləyirdi (57).* Burada qulaqlarını şəkləmək birləşməsində qulaq sözü öz müstəqilliyini saxlamışdır,bundan əlavə bu birləşmənin komponentləri arasına sözlər daxil etmək olar.

III. Frazeoloji qovuşma adı altında elə sabit birləşmələr nəzərdə tutulur ki, onlar mənaca elə qovuşur ki, onları dəyişmək olmur. Onlar bir-birinə bağlı olur.Məsələn, *qulaq asmaq,qulaq vüemək, ürəyindən olmaq (56),şam vermək (58), özünü yığışdırmaq (60), bar vermək (13).*

Məs.Gördüm ki, mənim əsərim Sizin lap ürəyinizdən olub (56).

Belə birləşmələrin sinonimləri də olur.Belə ki, ürəyindən olub frazeoloji birləşməsinin sinonimi kimi xoşuna gəlib də işlənə bilərdi.

Nəticə olaraq onu demək istərdik ki,ümumxalq dili əsasında yaranmış olan "Molla Nəsrəddin" lətifələrində də frazeoloji birləşmələr geniş istifadə olunur. Burada xalq danışıq dilinin sərbəstliyi, şair təbiətli adamların o sözləri metaforikləşdirilməsi çox azad şəkildə mümkün olur. " Molla Nəsrəddin" lətifələrində işlənmiş frazeoloji birləşmələrin çox az bir qismi haqqında məlumat veririk.Demək yerinə düşərdi ki, frazeoloji birləşmələrin üslubi leksik laydakı bütün sözlərdə yaranması böyük bir araşdırmanın mövzusudur.

ƏDƏBİYYAT

1.Axundov A.A.Ümumi dilçilik.Bakı,198.

2.Bayramov H.A.Azərbaycan dili frazeologiyasının əsasları.Bakı.1978.

3.“Molla Nəsrəddin“lətifələri.Bakı 2014.
4.Təhmasib M.H.“Molla Nəsrəddin “.Ön söz.(rus dilində).
5.Виноградов В.В.Русский язык (грамматическое ученнео языке) М.1947
6.Щанский Н.М.Лексикология современного русского языке. М.1972.

И.Сулейманова

Стилистические особенности фразеологических единиц употребленных в “Анекдотах Моллы Насреддина“

Резюме

Темой. После чего примерами из анекдотов. Моллы Насреддина утверждаются сказанные тезисы. В начале статьи говорится, что фолклор каждого народа отражалт его этноментальнил особенности.Место занимает ”Анекдоты Моллы Насреддина” среди фолькорных произведеиий созданные Азербайджанским народом.Как известно Анекдоты отражонот все особенности общенародного. Которые охватывают и фразеологические единства.Чему посвящена данная статья.В статье короко говогится об особенностях трех разеновидностей фразеологических единця:

1.Фразеологичекие сращения
2.Фразеологические единство
3.Фразеологические сочетаня

Привоятся римеры из Анекдотов Моллы Насреддиня римеры в качестве разных членов предложения.Словосочетания образуютея в Азервайджанской языке .Первы компонент которых не имеет лексического значение.

Одним из самых популярных и широко распространённых жанров азербайджанской народной устной литературы являются анекдоты. Эти назидательные «народные жемчужины» создаются мастерами слова, имена которых остаются неизвестными. Затем они обрабатываются и превращаются в настоящий коллективный творческий продукт.

Фольклорные критики считают анекдоты частично сказками. Сказки рассказываются профессиональными сказочниками как произведения, в которых с кем-то что-то приключается. «Героями анекдотов» часто бывают представители народа.

Молла Насреддин - герой самого любимого анекдота в Азербайджане.

Прекрасные анекдоты и мудрые ответы-отклики, которые распространились в народе связаны с именем Моллы Насраддина.

Ключевые слова: фолклор, Моллы Насреддин, оиекдот, фразеология, стил
В данной статье коротко говорится о некоторых проблемах связнных с иследованной

I.Suleymanova

The styles of phraseological compounds in " Anecdotes of Molla Nasreddin".

Summary

One of the most popular and loving genres of Azerbaijani oral literature is anecdote. The names of these exemplary pearls are created by artists whose names are unknown to us. Then it is processed and turned into a true collective creative product. Folklore critics consider the anecdote to be a part of fairy tales. The fairy tale is told by a fairy taler as a masterpiece , but is told as a story. "The heroes of the anecdote" often belong to each nation. The article briefly touches on a number of problems related to the subject. And then it confirms each of the problems , with examples from the "Molla Nasreddin Anecdotes". The beginning of the article shows that folklore is a fiction that was created by every nation before the writing. Folklore is tale , saga, puzzle, anecdote , etc. The etnographic features of the people are reflected. The anecdotes of Molla Nasreddin have a special place among the examples of oral folk literature created by the Azerbaijani people. The anecdotes combine all the features of the spoken language as a combination of words. In this article , it is discussed three types of the phraseological compounds : 1) Phraseological combination, 2) Phraseological integration, 3) Phraseological accumulation. It refers to the use of such compounds as an envelope, news, designation, completeness and examples are given. It is also argued that in addition to meaningful words in the spoken language , meaningless words can also form phrases. Molla Nasreddin is the most popular anecdote hero in Azerbaijan. These anecdotes are rich in phraseological compounds. The most beautiful anecdotes and sophisticated answers from the people are related to the name of Molla Nasraddin. This is a long-standing tradition associated with his name.

В этой статье рассматриваются три типа фразеологических объединений.

Key words: folklore, Molla Nasreddin , anecdote , phraseology, style.

Redaksiyaya daxil olma tarixi: 20.09.2019
Çapa qəbul olunma tarixi: 01.01.2020
Filologiya elmləri doktoru, professor Adil Babayev
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLTƏKİN SALMANOVA
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Əcnəbi Dillər kafedrası
c.gultekin1986@mail.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ VAHİDLƏRİN QARŞILIQLI TƏRCÜMƏSİ

Xülasə

Məqalədə frazeoloji vahidlərin mənbə dilindən hədəf dilə çevrilməsinin vacib yolları və vasitələri müzakirə olunur. İngilis dili frazeologizmlərin azərbaycan dilinə tərcüməsi çox çətin və məsuliyyətli işdir. Bu çətinliklər ingilis dili ilə azərbaycan dilininin lüğət tərkibi və qrammatik quruluşu arasındakı fərqdən irəli gəlir.

Tərcüməçi ingilis dilində verilmiş frazeologizmi azərbaycan dilinə düzgün, səhvə yol vermədən, orijinaldakı xüsusiyyətlərini saxlayaraq tərcümə etmək üçün tərcümə metodlarından düzgüz istifadə etmək bacarığına malik olmalı, bədii əsərin kontekstindən uzaqlaşmamalı , orijinalda təsvir olunan xalqın həyatını və milli varlığını təşkil edən xüsusiyyətlərini bilməli ,tərcümə etdiyi dilin tələblərinə cavab verməlidir . Frazeoloji vahidin bir hissəsi olan milli və mədəni xüsusiyyətlər tez-tez məcazi, orijinal dildən analoq dilə keçidin tərcüməsi zamanı mürəkkəb bir hadisəyə çevrilir. Bir dil cəmiyyətinin şüurunda meydana çıxan frazeoloji mənzərə həmişə başqa bir toplumun münasibəti ilə üst-üstə düşmür. Müxtəlif mədəniyyətlər arasında ünsiyyət vəziyyətində ortaq bir anlaşma versiyasını tapmaq üçün tərcüməçi, bu məqalənin bir vəzifəsi olan sistemləşdirmə üçün təsviri şərh metodlarına müraciət edir. Bu məqalədə tərcüməçinin fikirlərinin tərcümədə əhəmiyyəti də vurğulanır. Tədqiqatda həmçinin tərcümə prosesində lüğətdən düzgün istifadə ,dil və üslub məsələlərinə dərindən diqqət yetirmənın vacibliyi vurğulanmışdır.

Məqalənin məqsədi frazeoloji vahidlərin tərcüməsi zamanı hansı problemlərin meydana çıxa biləcəyini və frazeoloji vahidlərin tərcüməsinin necə başa düşüldüyünü üzə çıxarmaqdır. Müasir ingilis frazeoloji ifadələrin dünyası o qədər möhtəşəm və rəngarəngdir ki, bu sahədə aparılmış tədqiqatın hər bir aspekti diqqətə layiqdir.

Açar sözlər: frazeoloji vahidlər , tərcümə nəzəriyyəsi, dilçilik, frazeoloji ekvivalentlər

Beynəlxalq aləmdə ingilis dilinin əhəmiyyətinin getdikcə artması ilə əlaqədar olaraq təkcə leksik vahidlər yox, frazeoloji birləşmələr də külli miqdarda bu dildən başqa dillərə, o cümlədən Azərbaycan dilinə keçir. İngilis dili frazeologiyasının Azərbaycanda öyrənilməsi yeni bir məsələ deyil. Azərbaycan dili tarixində bu proses

hələ sovet dövründə və rus dilinin vasitəçiliyi ilə başlanmışdır. Azərbaycan dilçiliyində ingilis dili frazeoloji vahidləri müqayisəli şəkildə tədqiq edilmiş, ingiliscə-azərbaycanca frazeoloji lüğət tərtib edilmişdir. İngilis dili frazeologiyasının öyrənilməsi, digər tərəfdən, ingilis dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi rolunun getdikcə daha da artması ilə şərtlənir. Dilin işarəvilik xüsusiyyətləri ilə yanaşı, kommunikativlik xüsusiyyətlərinin xüsusiyyətlərinin mühüm yer tutduğu müasir dövrümüzdə frazeologiyanın əhəmiyyəti çox böyükdür. İnsanın nitq fəaliyyəti dilin bütün vahidləri kimi, frazeoloji vahidlərin də əmələgəlmə mənbəyidir. Frazeoloji vahidlər, hər şeydən əvvəl, söz birləşmələri olub, kommunikativ məqsədlərə xidmət edir. Hal-hazırda Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası ilə əlaqədar olaraq onun ingilis dili ilə bilavasitə təmasları gündən-günə genişlənir. hal-hazırda tədqiqatçılar arasında qohum olmayan dillərin frazeologiyasının müqayisəli şəkildə öyrənilməsi böyük maraq doğurur. Bu həm nəzəri, həm də praktik planda tərcümə, xarici dillərin tədrisi, leksikoqrafiya üçün mühüm əhəmiyyət kəsb edir". Bu baxımdan istər ölkəmizdə, istərsə də xaricdə müxtəlif dillərdə mövcud olan həm semantik-üslubi, həm də formaca bir-birinə uyğun gələn frazeologizmlərin tərcüməsi çox çətin və məsuliyyətli bir işdir. Görkəmli rus yazıçısı M.Qorki belə hesab edirdi ki, hər hansı bir fikri tərcümə etmək üçün hər bir dilin kifayət qədər imkan və vasitəsi vardır. Bu müddəa eynilə azərbaycan dilinə də aid ola bilər. Təcrübə göstərir ki, dünyanın ən zəngin dillərində verilmiş elə bir fikir tapmaq çətindir ki, onu bizim dilimizdə ifadə etmək qeyri-mümkün olsun. Bununla belə, ingilis dilində olan frazeologizmləri azərbaycan dilinə tərcümə edərkən müəyyən çətinliklərə də təsadüf olunur ki, bu çətinliklər ingilis dili ilə azərbaycan dilininin lüğət tərkibi və qrammatik quruluşu arasındakı fərqlərdən irəli gəlir. İngilis dilindəki sabit söz birləşmələrinin azərbaycan dilindəki qarşılığı ilə tam, eyni ilə uyğun gəlməməsinin əsas səbəbi onların ingilis dilinin qayda-qanunları əsasında, xalqın həyat tərzindən, məişətindən, dünyagörüşünə təsir edən amillərdən asılı olaraq həmin dilin yüz illər boyu davam edən tarixi inkişafı nəticəsində sabitləşməsidir. Buna görə də frazeologizmlərin lüğətlərdə dəqiq qarşılığının verilməsi, demək olar ki, mümkün də deyil. Frazeoloji birləşmələr hər bir xalqın milli kaloritini, adət-ənənəsini, nəhayət dil sistemindəki özünəməxsus leksik-qrammatik formalarını əks etdirdiyindən belə ifadələr azərbaycan dilinə tərcümə edilərkən orijinaldakı xüsusiyyətlərinin hamsını eyni dərəcədə saxlamaq imkanı xaricindədir.

Frazeologizmlərin tərcüməsi zamanı lüğətdən düzgün istifadə olunmalı, dil və üslubi məsələlərinə dərindən diqqət yetirilməlidir. Frazeologizmlərin tərcüməsi dedikdə hər şeydən əvvəl aşağıdakı iki başlıca moment nəzərdə tutulur:

a) tərcümə olunacaq frazeologizmi tam başa düşmək, b) başa düşülmüş frazeologizmin adekvat şəkildə ana dilində ifadə olunması.

Bu iki momentin vəhdətindən ibarət olan tərcümə prossesində ingilis dilində söylənilmiş frazeologizm semantik, stilistik və qrammatik nöqteyi-nəzərdən təhlil olunur, həmin birləşmənin leksik mənası və üslubi xüsusiyyəti ilə yanaşı, onun qrammatik məna və vəzifəsi müəyyən edilir. Bütün bunlar ana dilinin normaları ilə tutuş-

durulur və nəticədə ingilis dilində söylənilmiş frazeologizm ana dilindəki ifadə vasitələri ilə müəyəynləşdirilir. Bütün tərcümə prossesi tutuşdurma və müqayisə əsasında gedir. [5.s.141]

Frazeologizmlərin dəqiq və mükəmməl formada tərcüməsi ingilis dilinin frazeologizmləri ilə azərbaycan dilinə frazeologizmləri arasındakı əlaqədən, uyğunluq dərəcəsindən asılıdır. Frazeologizmlər tərcümə nöqteyi-nəzərdən iki qrupa bölünürlər: 1) ekvivalent frazeologizmlər, 2) ekvivalantsiz frazeologizmlər.

I. Ekvivalent frazeologizmlər.

Tərcümə olunduğu dildə ekvivalenti olan frazeologizmlərə ekvivalent frazeologizmlər deyilir. Bu frazeologizmlərin iki növü var: 1) tam frazeoloji ekvivalentlər, 2) natamam frazeoloji ekvivalentlər.

1. Tam frazeoloji ekvivalentlər – bu frazeoloji ekvivalentlərin tərkibinə məna, leksik tərkib, bədiilik, qrammatik quruluş və üslubi çalarlıq baxımından tərcümə olunduğu dilin frazeologizmləri ilə uyğun gələn və yaxud üst-üstə düşən, dildə hazır şəkildə olan frazeologizmlər daxildir. Bunlara aşağıdakı frazeologizmləri misal göstərmək olar:

Achilles' heel "axilles dabanı"; Augean stables "avgin tövlələri"; to show somebody the door "bir kəsə qapını göstərmək" (bir kəsi qovmaq); as cold as ice "buz kimi soyuq"; the iron heel "dəmir daban"(imperializm); in the sweat of one's brow "alının təri ilə"; a labour of Sisyphus "sizif əməyi"; in the seventh heaven "göyün yeddinci qatında"; to frown one's eyebrows "qaşlarını çatmaq"; Lares and Penates "larlar və penatlar"; a labor of Hercules "herkules əməyi"; to stick like a leech "zəli kimi yapışmaq"; to dig a pit for somebody "bir kəsə quyu qazmaq"; to gnash the teeth "dişlərini qıcırdatmaq"[2, s .199]

2.Natamam frazeoloji ekvivalentlər – bu frazeoloji ekvivalentlərin tərkibinə isə tərcümə olunduğu dilin frazeologizmləri ilə bədiilik və məna baxımından nisbətən uyğun gəlməyən frazeologizmlər daxildir. Tərcüməçi bu cür frazeologizmləri tərcümə edərkən onun ifadəliliyini, emosionallığını da nəzərə almalıdır. Natamam frazeoloji ekvivalentlərə aşağıdakı frazeologizmləri misal göstərə bilərik:

To be in black book "qara siyahıda olmaq"; golden opportunity "gözəl fürsət"; to be in pins and needles "tikan üstündə oturmaq"; to fall on stony ground "boşa çıxmaq"; to have pity on (smb.) "bir kəsə ürəyi yanmaq"; to catch somebody red-handed "bir kəsi cinayət üstündə yaxalamaq"; to call a spade a spade "necə var, elə demək"; one swallow does not make a summer "bir güllə bahar olmaz"; to burn the candle at both ends "ömrünü puç etmək"; between hammer and anvil "od ilə su arasında"; to make a monkey out of somebody "bir kəsi ələ salmaq"; fly off the handle "özündən çıxmaq"; small talk "boş söhbət"və s. Natamam frazeoloji ekvivalentlər özləri də üç qrupa bölünür. 1.Birinci qrup natamam frazeoloji ekvivalentlərin tərkibinə tərcümə olunduğu dilin frazeologizmləri ilə mənaca uyğun gələn, bədiilik və üslubi çalarlılıq baxımından yaxın olan, lakin leksik tərkibinə görə fərqlənən frazeologizmlər daxildir. Məsələn: a wolf in sheep's clothing "qoyun dərisi geymiş canavar";

the game is not worth the candle "əl bulamağa dəyməz"; the talk of the town "dillərə dastan"; don't count your chickens before they are hatched "cücəni payızda sayarlar"; the first portent "müjdəçi", "ilk əlamət". 2. İkinci qrup natamam frazeoloji ekvivalentlərin tərkibinə isə tərcümə olunduğu dilin frazeologizmləri ilə məna, leksik tərkib, bədiilik, üslubi çalarlılıq baxımından uyğun gələn, lakin bəzi formal əlamətlərinə görə fərqlənən frazeologizmlər daxildir. Onlar tərkibindəki sözlərin sırasına və sayına görə tərcümə olunduğu dilin frazeologizmlərindən fərqlənirlər. Məsələn: all is not gold that glitters "hər parıldayan qızıl deyildir"; strike while the iron is hot "dəmiri isti-isti döyərlər". There is no rose without a thrown "tikansız qızılgül olmaz"; fish in trebled water "bulanıq suda balıq tutmaq" frazeologizmlərində isə sözlərin sayı fərqlidir. 3.Üçüncü qrup natamam frazeoloji ekvivalentlər tərcümə olunduğu dilin frazeologizmləri ilə bütün xüsusiyyətlərinə görə uyğun gələn, lakin bədiilik baxımından fərqlənən frazeologizmlərdir. Məsələn: to spread before the eye "elə bil ovucumun içindədir"; as old as hills "dünya qədər qoca"; "be born with a silver spoon in one's mouth "xoşbəxt ulduz altında doğulmaq" .

II. Ekvivalentsiz frazeologizmlər.

Ekvivalentsiz frazeologizmlər dildə sayca ən çox olan frazeologizmlərdir. Belə frazeologizmlərin sırasına tərcümə olunduğu dildə ekvivalenti olmayan frazeologizmlər daxildir. Onları tərcümə edərkən tərcüməçi tərcümənin qeyri-frazeoloji üsullarından istifadə edir. Onların tərcüməsi frazeoloji deyil, leksik vasitələrin köməyi ilə verilir. Ekvivalentsiz frazeologizmlərin tərcüməsini heç bir zaman dəqiq tərcümə adlandırmaq olmaz. Bu cür frazaologizmlərin tərcüməsində həmişə bəzi çatışmamazlıqlar olur. (bədiilik, ekspressivlik, məna çalarları və.s.) Məsələn: What will Mrs Crundy say? "camaat bizə nə deyər?"; Paul Pry "Paul Pray", "burnunu hər yerə soxan insan"; Cordelia's gift "sakit,incə qadın səsi"(King lear əsərinin qəhrəmanı Kordeliyanın səsi kimi);Jack Sprat "cırtdan", "çox kiçik boylu"; Tom Tiddler's ground "xəzinə"(bu frazeologizm qədim uşaq oyununun adı ilə əlaqədar olaraq yaranmışdı. Bu oyunda kim Tom Tiddler olarsa, O, öz dayandığı yerə heç kəsi qoymamalıdır.) [1.s.76]. Ekvivalentsiz frazeologizmlərin tərcüməsində kalka tərcümə növündən geniş istifadə olunur.

İngilis dilində verilmiş frazeologizmin azərbaycan dilində maksimal adekvat tərcüməsini əldə etmək üçün tərcüməçi tərcümənin müxtəlif növlərindən istifadə edir. Bunların sırasına ekvivalent, analoq, təsviri, kalka və ya hərfi, antonim, müştərək, parallel tərcümə növləri daxildir.

Ekvivalent tərcümə – bu tərcümə növü ingilis dilində verilmiş frazeologizmlərin mənasını, bədiilik xüsusiyyətlərini ana dilimizdə tam olaraq əks etdirir. Ekvivalent tərcüməyən aşağıdakıları misal göstərmək olar: As cold as ice "buz kimi soyuq"; red as blood "qan kimi qırmızı"; black as coal "kömür kimi qara"; to play with fire "odla oynamaq"; the golden age "qızıl əsr"; Platonic love "platonik sevgi"; winged words "qanadlı sözlər"; as cunning as fox "tülkü kimi hiyləgər (bic)"; to take counsel "məsləhət almaq". Ekvivalent tərcumə sayəsində dildə komparativ frazeolo-

gizmlər anlayışı yaranır ki, bu frazeologizmlər də öz növbəsində dildə müqayisə məqsədilə işlədilir. İngilis dilində komparativ frazeologizmlərin yaranmasında " as.....as" və " like....as " modeli, (as hungry as a wolf – qurd kimi ac) Azərbaycan dilində isə istifadə olunan vasitə " kimi " ("yağ içində böyrək kimi") sözüdür. Belə frazeologizmlər ümumi səciyyə daşıyıb hamı tərəfindən işlənirsə, nitqə məxsus bənzər ifadələr fərdi səciyyə daşıyır. Komparativ frazeologizmlər semantik məzmuna, alliterasiyadan istifadəyə, başqa dilin vahidləri ilə uyğunluğa görə fərqlənir. Belə vahidlər şəxsin və ya predmetin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmaq məqamında istifadə olunur və qiymətləndirmə xarakteri daşıyan vahidlər sisteminə daxil olur.

Analoq tərcümə – tərcümənin bu növü isə ingilis dilində verilmiş frazeologizmlərin mənasını azərbaycan dilində ifadə edə bilsə də, onların bədiilik xüsusiyyətlərini ya tam, ya da qismən fərqli əks etdirir. Məsələn: It is raining cats and dogs.: Şiravaran yağış yağır; a drop in the bucket "dənizdə bir damla"; to fall upon one "bir kəsin davamçısı olmaq"; have a good time "yaxşı vaxt keçirmək"; that's flat "qısa və konkret"; pop the question "evlənmə təklifi etmək"; the observed of all observers "diqqət mərkəzi". [4,s.61]

Təsviri tərcümə – ingilis dilində verilmiş frazeologizmin azərbaycan dilində adekvat və ya analoq tərcüməsi mümkün olmadığı zaman təsviri tərcümə növündən istifadə olunur. Tərcümənin bu növü verilmiş frazeologizmi azərbaycan dilinə sərbəst söz birləşmələri vasitəsilə tərcümə edir. Bu zaman orijinaldakı frazeologizm bədiilik və ifadəlilik xüsusiyyətlərini itirir. Məsələn: to burn the candle on both ends "səhərdən axşama kimi işləmək"; a black eye "gözünün altı göyərmiş"; the dark ages "orta əsrlər"; for a long "havayı", "müftə"; straw in the wind "ümumi fikir"; have a yellow streak "cəsarətsiz adam", "qorxaq"; be in pink "sağlam görünmək", "gümrah olmaq"; in the black "cahcəlallı". [6, s.206] Antonim tərcümə – orijinaldakı fikrin adekvat və ya təbii yolla tərcüməsinə deyilir. İngilis dilində verilmiş frazeologizmlərin azərbaycan dilinə antonim tərcüməsində inkar kostruksiyası təsdiqlə əvəz edilir və yaxud da əksinə. Buna aşağıdakı tərcümələri misal göstərmək olar:

Don't count your chickens before they are hatched "cücəni payızda sayarlar"; to keep one's head "başını itirməmək"; to keep one`s head above water "borca girməmək"; to keep one`s pecker up "ruhdan düşməmək"; to keep one`s hair on "əsəbləşməmək".

Kalka və ya hərfi tərcümə – bu tərcümə növü ekvivalentsiz frazeologizmlərin milli-etnik xüsusiyyətlərini saxlayaraq onların maksimal tərcüməsini verir. Frazeologizmlərin bədiiliyini vurğulamaq üçün kalka və ya hərfi tərcümədən istifadə olunur. Tərcümənin bu növünə orijinaldakı frazeologizmin azərbaycan dilinə başqa yolla tərcüməsi mümkün olmadıqda müraciət edilir. Kalka tərcümə növündən əsasən Bibliyadan götürülmüş frazeologizmlərin, antik və mifik dövrün frazeologizmlərinin tərcüməsi zamanı geniş istifadə olunur. Məsələn: Bibliyadan götürülmüş frazeologizmə baxaq: David and Jonathan "Devid və Conatan", "ayrılmaz dostlar" [6, s.190]

Bir çox əsərlərdəki frazeologizmlərin böyük bir qismi dilimizə hərfi tərcümə olunur. Hərfi tərcümə bədii dil baxımından səmərəli olmasa da, tərcümə praktikasında geniş yayılıb. Tərcüməçi orijinaldakı frazeoloji birləşmələrin semantik xüsusiyyətlərinə dərindən yiyələnmədikdə, onların mənasını fərqləndirmədikdə sözləri sadəcə olaraq tərcümə elədiyi dilin sisteminə uyğun düzür, nəticədə hərfi tərcümə alınır. Məsələn: to put the cart before the horse atı arabaya qoşmaq (hər şeyi tərsinə etmək).

Bəzən frazeologizmlər müəlliflər tərəfindən dəyişdirilir. Bu cür frazeologizmlərin tərcüməsinin effektli alınması üçün tərcüməçi onu əvvəlki vəziyyətinə qaytararaq tərcümə edir. Frazeologizmlər aşağıdakı yollarla dəyişdirilir:

1. Frazeologizmlərə yeni komponentlər daxil etməklə.

Məsələn: let`s not put the cart too far ahead the horse "hər şeyi tərsinə etmək" (atı arabaya qoşmaq -hərfi tərcümə), bu frazeologizmin dəyişikliyə uğramış forması belədir: "to put the cart before the horse".

2. Frazeologizmin komponentlərini başqa sözlərlə əvəz edərək onun leksik və qrammatik tərkibini dəyişmək yolu ilə.

Məsələn: Bibliyadan götürülmüş "to have a millstone about one`s neck" (ürəyində daş gəzdirmək) frazeologizmi, "Qoca dənizçi" poemasında "have an albatros about one`s neck" kimi işlədilmişdir. Bu cür dəyişikliklərə uğramış frazeologizmləri asanlıqla əvvəlki vəziyyətinə qaytarmaq mümkündür.

3.Frazeologizmi hissələrə ayıraraq, onun komponentlərini sərbəst söz birləşmələrinin tərkibində işlətməklə.

Məsələn: to get cold feet "qorxaq" frazeologizmini hissələrə ayıraraq, onun komponentlərini sərbəst söz birləşmələrinin tərkibində işlədilmiş bir misala baxaq:

a) "I have got a cold."

b) "It is in your feet."

Bu dialoqda birinci şəxs xəstəliyindən şikayət edir, digəri isə bunun xəstəlik deyil, qorxaqlıq olduğunu söyləyir. Bu cür frazeologizmləri əvvəlki vəziyyətinə qaytarmadan tərcümə etmək qeyri-mümkündür.

4. Frazeologizmin bəzi komponentlərini saxlamaqla

Məsələn: He complained to Fleur that the book dealt with nothing but birds in the bush. (J. Galsworthy). Bu cümlədə"a bird in the hand is worth two in the bush" (soğan olsun, nağd olsun) atalar sözünün bir hissəsi işlədilmişdir. Verilmiş misalda "a bird in the bush" frazeologizmi "boş vədlər" kimi tərcümə olunur.

İngilis dilinin frzeologizmləri azərbaycan dilinə tərcümə edilərkən onların çoxmənalı və omonim olduğunu da nəzərə almaq lazımdır. Verilmiş frazeologizmin mənalarından biri frazeoloji, digəri omonim ola bilər. Bunlara aşağidaki frazeologizmləri misal göstərmək olar:

Don't mention it 1) bu haqda mənə xatırlatmayın, 2) dəyməz (frazeoloji m.).

To be narrow in the shoulders 1) dar çiyinli olmaq, 2) yumor hissi olmayan (frazeoloji m.).

To pin back smb`s ears 1) bir kəsin qulağını çəkmək, 2) bir kəs üzərində qələbə qazanmaq. (frazeoloji m.).

The girl next door 1) qonşu otaqda yaşayan qız, 2) belə qızlar çoxdur (frazeoloji m).

To see eye to eye 1) göz-gözə gəlmək, 2) bir kəslə tam razı olmaq (frazeoloji m.).

To strentch one`s legs 1) ayaqlarını uzatmaq, 2) gəzişmək (frazeoloji m.).

Tərcümə prossesinə təsir göstərən əsas səbəblərdən biri də ingilis dilində zahirən oxşar, lakin semantik cəhətdən fərqlənən frazeologizmlərin olmasıdır. İngilis dilini kifayət qədər bilməmək, tərcümə prossesində diqqətsizlik belə frazeologizmlərin birinin digəri ilə qarışdırılmasına gətirib çıxarır. Məsələn: "to make good time" frazeologizmi "to have a good time" frazeologizmi ilə qarışdırılır. Əslində isə bunlar tam fərqli mənalar ifadə edirlər. "To make a good time" frazeologizmi "sürətlə keçib getmək", "tez çatmaq" mənasını, "to have a good time" isə yaxşı vaxt keçirmək mənasını ifadə edir. "To make good time" frazeologizmi işlədilən cümləyə nəzər salaq: We made very good time on our trip to Florida – Biz Floridaya çox tez çatdıq.

"To put one`s nose in" – "peyda olmaq" frazeologizmi isə "to put one`s nose into smb`s affair" – "başqasının işinə burun soxmaq" frazeologizmi ilə qarşılaşdırılır.

"Backward(s) and forward(s)" – "eninə-uzununa", "başdan-başa" frazeologizmi "back and forth" – "irəli geri", "gah o yana, gah bu yana" frazeologizmi ilə qarşılaşdırılır.

İngilis dilindəki frazeologizmlərin bir hissəsi çoxmənalı səciyyə daşıyır. Məsələn: to pass the time of the day 1) söhbət etmək, 2) salamlaşmaq; on the side 1) gizli, 2) qatılmış, qarışdırılmış (su və s. ilə); to let one's hear down 1) ürəyini açmaq, 2) özünü sərbəst aparmaq. Jane is very nice girl. I'am sorry I've never seen her let her hair down. – Ceyn çox yaxşı qızdır. Çox təəssüf edirəm ki, o mənimlə həmişə ehtiyatlı danışır.

Belə frazeologizmlərin malik olduqları mənalardan məhz hansını ifadə etdiyini mətinin kontekstindən müəyyən etmək olar. Buna aşağıdakı cümlələri misal göstərə bilərik:

To kill time, my brother and I counted all the red automobils that passed us on the highway. Bu cümlənin tərcüməsi belə olacaq: Vaxtı öldürmək üçün mən və qardaşım şosedən keçən bütün qırmızı maşınları saydıq. Bu cümlədə "to kill time" frazeologizmi "vaxt öldürmək" mənasında işlədilmişdir. Lakin bu frazeologizmi heç də həmişə bu cür tərcümə etmək olmaz. Bunu aşağıdakı cümlədə görə bilərik:

What is your favourite way of killing time? Bu cümlənin tərcüməsi isə belə olacaq: Sən boş vaxtını necə keçirtməyi xoşlayırsan? Burada isə "to kill time" frazeologizmi mənaca "try to fill otherwise empty time in as intresting a manner as possible" ifadəsinə uyğun gəlir.

The children got out of hand while their parents were away. – Valideynlərinin olmadığı müddətdə uşaqlar tamamilə sözə qulaq asmırdılar. Bu cümlədə "to get out of hand" frazeologizmi "sözə qulaq asmamaq" mənasında işlədilmişdir.

What caused the meeting to get out of hand yesterday? – Dünənki iclas nə üçün belə qeyri-mütəşəkkil keçdi? Bu cümlədə isə "to get out of hand" frazeologizmi "qeyri-mütəşəkkil keçmək (olmaq)" mənasını ifadə edir.

To understand that columinist you have to read between the lines, otherwise his words mean nothing. – Jurnalistin nə demək istədiyini başa düşmək üçün onun yazdığı məqaləni sətirbəsətir oxumaq lazımdır, əks halda bu məqalə öz mənasını itirər. Burada "to read between the lines" frazeologizmi "sətirbəsətir oxumaq" mənasındadır.

Professor Elton was a good speaker but you had to be able to read between the lines what he said. – Professor Elton çox gözəl natiqdir, lakin onun nə dediyini anlamaq üçün, onun söylədiklərinin altında hansı mənanın gizləndiyini bilmək lazımdır. Bu cümlədə isə "söylədiklərinin altında hansı mənanın gizləndiyini bilmək" mənasını ifadə edir.

He aroused contempt because he read turned informer to save his skin. – Ona qarşı nifrət hissi oyanmışdır, çünki O, öz canını qurtarmaq üçün xəbərçilik etmişdi. Burada "to save smb`s skin" frazeologizmi "canını qurtarmaq" mənasında işlədilmişdir.

Betty saved Tim`s skin by typing his report for him, without her help he could not have finished in time. – Betti Timə məruzəni çap etməyə kömək etdi, əks halda o bu işi vaxtında qurtara bilməzdi. Bu cümlədə "to save smb`s skin" frazeologizmi kömək etmək mənasındadır.

Hər bir dil bu və ya digər frazeologizmi özünəməxsus şəkildə dərk edir. Buna görə də tərcüməçi dillər arasındakı fərqi dəqiq şəkildə öyrənməyə borcludur. Tərcüməçi tərcümə prossesi zamanı orijinaldakı frazeologizmin xüsusiyyətlərini saxlamaq üçün hər iki dilə məxsus müxtəlif ifadə vasitələrindən istifadə edir, frazeoloji birləşmələrin ekvivalentini verir, ifadələri bir-birinə yaxın şəkildə (komponentlərinin dəyişdirilib başqa leksimlərlə əvəz edilməsi) tərcümə edir, ingilis dilindəki frazeologizmi azərbaycan dilinə tərcüməsində onların sinonimlərindən, hərfi tərcümə və.s. vasitələrdən geniş istifadə edir.

Bir sözlə frazeologizmlər bir dildən başqa bir dilə tərcümə edilərkən həm təmsil elədiyi milli düşüncələrindən, eləcə də bədii əsərin kontekstindən uzaqlaşdırmamalı, həm də tərcümə olunduğu dilin tələblərinə cavab verməli, başqa bir xalqın düşüncəsinə yol tapmalıdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Амосова Н. Н. Основы английской фразеологии. Л.,1963
2. Arnold İ. V. The Engilish Word. M-L., 1966

3. Vəliyeva N. Azərbaycanca-ingiliscə- rusca frazeoloji lüğət. Bakı, 2006.
4.Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978.
5.Комиссаров В. Н. Лингвистический перевод. М.,1980 səh
6. Кунин А. В. Английская фразеология. М., 1970.

Salmanova Gultakin Azim

Mutual translation of phraseological units in the English and Azerbaijani languages

Summary

The important ways and methods of transferring phraseological units from the source language into the target one are considered in the article. Translating English phrases into Azerbaijani is a very difficult and responsible task. These difficulties are due to the difference between the English language and the grammatical structure of the Azerbaijani language.

In order to translate English phraseological units into Azerbaijani correctly, retaining its originality, a translator should use the methods of translation properly, and shouldn't be distracted from the context of the literary work, should know the language of the people and their national identity and should meet the demands of the target language. National and cultural features that are part of the phraseological unit often become complex when translating from figurative, original to a similar language. The phraseological picture of the world occurring in consciousness of one language community does not always coincide with attitude of another community. To search an acceptable option of understanding in case of contact of different cultures the translator resorts to methods of the descriptive interpretation which is the systematization, and also is a task of this article. The significance of a translator's opinions during translation is also emphasized in the given article. The study also emphasizes the importance of proper usage of dictionaries in the translation process and paying appropriate attention to the language and style issues.

The aim of the article is to understand which problems could be connected with the translation of phraseological units, and how to translate phraseological units. The world of Modern English phraseological expressions is so grand and various that every aspect of its study is worth of regard.

Ключевые слова: фразеологические единицы, теория перевода, лингвистика, фразеологические эквиваленты.

Салманова Гюльтекин Азим

Взаимный перевод фразеологических единиц в Английском и Азербайджанском языках

Резюме

В статье рассматриваются важные пути и способы перевода фразеологических единиц из исходного языка в целевые. Перевод английских фраз на азербайджанский язык - очень сложная и ответственная задача. Эти трудности возникают из-за различия между английским языком и грамматической структурой азербайджанского языка. Для правильного и без ошибок перевода , сохраняя свою оригинальность, английской фразеологии на азербайджанский язык, переводчик должен правильно использовать методы перевода, не отвлекаться от контекста литературного произведения, знать язык людей и их национальную самобытность и ответить к требованием данного языка. Национальные и культурные особенности, которые являются частью фразеологизма, часто становятся сложными при переводе с переносного, оригинального на аналогичный язык. Фразеологическая картина мира, происходящая в сознании одного языкового сообщества, не всегда совпадает с отношением другого сообщества. Что бы найти общий вариант понимания в случае общения разных культур, переводчик прибегает к методам описательной интерпретации, систематизация которого является задачей этой статьи. В данной статье также подчеркивается значение мнений переводчика при переводе. В исследовании также подчеркивается важность правильного использования словаря в процессе перевода и уделять должного внимания к вопросам языка и стиля. Цель статьи - понять, какие проблемы могут быть связаны с переводом фразеологических единиц и как перевести фразеологические единицы. Мир современных английских фразеологических выражений настолько грандиозен и разнообразен, что каждый аспект его исследования заслуживает должного внимания.

Key words: phraseological units ,theory of translation, linguistics, phraseological equivalents

Redaksiyaya daxil olma tarixi: 20.10.2019
Çapa qəbul olunma tarixi: 01.012020
Filologiya üzrə fəlsəfə doktoru, dosent .Firuzə Kərimova tərəfindən çapa tövsiyə olunmuşdur

ÜLVİ TAĞIZADƏ
Lənkəran Dövlət Universiteti
H.Aslanov, Lənkəran
ulvi.tagizade96gmail.com

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN OMONİMLİYİNİN TƏDRİSİ ÜSULLARI

Xülasə

Azərbaycan dilində köməkçi nitq hissələrinin tədrisi tarixi bütün mərhələlərdə nəzərdən keçirilmişdir. Köməkçi nitq hissələrinin təsnifi prinsipi ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif cür təsnif olunmuşdur. Biz isə burada orta məktəb dərsliklərinə əsaslanaraq köməkçi nitq hissələrinin tədrisindən danışarkən 5 nitq hissəsinin-qoşma, bağlayıcı, ədat, modal sözləri və nidanın tədrisindən bəhs etmişik. Məqalədə köməkçi nitq hissələrinin omonimliyindən bəhs olunur. Son zamanlarda orta məktəblərdə tədrisin fəal-interaktiv üsulla aparılması bu mövzunun müasir aspektdə və müasir təlim üsul və formaları ilə tədrisini ön mövqeyə çəkir. Hal-hazırda dünya dilçiliyində, həm də Azaərbaycan dilçiliyində xüsusi diqqətçəkən məsələlərdən biri də polifunksionallıqdır. Polifunksionallıq müəyyən bir nitq hissəsinə aid bir sözün həm də digər nitq hissəsi kimi çıxış etməsidir. Bu məsələ hər bir dilin daxili qanun və qanunauyğunluqları ilə əlaqədar prosesdir.

Məsələn: "tək" sözü nitq hissəsinə görə sifət olsa da, zərf və qoşmanın yerində işlənərək onların funksiyasını daşıya bilir. Dilimizdə bir neçə söz vardır ki, onlar müxtəlif qrammatik funksiya və məna daşıyır. Şagirdlər bu sözlərin hansı nitq hissəsinə aid olduğunu təyin etməkdə çətinlik çəkirlər. Belə sözləri müəllim əvvəlcədən müəyyənləşdirməli və onları müqayisəli şəkildə izah etməlidir. Orta məktəblərdə sinifklər üzrə "metodik vəsaitlərdə" daha çox mətnlər üzrə işlərin tədrisinə geniş yer verilib. Qrammatika dərslərində motivasiya qurmaq, tədqiqat aparmaqda, dərslərin fəal şəkildə qurulmasında müəllimlər çətinliklərlə üzləşir. Məhz bu cəhətdən köməkçi nitq hissələrinin omonimliyi mövzusunun fəal üsullarla tədrisi aktual mövzulardandır.

Açar sözlər: polifunksionallıq, omonimlik, qoşma, bağlayıcı, ədat, modal sözlər, nida

Milli təhsil sistemində baş verən təkamül Azərbaycan dili təliminin məzmununda müəyyən dərəcədə dəyişmələrlə hiss olunur. Bu dəyişmələr ana dilimizin tədrisi üzrə araşdırmaların sferasının genişlənməsini zəruriləşdirir. Bu baxımdan köməkçi nitq hissələrinin öyrənilməsi dil təliminin çox vacib və mühüm tərkib hissələrindən birinə çevrilir.

Azərbaycan dilində köməkçi nitq hissələrinin tədrisi tarixi bütün mərhələlərdə bu və ya digər dərəcədə nəzərdən keçirilmişdir, onların həm nitq hissələri içərisində, həm də dilin qrammatik sistemində rolu müəyyənləşdirilmişdir. "Bütün dillərdə olduğu kimi türk dillərində də köməkçi nitq hissələri tarixən müstəqil mənalı sözlər olmuş, dilin keçdiyi tarixi inkişaf mərhələlərində öz müstəqilliklərini ya qismən və ya da tamamilə itirərək köməkçi vəzifə kəsb etmişdir."(6, 393)

Orta məktəb dərsliklərində qoşma, ədat, modal sözlər və nida köməkçi nitq hissəsi kimi tədris olunur.

Ali məktəb dərsliklərində nida, modal sözlər və təqlidi sözlər xüsusi nitq hissəsi qrupuna aid edilir.

B.Xəlilov "Müasir Azərbaycan dilinin morfologiyası" kitabında nitq hissələrini üç yerə bölür: 1. Əsas nitq hissələri; 2. Köməkçi nitq hissələri; 3. Xüsusi nitq hissəsi." (3,144)

Bütün bunlara baxmayaraq, biz orta məktəb dərsliklərinə əsaslanaraq "Köməkçi nitq hissələrinin omonimliyi" mövzusunda 5 köməkçi nitq hissəsinin tədrisindən bəhs edəcəyik.

Təlim prosesi şagirdə fəallığı, məntiqi düşünməyi, ətrafdakı şeylərə və hadisələrə tənqidi yanaşmağı, müstəqil bilik almağı və fərdi inkişaf etmək bacarığını tərbiyə etməlidir. Bu tələbləri nəzərə alaraq elə təlim metodlarından istifadə olunmalıdır ki, onlar özlərində aktiv, yaradıcı düşünmə qabiliyyətini və yeni biliklərə sərbəst yiyələnməyi aşılama yollarını birləşdirmiş olsunlar.

Son zamanlar təhsil sistemimizdə istifadə olunan fəal/interaktiv təlim bu deyilənləri əhatə etmək imkanına malikdir. İnteraktiv təlim müəllim və şagirdlərin qarşılıqlı əlaqəsi, ünsiyyət prosesidir. Bu zaman müəllim tərəfindən problem qoyulur, problemin həll olunması prosesində şagirdlər aktiv, tədqiqatçı mövqeyi tuturlar.

Müəllimin əsas vəzifəsi şagirdlərə yol göstərmək, istiqamət vermək, müəyyən çətinliklər ortaya çıxarsa, onlara yardımçı olmaq, ən başlıcası isə "öyrənməyi öyrətməkdir". Bu təlim üsul və formalarından Azərbaycan dili təlimində də istifadə etməyin böyük idraki əhəmiyyəti vardır.

Azərbaycan dilinin tədrisi zamanı, xüsusilə omonimlik təşkil edən sözlərin fərqləndirilməsi zamanı şagirdlər müəyyən çətinliklərlə üzləşirlər, belə ki, sözügedən mövzuda bu gün nəinki şagirdlər, hətta bəzi yetkin fərdlər də çətinlik çəkməkdədirlər. Eyni sözün həm qoşma, həm bağlayıcı, həm ədat, həm şəkilçi, həm də əsas nitq hissəsi olması onun öyrənilməsinin, düzgün şəkildə və yerində işlədilməsini və düzgün yazılmasını çətinləşdirir və bu məsələ qrammatikamızın ən vacib problemlərindən biri hesab olunur. "Hal-hazırda dünya dilçiliyində, o cümlədən Azərbaycan dilçiliyində xüsusi diqqətçəkən məsələlərdən biri də polifunksionallıqdır. Bu məsələ hər bir dilin daxili qanun və qanunauyğunluqları ilə əlaqədar olan prosesdir. Polifunksionallıq müəyyən bir nitq hissəsinə aid sözün həm də digər nitq hissəsi kimi çıxış etməsidir. Məsələn, "yaxşı" sözü nitq hissəsinə görə sifət olsa da, isim və zərfin yerində işlənərək onların funksiyasını daşıya bilir.

Həmin proses dilçilikdə konversiya adlanır. Konversiya həm əsas, həm də köməkçi nitq hissələri arasında baş verir. Bunu köməkçi nitq hissələri arasında daha aydın şəkildə müşahidə etmək olur. Məsələn, da, də, ki və s. həm bağlayıcı, həm də ədat kimi işlənir və onların yaratdıqları qrammatik mənaları yaxındır." (5, 55)

"Dilimizdə bir neçə söz vardır ki, onları müxtəlif qrammatik funksiya və məna daşıyır. Şagirdlər bu sözlərin hansı köməkçi nitq hissəsinə aid olduğunu təyin etməkdə çətinlik çəkirlər. Dilimizdə bir neçə söz vardır ki, onlar müxtəlif qrammatik funksiya və məna daşıyır. Şagirdlər bu sözlərin hansı köməkçi nitq hissəsinə aid olduğunu təyin etməkdə çətinlik çəkirlər. Belə sözləri müəllim əvvəlcədən müəyyənləşdirməli və onları müqayisəli şəkildə izah etməlidir." (1, 219.)

Orta məktəbdə müəllimlər üçün "Metodik vəsait" kitabında köməkçi nitq hissələrinin omonimliyi mövzusunda motivasiyanı aşağıdakı kimi qurmaq məsləhət görülür.

"Oxunmuş mətndəki cümlədə (***Belə*** bir uşağın gələcəkdə böyük alim olacağı heç kəsin ağlına ***belə*** gəlmirdi.) Qara rənglə verilmiş sözlərə sual verməklə həmin sözlərin əsas və köməkçi nitq hissəsi olduğunu müəyyənləşdirmək tələb olunur.(4,139)

Köməkçi nitq hissələrin tədrisinə və onların omonimliyi mövzusuna bir çox tədrisi metodika kitablarında toxunulmuşdur. Bu mövzunun müasir fəal –interaktiv üsul və formalardan istifadə edərək tədrisi bir az çətinliklər törədir. Çünki orta məktəb metodik vəsaitlərində daha çox mətnlər üzrə işlərin tədrisinə geniş yer verilib, qrammatika dərslərində motivasiya qurmağı, tədqiqat aparmaqda, dərsləri fəal şəkildə qurmaqda müəllimlər çətinliklərlə üzləşirlər. Məhz bu cəhətdən "Köməkçi nitq hissələrinin omonimliyi" mövzunun fəal üsullarla tədrisi aktual mövzulardandır. "Köməkçi nitq hissələrinin omonimliyi" mövzusunun tədrisi müasir təlimdə motivasiya mərhələsi ilə başlayır. Bu mövzuda motivasiyanı aşağıdakı şəkildə qurmaq məqsədəuyğun sayılır: Əvvəl şagirdlərə yönəldici suallar verilməklə;

"Uşaqlar siz aşağı siniflərdə omonim keçmisiniz, omonim nəyə deyilir? Kim omonimliyə aid nümunələr deyə bilər? Omonimlərin çoxmənalı sözlərdən fərqi nədədir? Məsələn: qol, top, sarı, tərəf sözlərini omonim kimi kim ifadə edə bilər? " şagirdlər öz fikirlərini bildirir və qeyd olunur. Sonra müəllim sinfə müraciət edir: Köməkçi nitq hissələrini öyrənən zaman hansı sözlərlə rastlaşdız ki, həm də digər nitq hissəsi kimi işlənsin? Kim nümunə göstərə bilər? Şagirdlər nümunə göstərirlər, məsələn: doğru, qabaq, tək, ilə, -ca[2], bax, gəl, qoy, artıq, bir, çox və s.

Sonra müəllim cümlələrdən ibarət nümunələri lövhədə göstərməklə:

1. Elə adam tanımıram. Elə mən də onu tanımıram.
2. Dünəndən bəri külək əsir. Bəri gəl, görüm nə deyirsən?!
3. Sən nə düşünürsən? Nə qəşəng havadır!

Daha sonra müəllim şagirdlərə bu nümunələrdəki altından xətt çəkilməli sözlərin hansı nitq hissəsinə aid olduğunu göstərməyi tapşırır. Şagirdlər bunları ayırd edir-

lər. Müəllim şagirdlərə: "sizcə bunların bizim mövzumuzla nə əlaqəsi var? Mövzumuzun adını kim deyə bilər?- deyə yönəldici suallarla müraciət edir. Şagirdlər mövzunun köməkçi nitq hissələrinin omonimliyi olduğunu qeyd edirlər və lövhəyə yazırlar.

Bundan sonra dərslikdən nəzəri məlumatlar mənimsədilir. Müəllim əsas və köməkçi nitq hissələrinin omonimlik yaratdığını qeyd edir, onları fərqləndirərkən köməkçi nitq hissələri heç bir suala cavab vermədiyini və cümlə üzvü olmadığını vurğulayır. Köməkçi nitq hissələrinin təkcə əsas nitq hissələri ilə deyil, həm də köməkçi nitq hissələrinin özləri ilə də omonimlik yaratdığı məqamı da qeyd olunur və müəllim bunların asan yolla fərqləndirmə qaydaları əsasında şagirdlərə aydınlaşdırır.

Müəllim əvvəlcə hər köməkçi nitq hissəsinə aid omonim sözləri qeyd edir və sonra onların bir-bir fərqləndirmə yollarını göstərir. Bu mövzuda təkcə köməkçi və əsas nitq hissələrinin omonimliyi deyil, köməkçi nitq hissələri ilə şəkilçilərin omonimliyindən bəhs olunur. Şagirdlərə aydın və anlaşıqlı şəkildə izah olunur. Qoşmalarda omonim kimi işlənən sözlər: tərəf, tək, sarı, əvvəl, doğru, özgə, qabaq, qarşı, kimi, sonra, əsasən, bəri və s. Bağlayıcılarda omonim kimi işlənən sözlər: *ki, da/də, amma, ancaq, ilə, hətta, yoxsa, yəni, nə* sözləri həm bağlayıcı, həm ədat kimi "nə" sözü sual əvəzliyi, ədat və inkar bağlayıcısı kimi. Ədatlarda omonim sözlər: *Elə, belə, necə, nə* sözləri ədat və əvəzlik kimi; *yalnız* və *tək* sözləri ədat, sifət, say və zərf kimi. Bir, bircə say və ədat kimi. Məsələn:

Artıq, yaman, düz, əsl sözləri həm ədat, həm sifət, həm də zərf kimi;

Bax, gör, gəl, gəlin, qoy, qoyun sözləri həm ədat, həm də feil kimi;

Yoxsa, ki, da/də, ancaq, hətta sözləri həm ədat, həm də bağlayıcı kimi.

Modal sözlərdə omonim sözlər: görəsən, yaxşı, demək, təəssüf, sözsüz, olmaya, doğrudur, məncə.

Bütün köməkçi nitq hissələri kimi bəzi nidalar da digər nitq hissələri ilə qrammatik omonimlik yarada bilir. Məsələn, ay, ox, oy, ax, vay və s.

Nidalarda omonimlik şərtidir.

Yuxarıda köməkçi nitq hissələrinin omonimliyi kimi işlənən sözləri fərqləndirmə yolları şagirdlərə izah olunmalıdır.

1. İlə- həm qoşma, həm bağlayıcı, həm də zərf düzəldən şəkilçi (-la, -lə) kimi işlədilir. Bunları qarışdırmamaq üçün aşağıdakı qaydalara riayət olunmalıdır.

Zərf düzəldən şəkilçi kimi işlənən ilə *(-la[2]) necə?* sualına cavab verir. Ilə köməkçi sözün ixtisarı kimi işlənən söz isə *nə ilə?* sualına cavab verir.

Həsən bu işi həvəslə yerinə yetirirdi.

Ən çox şikayət olunan məsələ mənim surətlə danışmağımdır.

2. İlə -qoşma kimi-Əgər ilənin yerinə birgə, vasitəsilə sözünü işlədə biliriksə, bu zaman o, qoşmadır.

Atamla gedirəm.- Atamla birgə gedirəm.

Maşınla gedirəm.- Maşın vasitəsilə gedirəm.

3. Əgər ilə-nin yerinə və qoya biliriksə, bağlayıcı olur.

Atamla mən gedirəm. Atam və mən gedirəm.

Lakin burada iki istisna məqam vardır:

1. Əgər ilə-dən sonra vergül qoyulursa, onu və ilə əvəz edə bilsək də, qoşma kimi götürülür.

Sən qarşıladın məni duzla, çörəklə. –burada duz və çörəklə deyə bilsək də, ilə-qoşmadır.

2. Həmin sözlərdən sonra xəbər təkdə olarsa, ilə-və ilə əvəz olunsa belə, qoşma götürürük.

-Əli ilə Vəli ilə gedir.-qoşma

- Əli ilə Vəli gedirlər.- bağlayıcı

Da[2] –dörd vəzifədə işlənir. Zərf düzəldən şəkilçi, bağlayıcı, ədat və yerlik hal şəkilçisi kimi:

1. Zərf düzəldən şəkilçi kimi: *Gündə bizə gəlir.*

2. Yerlik hal şəkilçisi kimi kimdə? nədə? harada? sualına cavab verir: Evdə bütün tapşırıqlarını yerinə yetirdi.

Yerlik hal və zərf düzəldən şəkilçi kimi sözə bitişik yazılır.

3. Özündən əvvəl başqa şəxsi və ya əşyanı qoya biliriksə, bağlayıcı olur: Sən də gedəcəksən. (Yəni Əli, Həsən, Hüseyn gedib sən də gedəcəksən.)

4. Xəbərdən sonra gəlirsə, ədatdır: *Dərsi pozma da*

Hətta sözü həm ədat, həm də bağlayıcı kimi işlədilir.

1. Həmcins üzvlərdən sonra gələrsə, hətta bağlayıcı olacaqdır. *Nigar, Elvin hətta Nurlan da cavab verirdi.*

Həmcins üzvlər mütləq cümlədə olmalıdır. Əgər cümlədə olmasa, fikirləşmək olsa belə, biz ədat götürəcəyik. Məsələn: *Hətta Nurlan da cavab verdi*.

Ancaq bağlayıcısının yerinə amma qoyuruqsa, bağlayıcı, yalnız qoyuruqsa ədat olur:

Ancaq sən mənə kömək edə bilərsən.-ədat

Sən bunu bildin, ancaq özünü bilməməzliyə qoydun.-bağlayıcı

Elə cümlələr də olur ki, həm bağlayıcı, həm də ədat kimi düşünmək olur. Məsələn: *Mən danışdım, ancaq (amma, yalnız) sən dinləmədin.*

-ki-sifət və isim düzəldən şəkilçi kimi işlənir. Sifət kimi-*səninki,* ismin yiyəlik halından sonra gələrsə, isim olacaq. Digər hallarda bitişik yazılarsa, sifətdir.

Ki-feili və ismi xəbərdən sonra gələrsə, bağlayıcıdır:

Feili xəbər +ki – *Bilir ki, sonumuz gözəldir.*

İsmi xəbər+ ki – *Bizə aydındır ki, ən gözəl mübarizə dinc yolla olur.*

Ki-şəxs adları və əvəzliklərdən sonra işlənərsə, ədatdır.

Biz ki müəllim olacaq cəmiyyətin xilaskarıyıq, bizi niyə döyürsünüz?

Vasif ki belə oğlan deyildi.

Nitq hissələrinin omonimliyinin sxemlərlə izahı:

Qoşmaların omonimliyi:

İsim-Bu tərəf meşəlikdir.

Qoşma- Evə tərəf gedirəm.



Sifət: Artıq tamah baş yarar.
Zərf: Bütün günü tək işləmişlər.

Ədat: Artıq burda qala bilmirəm.

Ədatlar öz aralarında da omonimlik təşkil edir, yəni eyni ədat bir neçə məna növündə işlənir:

1. Ondan xəbər var ki? (sual ədatı) Uşaq ki dərslərinə hazırdır. (qüvvətləndirici ədat)
2. Gəl də! (əmr ədatı) Gəlirəm də! (qüvvətləndirici ədat)
3. Tez gəl ha. (əmr ədatı) Anana deyərəm ha. (qüvvətləndirici ədat)

Modal sözlərdə omonimlik yaradan sözlərin izahı: Qeyd etmək lazımdır ki, digər nitq hissələrində olduğu kimi, öyrədiyimiz modal sözlərin əksəriyyəti əsas nitq hissələri ilə qrammatik omonimlik xüsusiyyətinə malikdir. Qrammatik təhlil zamanı belə sözlər də dolaşıqlıq yaranmaması üçün onların cümlədə işlənmə vəziyyətinə, daha dəqiq desək, modallıq xüsusiyyəti olub-olmamasına, intonasiyasına və vurğusuna diqqət yetirmək lazımdır.

Qrammatik omonimlik yaradan modal sözlər də vardır: Əgər söz modal söz kimi işlənilibsə fikirə münasibət bildirir və heç bir suala cavab vermir. Əsas nitq hissəsi kimi işlənilibsə, həmin nitq hissəsinə aid suala cavab verir və həmin nitq hissəsinin digər morfoloji xüsusiyyətlərini qəbul edir. Modal sözlər həm də digər nitq hissələrindən vergüllə ayrılır. Əgər modal sözlər sözün əvvəlində gəlirsə ondan sonra, ortada gəlirsə, hər iki tərəfində, sonda gələrsə ondan əvvəl vergül qoyulur. Məsələn:



Modal söz: Yaxşı, get qara xəbər ver, amma tez qayıt.
Sifət: Yaxşı yuxu görər rahat uyuyar.
Zərf: Kərimin gözü də yaxşı görmür.
Modal söz: Görünür, yaxşı insanlara çox ehtiyacım var.
Fel: Gözüm aydın, gözümə surəti-canan görünür.

Nidalarda omonimlik. Bütün köməkçi nitq hissələri kimi bəzi nidalar da digər nitq hissələri ilə qrammatik omonimlik yarada bilir.



Nida: Sən ol mənim qismətim, ay gecikən məhəbbətim.
İsim: Ay yuvarlanıb, yuxarı qalxmışdı.
Nida: Ox, kimlər gəldi, kimlər getdi bu dünyadan.

İsim: Ox yaydan çıxdı geri dönməz.

Nidalarda başqa nitq hissələri ilə omonim, bir qayda olaraq mütləq deyil, şərtidir. Müəllim tərəfində bu izahatlar verildikdən sonra şagirdlər müəyyən qruplara bölür. Hər birinə tapşırıqlar verərək şagirdlərin biliyini müəllimin bilavasitə rolu olmadan öyrədilməsinə şərait yaradılır.

Kartoçka № 1

Qoşma	Əsas nitq hissəsi
A	B

1. A) Onun kimi rejissor az tapılar.
B) Mən qadından kimi istədiyini soruşdum.
2. A) Yaxşı götür-qoy edib sonra işə başladı.
B) Tamaşadan sonra qızğın mübarizə başladı.
3. A) Zabit üzünü əsgərə tərəf çevirib nə isə dedi.
B) Qarşı tərəf məğlubiyyəti ilə barışmalı olacaq.
4. A) Qabaq belə şeylər məni narahat etməzdi.
B) Bu hadisə müharibədən çox-çox qabaq olub.

Kartoçka № 2

Fərqləndirilmiş sözlərin mətndəki yerinə görə bağlayıcı və ya ədat olduğunu müəyyənləşdirin.

1. Qoyma öz qanına boyana ceyran,
Nə gözə yaraşır Muğana ceyran. (S.Vurğun)
Hələ sən çox gəncsən, nə müharibələr görmüsən, nə də qalalar fəth etmisən.(M.Sord)
2. Yəni bu tanıdığımız xanların hamısının dədə-babaları xan olmuşdur? (Y.V.Çəmənzəminli)
Həqiqətdən uzaq insanda, yəni beyni qapalı, kar, kor insanda kin, ədavət hissi güclü olur.

Kartoçka № 3

Verilmiş cümlələrdə altından xətt çəkilmiş sözlərin modal söz, yoxsa başqa nitq hissəsi olduğunu müəyyənləşdirin.

1. Sözü gərək vaxtında deyəsən.
2. Mənəvi saflıq, doğrudan, ən böyük sərvətdir.
3. Məncə, sən də uğur qazanacaqsan.
4. Təəssüf dolu baxışları üzümə zilləndi.
5. Görünür, məni unutmusan.

Şagirdlər qruplar formasında tapşırığı yerinə yetirirlər. Tapşırıq yerinə yetirildikdən sonra məlumatın mübadiləsi və müzakirəsi aparılır, doğru və yalnış olan məqamlar qeyd olunur və müəllim tərəfindən aydın şəkildə izahatlar verilir.

Bundan sonra müəllim mövzunun şagirdlər tərəfindən nə dərəcədə başa düşüldüyünü bilmək üçün yaradıcı tətbiqetmə tapşırıqları həyata keçirir:

Aşağıdakı sözləri (omonim) köməkçi nitq hissəsi kimi cümlədə işlədin.

Bax, gəl, tək, artıq, da, ki, ilə, əvvəl, sonra, amma, düzü, təəssüf, birincisi, deməli və s.

Şagirdlər bu sözləri qruplar şəklində həm əsas, həm köməkçi, həm də şəkilçi mövqeyində işlədilir. Bundan sonra təqdimatlarını edirlər. Bu mərhələdən sonra müəllim şagirdləri əvvəlcədən qeyd etdiyi meyarlar əsasında obyektiv şəkildə qiymətləndirir. Qiymətləndirmə şagirdləri fəal dərslərə daha da həvəsləndirir və onlara stimul verir.

Ədəbiyyat:

1. Balıyev H.B., Balıyev A.H. “Azərbaycan dilinin tədrisi metodikası”, Bakı, 2014
2. Bəşirov K., Mehralıyeva B. “Orta məktəblərdə Azərbaycan dili morfologiyasının tədrisi məsələləri”, Bakı, 2018
3. Xəlilov B., “Müasir Azərbaycan dilinin morfologiyası”, I hissə, Bakı, 2016
4. Rüstəmov A. , Allahverdi H., Cəfərova D., Məmmədova S. “Azərbaycan dili” 7-ci sinif metodik vəsait, Bakı, 2018
5. Rüstəmova Q. “Köməkçi nitq hissələrinin tədrisi”, dərs vəsaiti, Bakı, 2013
6. Zeynalov F. “Müasir türk dillərində köməkçi nitq hissələri, Bakı, 1971

У.Тагизаде

Методы обучения омонимии в структурных частях речи

Резюме

История структурных частей речи на Азербайджанском языке обсуждалась на всех этапах. Принцип категоризации частей речи был классифицирован по-разному некоторыми авторами. И здесь мы говорим о преподавании структурных частей речи на основе школьных учебников, и мы говорим о преподавании 5 частей речи - послеслог, союз, частица, модальные слова, междометие. Статья посвящена омонимии структурных частей речи. В последнее время использование интерактивных методов обучения в средних школах поставило преподавание этого предмета в современный аспект и с современными методами и формами обучения. Одним из наиболее примечательных вопросов в мировой лингвистике и лингвистики Азербайджанского языке на данный момент является полифункциональность. Полифункциональность - это слово, относиться определенной части речи, также может выступать как слово другой части речи. Это процесс, связанный с внутренними правилами и законами каждого языка. Например: слово «tək» на Азербайджанского языке прилагательное с точки зрения речи, но оно может нести функцию наречия и послеслога. В нашем языке есть несколько слов, которые имеют разные грамматические функции и значения. Студентам трудно определить, к какой части речи они относятся. Учитель должен заранее определить эти слова и сравнить их. В общеобразовательных школах «методическое пособие» больше ориентированы на работу с текстами. Преподаватели сталкиваются с трудностыми в мотивации, проведении исследований и организации учебного процесса на уроках грамматики. С этой точки зрения преподавание посредством активных методов омонимии в структурных частях речи является одной из актуальных тем

Ключевые слова: полифункциональность, омонимия, послеслог, союз, частица, модальные слова, междометие

U.Taghizadeh

The Teaching Methods of homonymy in Structural Parts of Speech

Summary

The history of teaching structural parts of speech in the Azerbaijani language has been reviewed at all stages. The principle of categorization of the structural parts of speech has been classified differently by some authors. And here we are talking about the teaching of structural parts of speech based on high school textbooks, and we have talked about the teaching of 5 parts of speech - postposition , conjunction, particle, modal words, interjection. The article deals with the homonymy of the structural parts of speech. Recently, teaching through interactive methods in secondary schools has put the teaching of this subject in the contemporary aspect and with modern teaching methods and forms. One of the most noteworthy issues in world linguistics and Azerbaijani linguistics at the moment is polyfunctionality. Polyfunctionality is that a word belonging to a particular part of the speech can also act as a part of another. This is a process related to the internal rules and laws of each language. For example: the word "tək" is an adjective in terms of speech, but it can carry the function of the adverb and posposition. There are several words in our language that have different grammatical functions and meanings. Students find it difficult to determine which part of the speech they refer to. The teacher should identify these words in advance and explain them comparativly. In secondary schools, "teacher's books" are more focused on the work with texts. Teachers face difficulties in motivating, conducting research, and organizing teaching process actively in grammar lessons. From this point of view, teaching through active methods of the homonymy in the structural parts of the speech is one of the actual topics.

Keywords: polyfunctionality, homonymy, postposition , conjunction, particle, modal words, interjection

Redaksiyaya daxil olma tarixi: 20.10.2019
Çapa qəbul olunma tarixi: 01.01.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Könül Dənziyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏHANƏ YAQUBLU
Bakı Dövlət Universiteti
Zahid Xəlil küç
sehane.yaqublu@gmail.com

MƏHDUD DAİRƏDƏ İŞLƏNƏN SÖZLƏRİN SƏRHƏDLƏRİNİN TƏYİN EDİLMƏSİ

Xülasə

Məqalə dilimizdəki bir qrup sözlərin məhdud şəkildə işlənməsi məsələsinə həsr olunub. Dilçilik sahəsində bu barədə bir sıra araşdırmalar aparmışlar. Biz məqalədə Səlim Cəfərovun, Həsrət Həsənovun, Afad Qurbanovun sözlərin işlədilməsi ilə bağlı yazdıqları nəzəri fikirləri əsas götürmüşük. Nəzəri fikirlərin əksəriyyətində məhdud dairədə işlənən sözlər müxtəlif bölgülərin daxilində qeyd olunmuşdur. Məqalədə müxtəlif bölgülərin daxilində verilən həmin sözləri bir bölgü daxilində qeyd etməyə çalışmışıq. Belə ki, sözlərin aktiv və passiv işlənməsi, milli və alınma olması, loru- saya danışıq olub- olmaması və s. ilə bağlı bölgülərin daxilində olan sözlərin bir çoxu məhdud dairədə işlənən sözlərdir. Sözlərin işlənməsində olan məhdudluq özünü müxtəlif cəhətdən göstərir. Ərazi baxımından məhdud dairədə işlənən sözlər. Bu qrupa ayrı- ayrı bölgələrdə işlədilən dialekt sözlər daxildir. Bəzi sözlər yalnız bu və ya digər elm sahəsi və peşə ilə bağlı məhdud şəkildə işlənir. Terminlər, peşə- sənət sözləri, hərbi leksika, idman leksikası, ictimai- sisyasi lekskia müəyyən elm, texnika, peşə sahəsi ilə bağlı olduğu üçün bu qrupa daxil olunur. Arqo və jarqonlar isə müəyyən sosial və ictimai qruplar tərəfindən məhdud istifadə olunur və anlaşılır. Bu sözlər məhdud istifadə olunmasına baxmayaraq sosial qrupların dilində aktiv istifadə olunur. Vulqarizmlər, kobud sözlər, söyüşlər də müyyən situasiya və psixoloji vəziyyətlə əlaqədar məhdud şəkildə və passiv istifadə olunur. Ümumişlək sözlər hər zaman, ümumişlək sözlərə daxil olmayan digər sözlər isə müəyyən ərazidə, sahədə aktiv istifadə olunduğu halda köhnəlmiş sözlər və yeni sözlər hər zaman passiv istifadə olunur. Neologizm və köhnəlmiş sözlərin işlənməsində olan məhdudluq onların passiv istifadə olunmasındadır. Dilimizdə işlənən alınma sözlərin bir qismi ümumişlək sözlər sırasına keçsə də, bir qismi məhdud şəkildə işlənir. Bu sözlər ekzotik sözlər və varvarizmlərdir. Bunların bəzisi lüğətlərdə qeyd olunsa da, bir qismi yalnız şifahi nitqdə istifadə olunur və lüğətlərdə verilmir.

Açar sözlər: məhdudluq, söz, bölgü, lüğət, aktiv, passiv

Məhdud dairədə işlənən sözlərin sərhədlərinin təyin edilməsi

Leksikologiyanın vəzifəsi dilin müasir vəziyyətini və tarixi inkişaf prosesini, lüğət tərkibini, onun tarixən dəyişməsi və zənginləşməsi amillərini, sözlərin mənbəyi və işlədilmə sahəsini, aktiv və passiv işlənməsini, istifadəolunma dairəsini və emosional- ekspressiv çalarlarını sistem şəklində araşdırmaqdır. Azərbaycan dilinin bütün lekisk ehtiyyatını bilmək üçün ədəbi dili, bütün elmlərin xüsusi terminoloji leksikasını, dialektlərinin hamısını, bütün jarqonları və s. bilmək, mənimsəmək və anlamaq lazımdır. Şübhəsiz ki, bu mümkün deyildir. (3, s178).

Professor Həsrət Həsənovun da qeyd etdiyi kimi Azərbaycan dilində danışanların hamısı eyni biliyə, dünyagörüşünə, eyni mühitə, iş şəraitinə, təhsilə malik deyildirlər. Məhz buna görə də insanların ümumi söz ehtiyyatı eyni olmaycaqdır.

Sözlərin çoxsahəli olmasına görə dilin lüğət tərkibi iki hissəyə ayrılır:

1) Lüğət təkibinin əsas hissəsi (əsas lüğət fondu)
2) Lüğət tərkbinin əlavə hissəsi

Dilin əsas lüğət fondu ilə əlavə hissəsi bir- birindən işlənmə tezliyinə, yəni aktiv və passivliyinə, davamlılığına, məhdud və geniş dairədə işlənməsinə və başqa xüsusiyytələrinə görə fərqlənir. Dilin əsas lüğət fonduna daxil olan sözlər həyat üçün zəruri əşyaların, hadisələrin adlarını bildirir, ümumxalq səciyyəsi daşıyır, davamlı olur, yəni dəyişikliyə gec və az uğrayır, geniş dairədə işlənir, hər kəs tərəfindən istifadə olunur və anlaşılır. Lüğət tərkibinin əlavə hissəsinə daxil olan sözlər isə ümumxalq səciyyəsi daşımır, tez- tez dəyişikliklər baş verir, məhdud dairədə işlənən sözlər çoxluq təşkil edir və sözlərin kəmiyyətinə görə əsas hissədən daha çoxdur, hər zaman hər yerdə və hər kəs tərəfindən istifadə olunmur və anlaşılma cəhətdən çətinlik törədir. Dilin əsas lüğət fonduna ümumişlək sözlər daxildir. Əlavə hissəyə isə ümumişlək olmayan sözlər: terminlər, dialektlər, jarqon və arqolar, peşə-sənət sözləri, yeni sözlər, köhnəlmiş sözlər və s. aiddir. Əsas lüğət fonduna daxil olan ümumişlək sözlərin işlənməsində heç bir məhdudiyyət, sərhəd yoxdur, çünki ümumişlək sözlər lüğət tərkibinin əsasını, özülünü təşkil edir, insan fəaliyyətinin bütün sahələrində istifadə olunur, ən zəruri anlayışları ifadə edir, hamı tərəfindən anlaşılır və istifadə olunur. Ümumişlək sözlər ədəbi dilə daxil olan, həm şifahi, həm də yazılı dildə işlənən sözlərdir, həmçinin bu sözlərdən aktiv şəkildə istifadə olunur. Bütün filoloji lüğətlərdə ümumişlək sözlər əks olunur, əsasən hər bir azərbaycanlı tərəfindən eyni dərəcədə işlədilir və eyni mənada anlaşılır. Lüğət tərkibinin əsas fonduna, ümumişlək sözlərə daxil olmayan sözlərin işlədilməsində isə müəyyən sərhəd, məhdudiyyət var. Bu məhdudiyyət müxtəlif cəhətdən özünü göstərir.

Leksikaya aid yazılan nəzəri fikirlərin əksəriyyətində sözlər bir neçə cəhət üzrə qruplaşdırılır: sözlərin işlədilmə dairəsinə görə, aktiv və passiv işlənməsinə, mənşəyinə görə və s. Dilçi alim S. Cəfərov lüğət tərkibində olan sözlərin işlədilməsi baxımından müasir Azərbaycan dilinin leksikasını belə qruplaşdırır: dialekt leksikası, peşə- sənət leksikası, terminoloji leksika, jarqon leksikası və arqotizmlər. (2, s

70). Bu haqda yazan digər dilçi alim Həsrət Həsənov isə işlədilmə dairəsinə görə dilimizin leksikasını üç qrupa bölür:

1) ümumişlək sözlər (hamı tərəfindən işlədilən sözlər),

2) məhdud dairədə müəyyən kollektiv və ya ictimai qruplar tərəfindən işlədilən sözlər,

3) xüsusi leksika.

Məhdud dairədə işlənən sözlər ərazi və ictimai cəhətdən ayrılan müəyyən qrup adamlar, müəyyən kollektiv tərəfindən işlədilən sözlərdir. Müəllif məhdud dairədə işlədilən sözlərə yalnız dialektizmləri aid edir. Xüsusi leksikaya terminoloji leksika, peşə- sənət leksikası, ictimai-siyasi leksika, idman leksikası, hərbi leksika, jarqon və arqo leksikasını daxildir edir. (3, s 289). A.Qurbanov isə dildə işlənən söz qruplarının bir qisminin bütün üslublarda işlənməsi, digər qisminin isə müəyyən üslubi məqsəd üçün yalnız bir üslubda işlənməsini qeyd edir, həmçinin dildə bəzi sözlərdən az, bəzi sözlərdən isə çox istifadə olumasını nəzərə alaraq leksikanı aşağıdakı söz qruplarına ayırır: ümumişlək sözlər, poetik sözlər, köhnəlmiş sözlər, neologizmlər, terminlər, dialektizmlər, loru sözlər, vulqar sözlər. (5, s 234).

Qeyd olunan bölgülərə nəzər saldıqa aydın olur ki, ümumişlək sözlərə daxil olmayan bir qrup sözlərin işlənməsində müəyyən məhdudluq, sərhəd var. Bu sözlər ümumişlək sözlər kimi hər üslubda istifadə olunmur. Sözlərin işlənməsində olan məhdudluğu bir neçə cəhətdən düşünmək olar:

1. Ərazi baxımından məhdud dairədə işlənən sözlər. Dialekt sözlər bu qrupa daxildir. Ərazi baxımından məhdudluq o deməkdir ki, müəyyən qrup sözlər yalnız məhdud bir ərazidə istifadə olunur. Dialekt sözlərin mənası müəyyən ərazidə yaşayanlara məlumdur, başqa ərazidə yaşayanlara isə aydın deyil. Bu sözlərin məhdud dairədə işlənməsinin əsas səbəblərindən biri qeyri- ədəbi dil ünsürü olmasıdır. Dialekt sözlər şifahi dildə istifadə olunur. Yazılı şəkildə yalnız bədii əsərlərin dilində rast gəlinir. Dialektizmlərdən surətin nitqini fərdiləşdirmək, hadisəni real əks etdirmək üçün istifadə olunur. Dialeket sözlərin işlənmə dairəsi məhdud olduğu üçün bədii əsərlərin də dilində dialektizmlərdən çox istifadə dili qəlizləşdirər və anlaşılmazlıq yaradar. Dialektizmlər ümumişlək sözlərdən fərqli olaraq yalnız aid olduğu ərazidə aktiv isifadə olunur.

2. Müəyyən elm, texnika, peşə- sənətlə bağlı məhdud dairədə işlənən sözlər. Terminlər, peşə- sənət sözləri, idman leksikası, hərbi leksika, ictimai- siyasi leksika əsasən aid olduğu sahə ilə bağlı işlənir. Bu sözlər dialektlərdən fərqli olaraq ədəbi dildə işlənir və yazılı dildə istifadə olunur. Terminlər və peşə- sənət sözlərinin işlənməsində əsas məhdudiyyət onların yalnız müəyyən sahə ilə bağlı olması, əsasən həmin sahənin mütəxəssisləri tərəfindən istifadə olunmasıdır. Elmi dilin leksikasında terminlər əsas spesifik vahiddir. Ümumişlək leksika hər zaman aktiv işləndiyi halda terminoloji leksika yalnız aid olduğu sahədə aktiv şəkildə istifadə olunur.

3. Sosial və ictimai cəhətdən məhdud işlənmə dairəsinə malik sözlər. Bu qrupa daxil olan sözlər arqo və jarqonlardır. Arqolardan yalnız müəyyən sosial qrup-

lara aid insanlar, peşəkarlar, müəyyən peşə adamları gizli anlaşma vasitəsi kimi istifadə edirlər. Jarqonlar isə ali zümrə arasında işlədilən əcnəbi danışıqdır. Bu sözlərin işlənməsində zaman və məkan baxımından heç bir məhdudiyyət yoxdur. Həmin sosial qrupların üzvləri istədikləri zaman, istədikləri yerdə arqo və jarqonlardan istifadə edirlər. Bu sözlərin işlənməsində məhdudiyyət ondadır ki, həmin sözləri hər kəs istifadə etmir, yalnız həmin qrupun üzvləri öz aralarında istifadə edirlər. Arqo və jarqon sözlər dil üçün zərərlidir. Bu sözlər yalnız şifahi dildə işlənir, ədəbi dildə istifadə olunmur. Bunlar hər kəs tərəfindən aktiv istifadə olunmasa da aid olduğu sosial və ictimai qruplar arasında aktiv istifadə olunur.

4. Məhdud şəkildə işlənən kobud, nəzakətsiz, təhqiredici, qeyri -ədəbi sözlər. Bu qrupa daxil olan vulqarizmlər, kobud sözlər müəyyən xarakterdə olan, kifayət dərəcədə mədəni olmayan, öz nitqinə əhəmiyyət verməyən adamların nitqində özünü göstərir. Bəzən müəyyən üslubi çalarlıq yaratmaq, insanların mənfi xüsusiyyətlərini demək, təsvir etmək, müəyyən hadisəyə etiraz etmək məqsədi ilə ədəbi dil üçün münasib olmayan söyüş, qarğış səciyyəli sözlərdən mədəni adamlar da öz nitqlərində məhdud şəkildə də olsa istifadə edirlər. Bu sözlərin işlənməsindəki məhdudiyyət müəyyən situasiya və xarakter, psixoloji vəziyyətlə bağlıdır.

5. Azərbaycan dilinin lüğət tərkibinin əsas hissəsini milli sözlər, bir qismini də alınma sözlər təşkil edir. Lüğət tərkibində olan alınma sözlərin bir qismi dilimizə xas olan qrammatik, leksik, fonetik əlamətləri mənimsəyərək dilimizin leksik sisteminə tam daxil olmuşdur. Bir sıra alınma sözlər də var ki, dilimizdə məhdud şəkildə işlənir. Bunlar ekzotizmlər və varvarizmlərdir. Ekzotik (yun. yad, özgə, əcnəbi) leksika başqa xalqların ictimai həyatının adət və məişətinin fərqli cəhətlərini təsvir etmək, spesifik milli xüsusiyyətləri ifadə etmək, yerli kolorit yaratmaq üçün istifadə olunan alınma sözlərdir. Bu səbəbdən ekzotik sözləri istifadə etmək, anlamaq üçün həmin sözlərin aid olduğu milləti, onun tarixini, məişətini, mədəniyyətini bilmək lazımdır. Aydındır ki, hər kəs eyni dünyagörüşünə malik olmadığı üçün bu mümkün deyil. Ona görə də ekzotik sözlər dilimizdə məhdud şəkildə istifadə olunur.

Varvarizmlər də məhdud dairədə işlənən alınma sözlərdir. Digər məhdud şəkildə işlənən alınma sözlərdən fərqli olaraq varvarizmlər yersiz işlənən sözlərdir. Varvarizmlərdən də bədii üslubda obrazların dilində istifadə olunur. Elm və texnikanın sürətli inkişafı insanların ünsiyyətini də asanlaşdırmış və müxtəlifdilli insanlarla olan kommunikasiya prosesi dilə də təsirsiz ötüşməmiş və dilimizdə yersiz alınma sözlərin, varvarizmlərin işlənməsinə şərait yaratmışdır.

6. Sözlərin işlənməsində olan bu sərhədlərdən, məhdudiyyətlərdən əlavə onların aktiv və passiv şəkildə işlənməsi də müəyyən cəhətdən məhdudluq sayılır. Sözlərin aktiv və passiv şəkildə işlədilməsi ayrıca bölgü kimi verilir və aktiv qismə ümumişlək sözlər, passiv leksikaya isə yeni və köhnəlmiş sözlər daxil edilir. S. Cəfərov aktiv leksikaya ümumişlək sözləri və terminləri, passiv leksikaya isə könəlmiş və yeni sözləri aid edir. (2, s 65). H. Həsənov isə qeyd edir ki, Azərbaycan dilində danışan hər bir şəxsin nitqində işlədilən sözlər, yəni həm köhnəlik, həm də yenilik çalar-

larından eyni dərəcədə məhrum olan sözlər dilimizin lüğət tərkibinin aktiv ehtiyyatını təşkil edir. Əksinə, köhnəlmiş və ya ümumi işlədilməyə keçməyən yeni sözlər dilimizin passiv ehtiyyatını yaradır. (3, s 249).

Əsas lüğət fonduna aid olmayan sözlərə daxil olan neologizmlər və köhnəlmiş sözlər passiv istifadə olunur. Bu sözlərin işlənməsində məhdudiyyət çox aktiv istifadə oluna bilməməsidir. Əksəriyyət tərəfidən ümumişlək sözlər aktiv istifadə olunur. Ümumişlək sözlərə daxil olmayan sözlər, terminlər, arqo və jarqonlar, peşəsənət sözləri, dialektlər və digər bu kimi sözlər də aktiv istifadə olunur. Belə ki, dialektlər müəyyən ərazidə yaşayan insanlar tərəfindən, terminlər müəyyən elm, ixtisas sahibləri tərəfindən aktiv işlədilir. Köhnəlmiş sözlər və yeni sözlər, vararizmlər, vulqarizmlər, ekzotizmlər isə hər kəs tərəfindən passiv, çox az istifadə olunur.

Ümumişlək sözlərə daxil olmayan, məhdud işlənən sözlərin lüğətlərdə işlənib işlənməməsi, maraq doğuran məsələlərdəndir. Lüğətlərdə əks olunması məsələsinə nəzər yetirsək görərik ki, məhdud dairədə işlənən sözlərin bir qismi lüğətlərdə verilir, bir qismi isə qeyd olunmur. Azərbaycan dilinin izahlı lüğətində buraya daxil edilməmiş sözlər qeyd olunmuşdur: a) bu və ya digər formada yazıçı və müəllifin icadı olan, yaxud onun tərəfindən yanlış işlənən və başqa yazıçı və müəlliflərin əsərlərində təsadüf edilməyən sözlər (məs: baharlı, axşamlı, qaralışmaq, vətənçi, viranlamaq və s.) b) müasr ədəbi dilimizdə işlənməyən qəliz ərəb və fars sözləri, c) yalnız bir məhəllə və məhdud peşəkarlıq mühitinə aid olan və başqaları tərəfindən başa düşülməyən arqotizmlər (məs: avaqa, ceydaraç, qacalov, hinqlov və s.) c) ədəbsiz sözlər və söyüşlər. (1, s 12). X. Heydərova qeyd edir ki, Azərbaycan filoloji lüğətlərinin hamısı normativ xarakterli olduğuna görə, sözlük tərtibatında qeyri- normativ leksikaya (vulqarizmlərə) heç birində yer ayrılmamışdır. Bu, görünür milli mentalitet və bədii ədəbiyyatda bu cür leksikanın demək olar ki, işlənməməsi ilə əlaqədardır. Başqa ölkələrdə ədəbi dillə yanaşı canlı danışıq leksikasını da lüğətə daxil etmək üçün iri həcmli müfəssəl prinsipli tezauruslar tərtib edilir [xh 36] Dialektlər dialektoloji lüətlərdə, terminlər terminoloji lüğətlərdə əks olunur. Ekzotik sözlər izahlı lüğətlərdə qeyd olunur. Lakin arqo və jarqonlar, vulqarizmlər, varvarizmlər lüğətlərdə qeyd olunmur. Jarqon və arqo sözlərdən bir qismi ədəbi dilimizdə işlənən sözlərdir. Lakin onlar əsl mənasında işlənmir, əlavə, başqa qondarma mənada işlənir. Lüğətlərdə qeyd olunanlar isə bu mənalar deyil.

Dilin lüğət tərkibinə daxil olan həm ümumişlək, həm də məhdud dairədə işlənən sözlər tədqiqata cəlb olunası problemlərdən biridir.

Ədəbiyyat siyahısı

1. Azərbaycan dilinin izahlı lüğəti, I cild. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 2006, 744s.
2. Cəfərov. S. Ə. Müasir Azərbaycan dili, II hissə, Leksika. Bakı, “Şərq- Qərb” nəşriyyatı, 2007, 192s

3. Həsənov. H. Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı, "Nurlan" nəşriyyatı. 2005, 452 s
4. Heydərova. X. S. Azərbaycan filoloji lüğətlərində ümumişlək olmayan sözlərin verilməsi. Bakı, "Avropa" nəşriyyatı. 2019, 222 s
5. Qurbanov. A. M. Müasir Azərbaycan ədəbi dili. Bakı, "Elm və təhsil" nəşriyyatı. 2010, 452 s.

Sha.Yagublu

Determination of the borders of the limited use words

Summary

The article deals with the group of the limited use words in the Azerbaijani language. There is a number of the researches dedicated to this issue in Azerbaijani linguistics. S.Jafarov's, H. Hasanov's, A.Gurbanov's theoretical conceptions and views on the studied problem are used as a basis in the article. The limited use words are recorded in the different groups in most theoretical views. The article attempts to unite these words in one group. Such words are grouped as follows: active and passive vocabulary, native and borrowed vocabulary, colloquial, low-colloquial vocabulary etc. Most of them are limited use words. This limitation manifests itself differently.

The limited use words from the territorial standpoint. This group consists of the dialect words. The other group includes terms, professional words: military, sports, social-political vocabulary, scientific and technical terminology.

Slang and jargon used especially by particular groups of people. Despite the limited scope such words are actively used in the language of the certain social groups. Vulgarisms, swear words used passively in connection with a certain situation and psychological state in the limited scope. The words that are not common: archaisms, hystorisms, neologisms belong to the passive vocabulary. Although some loanwords became common words in the Azerbaijani language a part of them is them used to a limited extent. They are exoticisms and barbarisms. Some of them are registered in dictionaries, but some of them are used only in the spoken language.

Keywords: limitation, word, vocabulary, group, dictionary, active, passive

Ш.Ягублу

Определение границ слов ограниченной сферы употребления

Резюме

В статье рассматривается группа слов ограниченной сферы употребления в азербайджанском языке. В азербайджанском языкознании проведён ряд исследований, посвящённых данной проблеме. В статье за основу берутся теоретические концепции и взгляды С.Джафарова, Х.Гасанова, А.Гурбанова на исследуемую тему. В большинстве теоретических взглядов слова ограниченной сферы употребления отмечены в различных группах. В статье делается попытка объединить эти слова в одну группу. Такие слова распределены по группам по следующим признакам: активная и пассивная лексика, исконная и заимствованная лексика, разговорная, просторечная лексика и т.д. Большинство их – слова ограниченной сферы употребления, и Эта ограниченность проявляется по-разному. Слова ограниченной сферы употребления с территориальной точки зрения. В данную эту группу входят диалектные слова. Другую группу составляют термины, профессиональные слова: военная, спортивная, общественно- политическая лексика, научно – техническая терминология. Арго и жаргоны, употребляющиеся социально замкнутой группой лиц. Несмотря на ограниченную сферу такие слова активно употребляются в языке определенных социальных групп. Вульгаризмы, грубо-просторечные, бранные слова, пассивно употребляющие в связи с определённой ситуацией и психологическим состоянием в ограниченной сфере. Слова, не относящиеся к общеупотребительным словам: архаизмы, историзмы, неологизмы, составляющие пассивную лексику. Несмотря на то, что часть заимствованных слов перешла в разряд общеупотребительных слов в азербайджанском языке, тем не менее часть их употреблятся в ограниченной степени. К ним относятся экзотизмы и варваризмы. Некоторые из них отмечены в словарях, некоторые же употребляются лишь в разговорном языке.

Ключевые слова: ограниченность, слово, лексика, группа, словарь, активный, пассивный

Redaksiyaya daxil olma tarixi: 20.11.2019
Çapa qəbul olunma tarixi: 01.01.2020
Filologiya elmləru doktoru, professor Zenfira Şahbazova tərəfindən çapa tövsiyə olunmuşdur

NİSƏXANIM SALAMOVA
UNEC
6istiqlaliyyət,Bakı
nisakhanim_salamova@mail.ru

YENİ SÖZ YARADICILIĞI

Xüsalə

Məqalədə müasir Azərbaycan dilində mövcud olan söz yaradıcılığı üsullarından bəhs edilir. Azərbaycan dilinin leksik qatı tarixən də, hal-hazırda da dinamik və özünəməxsus bir inkişafa malik olmuşdur.

Belə ki, bu dildə həm dilimizin öz sözləri, milli qaydaları, həm də əcnəbi sözlər hesabına çoxlu sayda yeni sözlər yaradılmış, indi də yaradılmaqdadır.

Söz yaradıcılığı hər bir dilin leksik qatının zənginləşməsində mühüm rola malikdir.Azərbaycan dilində əsasən leksik, morfoloji və sintaktik üsulla yenis sözlər yaranır və bu proses fasiləsiz olaraq davam etməkdədir.

Leksik yolla zöslərin əmələ gəlməsi prosesi morfoloji və sintaktik yolla əmələ gəlmə prosesində əsasən öz sadəliyi ilə fərqlənir. Leksik yolla sözlərin yaradılmasında əsasən sözlərin müxtəlif şəkil və formalara düşməsi və eləcə də başqa dillərdən alınaraq öz dilimizə uyğunlşması ilə xarakterizə olunur.

Morfoloji üsulla söz yaradıcılığı prosesində dilimizin milli fondunda çoxlu sayda şəkilçilər mövcuddur. Onlar yeni sözlərin yaranmasında çox aktivdir, milli sözlərimizlə yanaşı alınma sözlərə də artırıla bilər. Bu üsuldan danışarkən bir neçə şəkilçilərin bu prosesdəki rolunu göstərərək morfoloji üsulun mahiyyətini izah etməklə kifayətlənəcəyik, çünki bu, geniş mövzudur və ayrıca bir tədqiqat predmetidir.Dilimizdə söz yaradıcılığının digər üsulu sintaktik yolla yeni sözlərin yaradılmasıdır. Sintaktik yolla söz yaradıcılığından müxtəlif sözlərin birləşməsi ilə yeni sözlərin yaradılması, daha doğrusu, mürəkkəb sözlərin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Qeyd edilənlərin hamısı məqalədə öz əksini tapmışdır.

Açar sözlər: tarix, semantika, sintaktik, dialekt, köhnəlmiş sözlər, yeni söz,

Azərbaycan dilinin leksik qatı tarixən də, hal-hazırda da dinamik və özünəməxsus bir inkişafa malikdir olmuşdur. Belə ki, bu dildə həm dilimizin öz sözləri, milli qaydaları, həm də əcnəbi sözlər hesabına çoxlu sayda yeni sözlər yaradılmış, indi də yaradılmaqdadır. Söz yaradıcılığı hər bir dilin leksik qatının zənginləşməsində mühüm rola malikdir. Azərbaycan dilinin də lüğət tərkibi məhz yeni söz yaradıcılığı hesabına zənginləşərək öz əhatə dairəsini genişləndirmişdir.

Dilimizdə söz yaradıcılığının digər bir adı da derivatologiyadır. A.Qurbanov qeyd edir ki, "dilçiliyin şöbələrindən biri derivatologiya adlanır. Bu şöbə dildə yeni sözlərin necə düzəldildiyinin aydınlaşdırılması ilə məşğul olur. Məlumdur ki, cəmiyyətdə yaranan hər yeni şey dildə sözlər əks olunur. Məlumdur ki, cəmiyyətdə yaranan hər yeni şey dildə sözlə əks olunur. Yeni meydana çıxan anlayış və şeyləri dildə adlandırmaq üçün ya yeni söz yaradılır, ya da başqa dildən hazır söz alınır. Dildə başlıca olaraq 4 yolla söz yaradılır:

a) semantik yolla;

b) fonetik yolla;

c) morfoloji yolla;

ç) sintaktik yolla" (1, s. 235-236).

Dildə söz yaradıcılığının mühüm rola malik olmasının səbəblərindən biri də yeni məfhumları, anlayışları adlandırmaq üçün daim yeni sözlərin yaradılmasına və yeni sözlərin dilə daxil olmasına ehtiyacın olmasıdır. Qeyd edək ki, dildə təkcə yeni sözlər yaranmır, eyni zamanda müəyyən ifadələr və birləşmələr də yaranır. Nəticədə qeyd edilən bütün bu yeniliklərin nəticəsində lüğət tərkibi inkişaf edir və zənginləşir. Lüğət tərkibini zənginləşdirən vasitələri ancaq düzəltmə sözlərlə yekunlaşdırmaq olmaz. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) müxtəlif vasitələrlə yeni sözlərin yaranması;

2) dialekt və şivələrdən müəyyən söz və ifadələrin götürülməsi ilə lüğət tərkibinin zənginləşməsi;

3) lüğət tərkibinin alınmalar və kalkalar hesabına zənginləşməsi.

Qeyd edək ki, göstərilən bu bölgü şərti mahiyyət daşıyır, çünki dilimizdə söz yaradıcılığı prosesini müxtəlif vasitələrlə aparılması mümkün olduğu üçün bu vasitələri konkret şəkildə qruplaşdırmaq mümkün deyildir. Buna səbəb müasir Azərbaycan dilinin morfoloji quruluşu dilimizdə müxtəlif vasitələrin köməyi ilə yeni söz yaratmağa imkan verir. Hal-hazırda ədəbi dilimizdəki sözlərin böyük bir qismi məhz müxtəlif vasitələrə yeni sözlərin yaranmasının nəticəsində meydana çıxmışdır. Yəni ki "dildəki sözlərin demək olar ki, əksəriyyəti sözyaratma yolu ilə əmələ gəlmişdir. Deməli, sözyaratma dilin inkişafı və formalaşmasında başlıca vasitədir. Söz müxtəlif mənbələr əsasında bir sıra üsullarla əmələ gətirilir. Sözyaratmanın mənbələri, imkanları, vasitələri, formaları, xüsusiyyətləri və digər cəhətləri ilə məşğul olan dilçilik şöbəsi derivatologiya adlanır" (2, s. 439). Qeyd edək ki, derivatologiya və söz yaradıcılığı terminləri dilimizdə paralel şəkildə işlənə bilsələr də, daha çox söz yaradıclığı terminindən istifadə olunur. Söz yaradıcılığı prosesində sözdüzəldici şəkilçilərin böyük əhəmiyyəti vardır. Azərbaycan dilinin daxili imkanları da sözdüzəldici şəkilçilərin köməyi ilə yeni sözlər yaratmağa imkan verdiyindən dilimizdə belə sözlər kifayət qədərdir. Ancaq dilimizdə söz yaradıcılığı prosesini morfoloji yolla yeni sözlərin yaradılması ilə məhdudlaşdırmaq olmaz. Müasir Azərbaycan dilində müxtəlif sözlərin birləşməsi ilə yeni sözlər yarandığı kimi başqa dillərdən dilimizə yeni sözlərin daxil olması hesabına da xeyli sayda yeni sözlər yaranmışdır. Daxil olan yeni sözlər dilin

qayda-qanunlarına uyğunlaşmış, fonetik dəyişikliyə uğramış, dilimizə məxsus şəkilçilər qəbul edərək başqa yeni sözlərin də yaranmasına yol açmışdır. Deməli, söz yaradıcılığı prosesi fasiləsiz davam edən bir proses olmaqla bərabər, eyni zamanda dilçiliyin leksikologiya və qrammatika bölmələrini də bir-biri ilə əlaqələndirir. S.Cəfərov bu haqda qeyd edir ki, "dilimizin söz yaradıcılığını təmsil edən bütün qayda və qanunları, hər şeydən əvvəl, dilin öz tərkibinə öz quruluş xüsusiyyətlərinə əsaslanır, daha doğrusu, onun təbiətini, quruluş xüsusiyyətlərini özündə əks etdirir. Aydındır ki, hər hansı bir dilin təbiəti, onun quruluş xüsusiyyətləri, hər şeydən əvvəl, həmin dilin qrammatikasında öz əksini tapır. Nəticə etibarı ilə demək olar ki, dilin qrammatik quruluşu xaricində söz yaradıcılığı prosesinin heç bir (hətta ən kiçik) ünsürü əmələ gəlməmişdir. Daha doğrusu, bir dilin söz yaradıcılığı prosesi o dilin qrammatik quruluşu əsasında yaranmış və inkişaf etmişdir" (3, s. 5-6). Söz yaradıcılığı dilçiliyin daha çox leksikologiya və qrammatikası ilə sıx bağlıdır. Belə ki, söz yaradıcılığı yeni sözlərin yaranması ilə məşğul olur. Dildə yaranan hər yeni söz dilin leksikasına daxil olur. Deməli, söz yaradıcılığı lüğət tərkibini zənginləşdirir. Leksikologiya da söz yaradıcılığına material verir, yəni sözlərin birləşməsi və ya sadələşməsi ilə dildə yeni sözlər yaranır ki, nəticədə leksikologiya da söz yaradıcılığını zənginləşdirmiş olur. Söz yaradıcılığının nəticəsi olaraq yaranan yeni sözlər müxtəlif nitq hissələrində qruplaşdırılır ki, nəticədə qrammatika ilə derivatologiyanın sıx əlaqəsi yaranır. Ancaq bu o demək deyildir ki, söz yaradıcılığı dilçiliyin digər şöbələri ilə əlaqəli deyildir, əksinə o, dilçiliyin bir çox şöbələri ilə də bağlıdır, lakin ən böyük əlaqə və bağlılıq leksikologiya və qrammatika arasındadır.

Söz yaradıcılığının zənginləşməsinin mənbələrindən bəhs edərkən A.Qurbanov qeyd edir ki, "XX əsrdə Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsində iki mənbədən istifadə edilmiş və hazırda da bunlardan istifadə olunur: birincisi, dilimizin daxili imkanları, ikincisi başqa dillərin vasitələri" (2, s. 441). Hər bir dilin müstəqilliyini şərtləndirən amillərdən biri də həmin dilin öz daxili imkanları hesabına yeni sözlərin yaranmasıdır. "Başqa müasir dillər kimi, Azərbaycan ədəbi dili də, başlıca olaraq, öz daxili imkanları və ümümxalq dili əsasında inkişaf edir. Buna görə həmin imkanlar dilimizin lüğət tərkibinin zənginləşməsi üçün başlıca mənbədir. Qeyd etmək lazımdır ki, bu hadisə dilimizin varlığını və onun müstəqilliyini şərtləndirən əsas amillərdən sayılır" (2, s. 441). Ənənəvi olaraq müasir Azərbaycan dilində dilçilərin əksəriyyəti söz yaradıcılığının üsullarından danışarkən onları belə qruplaşdırırlar:

1) leksik;
2) morfoloji;
3) sintaktik üsul;

Leksik yolla söz yaradıcılığı prosesi o deməkdir ki, dildə mövcud olan sözlərin hesabına yeni sözlər yaransın. Leksik yolla yeni sözlərin əmələ gəlməsi əsasən sözlə bağlı olur, yəni yeni yaranan sözlər morfoloji yolla söz yaradıcılığı prosesindən

fərqli olaraq şəkilçilərin köməyi olmadan dilə daxil olur. Leksik yolla yeni sözlərin yaradılması bir neçə formada özünü göstərə bilər:

1) söz dilə hazır şəkildə daxil olur, yəni heç bir dəyişiklik olmur;

2) söz dilə daxil olarkən müəyyən fonetik dəyişikliyə uğraya bilər;

3) dilə daxil olan söz bəzən təkcə fonetik dəyişikliyə uğramadan ancaq məzmun baxımından dəyişikliyə uğrayaraq daxil olur.

"Leksik yolla sözlərin əmələgəlməsi prosesi morfoloji və sintaktik yolla əmələgəlmə prosesindən, əsasən, öz sadəliyi etibarı ilə fərqlənir. Lakin zahirən sadə görünən bu yol, həqiqətdə isə çox mürəkkəbdir. Çünki öz tarixi və mənşəyi etibarilə bu yolla əmələ gəlmiş yüzlərcə sözlər müasir ədəbi dilin lüğət tərkibində elə dəyişmiş elə formaya düşmüşdür ki, onların nə zaman və necə əmələ gəldiyini müəyyənləşdirmək çox çətindir" (4, s. 121). Leksik yolla söz yaradıcılığından bəhs edərkən S.Cəfərov onun altı üsulla yarandığını (4, s. 121), A.Qurbanov isə leksik üsuldan danışarkən abreviaturadan bəhs edir (2, s. 442), B.Xəlilov isə 4 qrupunu qeyd etmişdir (5, s. 394).

1) dialekt və şivələrin hesabına yeni sözlərin yaranması;

Qeyd edək ki, hər bir ədəbi dilin formalaşmasında dialektlər mühüm rol oynayır. Ona görə də, dilimizə dialektlərdən daxil olan xeyli sayda sözlər vardır ki, proses bu gün də davam etməkdədir. Dialektlərdən ədəbi dilimizə sözlərin daxil olmasında ayrı-ayrı şair, yazıçı və dramaturqlarımızın böyük xidmətləri vardır. Yəni dialektlərdən sözlərin ədəbi dilimizə daxil olmasında bədii üslubun böyük rolu vardır. ***Sayrışmaq***, ***tıncıxmaq***, ***gənəşmək*** kimi dialekt sözləri ədəbi dilimizə bu yolla daxil olmuşdur.

2) Alınma sözlər hesabına lüğət tərkibinin zənginləşməsi də müasir Azərbaycan dilində mühüm əhəmiyyət kəsb edir. Dünyada elə bir dil tapmaq olmaz ki, başqa dillərdən bu və ya digər formada söz almamış olmasın. Azərbaycan dilinin lüğət fonduna diqqət yetirsək görərik ki, o yalnız öz sözlərimizdən ibarət deyildir. S.Cəfərov qeyd edir ki, "başqa dillərdən keçmiş sözlər bir müddətdən sonra o dilin lüğət tərkibindən onun lüğət fonduna keçərək, qismən mənsub olduğu dilin xüsusiyyətlərini itirir və düşdüyü mühitdə yeni dilin xüsusiyyətlərini qəbul edərək, özünə elə möhkəm yer tutur ki, nəticədə tanınmaz şəklə düşür" (3, s. 10). Məsələn, ərəb mənşəli ***"əql"*** sözü dilimizə daxil olduqdan sonra dilimizin fonetik qaydalarına uyğunlaşaraq ***"ağıl"*** şəklinə düşmüşdür. ***"Vedro"*** rus dilindən dilimizə daxil olan sözdür. Bu söz dilin qaydalarına uyğunlaşaraq ***"vedrə"*** şəklində işlədilir.

Digər dillərdən söz alınması prosesinin bir çox səbəbləri vardır ki, onlardan biri də qonşuluq, sıx ticarət əlaqələri, eləcə də müəyyən dövrlərdə dövlətlər arasında müharibələrin baş verməsidir. A.Məhərrəmqızı yazır ki, "dilçilik elmi sübut edir ki, dünyada yalnız öz milli sözlərindən ibarət olan saf dil yoxdur. Dünya xalqları arasında müxtəlif əlaqələrin ictimai-siyasi, mədəni-maarif, elmi-iqtisadi və s. dildə də öz əksini tapır. Bu əlaqələr bir dildən başqa dilə müxtəlif sözlərin keçməsi üçün zəmin yaradır. Bu proses dünyanın bütün dillərinə xasdır və indi də mövcud dillərdə davam edir" (6, s. 66). Azərbaycanın müxtəlif ölkələrlə tarixən mövcud əlaqələri onun digər dillərdən söz alması ilə nəticələnmiş və beləliklə, lüğət tərkibinin zənginləşməsinə

imkan vermişdir. Belə ki, VII əsrdən başlayaraq Azərbaycanın ərəblər tərəfindən işğalından sonra dilimizə xeyli sayda ərəb mənşəli sözlər daxil olmuş, daha sonra XI əsrdən başlayaraq fars dilinə məxsus olan sözlərin ədəbi dilə daxil olmasına səbəb olmuşdur. Müasir Azərbaycan ədəbi dilində həmin sözləri dilimizin öz sözlərindən ayırmaq, demək olar ki, xeyli çətinlik törədir. XIX əsrdən başlayaraq Azərbaycan dilinə xeyli sayda rus sözləri daxil olmağa başladı ki, buna da səbəb Çar Rusiyasının işğalı idi. Müasir Azərbaycan ədəbi dilində işlənən ***dəftər, kitab, dilbər, oruc, lüğət*** kimi sözlər Azərbaycan dilinə ərəb və fars dillərindən daxil olaraq dilin lüğət tərkibini zənginləşdirmişdir.

3) kalkalar hesabına yeni sözlərin yaranması da leksik yolla söz yaradıcılığı prosesində böyük əhəmiyyət kəsb edir. "Dilçilik ədəbiyyatında "hərfi tərcümə", "oxşarlıq" və "kalka" adı ilə adlandırılan bu üsulun dilimizin lüğət tərkibinin zənginləşməsində müəyyən yeri vardır" (6, s. 64). Məsələn, *informasiya müharibəsi, göydələn, sahə həkimi* və s. kimi vahidlər dilimizdə kalka üsulu ilə yaradılmışdır. B.Xəlilov qeyd edir ki, "Kalka Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynamışdır. Kalka üsulu ilə söz yaratmada dilin daxili imkanı əsasdır. Burada dilin daxili imkanı hesabına başqa dildən alınmış söz tərcümə olunur. Bu proesesdə hər hansı bir anlayış bir dildən başqa bir dilə mexaniki olaraq gəlir" (5, s. 396). Bir sözlə, kalka üsulu ilə söz yaradıcılığının əsasında dilimizin milli quruluşu və dil elementləri dayanır.

устной речи на иностранном языке. Процесс обучения английскому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целена-правленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть роль упражнении. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке. Сегодня в нашей стране существует настоятельная потребность в изучении иностранных языков. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения.В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами.Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. Учителя языка должны знать, как язык функционирует в процессе речевой коммуникации, и как успешно использовать его, чтобы быть понятыми как носителями языка, так и людьми, которые таковыми не являются. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. Соответственно, в процессе обучения необходимо использовать реальные тексты и истории из реальной жизни, а не созданные писателями и зачастую не имеющие ничего общего с реальной действительностью и реальными условиями использования языка рассказы.

Ключевые слова: инновация, язык, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 21.12.2019
Çapa qəbul olunma tarixi: 19.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülər Həsənova tərəfindən çapa tövsiyə olunmuşdur

NÜŞABƏ ƏLİYEVA
ATU
Səməd Vurğun küçəsi
nushabe.aliyeva@bk.ru

İSMAYIL ŞIXLININ "DƏLİ KÜR" ROMANINDA ATALAR SÖZLƏRİ VƏ ZƏRB-MƏSƏLLƏRDƏN İSTİFADƏ

Xülasə

İsmayıl Şıxlının nəsri XX əsr Azərbaycan ədəbiyyatında mühüm bir mərhələni təşkil edir. Yazıçı "Ayrılan yollar", "Dəli Kür", "Ölən dünyam" kimi əsərlərin müəllifidir. İsmayıl Şıxlı bədii yaradıcılığıa şeirlə başlamışdır. Gözəl pedaqoq olmuşdur. Eyni zamanda istedadlı tənqidçi kimi də çoxlu məqalələr yazmışdır. Bəlkə də ona görədir ki, İsmayıl Şıxlının əsərlərində artıq, yersiz ifadələrə rast gəlinmir. Yazıçının əsərləri Azərbaycan ədəbi dilinin zirvəsidir desək, səhv etmərik. Bütün yazıçı və şairlər əsərlərində atalar sözləri və zərb- məsəllərdən geniş istifadə etməyə çalışırlar. Ancaq buna çox zaman nail ola bilmirlər. Fikrimizcə, bunun əsas səbəbi onların canlı xalq dilindən düzgün şəkildə bəhrələnməmələridir. İsmayıl Şıxlı xüsusilə XIX əsr Azərbaycan ədəbiyyatının ənənələrini layiqincə davam etdirmişdir. Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun və digərlərinin yaradıcılığı deyilənlərə əyani sübutdur. XX əsrdə Cəfər Cabbarlı atalar sözləri və zərb-məsəllərdən mükəmməl şəkildə istifadə etdi. Çünki atalar sözləri və zərb-məsəllərdə bütün məna çalarlarını ifadə etmək mümkündür. İsmayıl Şıxlı "Dəli Kür" romanında atalar sözləri və zərb-məsəllərdən əsasən obrazlar vasitəsi ilə bəhrələnmişdir. Obrazların səciyyəvi xüsusiyyətləri sanki "dillərinin arxasında gizlənmişdir". Həm də yazıçı dövrə, mühitə uyğun sözlər işlədir. Obrazların dilini süni şəkildə müasirləşdirmir. Bu da öz növbəsində obrazların koloritliyinə, fərdiliyinə dəlalət edir. Məsələn, Cahandar ağanın sözlərində qətiyyət, mərdlik, cəsarət duyulur. Molla Sadıqda isə hiyləgərlik, məkrlik, arxadan zərbə vurma meyli hiss olunur. Rüstəm kişi və Qoca kişinin işlətdiyi ifadələrdə kasıblıq, zəmanədən şikayət motivləri üstünlük təşkil edir. "Dəli Kür" romanındakı qadın surətləri də öz dözülməz, acınacaqlı vəziyyətlərinə uyğun ifadələr işlədirlər. Eyni sözləri Azərbaycan dilini "bilməyən" rus pristavına da aid etmək olar. Atalar sözləri və zərb-məsəllərdən düzgün istifadə dilin zənginliyi, əsərin və yazıçının uğurudur. Məqalədə məhz yuxarıda göstərilən problemlərin araşdırılması nəzərdə tutulmuşdur.

Açar sözlər: İsmayıl Şıxlı, Dəli Kür, obrazlar sistemi, qadın surətləri, atalar sözləri, zərb-məsəllər, təsvirlər

İsmayıl Şıxlının «Dəli Kür» romanı XX əsrin 60-cı illərində yazılmışdır. Bu günə qədər «Dəli Kür» romanının obrazlar sistemi, təbiət təsvirləri, ideya-məzmun

xüsusiyyətləri və dili haqqında mübahisələr səngimir. Bunun əsas səbəbi yazıçının minillik Azərbaycan ədəbiyyatının zəngin ənənələrindən layiqincə bəhrələnməsi və dilin üstünlüklərindən səmərəli şəkildə istifadə etməsidir. Yuxarıda göstərilənləri İsmayıl Şıxlının «Dəli Kür» romanında məharətlə, yerli-yerində istifadə etdiyi atalar sözlərinə və zərb məsəllərə də aid etmək olar...

"Dəli Kür" yazılı ədəbiyyat nümunəsidir. Bununla belə, onun poetikasına xalq ədəbiyyatının güclü təsiri vardır" (1,33).

«Dəli Kür» romanı təbiət təsvirləri ilə başlayır. Yazıçının təbiət təsvirlərində insanla təbiətin qarşılıqlı vəhdətində heç bir problem yoxdur. Əksinə, onlar ideal şəkildə münasibət yaradır və yaşayırdılar. «Göytəpə kəndinin yastı qazma daxmaları Kürün sahilinə qədər səpələnmişdi. Bu il yağınlıq olduğundan, otlar vaxtından əvvəl göyərmiş, yazın ilıq nəfəsini duyandan sonra isə püskürüb qalxmışdı. Hələ aprel sona çatmamış bu çal-çəpərsiz kəndin həyətləri, xırman yerləri, tövlə və samanlıqların üstü, hətta evlərin damları da yaşıllaşmışdı. Həyətləri birləşdirib torpaq yola çıxan, sonra da sahildəkt çəmənliyi çalın-çarpaz doğrayıb Kürə enən cığırları ot basmış, kəndin üst tərəfindəki təpələrin rəngi dəyişmişdi. İl quraqlıq keçəndə bahar gəlməmiş saralıb-solan dəmyələr bu il gül-çiçəyə qərq olmuşdu» (6,7).

Yuxarıdakı təbiət təsvirləri Azərbaycan dilinin zənginliyinə, ecazkarlığına, füsunkarlığına ən bariz nümunədir. Eyni sözləri atalar sözləri və zərb-məsəllər haqqında da söyləmək mümkündür. İsmayıl-Şıxlı «Cəbhə gündəliyi» əsərində, «Ayrılan yollar», «Dəli Kür» və «Ölən dünyam» romanlarında atalar sözlərindən, zərb məsəllərdən kifayət qədər istifadə etmişdir. Ancaq fərqli şəkildə... Maraqlı və qanunauyğun haldır ki, İsmayıl Şıxlı bədii təsvir vasitələrindən və müxtəlif üsullardan zəmanəyə, mühitə, dövrə, ictimai-siyasi hadisələrə və məişətə uyğun şəkildə istifadə etmişdir. «Dəli Kür» romanında XIX əsr Azərbaycan həyatı bütün ziddiyyətləri, mürəkkəbliyi ilə gözlərimiz qarşısında canlanır. Oxucu özünü XX, XXI əsrlərdə deyil, məhz XIX əsrdə hiss edir. Bu xüsusiyyət isə az-az sənətkarlara müyəssər olur. Digər tərəfdən belə bir faktı vurğulamaq lazımdır ki, atalar sözləri və zərb məsəllər minilliklərin sınağından uğurla çıxmışdır. Azərbaycan dilində demək olar ki, lazımsız, mənasız atalar sözləri yoxdur. Yaxşı və ya pis mənalarda işlədilməsindən asılı olmayaraq… İsmayıl Şıxlının «Dəli Kür» romanındakı ədəbi qəhrəmanlar da bu mənada istisnalıq təşkil etmirlər. Əsərin əsas qəhrəmanlarından biri olan Zərnigar xanım atalar sözlərini və zərb məsəlləri düşdüyü çıxılmaz vəziyyətə uyğun şəkildə işlədir. İşlədilən sərt ifadələrdən Zərnigar xanımın vəziyyətini duymamaq, qavramamaq qeyrimümkündür. Çünki sevimli həyat yoldaşı Cahandar ağa onun üstünə günü gətirmişdir. Ona görə də Zərnigar xanımın kini, qəzəbi soyumaq bilmirdi. Oğlu Şamxalı gözləyirdi.. Deyəcəyi sözlər məhz ona ünanlanmışdı. «Zərnigar xanım tez-tez kəlağayısının ucu ilə gözünün yaşını silir, «mən bu dərdə necə dözüm, kimdən imdad istəyim» deyə inildəyirdi» (6,8).

Hirsindən gözü ayağının altını görmürdü. Az qalmışdı uçuruma yuvarlansın. «Bir parça çörəyim ovsanata keçdi. Yoxsa balalarım yetim qalacaqdı. – deyə dünüş-

dü. Şamxal bu işləri belə qoymaz. Harada olsa, gəlib çıxacaq. Kimin anasının mələr qaldığını onda görərik» (6,8-9). Oğlunu görəndən sonra kövrələn Zərnigarın sözləri sərtlik, qəddarlıq pərdəsinə büründü. «Gördünmü, ay bala, atan mənim başıma nə oyun açdı? Mənim hayıfımı ondan almasan, südümü sənə halal eləmirəm, oğul! Qiyamətəcən ahu-naləm səni yandırar, bala! Belə, atan ölmüş təzə eşqə düşüb, ay bala. Bizi el içində biabır edib. Heç ərlik-boyluq qızı olan, sənin kimi oğul böyüdən kişi də belə iş tutarmı? Deyəsən, mənim dediklərimi qulaqardına vurursan?! Atan ölmüşün tərəfini saxlayırsan?! Yoxsa inanmırsan, hə? Gəl, yaxın gəl, gör atan sənə nə yaxşı ana gətirib? Hər yanı bir gəmi boyda. Yeriyəndə yırım-yırım yırğalanır. Gəl, yaxın gəl, tamaşa elə! İndi gördünmü tərifli atan nə iş tutub? Xalqın halal-kamal kəbinli arvadını gətirib, mindirib mənim boynuma! O, saçını yolub, üzünü cırmağa, şappıltı ilə dizlərini döyməyə başladı. – Haradasan, ay gözü tökülmüş tanrı, bu zülmü niyə götürürsən?» (6,10-11).

Şamxal anasına diqqətlə qulaq adı, ona haqq qazandırdı. Evə gələndə artıq gözü ayağının altını görmürdü. Qızı Salatının yalvarışları da Zərnigarı qətiyyən maraqlandırmırdı. «Qurbanın olum, ay qağa, evimizə qan salma. Amanın bir günüdü, əlini qana bulama! Dərdin alım, ay qağa, farağat dur. Başına dönüm, evimizi yıxma. Amanın bir günüdü, bizi yazıq eləmə. Dədəm hamımızı tikə-tikə doğrayar. Ana, oğlun, qızın var, günahsız qana bais olma» (6,11-12).

Qeyd etmək lazımdır ki, Salatın kifayət qədər gənc olmasına rəğmən, gələcəkdə baş verə biləcək ailə faciəsini əvvəlcədən hiss etmişdi. Atası Cahandar ağanın qəddarlığını, tüpürdüyünü yalamadığını yaxşı bilirdi. Bəlkə də Mələyə rəhmi gəlirdi. Çoxlarından fərqli olaraq onun gunahsız olduğunu da ilk günlərdən başa düşmüşdü… Ancaq qızı Salatından fərqli olaraq Zərnigar ailəsinin gələcəyi haqqında heç düşünmürdü də… Günüsünə olan qəzəbi, nifrəti onun gözlərini tamamilə bağlamışdı. Zərnigar xanım azacıq uzaqgörənlik göstərsəydi, səbrini basa bilsəydi, ailədə ikitirəliyə səbəb olmazdı. Ən başlıcası isə ata və oğulun ömürlük qarşıdurmasına, mənasız düşmənçiliyinə gətirib çıxarmazdı… Zərnigar xanım bəlkə də hadisələrin bu cür təhlükəli məcraya yönələcəyini təsəvvür etməmişdi. Axı, o, əri Cahandar ağanın nələrə qadir olduğunu hamıdan yaxşı bilirdi. Zərnigar xanım Cahandar ağanın Şamxalı yerə yıxıb təpiklə döyməsindən sonra özünə gəldi. Bir neçə saat əvvəlki qəzəbdən, nifrətdən əsər-əlamət qalmadı. Gözlərimiz qarşısında sadə, hüquqsuz, binəsib, yazıq, məsum Azərbaycan qadını canlanır. Zərnigar xanım özünü kişinin qabağına atdı. Dili dolaşa-dolaşa yalvarmağa başladı: «- A kişi, ağlını başına yığ. Ə, uşaqdan əl çək. Onda taqsır yoxdur, öldürürsənsə məni öldür. Ayə, qurbanın olum, vurma, yazığam, evimi yıxma.

Ərinin sakitləşmək istəmədiyini görəndə isə, qarğamağa başladı: - Əlin çürüsün, ona necə qıyırsan? Qolun qurusun, uşaqdan əl çək! Ay Allah, ay camaat, hardasınız, qoymayın, balamı öldürdü» (6,14). Zərnigar xanımın nəzərləri qeyri-ixtiyari olaraq bir neçə dəqiqə bundan əvvəl qanını içməyə hazırlaşdığı günüsü Mələyə zilləndi. Zərnigar yalvararaq ondan imdad diləyirdi. Mələk hirsindən gözü ayağının al-

tını seçməyən Cahandar ağanın getdikcə qızışdığını görəndə, sanki yuxudan ayıldı. Gəlinin bədənini üşütmə götürdü. «Bəlkə kişi birdən uşağı xəsarət etdi, ya da əlindən bir xəta çıxdı, evə qan düşdü, onda necə olar? Bütün günahlar mənim boynumda qalmazmı? Elə Cahandar ağanın özü də sonradan – qaradabansan, gələn kimi evimə qan saldın, - deyə mənim üstümə atılmazmı? Yox, mən qana bais ola bilmərəm. Mələk irəli atılıb iri bədənini qabağa verdi. Cahandar ağanın ağır yumruqları kürəyinə dəysə də, diz çöküb kişinin ayaqlarını qucaqladı:

Bəsdir, ay insafsız, yazıqda tutar qalmadı. Onu yox, mən başıbatmışı öldür ki, biryolluq canım qurtarsın» (6,14). Ancaq Cahandar ağa onun hönkürtüsünə baxmayıb, yenidən oğlunun üstünə yeridi. Mələyin inadkarlığı nəticəsində hadisələr nisbətən sakit məcraya yönəlməyə başladı. Digər nökərlər də köməyə tələsdilər. Tapdıq hamıdan əvvəl qabağa keçdi. Cahandar ağanın hədələrinə əhəmiyyət vermədi.

«- Əl-ayağıma dolaşma!

- Ağa, ayıbdır, yoldan ötən, keçən olar.

- Qabağımı kəsmə, deyirəm sənə!

- Ağa…

- Burax məni, o it küçüyünü tikə-tikə doğrayacağam!

- Ağa, səbrin olsun» (6,15).

Mələk, Tapdıq və digər nökərlər Cahandar ağanın oğul qatili olmasının qarşısını aldılar. Atasının qabağından geri çəkilməyən Şamxalı demək olar ki, zorla, gücbəla ilə evdən uzaqlaşdırdılar, Kürün qırağına, yarğanlara tərəf yola saldılar. Cahandar ağanın nəriltisi getdikcə kəsilirdi… Bir faktı vurğulamaq yerinə düşərdi ki, bir neçə saatın ərzində baş verən faciəvi hadisələr zamanı müxtəlif insanlar tərəfindən çoxlu, xeyli miqdarda atalar sözləri və zərb-məsəllər işlədilmişdir. İsmayıl Şıxlının «Dəli Kür» romanı demək olar ki, başdan-başa atalar sözlərindən və zərb-məsəllərdən ibarətdir. Təxminən yarım əsrdən artıq bir müddətdə «Dəli Kür» romanının böyük uğur qazanmasının əsas səbəblərindən birincisi məhz yuxarıda göstərilənlərdir. Hər bir obraz atalar sözləri və zərb-məsəlləri düşdüyü vəziyyətdən, şəraitdən asılı olaraq işlədir. Obrazlı şəkildə ifadə etsək, hamının köməyinə, harayına çatan bədii təsvir vasitəsidir. Bu faktın özü isə Azərbaycan dilinin qədimliyinə, zənginliyinə, obrazlılığına, sadəliyinə, yığcamlığına dəlalət edir. «Yığcamlıq, konkretlik istedadın bacısıdır» deyənlər yanılmayıblar. Həm də atalar sözləri və zərb-məsəllər min illərin sınağından uğurla çıxmış və bu günümüzə qədər gəlib çatmışlar. Eyni zamanda azərbaycan xalqının qan və fikir yaddaşı, «ən böyük, müdrik, sərt və qəddar hakimdir». Bəlkə də az-az xalqların ədəbiyyat, dil tarixlərində bu qədər atalar sözlərinə və zərb-məsəllərə rast gəlinir. Ola bilsin ki, bu fikir bir qədər mübahisəlidir… İsmayıl Şıxlının «Dəli Kür» romanının araşdırılması zamanı yuxarıda səsləndirilən fikirlərin düzgünlüyünü sübut etməyə çalışacayıq… Ümumiyyətlə, İsmayıl Şıxlının nəsri, ilk növbədə isə «Dəli Kür» romanı ən müxtəlif bədii təsvir vasitələrinin toplusudur… Digər tədqiqatçı Yaqub İsmayılovun sözlərinə görə "İsmayıl Şıxlının "Dəli Kür" romanı Azərbaycan ədəbi dilinin zirvəsidir" (4,150).

Şamxal sahilə, Kürün qırağına enəndən sonra xeyli müddət özünə gələ bilmədi. Hələlik nələr baş verdiyini dərk edə bilmirdi. Ən çox yadında qalan Mələyin Cahandar ağanın ayağına döşənərək yalvarması oldu. Nə baş verdiyini Şamxal indi başa düşdü. O, atasına əl qaldırmışdı. Bəs anam? Onun günahı nədir – deyə düşündü. Şamxal artıq geriyə yol olmadığını anladı. İnsan tək-tənha qalanda gələcək taleyi haqqında daha çox düşünür. Şamxalın öz-özünə etdiyi monoloq çox mətləblərdən xəbər verirdi. Eyni zamanda atalar sözləri və zərb-məsəllərin sərtliyi, zənginliyi ilə seçilirdi. «Gör nə günə qalmışam ki, mənim döydüyüm adam mənə qəhmər çıxır, mənə yazığı gəlir. Məni atamın əlindən almaq istəyir. İndi mən nə üzlə geri qayıdım? Bundan sonra Mələk mənə yazıq, yetim bir uşağa baxan kimi baxmazmı? Yox, mən bir də o evə üz tutmaram. Çıxıb gedəcəm. Harda olsa, bir parça çörək taparam. Bəs anamın, Salatının axırı necə olacaq?» (6,17-18). Şamxal nə qədər düşündüsə də çıxış yolunu tapa bilmədi. Gecədən xeyli keçəndən sonra yaxın dostu Çərkəzgilin qapısını döydü. Səhər tezdən onunla balığa degəcəyini bəhanə gətirdi. Çərkəz Cahandar ağagildə baş verən hadisəni bilirdi. Dostunu utandırmamaq üçün özünü bixəbər göstərirdi. Həmişəki kimi zarafatından, deyib-gülməyindən qalmırdı. «- Ə, mənəm, nə səsküy salıbsan? - Ə, xeyir ola, gecə vaxtı qəbirdən xortdamış kimi hardan gəlirsən? – Ə düşmənli adamlar kimi tüfəngi niyə hazır tutubsan?

- Nə çoxdu anasının əmcəyini kəsənlər. Ehtiyatlı oğulun anaçı ağlamaz» (6,27). Çərkəz tez yuxuya getdi. Şamxalın isə gözünə yuxu getmədi. Gözünü səmadakı ulduzlara dikmişdi. Elə bil yuxusu ərşə çəkilmişdi. Fikirlər, düşüncələr həssas qəlbini sıxdı. Anası Zərnigar, bacısı Salatın yadından çıxmırdı. Ürəyində həyata keçirilməsi mümkün olmayan planlar qururdu. Birdəfəlik kənddən çıxıb dayısıgilə getmək istədi. Digər tərəfdən kişi də anasını, bacısını atıb gedərmi? – deyib onu danlayacaqlar. "Bir də qoltuqda yaşamaq heç kişilikdən deyil. Dayım da olsa, minnətnən çörək yemərəm. Heç kəsə yalvaran deyiləm. Özümə bir daxma düzəldəcəyəm. Kənddəki qızlardan birini gətirib qoyacağam evə. Atamın acığına cah-cəlalla da toy edəcəyəm. Yox, atam da olsa, boyun əyməyəcəyəm. Onun bir çöpü də mənə lazım deyil. Təzədən onun qapısına getsəm, üzümə vurmasa da, üryəində «urvan məndən olmasa, kündən küt düşər» - deyəcək» (6,29-30). Şamxal nə qədər fikirləşirdisə, düzgün qərar qəbul edə bilmirdi. Anası Zərnigarı, bacısı Salatını düşünürdü. Dağı arana, aranı dağa aparırdı... Şamxalın evdən baş götürüb getməsindən sonra Zərnigar xanım özünə gələ bilmirdi. Müxtəlif fikirlərin arasında qalmışdı. Artıq keçmişdə baş verənlərlə təsəlli tapmaq istəyirdi. Bacarmırdı. Çünki topdağıtmaz evi, ailəsi gözünün qabağında dağılırdı. Zərnigar oğlu Şamxal kimi müxtəlif planlar qururdu. Hirsi soyuyandan sonra qurduğu planlardan sanki utanırdı. Ən çox da övladlarını düşünürdü. Nədənsə, əsrlərdən bəri türk, müsəlman qadınları ailənin müqəddəsliyi, birliyi, toxunulmazlığı uğrunda mübarizə aparır, kişilər isə ən gözlənilməz, bağışlanılmaz hərəkətlərlə ailə ocağını dağıdırlar… Zərnigar xanımın öz-özünə söylədiyi monoloq deyilənlərə ən bariz nümunədir. Zərnigar xanım olub-keçənləri düşündükcə başından tüstü çıxır, ünü göyə qalxırdı. «Səni görüm el içində xəcil olasan, ay kişi, oğul-uşaq yanında üzün qara

olsun», - deyə qarğayırdı. Həyətdə ocaq qalanıb maralın dərisi soyulanda arvad yenidən hirsləndi. «Səni görüm gora sağ baş aparmayasan! Təzə eşqə düşdüyün yerdə tanrı belini qıraydı. Gör nə tezcə də ova gedib? Gül kimi balamı evdən didərgin salıb, hələ utanmır, iştahından maral əti keçir. Görüm yediyiniz boğazınızda qalsın. Bilirəm ki, elə də olacaq. Təzə bardağın suyu sərin olar. İndidən xanımına maral əti yedirdir. Qoy olsun. Mənim ahım sizi tutmasa, daha heç nə bilmirəm» (6,36).

Doğrudan da İ.Şıxlının əsərində atalar sözü və zərb-məsəlində çox böyük mənalar varmış. Həm də atalar sözləri və zərb-məsəllərdə heyrət ediləcək dərəcədə müxtəliflik də diqqətdən yayınmamalıdır. İsmayıl Şıxlının «Dəli Kür» romanında təsvir olunan qadın surətləri ən çətin vəziyyətlərdən çıxış yolunu tapa bildilər. Mələk dava-dalaşın səhərisi günü Zərnigar xanımın yanına gəldi. Təpiklər, yumruqlar, təhqirlər yesə də inadından dönmədi, üzünü torpağa sürtərək Zərnigar xanımdan imdad dilədi. «Məni öldür, ancaq evdən qovma. Çevir balalarıyın başına, ömürlük qaravaşın ollam. Kaş öləydim, səni dərdə salmayaydım…» (6,53).

Mələyin Zərnigara olan münasibətinin saxta olmadığı tezliklə aydınlaşdı. Mələk Cahandar ağaya qoşulub gəlməmişdi, onun tərəfindən zorla götürülüb qaçırılmışdı. XIX əsrdə qadınların hüquqları yox dərəcəsindəydi. Onların fikri soruşulmurdu. Qadınlar taleyin hökmünə baş əyməyə məcbur edilirdilər. Mələk kimi, Güləsər kimi… Şamxalın Güləsəri götürüb qaçması xəbərini eşidən Cahandar ağa ulu sələfi Koroğlu kimi üç gün üç gecə ağzı üstə yatdı. Ailə üzvlərindən heç kim qorxusundan ona yaxınlaşa bilmədi. Cahandar ağa bir axşam div yuxusundan ayılan kimi ayıldı. Döyüşə gedirmiş kimi xəncərini, tüfəngini belinə bağladı. Hava isti olsa da, dəvə yunundan tikilmiş, toxunmuş başlığı boynuna doladı. Zərnigar, Mələk, Salatın Cahandar ağanın nə isə dəhşətli bir işi həyata keçirəcəyini yəqin etdilər. Zərnigarın yalvarıcı baxışları qeyri-ixtiyari olaraq yenidən Mələyə dikildi. Mələk Zərnigar xanımın nə demək istədiyini başa düşdü. Fikirləşmədən, ölümü gözünün qabağına alaraq Cahandar ağanın qarşısını kəsdi və soruşdu: - Belə bivaxt hara gedirsən? Onların arasında baş verən qısa dialoq Azərbaycan qadınının mətanətini, mərdanəliyini, dözümlülüyünü, müdrikliyini bir daha nümayiş etdirir. «Nə vaxtdan kişinin işinə qarışırsan?

- Qarışmıram, soruşuram. Mən nəkarəyəm ki, sənə söz deyəm, amma ürəyim uçunur. Səni and verirəm o balalarıyın canına, ətəyindən daşı tök. Cahandar ağa yolu kəsib, qapının ağzında dayanan və onu bayıra buraxmaq istəməyən Mələyin döşündən itələdi.

- Çəkil yolumdan!..

Gəlin tərpənmədi. Qollarını gərib qapının çərçivəsindən yapışdı. Cahandar ağa bir an nə edəcəyini bilmədi. Hələ indiyə qədər onun qabağını kəsən, getdiyi yoldan qaytaran olmamışdı.

- Cəhənnəm ol, deyirəm sənə, yoxsa o it küçüyünün hayıfını səndən alaram!

- Al, neynək, al, vallah düz sözümdür.

- Qanını üstümə tökmə!

- Halal eləyirəm, tök» (6,97). Mələyin onu buraxmayacağını dərk edən Cahandar ağa var gücü ilə şillə çəkdi. Mələyin ürəyinin keçəcəyini, şillənin təsirindən yerə yıxılacağını ağlına belə gətirmədi. Mələyin üzünü soyuq tər basdığını görəndə özünü itirdi: - Ay uşaq, kim var, tez olun, su gətirin". Səsə Salatın və Zərnigar xanım içəri daxil oldular. Zərnigar xanım Mələyin ağız-burnundan axan qanı gördükdə, dizinə döydü. «Allah sənə insaf versin, ay Cahandar ağa, bu yazığı niyə öldürdün: yetimin günahı nəydi?

- Günahın hamısı sənin küçüyündədir. Sümüyümüzü it sümüyünə caladı. Onun nəriltisi otağı başına götürdü. Zərnigar xanım «niyə mənim olur, elə sənin də küçüyündür, adımızı batırdı», - demək istədisə də, qorxusundan dinmədi. Mələyin üzünə su çiləyən qızına kömək etdi» (6,97-98). Cahandar ağa zahirən özünü laqeyd göstərirdi. Ancaq fikri-zikri Mələyin yanında idi. İçəri daxil olmaq istəmirdi. Yaralı pələngə bənzəyirdi. Ancaq özündə qəribə yüngüllük hiss edirdi. Sanki bütün əhvalat, hadisə Mələyə vurduğu şillə ilə birlikdə yox olmuşdu. Cahandar ağa öldürəcəyi oğlunu, tikə-tikə doğrayacağı gəlinini yaddan çıxarmışdı. Mələk Cahandar ağanı ikinci dəfə övlad qatili olmaqdan xilas etmişdi. Şamxal Cahandar ağanı odsuz-ocaqsız yandırırdı. Kişi Şamxalın küsməyinin bu qədər ciddi olacağını heç güman etmirdi. İndi oğlundan tamam əlini üzdü. «Öləndə vəsiyyət edəcəm, üstümə qoymasınlar, mənim o adda oğlum yoxdur». Digər tərəfdən Mələyi vurduğuna peşman olsa da, sevinirdi. «Bəlkə də belə olması yaxşıdır. Kim bilir, bəlkə də o, qabağıma keçməsə idi, gedib bir xata çıxaracaqdım. Vallah, Mələk yaxşı arvaddır. Bununla iki dəfədir yolumu kəsir, məni oğul qanı tökməkdən saxlayır» (6,100).Mələyin ardınca Zərnigar xanım da çox çək-çevirdən sonra Cahandar ağaya münasibətdə ağıllı, düzgün, müdrik qərar qəbul etdi. «Mən baş götürüb evdən çıxanda kimə nə eləyirəm? Günümün bundan ürəyimi ağrıyacaq? Bəlkə onlara da elə bu lazımdır? Əl-ayaqlarına heç kəs dolaşmaz. Zəhmət çəkib ev-eşik tikib, cah-cəlal düzəldən mən, hazıra çıxan onlar? Ay Allah, sənin nə insafsız işlərin var? Mənim balalarımı niyə gül kimi soldurub ürəklərinə çalçarpaz dağ çəkirsən? Mən nə günahın sahibiyəm? Yox, gedəcəm. Kişi məni evdən qovmayıb ki? Özüm çıxıb gəlmişəm. İndi də qayıdacam. Balalarımı başıma yığacağam» (6,211). Əşrəf məktəbdən qayıdandan sonra ailədə nələrin baş verdiyini öyrənmək istəyirdi. Ancaq əsl həqiqətləri heç kim ona demirdi. Ondan nələrisə gizlədirdilər. Əşrəfi ən çox narahat bibisinin qəfil ölümü idi. Üç gün idi ki, Əşrəf anasından ayrılmır, ona müxtəlif suallar verirdi. Ana ilə oğul arasında başlayan dialoq demək olar ki, bütün məsələlərə aydınlıq gətirdi, kimin kim olduğunu müəyyənləşdirdi. Ancaq Zərnigar Əşrəfin «ana bibim nədən öldü» sualına cavab verməkdə çətinlik çəkdi. Diksindi. O dəhşətli gün gözünün qabağına gəldi. Cahandar ağa adam göndərib Zərnigarı çağırtdırmış, meyidin yuyulub kəfənlənməsini ona etibar etmişdi. Baldızının qanlı bədənini görəndə başa düşdü ki, Cahandar ağa sirrin üstünün açılmasını istəmir. Zərnigar xanım bütün həqiqətləri açıb oğluna söyləyə bilməzdi. «- Taqsır özündə oldu, bala, müridlərə qoşuldu, axırda da özünü bədbəxt elədi.

- Deyəsən, atam mənim bildiyimdən də zalım adamdır.

- Yox, yox, dərdin alım, onda nə taqsır var? Özü öz suçunu başa düşdü. Görünür, bibinin qisməti buymuş.

- Bəs atam bu məsələyə necə baxır, Qoca kişi ilə barışıbsınızmı?

- Yox. Nə danışdığındır, ay bala, kişi Şamxalın əlindən zəncir gəmirir, heç barışar?

- Atam Şamxalla barışmasa, mən də o evə ayaq basmayacağam.

- Elə söz danışma, dərdin alım, Şamxal ayrı, sən ayrı. Atan da yazıqdır. Tək qalıb.

- Bəs sənə elədiyi pislik?

- Qismətdən artıq yemək olmaz, bala, görünür, Allahın əmri beləymiş. Olacağa çarə yoxdur.

- Bəndə yoldan çıxanda Allah nə eləsin, ana?

- Elə demə, bala, hər şey Yaradanın əlindədir. Bir də sən belə şeylərə çox fikir vermə. Cahandar ağa sənin atandır, onu tək qoyma.

- Deyirsən, yanına qayıdım?

- Qayıt bala, Salatına da deyəcəm getsin.

- Yox.

- Sözümdən çıxsan, üzünə baxmaram» (6,212-213).

Fikrimizcə, İsmayıl Şıxlının «Dəli Kür» romanının kulminasiya nöqtəsi yuxarıda göstərilən epizoddur. Zərnigar xanımla Əşrəfin səmimi dialoqunda bir çox mətləblərə aydınlıq gətirildi. Zərnigar xanım insanpərvər qadın, ana, müdrik ailə başçısı olduğunu bir daha sübut etdi. Var qüvvəsi ilə oğluna ailənin birliyini, sarsılmazlığını qorumayub saxlamağın vacib olduğunu vurğuladı. Əşrəfi atasının üzünə ağ olmaqdan xilas etdi. Cahandar ağanın ona etdiyi haqsızlıqlardan, pisliklərdən danışmadı. Bütün olub-keçənləri qismətlə, qəzavü-qədərlə əlaqələndirdi. İsmayıl Şıxlı tərəfindən istifadə olunmuş sözlər onun əsərində zərgər dəqiqliyi ilə seçilmişdir. Tükənməz xəzinə kimi şifahi xalq yaradıcılığından layiqincə bəhrələnmək həqiqətən yazıçıdan böyük istedad və ustalıq tələb edir. Bu qədər atalar sözləri və zərb- məsəllərin müstəsna bir dəqiqliklə və ardıcıllıqla işlədilməsi təəccüb doğurmaya bilməz. Yəqin ki, İsmayıl Şıxlının "Dəli Kür" romanının böyük uğur qazanmasının əsas səbəblərindən biri yuxarıda göstərilənlərdir. Ən başlıcası isə atalar sözlərinin və zərb-məsəllərin kiçik həcmli sözlərlə, cümlələrlə böyük mənalar ifadə etməsindədir. Molla Sadığın Allahyarın kimliyini biləndən sonra işlətdiyi qısa və konkret sözlər hər ikisinin eyni məqsədə xidmət edəcəyinə işarədir.

"-Qardaş, sən şir ürəyi yemisən, nədir, nə cürətlə bu tərəflərə ayaq basmısan? Deyəsən, sənin gözünü qan örtüb. Demirsənmi duyuq düşərlər, iri tikəni qulağın boyda eləyərlər?

-Namussuz yaşamaqdansa, ölmək yaxşıdır.

-Orası elədir, amma ehtiyat da lazımdır.Yoxsa ara yerdə qanın itər.

- Mən ölümdən qorxmuram, molla, hayfımı ala bilməməkdən qorxuram" (6, 191).

Əlbəttə, Molla Sadıq Cahandar ağa kimi mərd, cəsur, varlı, hörmətli, nüfuzlu düşmənlə mübarizədə xüsusilə ehtiyatlı olmalıydı... Oldu da...

Sonda vurğulaqmaq istərdik ki, "Dəli Kür" kimi möhtəşəm, sanballı əsərdə atalar sözlərini və zərb- məsəlləri dərindən araşdırmaq, hərtərəfli təhlil etmək bir məqalənin imkanı xaricindədir. Gələcək araşdırmalarımızda daha geniş, əhatəli təhlil nəzərdə tutulmuşdur.

Ədəbiyyat

1. "Dəli Kür" romanının poetik dili" ədəbi tənqiddə. Bakı, Elm və təhsil, 2013, 344 s.
2. Babayev Y. "Dəli Kür" romanının gizli qatları. "Kaspi" qəzeti, 16-18 fevral, 2013, s.18
3. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı, Elm, 1991, 127 s.
4. İsmayılov Y. İsmayıl Şıxlı. Həyatı, mühiti, sənəti. Bakı, Ayna Mətbu Evi, 1999, 223 s
5. Musayeva İ. İ. Şıxlının "Dəli Kür" əsərində atalar sözləri və məsəllərin cümlə tipləri. Dil və ədəbiyyat. Beynəlxalq elmi- nəzəri jurnal. 2014. №1 (89). s.54-56.
6. Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, Şərq-Qərb, 2005, 400 s.

N.Aliyeva

Use of proverbs and sayings in the novel
Ismail Shikhlı "Turbulent Kur"

Summary

Ismayil Shikhli's prose takes an important place in the XX century of Azerbaijani literature. He is the author of such works as "Dividing ways", "Turbulent Kur" and "My dead world". I.Shikhli began to his literature creation with the poems, and was also a good teacher. At the same time, as a talented critic he wrote a lot of articles. By this reason, one doesn't face with superfluous and needless expressions. Even we can say that, his works are top of Azerbaijani literature language. All writers and poets try widely to use proverbs and sayings in their works, but sometimes they can't to achieve their goals. We think that, the main reason is an incorrect benefiting from living folklore language. Ismayil Shikhli successfully continued traditions of XIX century Azerbaijani literature. Works if Abdurrahim bey Hagverdiyev, Najaf bey Vezriov and others' works are a good examples in this context. In XX century Jafar Jabbarli perfectly used proverbs and sayings, as the latter enable to present all meaning features. Ismayil Shikhli used proverbs and sayings by the dialogues of the characters in his "Turbulent Kur" novel. As if the peculiar features of the characters "are hidden behind their languages". The author also resorted to the using of words considering the period and environment, and didn't artificially modernize the cha-

racters' language, which proves their colorfulness and individuality. A correct use of the proverbs and sayings is a success of richness of language as well as writer's himself. This article is namely devoted to the studying of the above-mentioned problems.

Key words: Ismayil Shikhli, Turbulent Kur, system of characters, femal characters, proverbs, sayings, descriptions

Нушаба Алиева

Использование пословиц и поговорок в романе
Исмаила Шихлы «Кура неукротимая»
Резюме

Проза Исмаила Шихлы в Азербайджанской литературе XX века представляет важный период. Писатель является автором таких произведений как «Расходящиеся пути», «Кура неукротимая», « Мой погибший мир». И.Шихлы начинал свое художественное творчество с лирики. В то же время он написал много критических статей. Может быть поэтому в его произведениях нельзя встретить лишних выражений. Можно с уверенностью сказать, что произведения писателя являются вершиной Азербайджанского литературного языка. Все писатели и поэты стараются использовать в произведениях пословицы и поговорки. Но эти попытки не всегда бывают удачными. По-нашему, это происходит потому, что они неумело пользуются живым народным языком. Исмаил Шихлы достойно продолжил традиции Азербайджанской литературы X1X века. Творчество Абдурагим бека Хагвердиева, Наджаф бека Везирова наглядное подтверждение сказанному. В XX веке Джафар Джаббарлы прекрасно использовал пословицы и поговорки. Потому что ими можно выразить все оттенки значений.Исмаил Шихлы в романе «Кура неукротимая» пословицы и поговорки использовал для создания образов. Характеристика образов будто скрыта за «речью». Писатель использует слова, соответствующие эпохе и среде. Он не осовременивает язык героев искусственным путем. Это способствует созданию индивидуальных и колоритных образов. Правильное использование пословиц и поговорок – это успех автора. В статье ставилась цель – исследование именно вышесказанных проблем.

Ключевые слова: Исмаил Шихлы, Кура неукротимая, система образов, женские образы, пословицы, поговорки, описания

Redaksiyaya daxil olma tarixi: 22.12.2019
Çapa qəbul olunma tarixi: 20.01.2020
Filologiya üzrə fəlsəfə doktoru Sevda Kadiyeva tərəfindən
çapa tövsiyə olunmuşdur.

NILUFƏR MAHMUDOVA
Baki Dövlət Universiteti
Zahid Xelil küç
nilufer.mahmudova@gmail.com

АББРЕВИАТУРА В СРЕДСТВАХ МАССОВОЙ ИНФОРМАЦИИ

Резюме

С развитием телекоммуникации, общества, науки и технологии сокращенные слова начали использоваться в средствах массовой информации. Еще одна причина использования сокращенных слов в средствах массовой информации - создание художественной экспрессии и игры слов. Сокращенные слова пополняют словарный запас. Необходимо также отметить тенденцию языковой экономии, которая приводит к экономии пространства при написании и времени. Язык развивается в обществе и любые изменения влияют на язык. Средства массовой информации отражают все изменения языка. Язык СМИ обладает высокой информативностью, лаконичностью, которое позволяет широко использовать аббревиацию. На данный момент эта сфера широко развивается, и появляются новые сокращенные слова, так как охватывает большую аудиторию. Аббревиации встречаются как в письменном, так и устной речи языка СМИ. Сокращенные слова можно встретить в газетах, журналах, книгах, авторских книгах, электронных книгах, в телепрограммах, в новостных роликах, рекламе, на плакатах, стенд газетах, объявлениях, электронных письмах, социальных сетях и переписках, СМС сообщениях. Многие сокращенные слова нуждаются в расшифровки, некоторые из них понятны читателю без расшифровки, так как наиболее популярны в общении. Однако, если используется сокращённое слово в контексте, то с начало необходимо дать его полную форму, а зачем при втором упоминание дать сокращенную форму слова. В средствах массовой информации используются различные типы сокращенных слов: буквенные, графические. Некоторые аббревиатуры используются в кириллической, некоторые в латинской графике. В данной статье приводятся примеры сокращенных слов в средствах массовой информации, которые позволяют отличить типы аббревиатур. Данная статья будет полезна для дальнейшего изучения аббревиации как продуктивного способа словообразования.

Ключевые слова: Средство массовой информации, язык СМИ, словообразование, сокращения

В настоящее время можно заметить, большое количество аббревиатур в СМИ (средствах массовой информации), что связано с развитием телекоммуникации, общества, науки и технологии. Средства массовой информации создают новые типы сокращенных слов. Средства масс-медиа используют общеупотребительные сокращенные слова, которые наиболее известны простому народу. Сокращенные слова такого характера не требуют расшифровки, так как они бывают понятны аудитории. Существует также авторские сокращения, которые требуют обязательной расшифровки сокращённых слов. Такие сокращения часто встречаются в стихотворениях, авторских статьях. Несмотря на это, при любом сокращении необходимо давать полную форму сокращенному слову, то есть его расшифровку, а в дальнейшим использовать сокращенное слово.Сокращенные слова в языке СМИ являются малоизученными и требуют дальнейшего изучения. Современная лингвистика уделяет большое внимание аббревиациям в сфере средств массовой информации, это связано не только с целью экономии времени и пространства в письменном виде, но и является средством создания экспрессии, художественной выразительности и языковой игры. СМИ отражает любые изменения, которые происходят в жизни общества и человека. Сокращенные слова широко распространены в телевизионных эфирах, названиях каналов, передач и шоу (*АЗтв, АТВ, РЕН тв, НТВ* и т.д.).Основной задачей языка прессы является передать ту или иную информацию читателю, при этом создать у него определенные впечатления и убедить его в этом. Поэтому журналисты часто приходят к публицистическому стилю передачи информации, а именно к экспрессии. Как известно, основными функциями прессы являются информационность, воздействие, экспрессивность, просвещение, и развлечение читателя. СМИ - это массовая коммуникация, которая занимается передачей информации, сюда можно отнести: газеты, журналы, телевидение, радио, интернет, социальные сети. К сожалению, в современное время интернет и новые коммуникативные технологии заменили книги, театры, музеи, филармонии и др. Как мы видим, электронные газеты стали постепенно вытеснять бумажные газеты, но это не говорит о том, что электронные газеты не используют аббревиатуры, они также богаты аббревиациями, и их основная цель, используя сокращенные слова, передать больше информации, при этом использовать меньше времени и занимать меньше времени при передаче информации.Самые популярные способы образования аббревиатур в новостях и СМИ – это графические и буквенные сокращенные слова.

В СМИ наиболее продуктивным способом образования аббревиатур является инициальный способ образования аббревиатур, в основу которого, входят первые буквы сокращенных слов, к примеру, приведем несколько сокращенных слов: *АиФ (аргументы и факты), МК (Московский Комсомолец)*. Графические (которые бывают заметны при письме *к/т – кинотеатр, млрд. –*

миллиард), а также сложносокращенные и заимственные аббревиатуры (*ЮНЕСКО, УЕФА* – это аббревиации, которые используют кириллицу) отстаивают свое место в разделах СМИ.

В связи с развитием интернета и социальных сетей, большое распространение получили форумы - групповое общение компьютерных пользователей того или иного сайта, их объединяет тематическая дискуссия и обмен мнений, советами. Пользователи форумов также прибегают к сокращениям слов, тут наиболее популярны – буквенные аббревиации.

Согласно Кувшинской, самым популярным способом общения в форумах является инициальный способ образования аббревиатур, особенно буквенные. В веб-общение и социальных перепискаx также популярен другой способ – разговорные сокращения одного слова с помощью усечения части слова, например, *магаз – магазин; счас (щас) –сейчас* [3; 32-33; 34-35]. В форумном общение и социальных сетях малоиспользуемыми сокращениями являются слоговые и слого-словные аббревиации, которые встречаются в веб-общении немного чаще слоговых [3;34-35]. По ее мнение англоязычные аббревиатуры используются реже русскоязычных исходных вариантов: *BTW (by the way) – кста –(кстати)*. Трофимова считает, что в веб-общение часто используются транскрибирование (*чат, офлайн*), усечение (*конфа*) и редуцирование (*комп, плз, спс - спасибо*) [4; 95]В СМИ аббревиацию часто используют для сокращения длинных слов, учреждений, организаций, передачи большой информации. Так, например, Трофимова считает основной функцией использования сокращенных слов в СМИ – быстрое написание слов и быстрое чтение комментариев. Голуб видит причины использования аббревиатур и сокращений в газетных текстах в экономии места [1; 37].Мы поддерживаем мнение Голуб о том, что в газетах и электронном общение сокращенные слова используются для экономии места, но в тоже время, мы не можем отрицать, что основной причиной использования сокращенных слов в СМИ является способ экспрессивности и выразительности. Сокращению подвергаются различные телеканалы, телевещание, передачи. Особо следует отметить само слово *ТВ* (*телевидение*), а также словообразовательную цепочку, состоящую из них *ТВ – прогноз, ТВ – программа, ТВ – центр*. В словарном составе телевидения встречаются инициальные аббревиатуры: *АТВ*; буквенные – *НТВ, СТВ, ОРТ; AZ.TV – Azərbaycan Televiziya Verilişləri; ANS (Azerbaijan News Service)*, хоть канал функционирует в Азербайджане, но название его взяли из производных английских слов. Следует отметить, что в азербайджанском языке нет согласного звука *–es* (есть звук *–se*), который читается в данной сокращенной цепочки и это вызывает путаницу с лингвистической точки зрения. А также смешанный тип буквенно-звуковой – *РЭН-ТВ*. В речи можно встретить и деривативные формы этих слов, например: *ОРТ—> ОРТшники*

(оэртэш-ники ,НТВ—>НТВшник(и),(энтэвэшник(и)). Таким образом, сокращенных слова можно склонять и образовывать производные из них.

Литература

1. Голуб, И.Б. Русский язык и культура речи. Москва. Издательство “Логос”.2010.
2. Костомаров В. Г. Наш язык в действии. Очерки современной русской стилистики. М.: Гардарики, 2005. С. 23.
3. Кувшинская, М.Ю. 2014. Аббревиация в речи интернет-форумов. Под. ред. Ахапкина, Я.Э., Рахилина, Е.В. 2014. Современный русский язык в Интернете. Языки славянской культуры. Коллектив авторов. Москва.
4. Трофимова, Г. Н. 2009 Языковой вкус интернет-эпохи в России. Функционирование русского языка в Интернете: концептуальносущностные доминанты: Монография. 2-е изд., испр. и доп. Москва.Изд. РУДН. 436с.

N.Makhmudova

Abbreviation in the Mass Media

Summary

With the development of telecommunication, society, science and technology abbreviations started to be used widely in Mass Media. The other reason of using abbreviations in the Mass Media is a way of making artistic expression and wordplay. Shortened words replenish vocabulary. It should also be noted the tendency of the language economy which leads to time and space saving during writing. A language develops in society and any changes in it affect the language. The Mass Media reflects all the language changes. The language of Media is highly informative and concise which makes abbreviations be used widely. Now this sphere is developing widely, and new shortened words appear as it covers a large audience. Abbreviations are found in both written and spoken language of the media. Shortened words can be found in newspapers, magazines, books, copyright books, electronic books, television programs, news clips, advertisements, on posters, newspaper booths, announcements, emails, social networks and correspondence, SMS messages. Many shortened words need decoding, some of them are clear to the reader without decryption if they are most popular in communication. However, if a shortened word is used in context, it is necessary to give its full form at the beginning of the contest and in the second mention to give a shortened form of the word. The media use various types of shortened words: alphabetic, graphic. Some abbreviations are used in Cyrillic, some in Latin script. This article provides examples of shortened

words in the media that distinguish types of abbreviations. This article will be useful for further study of abbreviation as a productive way of word formation.

Key words: Mass Media, the language of Media, word formation, shortenings

N. Mahmudova

Kütləvi İnformasiya Vasitələrində abbreviasiya

Xülasə

Telekomunikasiya, cəmiyyət, elm və texnologiya inkişaf etdikcə ixtisar sözlər kütləvi informasiya vasitələrinə daxil olmağa başlayıb. Kütləvi informasiya vasitələrində ixtisar sözlərin istifadəsinin digər səbəbi isə bədii ekspresiyani və dil oyununu yaratmaqdır. İxtisar sözlər söz ehtiyatını artırır. Yazı zamanı məkan və vaxt qənaətinə səbəb olan dil qənaət tendensiyasını da qeyd etmək lazimdır. Dil cəmiyyətdə inkişaf edir və hər hansı bir dəyişiklik dilə təsir edir. Kütləvi İnformasiya Vasitələri bütün dil dəyişikliklərini əks etdirir. KİV dili yüksək məlumata, ixtisar sözləri geniş istifadə etməyə imkan verən lokanizma malikdir. Hal-hazırda bu sahə geniş inkişaf edir və geniş bir kütləni əhatə etdiyi üçün yeni qısaldılmış sözlər meydana çıxır. İxtisarlar KİV-in həm yazılı, həm də danışıq dilində olur. Qısaldılmış sözlərə qəzetlərdə, jurnallarda, kitablarda, müəllif hüquqları kitablarında, elektron kitablarda, televiziya proqramlarında, xəbər kliplərində, reklamlarda, afişalarda, qəzet stendlərində, elanlarda, elektron poçtlarda, sosial şəbəkələrdə və yazışmalarda, SMS mesajlarında rast gəlmək olar. Qısaldılmış sözlərin çoxu şifrələnməlidir, onlardan bəziləri ünsiyyətdə çox populyar olduğundan, şifrələnmədən oxucuya aydındır. Əgər bir qısaldılmış söz kontekstdə istifadə olunursa, əvvəldən onun tam formasını və ikinci qeyddə sözün qısaldılmış formasını vermək lazımdır. Kütləvi İnformasiya Vasitələrində müxtəlif növ qısaldılmış sözlərdən istifadə edilir: hərfi, qrafik. Bəzi ixtisarlar kiril, bəziləri latın qrafikasında istifadə olunur. Bu məqalədə Kütləvi İnformasiya Vasitələrində ixtisar növlərini ayırd edən qısaldılmış sözlərin nümunələri təqdim olunur. Bu məqalə, söz yaradıcılığında məhsuldar vasıtə kimi ixtisarın gələcək öyrənilməsi üçün faydalı olacaqdır.

Açar sözlər: Kütləvi informasiya vasitələri, KİV dili, sözyaradıcı, ixtisarlar

Redaksiyaya daxil olma tarixi: 12.12.2019
Çapa qəbul olunma tarixi: 19.01.2020
Filologiya üzrə fəlsəfə doktoru Abbas Abbasov tərəfindən
çapa tövsiyə olunmuşdur.

RUBABE MUSAEVA
Azerbaijan State Economic Universitety
Pr.Istiqlaliyat 6.
rubabamusaeva@gmail.ru

THE PERSON'S USAGE OF ENGLISH IN CULTURAL AND PUBLIC SPACE OF THE USA

Summary

To date, English is the most common and a significant language in the world. Dialects of the English language - a set of dialects that have developed in the British Isles, emerged as a result of the expansion of the British Empire and -after World War II - the influence of the United States around the globe. The number of dialects and English languages and pidgins is quite large.

The study of dialects gives invaluable and truly inexhaustible material not only for penetration into the deepest origins of the language, but also for in historical past, but allows us to assess and understand, without bias and unisteralism, the features of the formation and development of the literary norm, of various social and proffessional voices, as well as linguistic variants. Only the recording of dialectal data opens the opportunity to understand, not only the so - called "deviations" from the rules of pronunciation and grammar, but these rules themselves, and can serve as a solid basis for studying the formation and development of meanings of words [1-.p.21].

There is it point of view that dialects are a "vulgar speech" used by "uneducated" layers of society. However, such a judgment is anti - historical and incorrect in fact, because, firstly, the literary norm, as a rule, develops on the bests of one or several local dialects. Secondly, the linguistic features of any local dialects are due not to "negligence" of the speeches of its bearers, but 82 strict historical laws.

English does not have a central body coordinating its development, such as, for example: the Academy for the language, which leads to the absence of a single language norm. the two most common standardized dialects of the English language are the "British (Royal) English" based on the southern British dialects and "American (General American) English" based on the mid - Western American dialects.

Key words: English,pronunciation,dialects,grammar,development..

English in Canada or African American and South American English in the United Menawhile, it seems clear that the real parters of the according relationship between the American and British verious of fr English language can be not by simply listing their distinctive features. but only by revealing the specific weight cf

the distinctive elements, as well as the scale and depth of the differences at all levels of the linguistic structure. And this can be achieved only if the distinctive and common elements are considered as an integral part of a single language system. Dialect is a unique language, which uses for communication a separate group of persons. As a rule, these people live on the same territory or belong to the same social status and profession.There is a certain pattern, which is that different dialects are usually observed among the inhabitants of rural areas[2-.p.125]. As a rule, two types of dialects are distinguished, one of which is territorial. and the other is social. Thus, we see American standard of English language at the phonetic level has a number of spesific features, distinguishing it from British English. Most often differences in the pronunciation of vowel sounds, rather than consonants, widely retro flexion is widespread. Also sometimes there are lexemes, whose pronunciation does not meet the American standard Pronunciation, which can be characteristic of a certain regional pronunciation Territorial dialect is a kind of language that is used in a particular territory as a means of communication of local residents A social dialect is a language spoken by a specific social group of the population. The work carried out contributed to a deeper penetration into the structure of the language, the history of emergence of various variants of the English language. especially the American dialect. As already mentioned, there are manv dialects in the English language. The aim of the work was to study the differences between the two main English - versions British English and American English. The analysis of the sources showed that the main distinguishing features relate mainly to the folowing layers of language vocabulary, and grammatical structure [3.p.44]. The greatest discrepancy lies in the sound variety of British and American dialects, the less subject to change is the grammatical structure of the language, especially the written English language, the so - called Standart English. But the biggest and most noticeable difference is pronunciation.

-on the street (Am) — in the street (Br),

-He' s in the hospital (Am) — He's in hospital (Br).

This can easily be found in the utterance of in the words port, more, dinner. While this sound is not pronunced in British English, the inhabitants of Scotland have such a sound dominating in the spech. The English language surprise a variety of varieties of dialects. There are two most common standardized dialects of English. The second dialects of English is “American English” which, as you might guess, is based on the mid-Western American dialect. We also found that the quantitative growth of Americanisms is closely related to the history of the language (and mainly vocabulary as its most mobile part) and the history of the development of American society. Dialects of the language and the literary standart (example, normalized language, the norms of which are perceived as “correct” and universally binding. and which is opposed to dialects and common sense, are inextricably linked not only because dialectal speech arises on the basis of the standard, but also because, as

a rule, The language standard of the English language is not an exception. in the 15th century, Britain was abundant in the presence of many different dialects as it incteased I flowed the village to the city, these dialects became more and more nuxed up and the result was a linguistic standard (it could be said that originally it was the London form of the southeast dialect). Over time, this language was perfected and was recognized as a language on which said the educated part of the population of the country [4-,p.77-83].

Meaningful practice refers to an activity where language control is still provided but where students are required to make meaningful choices when carrying out practice. For example, in order to practice the use of prepositions to describe locations of places, students might be given a street map with various buildings identified in different locations. They are also given a list of prepositions such as across from, on the corner of, near, on, next to. They then have to answer questions such as: Where is the book shop? Where is the cafe? etc.

The practice is now meaningful because they have to respond according to the location of places on the map.

Communicative practice refers to activities where practice in using language within a real, communicative context is the focus, where real information is

exchanged, and where the language used is not totally predictable.

For example, students might have to draw a map of their neighbourhood and answer questions about the location of different places, such as the nearest bus stop, the nearest cafe, etc. Exercise sequences take students from mechanical, to meaningful, to communicative practice.

Since the language classroom is intended as a preparation for survival in the real world and since real communication is a defining characteristic of Communicative Language Teaching, an issue which soon emerged was the relationship between classroom activities and real life. Some argued that classroom activities should as far as possible mirror the real world and use real world or authentic sources as the basis for classroom learning. Clarke and Silberstein (8, 51) thus argued:

Classroom activities should parallel the real world as closely as possible.

Since language is a tool of communication, methods and materials should concentrate on the message and not the medium.

The purposes of reading should be the same in class as they are in real life.

Arguments in favor of the use of authentic materials include:

- they provide cultural information about the target language,
- they provide exposure to real language,
- they relate more closely to learners needs,
- they relate more closely to learners needs,
- they support a more creative approach to teaching.

Others argued that it is not important if classroom materials themselves are derived from authentic texts and other forms of input, as long as the learning processes they facilitated were authentic. Critics of the case for authentic materials point out that: created materials can also be motivating for learners, created materials may be superior to authentic materials because they are generally built around a graded syllabus, authentic materials often contain difficult and irrelevant language, using authentic materials is a burden for teachers.

Since the 1990s, the communicative approach has been widely implemented. Because it describes a set of very general principles grounded in the notion of communicative competence as the goal of second and foreign language teaching, and a communicative syllabus and methodology as the way of achieving this goal, communicative language teaching has continued to evolve as our understanding of the processes of second language learning has developed. Current communicative language teaching theory and practice thus draws on a number of different educational paradigms and traditions, and since it draws on a number of diverse sources, there is no single or agreed upon set of practices that characterize current communicative language teaching. Rather, communicative “gunge teaching today refers to a set of generally agreed upon principles that can be applied in different

ways, depending on the teaching context, the age of the learners, their level, their learning goals, and so on. The following core assumptions or variants of them underlie current practices in communicative language teaching.

Ten Core Assumptions of Current Communicative Language Teaching

1. Second language learning is facilitated when learners are engaged in interaction and meaningful communication.

2. Effective classroom learning tasks and exercises provide opportunities for students to negotiate meaning, expand their language resources, notice how language is used, and take part in meaningful interpersonal exchange.

3. Meaningful communication results from students processing content that is relevant, purposeful, interesting, and engaging.

4. Communication is a holistic process that often calls upon the use of several language skills or modalities.

5. Language learning is facilitated both by activities that involve inductive or discovery learning of underlying rules of language use and organization, as well as by those involving language analysis and reflection.

6. Language learning is a-gradual process that involves creative use of language, and trial and error. Although errors are a normal product of learning, the ultimate goal of learning is to be able to use the new language both accurately and fluently.

7. Learners develop their own routes to language learning, progress at different rates, and have different needs and motivations for language learning.

8. Successful language learning involves the use of effective learning and communication strategies.

9. The role of the teacher in the language classroom is that of a facilitator, who creates a classroom climate conducive to language learning and provides opportunities for students to use and practice the language and to reflect on language use and language learning.

10. The classroom is a community where learners learn through collaboration and sharing.

All of these theories are important in trying to design successful models for foreign language teaching. Theories of communicative competence and communicative language teaching have contributed a great deal to our understanding of language acquisition. We need to continue studying and clearing up confusion in the area of communicative competence.

Foreign language teachers and those who design educational materials are especially affected since approaches to language learning using theories of communicative competence place high demands on teachers and material designers. Understanding the concepts of communicative competence and applying them to language teaching is hard work, but the benefits to our students' language learning are well worth the time invested.

References

1. Galloway, Ann. Communicative Language Teaching An Introduction and Sample Activities. Washington, DC: ERIC Clearinghouse for ESL Literary Education, 1993
2. Arlington Education and Employment Program (2003) REEP Adult ESL Curriculum: ESL Techniques.
3. Moss, D. “Teaching for Communicative Competence: Interaction in the ESOL Classroom” in Focus on Basics, Volume 7, Issue C, March 2005.
4. Moss, D. “Interactive Classroom Activities” in Focus on Basics. Volume 8. Issue A. November 2005
5. Sandra J. Savignon. 2001. “Communicative Language Teaching for the Twenty-first Century”, Teaching English as a Second and Foreign Language, ed. Marianne CelceMurcia, Heinel & Heinel,.
6. Savignon, S.J. 1997. Communicative Competence: Theory and Classroom Practice. New York: McGraw Hill.
7. Celce Murcia , "Communicative Language Teaching”, London, 1991.
8. Clarke. ‘’Communicative teaching activities”, Washington, DC. USA, 2005,

.

С.Садыхова

Роль коммуникативной компетенции в обучении иностранному языку

Резюме

В статье показывается, что задача учителя и учеников научиться работать сообща, отойти от индивидуализированного обучения. Ученик учится слушать своих товарищей, вести беседы и дискуссии в группе, работать над проектами вместе с другими участниками группы. Одна из целей КК- развить свободное владение языком. Свободное владение-это использование естественного языка, возникающее, когда говорящий вступает в значимое взаимодействие и поддерживает понятное и постоянное общение, несмотря на ограничения в его или ее коммуникативной компетенции. Свободное владение развивается путем создания учебных занятий, в которых учащиеся должны обговаривать смысл, использовать коммуникационные стратегии, исправлять недоразумения и работать, чтобы избежать нарушений коммуникации. Миллионы людей сегодня хотят улучшить свое владение английским языком или обеспечить, чтобы их дети хорошо владели английским языком. А возможности для изучения английского языка предоставляются различными способами, такими как формальное обучение, поездки, учеба за границей, а также через средства массовой информации и Интернет.

Коммуникативное обучение языку можно понимать как совокупность принципов, касающихся целей преподавания языка, того, как учащиеся изучают язык, видов деятельности в классе, которые лучше всего способствуют обучению, а также роли преподавателей и учащихся в классе.

Обучение коммуникативному языку ставит своей целью обучение коммуникативной компетентности.

Грамматическая компетентность относится к знанию языка, который объясняет нашу способность составлять предложения на языке. Это относится к знанию строительных блоков предложений (например, частей речи, времен, фраз, фраз, шаблонов предложений), и теперь предложения формируются. Грамматическая компетентность является предметом многих учебников по грамматике, которые, как правило, представляют правило грамматики на одной странице и предоставляют упражнения для практики с использованием правила на другой странице. Единицей анализа и практики обычно является предложение. Хотя грамматическая компетентность является важным аспектом изучения языка, очевидно, что это не все, что связано с изучением языка, поскольку можно овладеть правилами формирования предложений на языке и при этом не очень успешно использовать язык для значимого коммуникации. Это последняя способность, которая понимается под термином коммуникативная компетентность.

Ключевые слова: разговорный, компетенция, умение, требование, критерия

S.Sadıxova

Xarici dilin tədrisində kommunikativ səriştənin rolu

Xülasə

Bu məqalə ingilis dilinin kommunikativ yolla öyrənilməsinin üsulları və metodlarından bəhs edir. İngilis dilinin öyrədilməsinin müxtəlif yolları mövcuddur. Ənənəvi üsullardan fərqli olaraq, kommunikativ təlim dil strukturundan normalara uyğun şəkildə istifadə etmək bacarığının tələbələrə ünsiyyət prosesində aşılanmasını əsas məqsəd kimi irəli sürür.

Kommunikativ təlimin məqsədlərindən biri də dil istifadəsində səlisliyi inkişaf etdirməkdir. Sərbəstlik, ünsiyyət qabiliyyətindəki məhdudiyyətlərə baxmayaraq başa düşülən və davamlı ünsiyyət saxladığı zaman meydana gələn təbii dildir. Ünsiyyət qurduqları zaman danışan ünsiyyət strategiyalarından istifadə etməli, düzgün, səlist, mənalı, anlaşılan ünsiyyət qurmağa çalışmalıdır. Bu gün milyonlarla insan İngilis dilini inkişaf etdirmək və ya övladlarının ingilis dilini yaxşı bilmələrini təmin etmək

istəyir. İngilis dilini öyrənmək üçün fürsətlər rəsmi təlim, səyahət, xaricdə təhsil, habelə media və internet vasitəsilə müxtəlif yollarla təmin olunur.

Kommunikativ dildə tədris dedikdə bir dilin tədrisi məqsədləri, tələbələrin bir dil öyrənməsi, sinifdə öyrənməyə ən yaxşı töhfə verən fəaliyyət növləri, müəllim və tələbələrin rolları ilə əlaqəli prinsiplər toplusu başa düşülə bilər.
Kommunikativ dilin tədrisi kommunikativ səriştənin tədrisi məqsədi daşıyır. Qrammatik bacarıq dedikdə, bir dildə cümlə qurmaq qabiliyyətimizi izah edən dil biliklərinə aiddir. Bu, cümlələrin quruluş blokları (məsələn, nitq hissələri, gərginliklər, ifadələr, ifadələr, cümlə nümunələri) haqqında biliklərə aiddir və indi cümlələr formalaşmaqdadır.. Qrammatik bacarıq dil öyrənmənin vacib bir tərəfi olsa da, bu dildə öyrənmə ilə əlaqəli olanların hamısının olmadığı açıqdır, çünki bir dildə cümlələr yaratmaq qaydalarını mənimsəməyinmiz və mənalı ünsiyyət üçün çox önəmli şərtlərdən biridir.. Bu, kommunikativ səriştə termini ilə başa düşülən mühüm qabiliyyətdir.

Açar sözlər: kommunikativ, səriştə, bacarıq, yaratmaq, tələb, meyar

Redaksiyaya daxil olma tarixi: 12.12.2019
Çapa qəbul olunma tarixi: 24.012020
Filologiya üzrə fəlsəfə doktoru Elmira Əliyeva tərəfindənçapa tövsiyə olunmuşdur.

NƏSRİN ƏLİBƏYLİ
BDU
Zahid Xəlil küç
alibeyli nesrin@gmail.com

"SƏYAHƏT" KONSEPTİNİN PAREMIOLOJİ VAHİDLƏRDƏ İFADƏSİ

Xülasə

Bu məqalə "konsept" terminin mənası və tədqiqatından bəhs edir. Müasir dilçilik üçün aktual olan "konsept" termini koqnitiv dilçiliyin əsas tədqiqat obyektlərindən biridir. Konsept dil vahidlərində üzə çıxır. Konsept barəsində bir çox yanaşmalar vardır.Konseptin fəaliyyəti müxtəlif dillərin materialları əsasında müqayisəli öyrənilir. Linqivistik enskilopedik lüğətə "konsept" termini daxil edilməsə də "anlayış" sözü ilə sinonim götürülə bilər. Bu gün "konsept" termini dilçiliyin müxtəlif sahələrində geniş şəkildə istifadə olunur.Dilçilikdə sözdən fərqli olaraq konseptin daha çox qarışıq qurluşu var.Konseptin mənası iki yerə bölünür: dilçilik və mədəni məna.

Konseptlər şüur ünsürləri kimi dildə tam müstəqildir.Koqnitiv dilçilik anlayışına əsasən konseptin əlaqəsi ifadənin verbal (birbaşa) mənası ilə əlaqəlidir.Dil konseptləri yaratmır ,lakin onların mübadiləsinə və ünsiyyət prosesində müzakirəsinə xidmət edir.

Bu məqalədə konsept terminini və onun mənası haqqında bütün fikirlər ümumiləşdirilmişdir. Eyni zamanda müxtəlif dillərdə "səyahət" konsepti haqqında atalar sözləri və məsəllərin təhlilindən bəhs edilir. Paremiologiya -(qədim yunan dilində paroimia — ibrətli hekayə, atalar sözü və logos — söz, öyrənmə) filologiya elminin xalqların həyat təcrübələrinə, baxışlarına, mənəvi dəyərlərinə əsaslanan qısa, verbal və obrazlı ifadələr olan atalar sözləri, məsəllər, deyimlər, şüarlar, devizlər, aforizmlər və başqa bu kimi ifadələrin öyrənilməsi və təsnif edilməsi ilə məşğul olan bir hissəsidir.Atalar sözləri və məsəllər xalqın mədəniyyətini düşüncəsini və dəyərlərini özündə əks etdirir.Onlar konseptlərin verballaşması sahəsində yüksək ekspressivliyi ilə seçilir.Paremioloji vahidlər bütün dillərdə əsaslı bir fond təşkil edir. Təhlil etdikdə müxtəlif dillərin linqvo mədəniyyətlərində "səyahət" konseptinin bir neçə dəyərli komponentləri və xarakteristik xüsusiyyətləri aşkarlanmışdır.

Açar sözlər: konsept, linqvo mədəniyyət, səyahət, atalar sözü, məsəllər

Konsept termini dilçilikdə tez-tez rast gəldiyimiz və Avropa dilçiliyində çoxdan işlənən termin olsa da, ancaq terminoloji baxımdan bu, ayrı-ayrı dövrlərdə nisbətən fərqli mənalara malik olmuşdur. Müasir rus dilçiliyində müxtəlif konsepsiya və nəzəriyyələr mövcuddur. Rus dilçiliyində S.A.Askoldov ilk dəfə 1928-ci ildə "konsept" terminini terminini tamamilə yeni bir mənada işlətmiş və konseptlə bağlı problemi yeni səpkidə qoymuşdur [4, s.267-279]. Rus dilçisi Y.S.Stepanov isə konsepti aşağıdakı strukturda nəzərdə tuturdu:

1.Əsas əlamət. Bu, həmin dil daşıyıcısının hamısına məlumdur.

2. Passiv əlamət. Bu, bir sosial qrup üçün məlumdur.

3. Daxili forma. Bu da tədqiqatçılar tərəfindən müəyyənləşdirilir [5, c.46-54].

Konsept nəzəriyyəsi haqqında araşdırma aparan Azərbaycan dilçisi Ə.Ə.Abdullayev tədqiqatında aşağıdakıları təklif etmişdir [1, s.220]:

1. Hər təbii dil dünyanın qavranması və təşkilinin müəyyən üsulunu əks etdirir; ifadə onda edilən mənalar bir növ nöqteyi – nəzərlər sistemi vahidi, onun bütün təmsilçilərinin dil adlandırdığı kollektiv fəlsəfədir;

2. Dünyanın konseptuallaşması barədə dilə xas olan üsul qismən milli spesifikdir;

3. Dünyaya baxış (konseptuallaşma üsulu) bu mənada "sadəlövhdür" ki, o, dünyanın elmi mənzərəsindən fərqlidir, lakin bu bəsit təsəvvür deyil.

E.Piriyev "konsept" termini barədə yazırdı ki, "milli mentalitetlərin də mühüm fərqləri bir tərəfdən dildə əks olunur, digər tərəfdən isə dillə müəyyən olunur. Hər halda dil vahidlərinin təşəkkülü koqnitiv bazada baş verir. Bəzi hallarda bu koqnitiv baza müasir dil səviyyəsində dərk olunur, bəzi hallarda isə dərk olunmur, "oxunmur". Koqnitiv baza bizə qaranlıq qalanda bu heç də onun olmaması demək deyil" [2, s.108]. F.Veysəllinin fikrincə isə "konsept" dünya haqqında bilikləri yadda saxlamaq funksiyasını yerinə yetirir. Koqnisiya sistemi subyektiv təcrübə vahidlərini yadda saxlayıb onları müəyyən əlamətlər əsasında koqnitiv strukturlara - informasiya siniflərinə bölür. Bu koqnitiv strukturlar vasitəsilə insanın ünsiyyətdə fəaliyyəti və göndərilən informasiyanın başa düşülməsi öz həllini tapır [3, s.32]. V.İ.Karasikin fikirincə, dil şüurunda mədəni konsept mənaların çoxölçülü zənciri kimi verilir və leksik, frazeoloji, paremioloji vahidlərlə, etiket düsturları, nitq davranışı taktikaları ilə ifadə olunur.

Atalar sözləri və zərb məsəllər konseptlərin verballaşması sahəsində yüksək ekspressivliyi ilə seçilir. Paremiyaların digər növləri dilin frazeoloji səviyyəsinin periferik vahidlər statusu ilə fərqlənir. İvanova qeyd edir ki, atalar sözlərinin semantikası freym və ssenariləri təqdim edir, bir çox hallarda implisit zəmanət səciyyəsi daşıyır, yəni vəziyyətdən necə çıxmanı əks etdirir. Bununla belə, freym mənbə rolunu biliklərin müxtəlif sahələri oynayır. Lakin paremiyaların bir xüsusiyyəti ondan ibarətdir ki, onlar etnosun həyatının müxtəlif aspektlərini aktuallaşdıraraq yeni ümumi, müştərək məna kəsb edə bilər və beləliklə, bir neçə konseptlə əlaqə yaradar. Başqa sözlə desək, paremiologiyada mürəkkəb məsələ atalar

sözlərinin mənasının dərkidir, belə ki, atalar sözləri müxtəlif şərhi özündə əks etdirə bilər. “Səyahət” konseptinin müxtəlif dillərdə paremioloji vahidlərdə ifadəsinə baxsaq, müxtəlif mənalarda işləndiyini müşahidə edə bilərik:

Azərbaycan dilində səyahət konsepti paremioloji vahidlərdə aşağıdakı mənaları ifadə edə bilər:

-vətənə sevgi

Gəzməyə qərib ölkə ölməyə vətən yaxşı.

-səyahətin vacibliyi

Yüz dəfə eşitməkdənsə bir dəfə görmək yaxşıdır.

Su qaldıqca iylənər.

-səyahətdə vaxtın vacibliyi

Yolçu yolunda gərək.

-insanı tanımaq

Dost yolda tanınar.

“Qardaşın kimdir?”- “yol yoldaşı olmamışıq”.

Yoldaşı yolda tanı.

-“səyahət” sözü “yayılmaq” sözü mənasında

Qara xəbər tez yayılar.

Rus dilində :

- səyahətin vacibliyini:

1) Стоячая вода гниет.

2) Глаза не видят, так и душа не ведает.

3) Где дорога, там и путь.

4) Хвали заморье, на печи сидючи.

5) Мир, что огород: в нём всё растёт.

6) На людей посмотреть и себя показать.

7) И камень лежа мохом обрастает.

8) Вольному воля, ходячему путь.

- səyahətin dünyagörüşünə təsirini:

1) Печка нежит, а дорожка учит.

2)Чужая сторона прибавит ума.

3) Кто путешествует, тот познает.

4) В игре да в попутье людей узнают.

- səyahət zamanı yolu tanımağın vacibliyini:

1) На дороге стоит, а дороги спрашивает.

2) Спрос все укажет.

3) Язык до Киева доведет.

4) Не ищут дороги, а спрашивают.

- doğma məkana sevgi:

1) всюду хорошо, а дома лучше.

2) За горами хорошо песни петь, а жить дома лучше.

3) За морем теплее, а у нас светлее.
4) Зачем далеко, и здесь хорошо.
5) В родном краю сокол, в чужом - ворона.
6) Всякому мила своя сторона.
7) И кулик свою сторону знает.
8) На родной стороне даже дым сладок.
9) Много стран прошёл а добро лишь на Родина нашёл.
10) На чужой стороне и орел – ворона.
11) На чужой стороне и весна не красна.
-səyahət zamanı ehtiyatlı olmağın vacibliyini:
1) Дома рука и ноги спит в дороге и головушка не дремли.
2) Домашняя дума в дорогу не годится.
- digər mədəniyyətlərə hörmətin vacibliyini:
1) В каком народе живёшь, того обычая и держись.
- yolda çətinlik görməyən həyatı yaxşı dərk edə bilməz:
1) Кто в море не бывал, тот горя не видел.
2) Кто моря не боится, тому и чёрт не страшен.
- səyahətdən əvvəl dua etməyin vacibliyini:
1) Без бога – ни до порога а с богом – хоть за море.
2) Не помолившись богу, не ездят в дорогу.
- səyahət zamanı yol yoldaşının vacibliyini:
1) Одному ехать – дорога долга.
2) Умный товарищ – половина дороги.
3) Хороший посох лучше плохого попутчика.
4) Лучше плохая дорога, чем плохой спутник [6].
İngilis dilində:
- səyahətin vacibliyini, dünaygörüşünə təsirini:
1) Travel broadens the mind.
2) A gentleman ought to travel abroad ,but dwell at home.
3) With great learning, a horse, and money, you may travel the world .
4) Travel teaches how to see.
5) He that travels far knows much.
- səyahət zamanı ehtiyatlı olmaq hazırlıqlı getmək:
1) The heaviest baggage for a traveler is an empty wallet.
2) Better to ask the way than to go astray.
3) Travelers lie by authority.
4) A hopeful heart and an open mind are the best travelling companions.
5) The more you dare, the more you win.
6) Don’t rely on others to show you the way, carry your own map.
-vətənə sevgi:
1) East or West, home is best.

2) There is no place like a home.
3) Every bird likes its own nest [7].
- "travel" sözü bu atalar sözündə yayılmaq mənasını verir:
1) Bad news travels fast.

Fransız dilində "səyahət" sözü "voyage" deməkdir. "Səyahət" konsepti fransız dilində paremioloji vahidlərdə aşağıdakı mənaları ifadə edir:

-səyahətin vacibliyini:
1) Quand on n'avance pas, on recule.
2) En voyageant on apprend.
3) Les grands voyages rendent les hommes sages.
4) Les voyages forment la jeunesse.
- səyahətin hazırlaşmağın vacibliyini:
1) Qui veut voyager loin, ménage sa monture.
- səyahətin təşkil edilməsinin vacibliyini:
1) Bon pain et bon vin aident à manger le chemin.
2) Il ne faut pas s embarquer sans biscuits.
3) Bon feu et bon vin eschauffent le chemin.
- səyahətdə səbrli olmağın vacibliyi:
1) Pas à pas on va bien loin.
2) Il vaux mieux arriver en retard qu arriver en corbillard.
3) Voyager loin c est bien mais voyager avec passion et intelligence c est mieux.
4) Qui va doucement va sùrement .
- səyahətdə ehtiyatlı olmağın vacibliyi:
1) A lounge voie paille pèse.
2) Mieux vaut la vieille voie que le nouveau sentier.
3) Il ne faut pas aller pas quatre chemins.
4) Le bois a des oreilles et le chemin des yeux.
5) C'est follie d aller de nuit quand on peut aller de jour.
- səyahətdə yol yoldaşının vacibliyini:
1) Mieux vaut etre seul que mal accompagné.
2) Les compagnons de voyqge s entrecommuniquent leurs pensées.
3) Compagnon bien parlant vaut le chariot branlant.
- səyahət zamanı hər bir mənfi hadisəyə hazır olmaq:
1) Partir c est mourir un peu – Quand on part on laisse toujours quelque chose derrière soi.
2) C'est bien allé quand on revient.
3) On sait bien quand on part mais jamais quand on revient.

Nəticə etibarilə qeyd edə bilərik ki, müxtəlif dillərdə paremioloji vahidləri təhlil etdikdə "Səyahət" konseptinin həmin dillərin linqvo mədəniyyətində "yol

yoldaşının vacibliyini, yol çıxarkən dua edilməsini, ehtiyatlı olmağı, vətənə sevgi və s.” bu kimi anlayışları ifadə etdiyini müşahidə edə bilərik.

Ədəbiyyat

1 Abdullayev Ə. Koqnitiv dilçiliyin əsasları, Bakı, 2005, s.220.
2 Piriyev E. Koqnitiv dilçilik üzrə praktikum, Dərs vəsaiti. Bakı: 2012, Mütərcim, 108 s.
3 Veysəlli F.Y. Koqnitiv dilçilik: əsas anlayışlar və perskpektivləri. Bakı: Mütərcim, 2015, 119 s.
4 Асколъдов С.А. Концепти слово. Русская словесность, М.: Academia, 1997, с.267- 279.
5 Степанов Ю.С. Константы. Словарь русской культуры. Опыт исследования. М.: Школа «Языки русской культуры», 1996. с. 46-54.
6 http://travellife.com.ua/tourism-aphorism/poslovitsyi-i-pogovorki-pro-puteshestviya-dorogu-i-turizm
7 https://www.wapititravel.com/blog/en/travel-proverbs/

Н.Алибейли

“Концепт “Путешествие” в паремиологии

Резюме

В статье приводится определение термина "концепт". В современной когнитивной лингвистике актуальным является изучение концепта, так как в его структуре отображаются признаки функционально значимые для соответствующей культуры. Раскрываются различные точки зрения.

В статье обобщаются все точки зрения термина “концепт” и дается его определение. В “ Лингвистико - энциклопедическом словаре” нет термина “концепт”. Действие концепции изучается сравнительно на основе материалов разных языков. Это всего лишь синоним термина “понятие”. В настоящее время термин концепт находит широкое применение в различных областях лингвистической науки. Концепт это единица коллективного сознания. По мнению исследователя Е.А. Кругликовой, все существующие определения термина концепт можно отнести к двум типам дополняющим друг друга:1) концепт как ментальная сущность, особая категория нашего сознания хранящая информацию об определенном фрагменте действительности; 2)концепт как ключевой элемент культуры

. В статье осуществлен анализ пословиц и поговорок на разных языках на тему “Путешествие. Паремии (греч. “paromia” — изречение, притча) — это

универсальное явление, характерное для всех языков мира. Паремиология – лингвистическая дисциплина, изучающая паремии, объединяющие в себе в широком смысле большой класс народных афоризмов: пословицы, поговорки, загадки и приметы. Пословицы представляют собой завершенный самостоятельный текст и, появляясь в каком-либо акте коммуникации, имеют информационное, когнитивное, прагматическое значение. В статье термин паремии мы в основном используем как синоним понятия пословицы. В последней трети 20 века — начале 21 веков успехи лингвистики, фольклористики и других смежных научных дисциплин, вызвали бурное развитие паремиологии..

Именно пословици и поговорки являющиеся носителями культуры и мудрости народа, позволяют представить идеалы и ценности этноса. Пословицы так же древни, как и сам язык, поэтому всегда были привлекательным материалом для изучения в разных научных разделах.

В результате анализа были обозначены ценностные составляющие концепта “Путешествие” в разной лингвокультуре и выделены его доминантные признаки.

Ключевые слова: концепт, лингвокультура, путешествие, пословицы, поговорки

N.Alibeyli

“ Travel” concept in paremiology

Summary

This article gives the meaning of the term “concept” and is dedicated to research the term of concept. In modern cognitive linguistics studying of concept is actual and as functionally significant for the corresponding culture are displayed in structure of a concept signs. Any concept is realized in language units. There are a lot of points of view about what concept is. According to the Y.Stepanov’s definition,linguo-cultural concept is a mental unit ,aimed at a comprehensive study of language,consciousness and culture. There is no dictionary entry in linguistics encyclopedic dictionary of the term “concept”.The operation of the concept is studied comparatively on the basis of material from different languages. It is only synonym of the term “conception”.

Today , the term “concept”is widely used in various fields of linguistics.In linguistics ,the concept , in contrast to a word ,has a more complicated structure.The content of the concept is divided into linguistic meaning and cultural sense. According to the linguistic – cognitive understanding the relation of the concept is

related with verbal means of expressions.Language does not form concepts ,but serves as a means of the exchange of them and for the discussion in the process of communication. This article summarize all points of view about the term concept and gives its definition. At the same time this article is devoted to the analysis of proverbs and sayings in different languages on the topic “Travel”. The study of proverbs is called paremiology (from Greek- paroimia “proverb”)and can be dated as far as Aristotle. The world’s leading paremiologist, Wolfgang Meider (1985) has defined the proverb as "a short, generally known sentence of the folk which contains wisdom, truth, morals, and traditional views in a metaphorical, fixed and memorizable form and which is handed down from generation to generation". Proverbs from different languages are popular and used many times by all people. The proverbs and sayings reflect culture and wisdom of people and present ideals and values of ethnos. As a result of the analysis some valuable components of the concept “Travel” in linguaculture of different languages were revealed and its dominant characteristics were distinguished.

Key words: concept, linguistic culture,travel, proverbs, sayings

Redaksiyaya daxil olma tarixi: 1212.2019
Çapa qəbul olunma tarixi: 17.01.2020
Filologiya elmləri doktoru Nərmin Əliyeva tərəfindənçapa tövsiyə olunmuşdur.

ƏDƏBİYYATŞÜNASLIQ

HƏCƏR VƏLİYEVA
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
istiqlaliyyət küç
E-mail: doktorant2011@yandex.ru

"MƏNAQIB-I İBRAHİM GÜLŞƏNI" ƏSƏRİNDƏ ŞEYX İBRAHİM GÜLŞƏNİNİN FÖVQƏLTƏBİİ BACARIQLARININ TƏSVİRİ

***Xülasə*:** Məqalə orta əsrlərin məşhur şairi və şeyxi gülşəniyyə təriqətinin qurucusu kimi məşhurlaşan İbrahim Gülşənidən bəhs edir. Yaradıcılığının zirvəsini "Mənaqib-i İbrahim Gülşəni" əsəri təşkil edən, dövrünün qabaqcıl şairlərindən biri, müəllif Muhyi bu əsəri öz qayınatası, möcüzəvi keyfiyyətləri ilə məşhurlaşan Şeyx İbrahim Gülşəni Bərdəiyə həsr etmişdir. Bu məqalədə əsas məqsəd "Mənaqib"ə istinadən İbrahim Gülşəninin ədəbi fəaliyyəti, təhsili, həyatına səfər etmək onu Azərbaycan torpaqlarının yetirməsi ki tanıtmaq, poetik qabiliyyətindən irəli gələn sənət nümunələrini, ədəbi üslubunu tədqiq etmək, şairin ədəbi irsi, yaradıcı istedadını ümumşərq kontekstində təbliğ etməkdir. Övliyaların dini baxışlarını ehtiva edən kult kimi "Mənaqib"də işlənən istər nəzm, istərsə də nəsr nümunələrində Azərbaycan, Orta Şərq, o cümlədən Cənub-Şərqi Anadolu və Misirdə də tarixi-əfsanəvi şəxsiyyətə çevrilən İbrahim Gülşəninin xariqüladə keyfiyyət və həyat hekayələri öz əksini tapmışdır. "Mənaqib-i İbrahim Gülşəni" əsəri orta əsrlər Osmanlı ədəbi ənənələrinə əsaslanmaqla osmanlıcanın fonetik-leksik-qrammatik normalarının tələblərinə uyğun ərəb əlifbası ilə yazılmışdır. Əgər biz İbrahim Gülşəninin lirikasına toxunsaq, ədəbi yaradıcılıq metodu, hissi-emosional düşüncə tərzinin sadə xalq folklorundan süzüldüyünü, bədii düşüncə qabiliyyətinə təsir göstərən ədəbi qəhrəmanların daxili dünyasınının xalq ruhundan qaynaqlandığını görmək mümkündür.

Açar sözlər: mənaqib, gülşəniyyə, təsəvvüf, ilahi eşq, möcüzəvi kəramətlər

"Mənaqib-i İbrahim Gülşəni" əsəri tarixi proseslərin, siyasi hadisələrin xronoloji ardıcıllığını, Yaxın Şərqin 200 illik bədii panoramasını, ictimai-mədəni mühitin kəskin təbəddülatlarını, tarixi keçmişin münaqişə dolu fövqəlbəşəri faktlarını, Ağqoyunlu hakimiyyəti dövründə tarixən Azərbaycan etnoslarının məskunlaşdığı torpaqların müntəzəm çəkişmə meydanlarına çevrildiyini sərgiləməkdədir. "Mənaqib" dövrlə bağlı həqiqi Azərbaycan reallıqlarını, Osmanlı dövlət əyalı, Misir torpaqlarında

Osmanlı idarəçiliyi, elmi, dini, mühit, ictimai asayiş haqqında dəyərli bilgiləri əxz etməklə qaranlıq məqamları işıqlandıran dövrün güzgüsü funksiyasını daşıyır.

Mütəsəvvif şəxsiyyət ilkin variantda əsərin adını "*Qəlb-i kitab-i əshab-i tərayiq*" ("Təriqət dostlarının qəlb kitabı") şəklində adlandırsa da, zamanla ad modifikasiyaya uğramaqla "Mənaqib-i İbrahim Gülşəni" qismində sabitləşməklə bir "*sai*", on "*təqəllüb*", bir "*silahdar*" və bir "*rikabdar*" bölmələri üzrə nümayan olmuşdur.

"Mənaqib-i İbrahim Gülşəni" əsərinin əvvəlki *təqəllübündə* əhl-eşqin və şövqün məxdumi həzrəti Mövlanə Xüdavəndigar Cəlaləddin Ruminin fövqəlbəşəri fəziləti, möcüzəvi bacarığı sayəsində təsəvvüf aləminin bayraqdarı, təriqət piri Gülşəni Bərdəinin həyata gəlişini 200 il öncədən müjdələməsi faktı öz əksini tapmışdır[6, s. 8]. Mövlanənin nəvələrindən Divanə Məhəmməd Çələbinin Qahirəyə gələrək zindanda olan İbrahim Gülşənini qurtarmasına dair dəyərli məlumatlarmənqəbədə təsvir olunmuşdur [1, I, s. 183]. Şeyx İbrahim Gülşəninin həyat yolçuluğu haqqında ən müfəssəl məlumatları əks etdirən "Mənaqib"ə istinadən, onun əsil-nəcabəti, soy kökü etibarilə Oğuz Ataya söykəndiyi, türklərin oğuz qrupuna mənsubluğu real həyati faktlara əsaslanır. *""Şeyx İbrahim Gülşəni"nin nəsəb-i zahirisi Oğuz Ataya irişür bu vəchlə ki zikr olunur Şeyx İbrahim ibn Mövlanə əşşeyx Məhməd ibn Mövlana Hacı İbrahim ibn əşşeyx Şəhabəddin ibn Aytoğmuş bin Güntoğmuş bin Qutlutoğmuş bin Oğuz rəhmətullah yedi atayə dəgin Oğuz nəslindən olduğuna kitablarda işarət etmişdir və oğuz vazi lisan-i türkdir..."* Gülşəni Bərdəinin qohumluq tellərinə mənaqibdə toxunulan məqam onun atasının *"Pedəri mərhum Mövlanə Şeyx Məhəmməd Amidinin fiqh, kəlam və məntiqdə müəəlifatı məruf olub* [6, s. 13]" dünyəvi elmlərə dair mükəmməl qabiliyyət, müfəssəl bacarıq nümayiş etdirməsi faktı ilə bağlıdır. İbrahim Gülşəninin anası isə "Mənaqib"də əhli-irfan sahibi Şərafəddinin qızı Hədiyətullah dünyəvi biliklərdən uzaq qadın kimi xatırlanır: *"..Mərhum Gülşəninin validəsinin nami Hədiyətullahdır ki babasi Şərəfəddinə vaqeəsində derlər ki sana bir qız hədiyyə verildi, ol səbəbdən namini Hədiyyətullah qor...*[6, s. 15"]. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Cəmaləddin Hülvi "Ləməzat"ında Gülşəninin anasını Şərifə adı ilə tanıdır [2, s. 523].

Gülşəni Bərdəinin hələ uşaq yaşlarından etibarən nümayiş etdirdiyi fövqəladə bacarıqlar, xariqüladə keyfiyyətlər onun seçilmiş tanrı bəndəsi olması, fövqəlbəşəri davranış və əməlləri ilə əqli-küllə daxili rabitə ilə sipərlənməsi fikrini bir daha izah edir. Heç də təsadüfi deyil ki, babası Şərafəddinin möcüzəvi kəramətləri İbrahim Gülşəniyə irsi yolla nəsildən-nəslə keçməklə ötürülmüşdür. Tədqiqatçı Məhəmməd Sürəyya da Gülşəninin seyidliyini ana tərəfi ilə bağlayır. [4, III, s. 755]. Gülşəninin doğulduğu andan etibarən nümayiş etdirdiyi fövqəladə keyfiyyətlər, möcüzəvi hərəkətlər hələ iki yaşlı danışa bilməyən körpənin xalq arasında eşitdiklərini hafizəsində saxlayıb sonradan söhbət əsnasında cümləbəcümlə, sözbəsöz təkrarlaması faktı Qurani-Kərimdə yer alan Hz. İsanın beşikdə uşaq olarkən dil açması faktı ilə səsləşməkdədir . Atası vəfat etdikdən sonra iki yaşlı İbrahim əmisi

Seyyid Əlinin himayəsində həyata qədəm qoymaqla erkən yaşlarından etibarən babası və atasından miras qalmış kitabları mütəmadi mütaliə edərək dünyəvi bilik xəzinəsini zənginləşdirmişdir. İbrahimin 4 yaşında olarkən Qurani-Kərimin "Buruc (85)" surəsinə qədər vaqif olması, fasiləsiz mütaliələr sayəsində elm-i lədünə yiyələnməklə mütləq varlığa qovuşmanın həsrəti ilə yanıb qovrulması, istəkli tanrı bəndələrinə qismət olan ilahi yanaşmanı hiss etməsi seçilmiş fövqəlbəşər üçün səciyyəvi cəhət kimi qiymətləndirilir. Hətta Hz. Musanın elm-i lədüni öyrənməyə cəhd etsə də, buna müvəffəq olmadığı irəli sürülür [3, s. 94].

Gülşəni 8 yaşında olarkən fala baxmaqla uzun müddətlik səfərdən qayıtmayan qonşusu Hacı Əli adlı şəxsin gələcəyi günü ailəsinə müjdələməklə kəramətini göz önünə sərmişdir [6, s. 21]. Gülşəni Qurani-Kərimin ayə və surələrini, türkcə kitabları təfsir etdikdən sonra 15 yaşında dünyəvi biliklərini zənginləşdirmək, şeir, sənət aləminə vaqif olmaq məqsədilə Mavərənnəhrə doğru yol alır. Gülşəni kəramətini duyan Təbriz əhli onu göy qübbəsində qərar tutmuş mütləq varlığın yer üzündəki kölgəsi, bəndələrin dadına Xızır peyğəmbər kimi yetişən fövqəlbəşər hesab edirdilə.

"Mənaqib"də Şirazda ağalıq edən Uzun Həsənin oğlu Xəlilin bihəya davranışları, idarəçilik prosesində etdiyi zülm, haqsızlıqlar əhali arasında narazılığa səbəb olmaqla yanaşı, sultanın divanxanasında əks-səda yaradaraq Uzun Həsənin xeyli narahatlığına vəsilə olmuşdur. Uzun Həsən "tarxan" tituluna sahib Gülşəni Bərdəini hüzuruna dəvət etməklə yazdığı hökmü əlbəəl Xəlilə çatdırmağı şeyxə həvalə edir. Əhvalatdan vaqe olan Xəlilin anası oğlunu mümkün bəlalardan, sultanın qəzəbindən uzaq tutmaq məqsədilə övladına şeyxin gəlişini xəbər verməklə Sultan Xəlili mövcud bədbəxtlikdən qorumağa çalışır. Sultan Xəlil keşikdə duran adamlarına şeyxi görən kimi həbs edib hüzuruna gətirməyi əmr etdikdən sonra divanına çəkilməklə şeyxin gəlişi məqamını gözləyir. Nəhayət, Şiraza yetişən Şeyx Gülşəni Sultan Xəlilin hüzuruna gətirilməklə onun suallarını müfəssəl şəkildə cavablandırır. Xəlil şeyxdən Təbrizdən neçə gündür çıxdıqlarını soruşduqda 17 gün cavabını alıb Gülşəninin yalan söylədiyi qənaətinə gəlir. Şeyx isə cavabında *"Bən ömrümdə kəzb söyləmədim və kəzb edəni dəxi sevməzəm..*[6, s. 35]" deməklə Xəlildə övliyaya qarşı ziddiyyətli təəssüratın yer almasına səbəb olmuş, lakin sonradan Uzun Həsənin hökmü ilə tanış olan sultan söylənilən fikirlərin həqiqət olduğuna inanmaq məcburiyyətində qalmışdır. Övliyanın həqiqi kəramət, möcüzəvi qabiliyyətə malik olduğunu şübhə altına almayan Sultan Xəlil şiddətli qışda sular və yolların buz bağladığı bir zamanda bu qədər uzaq məsafənin qısa vaxtda qət edilməsini ilahi möcüzə hesab etmişdir. Şeyxin fövqəlgücünə əmin olan Sultan Xəlil növbəti gün övliyanın canına qıymaq istəmiş, Gülşəniyə bu niyyət əyan olmuş, yuxuda ikən sultanı boğmağa cəhd göstərsə də,*"Allahü Təalanın xalis toğri qullarına dəxi qəsd edərsən....*[6, s. 35]" kəlməsini eşitdikdən sonra fikrindən dönüb tövbə qapısına əl açmalı olduğunu dərk etmişdir. Sultan sarayına təşrif buyuran Şeyx Gülşəni Xəlilin fikrindən döndüyünü, Uca Yaradanın ilahi qüdrətinidərk etməklə haqqa yol aldığını müəyyənləşdirdikdən sonra tövbələrini qəbul edib dualarını hasil qılmışdır.

Gülşəni Bərdəidən hüzuruna gələn möhtaclardan biri meyitin əzabının dəfi üçün hansı vasitənin tələb olunduğunu soruşduqda şeyx qeybdən gələn səs sayəsində vəfat etmiş şəxsin kimliyini bilməklə bütün günahlarının bağışlandığını, qəbirdə uyuyan kimsənin tanrı dərgahına yol aldığını ifadə edir. Şeyxin danışığının həqiqiliyini isbat etmək məqsədilə qəbiristanlığa yollanan şəxslərdən biri qəbrə enməklə meyitin əzabının dəf olunduğuna təəccüb hissi keçirir, yenidən Gülşəninin müqəddəs məkanına üz tutan şəxslər xeyli maraqla sorğu-suala başlarlar. Şeyx isə cavabında vəfat etmiş şəxsin oğlunun Bəsmələ oxumağa başlaması, *"Bismillahir rəhmanir rəhim"* kəlməsini dilinə gətirməsi ilə qəbirdə uyuyan kəsin günahlarının bağışlanaraq cismən və ruhən mənəvi rahatlıq tapdığını söyləyir [6, s. 119].

Şeyxin Misirə qaçış olayını Əhməd Xəyalinin dilindən nəql edən Hülvi hürriyyəti dadan tanrının istəkli quluGülşəninin müqəddəs "*Hu*" kəlməsi ilə qızılbaş bəylərini qatı duman burulğanına qərq etməsini fövqəltəbii sehr, magik qüvvə kimi təsvir etmişdir [2, s. 527].Misirdə Qübbət-əl Mustafada qərarlaşan İbrahim Gülşəninin irşad fəaliyyəti yeni səpkidə üzlətə çəkilmə, ərbəin çıxarma, müqəddəs gecələrdə ehya etmək, zöhd, təqva, riyazət və zikrlə birgə yeni məcraya yönəlmiş olur.

Şeyx Gülşəni Məmlük torpaqlarını işğal etməklə burada xütbə oxudan Sultan Süleyman həzrətlərinin Misiri hakimiyyəti altında birləşdirəcəyini öncədən müjdələməklə bu şəxsiyyətin tarixi proseslərin gedişində özündən sonra səs salacağına işarə etmişdir. İbrahim Gülşəninin sürətlə artan qüdrəti, mürşidlik fəaliyyəti, xalq içərisində davamçılarının çoxalması fitnə-fəsad meyllərinin baş qaldırması ilə nəticələnmişdir. Osmanlı vəziri İbrahim paşa Sultan Süleyman Qanuni ilə mükalimə zamanı rəmmaldan (falçı) Osmanlı xanədanlığına gözlənilən növbəti təhlükənin nə olduğunu sual etdikdə rəmmal*"Allah bilir. Amma İbrahim adlı bir şəxs daim sizə qəsd üzərədir* [2, s. 533]"dedikdə İbrahim paşa Misirdə elm-irfan mərtəbəsinə yüksələn Gülşəni Bərdəidən şübhələnməklə sultanın xeyli narahatlıq keçirməsinə səbəb olmuşdur. Şeyx Gülşəninin İstanbula səfəri çərçivəsində onun İbrahim paşanın şəxsi təşəbbüsü sayəsində Sultan Süleyman Qanuni ilə görüşməməsi, bundan qəzəblənən sultanın paşaya acığının tutması, qarşılıqlı hörmət-ehtirama söykənən münasibətlərin kəskin ziddiyyətlərə yol açması faktlarını bədii mətnin tərkibində yer almış hekayətlərə istinadən söyləmək mümkündür.

Fövqəlgücə sahib övliya Gülşənini çiyinlərindəki təzkirə ilə Əyyubdan müşayət etməklə gətirən dərviş karvanını Kağıdxanadan qayıq ilə gələrkən müşahidə edən Sultan Süleyman bostançıbaşına kimin cənazəsinə bu qədər izdihamın toplandığını soruşduqda nökər Şeyx Gülşəni həzrətləridir deyə cavab verir. Padşah nə vaxt gəldiyini sual etdikdə bostançı başı 6 aydır cavabını verdikdə sultan xeyli pərişan olub mötəbər şəxsiyyətlə bu qədər zaman kəsiyində tanış olmadığına təəssüf edir. Şeyxin təşrif etməmə səbəbinin İbrahim paşadan qaynaqlandığını və övliyanı saray dairəsindən uzaq tutduğunu yəqinləşdirən sultan dərhal İbrahim paşaya şeyxi sarayında qəbul etmək arzusunda olduğunu dilə gətirir. Şeyxi saraya dəvət etməyə

yollanan Rüstəm paşa ədəb-ərkana sığınmaqla, övliya qarşısında təzim etmiş, şeyxin mübarək dua-alqış payını ənam kimi qəbul edən paşa təsadüfi olmayaraq, sonradan 2 dəfə Osmanlı divan idarəçilik sistemində "vəziri-əzəm" tituluna layiq görülmüş, çox keçmədən Sultan Süleymanın kürəkəni olmaq şərəfinə nail olmuşdur. Beləliklə, şeyxi qarşılayan saray əyanları başda Rüstəm paşa olmaqla müdrik el ağsaqqalının mübarək, nurani siması qarşısında heyrətlərini gizlətməyərək onu çiyinlərində təzkirə ilə daşımağı özlərinin müqəddəs borzu bilərək məclisin ən ali məqamında yerləşdirirlər. Cahana fatehlik qüdrəti ilə səs salan Sultan Süleyman və dini-irfani, məfkurəvi əqidəsi ilə haqq dərgahına ucalan Şeyx Gülşəninin qarşılaşması zahiri və batini aləmin bir bədəndə bütövləşməsi, iki ruhun bir qəlbdə intişarı təsirini bağışlayır. Şeyxin 104 yaşını haqlamasına baxmayaraq, Sultan Süleymanı möhkəm sıxıb, əl-ayağı quş kimi yerdən üzülmüş vəziyyətdə saxlaması arif bəndənin müqəddəs məqam sahibi olması, tanrı qüdrətinə malik, fövqəltəbii bacarıqla mükafatlandırılmış övliya olduğunu bir daha təsdiq edir. Şeyx*"Padşahım, hər halda Allahü Təalayi hazır gör və hökmünü anın hüzurunda hazır elə və övliya ilə pəncələşmə ki, anların qüvvəti haqdandır*[6, s. 412]"söyləməklə sultana axirət tədarükünü görməyi, haqqın dərgahına qovuşmaq naminə daim amadə olmağı məsləhət görür. Bundan sonra şeyxin öyüdlərini siyasi fəaliyyətində, idarəetmə quruluşunda rəhbər tutan sultan batini aləmi paklanmış, əqli-küllün ilahi feyzi, tanrı nuru vücuduna hopmuş, qəlbini daxili çarpışma, ruhi əzab, işgəncələrdən arındırmış insan ümməti qismində təsvir olunmuşdur. Sultan Süleyman İbrahim Gülşənini cümlə nemətlərdə gözü olmayan, könlü tox irfan əhli kimi mədh etməklə kifayətlənmir hətta "*Bən şeyxi şöylə gördüm ki, əgər götüri dünyayi versələr iltifat etməz* [6, s. 410]"söyləməkləşeyxin ünvanına tərifler yağdırmış, onu qəlbi parlaq tanrı bəndələrindən hesab etmişdir. Sultan Süleyman xariqüladə yuxuyozma məharəti ilə ümumxalq pərəstişinə layiq, təsəvvüf əhlini din, iman yoluna sövq edən övliyanın irfani düşüncələrindən uzun müddət faydalanmaq məqsədiləbu ahıl şəxsiyyətin zahirən tutulmuş gözlərini açmaq üçün şəxsi kəhhalbaşına (göz həkimi) göstərişlər verir. Möcüzəvi bacarıq, fövqəlbəşəri dua-alqış hesabına, Uca Yaradanın hökmü və inayəti ilə şeyx məhrum olduğu dünya işığının nuruna yenidən boyanır. Misirə qayıtdıqdan sonra vəba xəstəliyinin tüğyan etdiyi bir dövrdə, neçə-neçə günahsız bəndəni ağuşuna alan sağalmaz dərddən qurtulmaq naminə səmada saçan mütləq nurla camalı şölənən şeyx ilahi haqqda mənliyini yox etmək, Adəm övladının sonrakı yaşayışına vəsilə olmaq üçün öz ruhunu tanrı dərgahında əbədi sükuta qərq edir. Gülşəni Bərdəi əsr namazını qılıb tanrı dərgahında dua, zikrlərin müstəcəb olması məqsədilə cəzbə halında səmaya qalxıb batini aləmi, ruhi-hissi dünyanın mütləq ilahi ilə qovuşması məqamının intizarını yaşayarkən *"Ey nəfs! Neçün ram olmazsan? Və ey bədən! neçün qiyam qılmazsan?..."* kəlməsini təkrarlayıb *"Allah. Allah"*deyüb, sonra bir kərrə xiffətlə*"Hu"* deyüb ruhunu təslim etmişdir[6, s. 450]. Gülşəninin vəfat tarixi "Mənaqib"də h. 940/1534-cü ilə istinad etməklə 9 şəvval/22 aprel tarixi şəklində qeyd olunmuşdur [6, s. 451]. Şeyx vəfat etdiyi vaxt Müntəci Məhəmməd

bəyin həyətindəki sərv ağacının qəflətən aşması faktı fövqəltəbii kəramətə sahib İbrahim Gülşəninin tabutu üçün sərv ağacı axtarışına çıxan cümlə tanrı bəndələrini heyrət aləminə boğur. Şeyxin müqəddəs, pak bədənini yuyan şəxslər ətrafa xoş rayihə ətirinin yayıldığını, daxilən və zahirən mənəvi saflıq mücəsəmməsi olan mütəsəvvifin möcüzəvi əməllərinin əbədiyaşar olacağına inam nümayiş etdirirlər[6, s. 464]. Bu, Mövlanə həzrətlərinin vəfatı zamanı cənazəsi yuyularkən axan mübarək suyun yerə tökülməməsi məqsədilə insan izdihamının damlayan hər damcını içməsi faktı ilə səsləşməkdədir [5, s. 59].

Nəql edildiyinə görə, vəfatından sonra bəzi hal əhli Şeyx həzrətlərini röyalarında onu yaşıl bir səccadə üzərində səmada namaz qılaraq ətrafı seyr edən şəkildə görmüşlər. Həzrət onlara "*Su və atəşi təshir etmək asandır. Amma havayı zəbt etmək gücdür. Əlhəmdulillah o da bizə nəsib oldu*[2, s. 537]" şəklində cavab vermişdir.

Beləliklə, "Mənaqib-i İbrahim Gülşəni" əsəri Gülşəni Bərdəi şəxsiyyətinin fövqəltəbii güc və qabiliyyətə malik olduğunun göstəricisi olub, övliyanın xariqüladə bacarıqlarını, irfani düşüncə tərzi, şeyxin yuxuyozma məharətinə sahib olduğunu ehtiva edən qiymətli məxəz rolunu oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. Musabəyli A. Şeyx İbrahim Gülşəni Bərdəi və Türk divanı. Bakı: Elm və təhsil, 2012, 2 cilddə. I c., 610 s.,
2. Hülvi C. M. Ləməzat-ı-Hulviyye ez Lemezat-ı Ulviyye. İstanbul: Yıldızlar ofset, 1993, 656 s.
3. Konur H. İbrahim Gülşeni: hayatı, eserleri, tarikatı. İstanbul: İnsan Yayınları. 2000, 269 s.
4. Süreyya M. Sicili-Osmani. İstanbul: Tarih Vakfı Yurt Yayınları, 1996, 4 cilddə. III c., 350 s.
5. Yazıcı T. Ahmet Eflaki. Ariflerin menkıbeleri. İstanbul: Hürriyet Yayınları, 1973, 406 s.
6. Yazıcı T. Muhyi-yi Gülşeni Menakib-i İbrahim-i Gülşeni ve Şemleli-zade Ahmed Efendi. Şive-i tarikat-i Gülşeniye. Ankara: Türk tarih Kurumu Basımevi, 1982, LXI+572+12 s.

H.Valiyeva

The description of Sheikh Ibrahim Gulshani`s extraordinary capabilities in "Manaqib-i Ibrahim Gulshani"

Abstract: The article deals with the ancient poet and sheikh`s of medieval times Ibrahim Gulshani who was known as the founder of the Gulshaniyya order. Muhyi Gulshani who was one of the leading poets of his time, the author of the book "Manaqib-i Ibrahim Gulshani" establishing the peak of his literary heritage, devoted this book to Sheikh Ibrahim Gulshani Bardai, his father-in law who was famous for his miraculous qualities as a sheikh. In this article our main purpose has been to make a tour to the creative activity of Ibrahim Gulshani, study, his life, through "Manaqib", to introduce him to the people as they brought up of the Azerbaijan lands, analyze his artistic instances in the literary-stylistic direction, deriving from his poetic ability, to propagandize the poet`s literary heritage, his figurative-emotional creative talent within the East-wide context. "Manaqib" reflecting the extraordinary capabilities in lyrical pieces and in narratives, being the characterization of the cult of the saints, has collected life stories of Ibrahim Gulshani Bardai who turned to be a historical-legendary personality in Azerbaijan, Middle East, including South-East Anadolu and Egypt. "Manaqib-i Ibrahim Gulshani" basing on the literary objective laws of Osmanli ruling in the middle ages basing on the requirements of the phonetic-lexic-grammatical norms of Osmanli language was written in the Arabic alphabit. If we review Gulshani Bardai basing on "Manaqib" it is necessary to feel lyrism, conditioning the literary creative method of his poetics, his mode of emotional-sensitive thinking, literary traditions filtrated from folklore of the common people, literary world of characters of the poet in coordination with the motives of people`s spirit, which make influence on the ability of his thinking.

Keywords: manaqib, gulshaniyya, mysticsm, divine love, extraordinary ability

Х.Велиева

Описание екстраординарных способностей Шейха Ибрахима Гюльшани в «Менакиб-и
Ибрахим Гюльшани»

Аннотация: Статья посвящена древнему поэту и шейху средневековья Ибрахиму Гюлшани, известному как основатель ордена Гюльшанийа. Один из выдающихся поэтов своего времени Мухйи Гюльшани − автор книги

«Менакиб-и Ибрахим Гюлшани» которая является вершиной его творчества. Он эту книгу посвятил своему тестю, великому шейху со сверхъестественными способностями Шейху Ибрахиму Гюльшани Бардаи. В этой статье нашей основной целью является экскурс в творческую деятельность Ибрахима Гюльшани, изучение его жизни через «Менакиб», представленного как истинного сына своего (азербайджанского) народа, анализ художественных образов Ибрахима Гюльшани в литературно-стилистическом направлении, которые являются производными его поэтических возможностей, популяризация образно-эмоционального таланта поэта, в пределах общевосточного контекста. «Менакиб», отражая экстрарординарные способности в лирических образцах и повествованиях, являясь характеристикой культа святых, заключает в себе истории из жизни Ибрахима Гюлшани Бардаи − легендарной личности в Азербайджане, на Ближном Востоке, включая Юго-Восточную Анатолию и Египет. «Менакиб-и Ибрахим Гюльшани» был написан на арабском алфавите. Это произведение основывается на литературно-объективных обычаях османского правления в средние века, которые в свою очередь основывались на требованиях фонетико-лексико-грамматических норм османского языка. Рассматривая творчество Гюльшани Бардаи через «Менакиб», можно ощутить лиризм, обусловленный литературно-творческим методом его поэтики, образ его эмоционально-чувствительного мышления, литературные традиции, подвергнутые отбору из фольклора простых людей, литературный мир персонажей поэта, согласованный с мотивами духа человека, которые оказывают влияние на способности его мышления.

Ключевые слова: Менакиб, гюльшанийа, мистика, божественная любовь, экстраординарная способность

Redaksiyaya daxil olma tarixi: 12.12.2019
Çapa qəbul olunma tarixi: 17.01.2020
Filologiya elmləri doktoru, professor Musabəyli Azadə tərəfindən
çapa tövsiyə olunmuşdur.

АЙБАНИЗ ИСМАЙЛОВА
К.фил.н., доцент
Азербайджанский Университет Языков
e-mail: aybanizismayilova26@gmail.com

ИДЕИ ФЕМИНИЗМА В ПРОИЗВЕДЕНИЯХ ВИРДЖИНИИ ВУЛЬФ

Резюме

qoyulmuş bədii hüdudları aradan qaldırmaq üçün bu real hərəkət idi. Başlanğıcda, "həqiqət"i göstərməyə olan böyük bir ehtirasla sosial, iqtisadi və siyasi hadisələrin əks etdirirdi. Bəzi müəlliflər Gerçəkliyin də romantikləşə biləcəyini nümayiş etdirərək bu iki əks cərəyanı birləşdirə bildilər. Realistlər cəmiyyətin düşüncəsinin inkişafına istinad edərək sosial bərabərsizlik kimi ibtidai sosial faktlara öz əsərlərində yer verdilər. Bununla da öz üslublarını sənayeləşməyə doğru sürətlə dəyişən cəmiyyətin inkişafına uyğunlaşdırdılar. Realist yazıçılara görə ədəbiyyat hər şeyi göstərməlidir: cəmiyyətin problemləri, aşağı və yuxarı siniflər və s. Beləliklə, istər fantastik, istər realist, istərsə də naturalist olmağından asılı olmayaraq, XIX əsrdə hər bir yazıçının dövrünün əxlaqını və düşüncəsini nə qədər detallı və təfərrüatlı şəkildə təsvir etmək niyyətində olduğu aydın olur. Romantizmin bəzən estetik səbəblərə görə həqiqəti dəyişdirdiyini inkar etmək olmaz. Romantizmin seçim sahəsi özündə böyük bir realist düşüncəni müşahidə və əks edə biləcəyi bir romandır.

Açar sözlər: Romantizm, realizm, Bəşəri komediya, şah əsər, ədəbi cərəyanlar.

Н. Мирзоева

Романтизм и реализм во французской литературе

Резюме

В этой статье автор рассказывает о двух направлениях во французской литературе XIX века, о романтизме и о реализме. Хотя писатели эпохи романтизма часто не могут осуществить свои мечты, они заложили основу для развития этих мечтаний и идеалов. Если бы Жоржа Санд не писала бы на тему своей личной свободы , борьба за феминизм существенно отставала бы во Франции. Таким образом, воображение и реальность, в то же время романтика и реализм не должны оспариваться. Это был настоящий шаг по преодолению художественных границ, установленных другими литературными тенденциями эпохи. Первоначально это было отражение социальных, экономических и политических событий с огромным желанием показать «правду». Некоторые авторы смогли объединить эти две реакции, продемонстрировав, что реальность также может быть романтизирована. Реалисты включили в развитие общественного мышления примитивные социальные факты, такие как социальное неравенство. Таким образом, они адаптировали свои стили к развитию быстро меняющегося общества к индустриализации. Для писателей-реалистов литература должна показывать все: проблемы общества, низшие и высшие классы и так далее. Таким образом, будь то фантастик, реалист или натуралист, каждый писатель девятнадцатого века как правило подробно описывает мораль и мышление того периода. Невозможно отрицать, что романтизм иногда меняет правду по эстетическим причинам. Романтизм - это роман, в котором можно наблюдать и отражать много реалистического мышления.

Ключевые слова: романтика, реализм, комедия, шедевры, литературные тенденции.

N. Mirzayeva

Romanticism and Realism in French Literature

Summary

In this article, the author talks about two movements in French literature of the XIX century, about romanticism and about realism. Although writers of the Romanticism often cannot fulfill their dreams, they laid the foundation for the development of these dreams and ideals. If Georges Sand did not write about her personal freedom, the struggle for feminism would lag significantly behind in France. Thus, imagination and reality, at the same time, romanticism and realism should not be disputed. This was a real step to overcome the artistic boundaries established by other literary trends of the era. Initially, it was a reflection of social, economic and political events with a great desire to show the "truth." Some authors have been able to combine these two reactions, demonstrating that reality can also be romanticized. Realists have included primitive social facts, such as social inequality, in the development of social thinking. Thus, they adapted their styles to the development of a rapidly changing society for industrialization. For realist writers, literature should show everything: the problems of society, the lower and upper classes, and so on. Thus, whether it is fantast , realist or naturalist, every nineteenth-century writer usually describes in detail the moral and thinking of that period. It is impossible to deny that romanticism sometimes changes the truth for aesthetic reasons. Romanticism is a novel in which you can observe and reflect a lot of realistic thinking.

Key words: Romanticism, realism, human comedy, masterpiece, literary movement.

Redaksiyaya daxil olma tarixi: 12.12.2019
Çapa qəbul olunma tarixi: 24.01.2020
Filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur.

GÜLARƏ QULUZADƏ
BDU
Akademik Zahid *Xəlilov* küçəsi-23; AZ1148
bdu-folklor@mail.ru

SEHRLİ QIRĞIZ NAĞILLARININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Epik folklorun iri həcmli janrlarından olan nağıllar xalq təfəkkürünün məhsuludur. Nağıllar mövzu və məzmunca dörd növə bölünür: sehrli nağıllar, məişət nağılları, heyvanlar haqqında nağıllar, tarixi nağıllar. Lakin bəzən sehrli və heyvanlar haqqındakı nağılları əfsanəvi nağıl altında birləşdirirlər. Nağıl janrının spesifik xüsusiyyətlərini hər bir qrupa aid etmək olar. Amma bu qruplar arasında incə bir xətt var ki, onun sərhədlərini müəyyənləşdirmək önəmli bir məsələdir.

Məqaləmizdə sehrli nağılların spesifik cəhətlərini araşdırdıq. Məqalədə qırğız nağıllarında əks olunan sehrli və mifoloji obrazlar təhlil olunmuşdur. Qırğız folklorunda nağıl janrı xüsusi yer tutur. Aydın oldu ki, sehrli və mifoloji obrazlar ibtidai insanların mifoloji dünyagörüşündən qaynaqlanır. Sehrli obrazların yer aldığı nağıllarda insan ağlı, zəkası qorxunc sehrli qüvvələrə qarşı qoyulur. Bununla yanaşı, insanlara çətin yolda köməkçi olan metafizik gücə sahib olan xeyirxah sehrli qüvvələr də iştirak edir. Məqalədə şər qüvvələr kimi Div, Əjdaha, xeyirxah sehrli qüvvələr kimi Zümrüd anka, qurd, sehrli vasitələr kimi qızıl üzük, ikili xarakterə malik olan ilan təhlil edilir. Araşdırmada nağılların başlanğıc formulunun məkan və zaman tipləri təhlil edilmişdir. Məqalədə Azərbaycan və qırğız sehrli nağılları da müqayisə edilmişdir.

Təhlil zamanı bir çox tədqiqatçıların araşdırmalarından istifadə olunmuşdur.

Açar sözlər: sehrli nağıllar, məkan, zaman, nağılçı, folklor

Qədim dövrlərdə ibtidai insanların dünyanı, kainatı, eləcə də təbiət hadisələrini qavraması, dərk etməsi yönündə cəhdləri, öyrənmə istəklərindən doğan dünyagörüşləri folklor nümunələrində də öz əksini tapmışdır. İnsanların yaratdığı bu bəsit örnəklər zaman-zaman ayrı-ayrı xalqların foklorunda rast gəlinir. Türk xalqların ədəbiyyatlarında da bu cür nümunələr üstünlük təşkil edir. Türk xalqlarından da biri qırğızlardır. Qırğızların şifahi-poetik söz yaradıcılığının kökləri qədimlərə gedib çıxır.

Ümumiyyətlə, türk xalqları ədəbiyyatında nağıl mövzusunun aktuallığı cəmiyyətin sosial-mənəvi həyatındakı tarixi proseslə sıx əlaqəlidir. Milli varlığın əsas mövcudluq mənbələrindən olan xalq yaradıcılığı, əsasən də, nağıllar təkanverici mənəvi sistem kimi daima yazılı ədəbiyyatı qidalandırmış, ona təkan vermişdir. Müəyyən bir tarixi dövr keçən qırğız nağılları bunun bariz nümunəsidir. Şifahi xalq yaradıcılığının bir

janrı olan nağıllar xalqın tarixini, təfəkkürünü, adət-ənənələrini, dünyagörüşünü əks etdirir.

Bir sözlə, bu nağıllarda xalqın arzu və istəkləri də ehtiva edilir. Nağıllar onları yaratmış olan qırğız xalqı qədər qədimdir. Şifahi xalq ədəbiyyatının başqa janrları ilə müqayisədə nağıllarda hadisələr daha canlı, geniş və anlaşıqlı təsvir olunur.

Qədim nağıllar içərisində sehrli nağıllar xüsusi bir yer tutur. Sehrli nağıllar bu janrın qədim nümunələrindən olub, böyük bir qismini təşkil edir.

Qırğız sehrli nağıllarının bir sıra spesifik cəhətləri mövcuddur. Onu da qeyd edək ki, bu xüsusiyyətlərin əksəriyyəti digər türk xalqları üçün də keçərlidir.

Qırğız sehrli nağılları üçün hiperbolizm və fantaziya səciyyəvidir. Bu nağıllar totemistik, animistik və sehrli qüvvələr haqqında düşüncələri əks etdirir, burada əks olunan sehrli və mifoloji obrazlar da məhz ibtidai insanların mifoloji dünyagörüşündən qaynaqlanır. Sehrli obrazların yer aldığı nağıllarda insan ağlı, zəkası qorxunc sehirli qüvvələrə qarşı qoyulur. Bununla yanaşı, insanlara çətin yolda köməkçi olan metafizik gücə sahib olan xeyirxah sehrli qüvvələr də iştirak edir.

Mürəkkəb quruluşa malik olan sehrli nağıllar qeyri-adi hadisələrlə, qəhrəmanlarla, möcüzəli əşyalarla zəngindir. Bu nağıllarda sujet əfsanəvi məkan və zaman hüdudunda inkişaf edir. Nağıl məkanı real məkandan ayrılır, xəyali şahlıq və dövlətlərlə bağlanır. Sehrli nağıllarda sehr, cadu, tilsim hadisələrin canını təşkil edir, qəhrəman qarşısına çıxan maneəni sehrli qüvvə və əşyaların köməyi ilə aradan qaldırır. Burada fantastik düşüncə tərzi üstünlük təşkil edir. Nağıl personajlarının əksəriyyəti isə sehrli, mistik, qeyri-adi gücə, ağla sahib obrazlardan ibarətdir. Bu nağılların baş qəhrəmanları çox zaman naməlum, gedilməsi çətin olan yerlərdə yerləşən əşyaların axtarışına çıxırlar. Bu cür qəhrəmanlar isə çox zaman yaşlıların övladları, ya da yetim olurlar. Qırğız nağılı olan "Qızıl (Altın) quş" nağılını nümunə göstərə bilərik.

Qırğız sehrli nağılları süjet tərkibinin, obrazların zənginliyinə, eləcə də bədii xüsusiyyətlərinə görə digər nağıllardan fərqlənir. Bu nağıllar, demək olar ki, sabit strukturu ilə digərlərindən fərqlənir. Bu strukturu sistemləşdirərək təhlilə cəlb edə bilərik. Əvvəlcə onu qeyd edək ki, nağılçılar bu janrda ustalıq göstərərək müxtəlif süjetlərdən fərqli və yeni nağıllar yarada bilirlər.

Sehrli nağılların sabit strukturundan danışarkən "məkan" və "zaman" anlayışlarına nəzər yetirməliyik. Bu nağıllarda sujet əfsanəvi məkan və zaman hüdudunda inkişaf edir. Belə ki, bu nağıllardakı bədii məkan real məkandan ayrılır: böyük məkanlar kiçik zaman kəsiyində qət edilir. Sehrli nağıllarda hadisələr real məkanda düyünlənərək qısa zaman içərisində xəyali ölkələr, dövlətlər və şahlıqlarla bağlanır. Bu əlaqə sehrli qüvvələrin - uçan xalçanın, sehrli çəkmənin, üzüyün və ya qeyri-adi gücə malik olan heyvanların - quşların, aslanın, atın və s. vasitəsilə həyata keçir. Məsələn: "Boz atmaca" nağılında sehrli gücə sahib olan qara qazan, qara sandıq və qara toxmaq (çubuq) yoxsul qəhrəmanın köməkçi vasitəsi rolunu oynayır (10,305). "Qızıl quş" nağılında isə sehrli köməkçi vasitələr hesab olunan qurd, quş və at obrazlarına rast gəlirik (10,202).

Sehrli nağıllarda qəhrəman real bir ölkədən qeyri-adi bir məkana gedir, dağlar, dərələr aşır, meşələr, çaylar keçir. Bu nağıllarda məkan və zaman ani olaraq dəyişir. Qəhrəman bu prosesdə mistik hadisələrlə, sınaqlarla üz-üzə qalır, rəqibləri ilə qarşılaşır, bəzən şahın qızı ilə evlənmək üçün qarşısına qoyulan ağlasığmaz şərtləri yerinə yetirir, sonda isə şahlıq məqamına yüksəlir. Bu xüsusiyyət, demək olar ki, bütün sehrli nağıllarda özünü göstərir.

Sehrli nağıllarda nağıl məkanı qəhrəmanla bağlıdır. Nağılçı nağılı danışarkən obrazla birgə "addımlayır", gördüyü bütün prosesi təsvir edir. Süjetin inkişafında qəhrəmanın bir yerdən başqa yerə getməsi əhəmiyyət daşıyır.

Məkan kimi zaman da real zaman anlayışından kəskin fərqlənir. P.Yakimov bu haqda yazır: "Nağılları həqiqət dünyasından uzaq hesab edən araşdırıcılar nağılların süjetindəki zaman və məkanın da həqiqətə uyğun olmadığını sanırlar. Başqa sözlə, nağıllar heç nə ilə, yəni zaman və hadisələrin yoxluğu ilə başlayır" (12).

Y.M.Meletinskiyə görə, nağıllarda uydurmaya və əfsanəviliyə meyl məhz başlanğıc və sonda göstərilir. Bu, qeyri-müəyyən zaman və məkan kateqoriyaları vasitəsi ilə formalaşır (12).

Proppa görə isə, gerçəklik nağıllara dolaylı olaraq yansıyır (8, 141).

Azərbaycan nağıllarından fərqli olaraq, sehrli qırğız nağıllarının başlanğıcında zamanın təsviri daha zəifdir. Daha çox "Qədimdən...", "Qədim zamanlardan..." ifadələri ilə başlayan qırğız nağıllarında hadisələr müəyyən zaman daxilində baş verir. Bu nağıllarda zaman dəyişməsi uzun bir dövrü əhatə etmədiyi üçün qəhrəman da qocalmır. Şərti qaydada, Azərbaycan sehrli nağılları üçün səciyyəvi olan "yol zamanı", "hadisələr zamanı" qırğız nağıllarında sabitləşməmişdir. Belə ki, bəzi Azərbaycan nağıllarındakı zaman konkretləşməsi qırğız nağılları üçün səciyyəvi deyil.

Məsələn, Azərbaycan nağılı olan "Üçbığ Kosa"da hadisələrin zamanı göstərilir: "Şəmil quşdan bu yeri öyrəndikdən sonra atını minib birbaş Üçbığ Kosanın mənzilinə tərəf gəldi. Bir saat yol gedəndən sonra Üçbığ Kosanın mənzilinə çatdı" *(2,139);* "Mənim arvadım evdən bayıra çıxmayacaq, çünki bu qızın Üçbığ Kosa adında bir düşməni var ki, on ildi bu qıza aşiqdi" (2,138). Amma araşdərdığımız qırğız nağıllarında bu konkretliyi görə bilmədik.

Sehrli nağıllar üçün eyni motivlər, oxşar epizodlar səciyyəvidir. Qırğız nağılları olan “Ən kiçik uşaq”, “Qızıl quş”, "Asan" nağıllarında eyni süjet xətti ilə qarşılaşırıq. Bu nağıllarda kiçik oğlanın bütün təhlükələri aşaraq atasının istədiyi quşu tapması əks olunur. Bu tip nağıllarda böyük qardaşlar kiçik qardaşa nisbətən zəif və fərasətsiz təsvir olunur. Kiçik qardaş isə əksinə, igidlik göstərərək həm atasının istəyini yerinə yetirir, həm də pis vəziyyətdə olan qardaşlarını xilas edir. Bunun əvəzində böyük qardaşlar isə ona paxıllıq edib, öldürməyə cəhd edirlər. Bu motiv bizim bir çox Azərbaycan nağıllarında (Məsələn:"Məlikməmməd") da özünü göstərir. Onu da qeyd etmək lazımdır ki, qırğız sehrli nağıllarının süjet xətti Azərbaycan sehrli nağıllarına nisbətən daha sadə, lakonikdir.

Qırğız nağılı olan “Qızıl quş” nağılı Azərbaycan nağılı olan “Ağ quş” nağılı ilə oxşardır. “Qızıl quş” nağılında qəhrəmana bir qurd, “Ağ quş” nağılında isə ağ quş kömək edir. “Qızıl quş” nağılında kiçik qardaş qurdun köməkliyi ilə qızıl quşu tapır. Bu nağılda da böyük qardaşların paxıllığı ilə rastlaşırıq. Onlar kiçik qardaşı öldürüb, qızı və quşu atalarına aparırlar. Qurdun gətirtdiyi ölümsüzlük suyu vasitəsilə oğlan dirilir (10, 203-209).

Qeyd etdiyimiz kimi, qırğız sehrli nağıllarında köməkçi vasitələrin iştirakı önəm daşıyır. Qəhrəmanın etdiyi yaxşılığın əvəzində möcüzəli köməkçilər qəhrəmanı ölümdən xilas edir. Azərbaycan sehrli nağıllarından olan “Daş üzük” və “Sehrli üzük” nağıllarının sujetinə bənzəyən Qırğız şifahi söz yaradıcılığına daxil olan “Qızıl üzük”də qəhrəman bazardan aldığı xoruz, pişik, it və ilan balasına görə atası tərəfindən evdən qovulur. Bu yaxşılıq və sədaqətə görə oğlana kömək etmək istəyən ilan balası atasının qızıl üzüyünün 62 duasını öyrədib oğlana verir. Başqa bir ailəyə övlad olan qəhrəman və onları varlı edir. Bu qeyri-adi gücə sahiblənən qəhrəman şahın qızı ilə də evlənə bilir. Cadugər qarı hiylə ilə həmin üzüyü və şahın qızını ələ keçirir. Bu yolda da oğlana dostları xoruz, it və pişik kömək edir və qarıdan üzüyü almağı bacarırlar (9, 225-229).

Başqa bir nümunə kimi "Asan" nağılını da göstərmək olar. Bu nağılda da balalarını əjdahadan xilas etdiyi üçün Qaraquş qəhrəmana kömək edir və atasının istədiyi bülbülü tapır.

Ənənəvi formulların zənginliyi Qırğız nağılları üçün də səciyyəvidir. Ümumiyyətlə, sehrli nağıllarda poetik formul və üsulların zənginliyi zənginliyi onların mürəkkəb məzmun və quruluşu ilə bağlıdır. Amma türk xalqlarının sehrli nağıllarına nəzər yetirsək, eyni zamanda, Azərbaycan nağılları ilə müqayisə etsək, görərik ki, qırğız sehrli nağılları daha sadə məzmunda və quruluşdadır. Bu nağıllar həcm etibarilə də Azərbaycan nağıllarına nisbətən çox kiçikdir.

Sehrli nağıllarda ənənəvi motivlər də o nağılları bir-birinə bənzədir. Qırğız sehrli nağıllar içərisində çevrilmə, daşlaşma və bu kimi motivlər əsasdır. Məsələn: “Ən kiçik uşaq” nağılında isə cadugər qarı qəhrəmanı marala çevirir.

Qırğız sehrli nağıllarının özünəməxsus obrazlar sistemi mövcuddur ki, bunları da üç qrupa bölmək olar:

1) xeyirxah qüvvələr;
2) şərin qurbanları;
3) şər qüvvələr.

Şər qüvvələr özləri də iki yerə bölünür: sehrli aləmlə bağlı olanlar, real aləmlə bağlı olanlar. Sehrli aləmlə bağlı olan obrazlara - Div, əjdaha, ifritə qarılar və s. aiddir. Real aləmlə bağlı olanlara isə qəddar padşahlar, hiyləgər vəzirlər, ögey analar, paxıl qardaş və bacılar. Şər qüvvələrə qarşı mübarizədə qəhrəmana köməklik göstərən qüvvələr sırasında isə qəhrəmanın sevgilisi, pərilər, nurani qoca, Xızır, sehrli atlar, quşlar, heyvanlar və s. dayanır. Sehrli nağılların ideal qəhrəmanları sırasında çox zaman kiçik qardaş və ya bacı dayanır. Azərbaycan nağılları olan "Məlikməmməd", "Hatəmin nağılı", "Üç qardaş" kimi nağılları ilə mövzuca səsləşən

qırğız nağılı olan "Asan" nağılında kiçik qardaşın ağlı, fərasəti ilə şər qüvvələrə qalib gəlinir.

Sehrli nağıllarda süjet kəskin ziddiyyətlər üzərində qurularaq əsasını qəhrəmanla düşmənlərinin barışmaz münasibətlərini təşkil edir. Belə ki, qəhrəman sehrli şər qüvvələrlə ziddiyyətli konfliktə girir və onların mübarizəsi əsasında süjet qurulur. Adi qəhrəmanlarla fantastik möcüzələrə sahib olan, eləcə də real şər qüvvələr qarşı-qarşıya dayanır.

Digər nağıllara nisbətən sehrli qırğız nağıllarının qəhrəmanı müəyyən sınaqlardan keçərək müəyyən sehrli əşyalara, köməkçi vasitələrə yiyələnir, bu vasitələri əldə etdikdən sonra onun rolu passivləşir, əvəzində əşya və köməkçilər fəaliyyət göstərir. Sınaqları keçə bilməyənlər isə cəzalanırlar. Sınaqları keçən, qalibiyyət əldə edənlər isə mükafatlanır. Mükafatların sırasında köməkçi vasitələrlə yanaşı, cadu etməyi öyrənir, tilsimə yiyələnir. Paşa Əfəndiyev tilsim, cadu və sehrin dini, mistik xarakter daşımadığını qeyd edərək, bunları xalqın istək və arzuları ilə bağlamış, xalq içərisindən çıxmış qəhrəmanlar məhz bu əfsunlar, sehrli əşyalar vasitəsilə şərə qalib gəldiyini yazmışdır (3, 208).

Mükafatlanma və ya cəzalanma sehrli nağılların sabit elementləri sırasındadır. Sabit elementlər bu nağılların quruluşunu eyni tipli edir. Yenə də Azərbaycan nağılları ilə müqayisə edərək söyləyə bilərik ki, qırğız sehrli nağıllarında qəhrəmanın keçdiyi sınaqlar çox azdır və çox sadədir. Bununla yanaşı, orijinal süjetlərə də rast gəlinir. Məsələn: “Zıyfırım” nağılında vəzirin qızı Zıyfırım oğlan paltarı geyinərək ərini axtarmağa gedir. Padşahın danışmayan qızını bir gecədə üç dəfə danışdırıb, ərini xilas edir (9, 215-219). Bu nağılda biz qadın cəsurluğunu görürük. Lakin hadisələr çox sürətlə və sadə quruluşda davam edir.

Sehrli nağılların bir çoxunda qəhrəman qeyri-adi xüsusiyyətlərlə fərqləndirilir. Sehrli nağıl qəhrəmanlarının bəziləri ağıl və cəsarəti ilə ətrafındakılarından fərqlənir. Bu cür nağıllarda qəhrəman möcüzəli şəkildə doğulur, qeyri-adi özəlliklərə malik olur. “Qəhrəman hamıya bəlli olan yerlərdə-saraylarda, kənd daxmalarında və şəhər evlərində ana bətninə düşəndən (möcüzəli şəkildə) sonra adi qaydada – 9 ay, 9 gün, 9 saat, 9 dəqiqənin tamamında dünyaya gəlir və uşaqlığını gerçəkliklə yoğrulmuş halda keçirir” (5, 146).

Qəhrəmanın Tanrı himayəsində olması erkən yaşlarından məlum olur və nağılın əvvəlində özünü göstərir. Qəhrəmanı qabiliyyətsiz, zəif iradəli və sadəlövh olan nağıllar da mövcuddur. Lakin ikinci mərhələdə həmin qabiliyyətsiz qəhrəman qəfildən qoçaq, fərasətsiz fərasətli, qorxaq isə igid şəxsə çevrilirlər. Qəhrəmanın qeyri-adi doğuluşu motivi geniş yayılmışdır. Bu motiv bütün türk xalqlarının ayrı-ayrı folklor janrlarında geniş yayılmışdır.

Nağılların ekspozisiyasında uşaqsız valideynlərin arzusu ilə dərvişin onlara sehrli iksirin, almanın verilməsi möcüzəli doğuluş ilə nəticələnir. Bu motiv bir çox xalqların folklorunda olduğu kimi qırğız sehrli nağıllarında da seçilir. Məsələn,

“Karaç Bahadır” nağılında adi kənd adamları dərvişin verdiyi alma sayəsində övlad sahibi olurlar.

“Zalım şah” nağılında isə həm alma yeməklə övlad sahibi olma, həm də adqoyma motivi vardır. Bu nağılda təsvir olunur ki, padşah yeddi il acları doydurduqdan, ehtiyacı olanın hər ehtiyacını qarşıladıqdan sonra dərvişlə qarşılaşır. Dərviş ona bir alma verir. Bunun sayəsində padşahın əkizləri olur. Dərvişlə şərtlərinə görə əkizlərdən birini dərviş aparır, digərinin adını isə Şaaısmayıl qoyurlar (9, 244-253).

Qırğız sehrli nağıl poetikasının əsas xüsusiyyətlərindən biri də mövzusunun xeyirlə şərin mübarizəsi zəminində qurulmasıdır. Sözügüdən nağıllarda xeyirxahlığı və bədxahlığı ənənəvi obrazlar təmsil edirlər.

Sehrli nağıllarda funksiya da əsasdır. Funksiya süjetin ardıcıl gedişatı üçün vacibdir. Belə ki nağıldakı lazımlı hərəkətlər funksiya adlanır. Lakin hər hərəkət funksiya sayılmır. Hərəkət o zaman funksiyaya çevrilir ki, qəhrəman onunla lazımlı işlər görür, məqsədinə çatır. Funksiya eynilikləri sehrli nağıllar üçün səciyyəvi cəhətlərdəndir. Funksiyanın müxtəlifliyi də mövcud ardıcıllığı pozmur. Sehrli nağılların bir çoxunda təkrarçılığa da yol verilir. Belə ki, oxucu və ya dinləyici nağılın rəngarəng süjet xəttinə malik olmasına baxmayaraq, hansı sonluqla bitəcəyini bilir.

Qırğız folklorunda da sehrli nağıllarla heyvanlar ilə bağlı nağılların sərhədi müəyyənləşdirilmir və qarışdırılır. Tədqiqatçı Oruc Əliyev bu nağılların fərqlərini aydın şəkildə izah edir. Həmin əlamətlər qırğız nağıllarının fərqləndirilməsində də nəzərə alına bilər.

1) Sehrli nağıllarda həmişə hadisələr möcüzəli yolla, həm də xeyirin şər üzərində qələbəsilə sona yetir. Heyvanlarla bağlı nağıllarda isə hadisələr əsasən təbii, sadə şəkildə inkişaf edir, bəzən nikbin, bəzən də əksinə sona yetir.

2) Sehrli nağıllarda bütün heyvanlar və quşlar bir səciyyə daşıyır, sehrli köməkçi funksiyasını yerinə yetirir. Heyvanlar aləmindən bəhs edən nağıllarda isə həmin obrazlardan hər biri fərdi səciyyə daşıyır.

3) "Sehrli nağıllarda bütün heyvanlar və quşlar bir səciyyə daşıyır və sehrli köməkçi funksiyasını yerinə yetirir. Heyvanlar aləmindən bəhs edən nağıllarda isə həmin obrazlardan hər biri fərdi səciyyə daşıyır" (4, 31).

Qırğız sehrli nağılları üçün ikiqütblülük səciyyəvi xüsusiyyətlərdəndir. Sözügedən nağılların süjet xəttində antoqonist düşüncə tərzi mövcuddur. Bir qütbündə ideal nağıl qəhrəmanının, digər tərəfində isə şər qüvvələrin, bir tərəfində işıqlı dünyanın, digər tərəfində yeraltı qaranlıq dünyanın yer aldığı sehrli nağıllar üçün marginal zonalar spesifikdir. "Altun üzük" nağılında qara təpə və mağara yeraltı dünyanı ehtiva edir. Nağılın sujeti belədir ki, qoca bir adam bazardan xoruz, pişik, it və ilan balası alan oğlunu evdən qovur. Oğlana kömək etmək istəyən ilan balası ondan xahiş edir ki, valideynlərini tapsın. Qəhrəman söz verdiyi kimi bala ilanın atasını tapır. İlan əvəzində atasının qızıl üzüyünün 62 duasını öyrədib oğlana verir. Bundan sonra oğlan başqa bir ailəyə övlad olur və onları varlı edir. Şahın qızı ilə evlənmək üçün şahın bütün istədiklərini yerinə yetirir. Qızla evlənir. Cadugər qarı qızı aldadaraq oğlandakı

üzüyü almağını söyləyir. Qız üzüyü ərindən alıb qarıya verir. Qarı üzüyün sayəsində qızı öz oğluna aparır. Xoruz, it və pişik oğlana kömək etmək üçün qarıdan üzüyü alırlar və oğlan üzüyə yenidən sahib olur. Oğlan sehrli üzüyü ilə cadugər qarını öldürür və arvadına qovuşur.

Bir çox sehrli nağıllarda ideal qəhrəman rolunda şahın rəiyyət qızından olan kiçik oğlu çıxış edir. Bu nağıllarda konflikt böyük qardaşlarla kasıb mənşəli kiçik qardaş arasında olur. Ata da öz oğluna xor baxır, onu şah, xan qızından olan oğlanları ilə eyni tutmur. Bunun səbəbi kiçik oğulun ana tərəfdən kasıb mənşəli olmasıdır.

Böyük qardaşlar ilə kiçik qardaş arasında müxtəlif varislik, mülk üstündə konflikt Qırğız nağıllarında da özünü göstərir. Bu tip nağıllarda adətən böyük qardaşlar kiçik qardaşa paxıllıq edirlər, onu öldürmək istəyirlər. Bu motiv "Asan" nağılında daha yaxşı qorunmuşdur. Nağılda təsvir olunur ki, şah yuxusunda gördüyü bülbülə aşiq olur. Şahın üç oğlu həmin bülbülün arxasınca gedir. Bu üç qardaş hərəsi bir yolla gedirlər. Kiçik qardaş, yəni Asan ən təhlükəli yol olan gedər-gəlməz yol ilə gedir. O, Zümrüd quşunun köməkliyi ilə bülbülü pərilər padşahının qızından alır. Qardaşlarından ayrılan yerə çatanda görür ki, qardaşları hələ dönməyib. Qardaşlarının arxasınca gedib onları əsirlikdən qurtarır. Qardaşları isə atalarının qarşısında üzüqara olacaqlar deyə Asana paxıllıq edirlər. Onun gözlərini çıxardıb quyuya atırlar. Bülbül isə Asanın gözlərini qanadlarının altında saxlayır. Bülbülün sayəsində hər şey ortaya çıxır. Asanı gətirib gözlərini sağaldırlar. Paxıl qardaşlar öldürülür və Asan padşah olur.

Qırğız nağılları olan "Ən kiçik uşaq" və "Qızıl quş" nağıllarında kiçik oğlanın bütün təhlükələri aşaraq atasının istədiyi quşu tapması əks olunur. Bu tip nağıllarda böyük qardaşlar kiçik qardaşa nisbətən zəif və fərasətsiz təsvir olunur. Kiçik qardaş isə əksinə, igidlik göstərərək həm atasının istəyini yerinə yetirir, həm də pis vəziyyətdə olan qardaşlarını xilas edir. Bunun əvəzində böyük qardaşlar isə ona paxıllıq edib, öldürməyə cəhd edirlər.

Qırğız nağılı olan "Qızıl quş" Azərbaycan nağılı olan "Ağ quş" ilə oxşardır. "Qızıl quş" nağılında qəhrəmana bir qurd, "Ağ quş" nağılında isə ağ quş kömək edir. "Qızıl quş" nağılında kiçik qardaş qurdun köməkliyi ilə qızıl quşu tapır. Bu nağılda da böyük qardaşların paxıllığı ilə rastlaşırıq. Onlar kiçik qardaşı öldürüb, qızı və quşu atalarına aparırlar. Qurdun gətirtdiyi ölümsüzlük suyu vasitəsilə oğlan dirilir (52, 203-209). Göründüyü kimi, digər türk xalqlarının sehrli nağılları üçün səciyyəvi cəhətlər qırğız nağıllarına da aid edilir. Ənənəvi formul və süjetlərin də eyniliyi türk xalqlarının sehrli nağıllarını bir-biri ilə müqayisəyə əsas verir. Bu oxşarlıqlar eyni dünyagörüşünə, adət-ənənələrinə malik olan xalqın eyniliyi ilə bağlı olsa da, zaman-zaman ərazi və siyasi cəhətdən bölünmələr mövcud fərqləri doğurmuşdur.

Ədəbiyyat:

1. Azərbaycan folkloru antologiyası: 16 cilddə, XVc. Dərələyəz folkloru / Toplayıb tərtib edənlər H.Mirzəyev, H.İsmayılov, Ə.Ələkbərli. Bakı: Səda, 2006, 484 s.

2. Azərbaycan nağılları: 5 cilddə, III c. / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı: Azərb.SSR EA, 1962, 282 s.
3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2013, 598s.
4. Əliyev O. Azərbaycan nağıllarının obrazlar sistemi (Heyvanlar aləmindən bəhs edən nağıllar üzrə// Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. (30-cu kitab), Bakı: "Nurlan" nəşriyyatı, 2009, səh. 30-38
5. Qafarlı R. Mif və nağıl (epik ənənədə janrlarası əlaqə). Bakı: N. Tusi adına ADPU, 1999, 448s.
6. Orucova S.H. Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri. Bakı, Elm və təhsil, 2012, 536 s.

Rus dilində

7. Разумова И.А. Формулы сказки и их языковая реализация. Язык русского фольклора. Петрозаводск: Карелия, 1985, с. 77-83.

Türk dilində

8. Propp Vlademir, Masalın Biçimbilimi, (Çev. Mehmet Rifat-Sema Rifat). Om Yayınları 2001,
9. Ahmet Ali Arslan & Akilay Arapova. Kırgız masalları. Konya: Kömen yayınları, 2017, 320s.
10. Karadavut Z. Kırgız masalları. Konya: Kömen yayınları, 2006, 381s.
11. Karadavut, Z. Kırgız masallarında mitolojikunsurlar, Milli Folklor, 2010, 11(85), 71-80.

İnternet resursu:

12. Мелетинский Е.М. Сказка – анекдот // Фольклор и постфольклор: структура, генеалогия, семиотика, www.ruthenia.ru

G. Guluzadeh

Specific features of kyrgyz macig fairy tales

Summary

Tales of epic folklore which is capacious genre are the product of people's thinking. According to the subject and content, tales are divided into four categories. Tales are divided into four categories: magic tales, domestic fairy tales, about animal fairy tales, historical tales. But sometimes magic and animal about tales are combined under a legendary tale. Specific features of genre the tale can be attributed to each group. But there is a tender line among these groups that define its boundaries is an important issue. In our article, we have examined the specific features of magic tales.In the article there were analysed the magical powers and mythological characters in Kyrgyz fairy tales. The fairy tale occupies a special place in the Kyrgyz folklore. We found out that, the magical and mythological characters are product of the mythological worldview of ancient people. The intellect of magical characters in the tales is against the terrible mystical figures. In the same time, there are kindly magical

powers that help people in difficult path. In the article Ogre and Dragon are analysed as evil forces, Simurg and Wolves as kindly forces, golden ring as magic tool, and a snake as a hypocritical. The study analyzed of the beginning formula of space and time types of fairy tales. Magic airy tales of Azerbaijan and kyrgyz are brought a comparative analysis. Many researchers of research was used during analysis.

Keywords: magic tales, space, time, storyteller, folklore

Г. Гулузаде

Характерные особенности киргизских волшебных сказок

Резюме

Сказки, являющиеся одним из самых объёмных жанров эпического фольклора, - результат народного мышления. По своей сути и по содержанию сказки делятся на четыре вида: волшебные сказки, бытовые сказки, сказки о животных, исторические сказки. Но иногда волшебные сказки и сказки о животных объединяя выдают как легенды. По специфическим особенностям сказки можно отнести ко всем группам. Но между группами есть такая тонкость, которую нужно различать. В статье исследовали специфические особенности волшебных сказок.В статье анализируются волшебные силы и мифологические образы, отраженные в киргизских сказках. Сказка занимает особое место в кыргызском фольклоре. В процессе исследования выясняется, что волшебные и мифологические образы берут свое начало из мифологического мировоззрения и взглядов первобытных людей. В сказках, в которых действуют волшебные образы, человеческий разум, смекалка противопоставляются злым волшебным силам. Вместе с тем, в сказках участвуют и добрые волшебные силы, обладающие метафизической мощью и помогающие людям в преодолении трудностей на их пути. В статье анализируются такие злые силы, как Див, Дракон, и такие добрые силы, как Зюмрюд анка, волк, кольцо, являющееся волшебным средством, и змей, обладающий двойственным характером. В статье дается сравнение между Азербайджанскими и Кыргызскими сказками. Здесь также рассматриваются типы начальных мест и времени. Во время исследования были использованы статьи многих ученых.

Ключевые слова: волшебные сказки, пространство, время, сказитель, фольклор

Redaksiyaya daxil olma tarixi: 12.12.2019
Çapa qəbul olunma tarixi: 26.01.2020
Filologiya elmləri doktoru, professor Səhər Orucova tərəfindən çapa tövsiyə olunmuşdur.

İLHAMƏ SULTANOVA
N.Gəncəvi adına Ədəbiyyat İnstitutu
Hüseyn Cavid prospekti
silhme@inbox.ru

QOCA ŞƏRQİN "MOLLA NƏSRƏDDİN" RUHLU SATİRA MÜJDƏÇİLƏRİ VƏ YA "MOLLA NƏSRƏDDİN"DƏN BAŞLANAN ŞƏRƏFLİ YOLUN YOLÇULARI

Xülasə

Məlum olduğu kimi, "Molla Nəsrəddin" dərgisi Azərbaycan ədəbiyyatı xəzinəsini təkrarsız bədii nümunələrlə zənginləşdirən yazıçı, dramaturq, jurnalist, ictimai xadim Cəlil Məmmədquluzadənin ən möhtəşəm "əsəri" olmaqla yanaşı, həm də türk-müsəlman dünyasının ilk satira jurnalı olmuşdur. Məqalədə "Molla Nəsrəddin" dərgisi ilə XX əsrin əvvələrində çap olunan bir çox satirik jurnallar arasında olan oxşar və fərqli cəhətlər nəzərdən keçirilir. Bir çox ölkələrdə demokratik mətbuat karvanının sarbanına çevrilən jurnalın Azərbaycandan çox-çox uzaqlarda belə təsir dairəsində olan bir sıra mətbu orqanları haqqında məlumat verilir. Köhnəlik qalıqlarına qarşı mübarizədə özbək, türkmən, tatar və digər xalqların iqtisadi və mədəni səviyyəsinin yüksəldilməsində xeyli iş görmüş bu jurnalın həmin xalqların satirik ədəbiyyatına da təsirindən bəhs edilir. Geniş bir coğrafi ərazidə mübarizə meydanına atılmış "Molla Nəsrəddin"in demokratik və milli oyanışla bağlı ideyalarının qardaş xalqların satirik mətbuatına təsiri, onlarla sıx yaradıcıq əlaqələri XX yüzil Azərbaycan mədəniyyəti inkişaf tarixinin ən parlaq səhifələri kimi qeyd olunur.

Məqalədə həmçinin XX əsrin əvvələrində Azərbaycan satirik jurnalistikasının inkişafında əvəzsiz xidmətləri olan, "Molla Nəsrəddin" ənənələrini yaşadan milli jurnallar haqqında da məlumat verilir.

Açar sözlər: "Molla Nəsrəddin", C.Məmmədquluzadə, milli oyanış, satirik jurnalistika, demokratik mətbuat

Azərbaycan ədəbiyyatı xəzinəsini təkrarsız nəsr, dram əsərləri ilə zənginləşdirən yazıçı, dramaturq, jurnalist, ictimai xadim Cəlil Məmmədquluzadənin ən möhtəşəm "əsəri" və ən böyük xidməti, məlum olduğu kimi, "Molla Nəsrəddin" dərgisi olmuşdur. Türk-müsəlman dünyasının ilk satira jurnalı olan "Molla Nəsrəddin" milli mətbuatımızın şah əsəri, millətimizin və milli dövlətimizin dərin mənalı istiqlal kitabıdır" (1). Jurnal Şərq ölkələrində satirik mətbuatın və ədəbiyyatın, demokratik ictimai fikrin inkişafına ciddi təkan vermişdir. Azərbaycana, türk-müsəlman dünyasına və Qafqaza

istiqlal məfkurəsinin, demokratiya ab-havasının ən zəruri və şərəfli yükünü "Molla Nəsrəddin" qatarı çəkib gətirmişdir" (1). "Molla Nəsrəddin"in müdiri və müridi" (Ə.Hüseynzadə) olan Cəlil Məmmədquluzadənin və onun qələm dostlarının siyasi yetkinliyinin nəticəsində dövrün, demək olar ki, heç bir ictimai-siyasi hadisəsi nəzərdən qaçmırdı. Jurnalın əməkdaşları təkcə milli zəmində deyil, beynəlxalq müstəvidə baş verən hadisələrə, İran və Türkiyə inqilabına, dünya xalqlarının, o cümlədən hind xalqının milli azadlıq hərəkatına sərrast münasibət bildirir, müstəmləkə buxovlarının tezliklə parçalanacağı haqqında fikirlər söyləyirdilər.

Qeyd etmək lazımdır ki, 1905-ci il inqilabından sonra Rusiyanın həm mərkəzi şəhərləri olan Moskva və Peterburqda, həm də əyalət şəhərlərində çoxlu satirik jurnallar nəşr olunmağa başlamışdı. Bu dövrdə Tiflisdə yaşayan Mirzə Cəlil həmin jurnallardan, onların ideya-istiqaməti və tərtibatından xəbərdar idi. Ədib öz xatirələrində yazır: "Bir gün bazarda qəzet satan uşaqların "Kukureku" çağıra-çağıra şəkilli bir jurnal satdığını gördüm. Jurnalın həmin nömrəsində bir xoruz şəkli çəkilmişdi. Xoruzun başı padşah Nikolayın başı idi, boğazı və bədəni xoruz idi... Öz-özümə dedim: "Xudaya, yuxumu bu, ya həqiqətdir?! Padşahı da mümkün imiş lağa qoymaq və onu xoruz şəklinə salıb nəşr etmək?... Burada əsrin allahını şəkillərdə çəkirlər, onu xoruza oxşadırlar, amma bizi indiyədək qoymayıblar ki, ... çürüməkdə olan milyonlarca müfsid həşəratların eyiblərini açıb camaatı xəbərdar edək" (2). Yəqin ki, Mirzə Cəlil məhz belə jurnalların təsiri ilə satirik məcmuə nəşr etmək qərarına gəlmişdi.

XX əsrin əvvəllərində çap olunan jurnallar arasında oxşarlıqlar çox idi. Belə ki, onlar, əsasən, milli dillərdə çıxır, öz səhifələrində ən aktual məsələlərə yer ayırır, ölkədəki sosial-siyası vəziyyətlə bağlı ictimai rəy formlaşdırmaq məqsədi güdürdülər. Jurnalların strukturu və tərtibatı da, demək olar ki, eyni idi: dini və folklor motivlərindən istifadə, plakat xarakterli rəsmlər, karikaturalar, mətn materialları, ictimai satira. Bu mətbu orqanlarının bir səciyyəvi cəhəti də vardı – onlar qısamüddətli nəşrlər idi. Hakim dairələrin, mürtəce qüvvələrin təzyiqi səbəbindən uzun müddət nəşr oluna bilmir, tezliklə bağlanırdılar. Bu təzyiqlər, əlbəttə, "Molla Nəsrəddin"dən də yan keçmirdi. Amma o dözdü, bir çox əqidəsizlərin, məsləksizlərin amansız hücumlarına sinə gərərək nə az, nə çox – duz 25 il, "çərək əsr"(3) qədər yaşadı. Özü də sadəcə "yaşamadı", bir çox ölkələrdə demokratik mətbuat karvanının sarvanı oldu.

Belə bir coğrafi xəritənin konturlarını cızmağa çalışaq: Tiflis, Bakı, Naxçıvan, Gəncə, Şamaxı, Şəki, İrəvan, Dərbənd, Krım, Kazan, Ufa, Həştərxan, Orenburq, Özbəkistan, Türkmənistan, Təbriz, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlküttə, Misir, Mərakeş, Çin, Yaponiya, Amerika,.. Tarixdə mövcud olmuş qüdrətli imperiyaların ərazisi ilə müqayisə etmək olar bu ərazini, deyilmi? "Molla Nəsrəddin" jurnalı məhz belə bir geniş ərazidə mübarizə meydanına atılmışdı. Bu yazımızda da jurnalın təsir dairəsində olan bir sıra mətbu orqanları haqqında məlumut verməyi qarşımıza məqsəd qoymuşuq.

Azərbaycan-özbək ədəbi əlaqələri üzrə görkəmli mütəxəssis, filologiya üzrə elmlər doktoru Almaz(Ülvi) Binnətova da "Molla Nəsrəddin" jurnalının özbək ədəbiyyatında satira janrının inkişafına təsirini əhatəli şəkildə araşdırmışdır. A.Ülvi XX əsr özbək satiriklərinin yaradıcılığının "Molla Nəsrəddin" məktəbindən rişələndiyini" qeyd edir: "Molla Nəsrəddin", qeyd etdiyimiz kimi, dərc olunduğu zaman da, sonralar da Şərq satira məktəbinin ustadı sayılmışdır. Başqa sözlə desək, əldən-ələ gəzən bu mətbu orqan XX əsr Şərqində əzəmətlə ucalan böyük bir satira ehramının özülünü təşkil edir" (4).

Azərbaycan-özbək ədəbi əlaqələrini ardıcıl və əhatəli araşdıran özbəkşünaslardan biri də filologiya üzrə elmlər doktoru Yaşar Qasımov da mollanəsrəddinçilərin özbək satirasının inkişafındakı rolu ilə bağlı maraqlı araşdırmalar aparmışdır. "Sabir və XX əsr özbək satirası" məqaləsində Y.Qasımov Azərbaycan ədəbiyyatının, xüsusilə də "Molla Nəsrəddn" ədəbi məktəbinin özbək ədəbi mühtinə təsirini məşhur özbək şairi Abdulla Qədirinin obrazlı ifadələri ilə əsaslandırır: "Orta Asiyada Azərbaycan ədəbiyyatını oxumayan, bilməyən sənətkar yoxdur. Biz həcvçiliyi "Molla Nəsrəddin"dən öyrənməliyik... Mən qələm tutmağı ərəblərdən, qələmlə güldürməyi isə "Molla Nəsrəddin"dən öyrənmişəm" (5). Qeyd edək ki, Özbəkistanda çıxan həftəlik satirik-yumoristik "Muştum" (1923-1941) jurnalı da "Molla Nəsrəddin"in xələfidir.

"Molla Nəsrəddin" jurnalının, eləcə də mollanəsrəddinçilərin Türkmənistanda da böyük nüfuzu olmuşdur. Türkmən oxucuları bu jurnala öz doğma jurnalları kimi baxmış, bir sıra müxbirləri Türkmənistandan həmin jurnalla müntəzəm əlaqə saxlamış, yazılar göndərmişdir. 1930-cu ildə Aşqabadda nəşr olunmuş "Toxmaq" satira jurnalı da "Molla Nəsrəddin" ənənələrindən bəhrələnmişdir. Köhnəlik qalıqlarına qarşı mübarizədə, türkmən xalqının iqtisadi və mədəni səviyyəsinin yüksəlməsində xeyli iş görmüş bu jurnal türkmən satirik ədəbiyyatının və xüsusən mollanəsrəddinçilərin təsiri altında idi"(6). Görkəmli türkmənşünas alim Əkbər Ruhi mollanəsrəddinçilərin türkmən satirik ədəbiyyatına təsiri probleminə daha geniş obyektdən yanaşır, təsirlənmənin tarixinə, səbəblərinə və səviyyəsinə aydınlıq gətirir. "Molla Nəsrəddin"i "həyatın aynası, yoxsul kütlələrin arzu-istəyinin, sevinc və kədərinin ifadəsi" adlandıran müəllif jurnalın "Şərqin məzlum xalqlarının salnaməsi"nə çevrilməsinin səbəbini, "inqilabi-demokratik ideyaları təbliğ etməsində" görür (7). Bu işdə isə burjua-demokratik inqilabından sonra Yaxın və Orta Şərq ölkələrinə səyahətə çıxan maarifpərvər ziyalıların, eləcə də molla nəsrəddinçilərin Türkmənistana gəlib öz ideyalarını yayması xüsusi əhəmiyyət kəsb etmişdir. "Molla Nəsrədddin" və "Toxmaq" jurnallarında gedən materialların müqayisəsi və bu barədə yazılanlar bu jurnallar arasındakı əlaqələrin möhkəmliyindən xəbər verir. Məlum olur ki, doğrudan da, "Toxmaq" jurnalı "Molla Nəsrəddin"in xələfidir. "Toxmaq" jurnalının naşirlərindən biri olan görkəmli türkmən şairi Qaraca Burunov bu barədə yazırdı: "Molla Nəsrəddin" jurnalı bizə çox şey öyrətdi. Onun xalq həyatına yaxından bağlılığı, onun sadə bədii dili, onun duzlu və məzəli şeirləri, bundan əlavə, onun inqilabi fikirdən ruh alan mübariz, ifşaedici

satirası, bizim yeni "Toxmaq" jurnalımız üçün böyük bir məktəb oldu. Biz şeirdə satiranın qüvvətini Kəlilədən duysaq da, Sabirin satirası bizi dünyaya daha açıq gözlə baxmağa öyrətdi. Cəlil Məmmədquluzadənin nəsri isə bizə tamamilə yeni bir aləm açdı" (7, s.138).

"Molla Nəsrəddin" məcmuəsinin və M.Ə.Sabirin türkmən satirik ədəbiyyatının inkişafına təsiri digər türkmən ziyalıları, o sıradan görkəmli şair Berdı Kerbabayev tərəfindən də etiraf edilir. O yazır: "Böyük Azərbaycan şairi Sabirin kəskin satirası, incə yumoru indi xalqların malı olmuşdur. Sabirin şeirləri həmişə mənim yaradıcılığıma kömək etmişdir"(8). Müəllif "dünyaya belə parlaq bir istedad bəxş etdiyi üçün qardaş Azərbaycan xalqına dərin minnətdarlığını" bildirmişdir.

"Molla Nəsrəddin" jurnalı tatar xalqının da həyatına təsirsiz ötüşməmişdir. Qismətinə cəmi 27 illik ömür payı düşən, yaradıcılığı cəmi 8 ildən ibarət olan və bu qısa zaman kəsiyində adını tatar xalqının ədəbiyyat tarixinə qızıl hərflərlə yazmağı bacaran, tatar ədəbi dilinin, realist tatar ədəbi tənqidinin banisi, "tatar xalqının azadlıq məşəlini yanar ürəyi ilə alovlandıran böyük ziyalı"(9) Qabdulla Tukay da "Molla Nəsrəddin" jurnalından satira sənətkarlığını, tənqid üsulunu öyrənmişdi. Bu faydalı təsir altında o, 1906-cı ilin ortalarında ilk satirik tatar jurnalı "Uklar"ı, sonralar isə "Yaşen", "Yalt-yult"u nəşr etdi. Bu jurnalların səhifələrində arabir "Molla Nəsrəddin"dən götürülmüş karikatura, felyeton və tənqidi məqalələr verilirdi"(9). O dövrdə bütün Şərqdə məşhur olan "Molla Nəsrəddin" jurnalının və M.Ə.Sabir satirasının ədibin yaradıcılığına güclü təsiri olmuş, onun satirik istedadı məhz bu jurnalda parlamışdır. Q.Tukay 1911-ci ildə Həştərxanda N.Nərimanovla da tanış olmuşdu. Qeyd edək ki, "Uklar" ("Oxlar", iyun-noyabr, 1906) jurnalının cəmi 6 sayı işıq üzü görə bildi. Jurnalın satirik qüdrəti elə onun bağlanma səbəbi oldu. Cəhaləti, xurafatı, müstəmləkə zülmünü tənqid dolu yazıları, şeirləri, felyetonları ilə tatar xalqının milli oyanışına xidmət edən Q.Tukayın satira atəşinə tuş gələn "qəhrəmanlarının" prototipləri dəfələrlə yüksək instansiyalara müraciət edərək, jurnalın bağlanmasını tələb etmişdilər. Çap olunmaq istəyən jurnallar, necə deyərlər, "yumşaq mövqe" tutmalı idilər. Lakin Q.Tukay öz yolundan dönmədi. "Uklar" öz yolunu dəyişmədiyindən bağlandı. Yerini isə əvvəlcə "Yaşen" ("İldırım", 1906-1907), sonra isə "Yalt-yult" ("Şəfəq", 1910) jurnallarına verdi. Q.Tukay "həm nəsr yaradıcılığında, həm də satirik şeirlərində öz sözünü kəskin, aydın, lakonik deyərək tatar satirik ədəbiyyatının banisi" ola bildi (9)

"Molla Nəsrəddin" jurnalı İran Azərbaycanında da satiranın inişafına güclü təkan vermişdir. "Molla Nəsrəddin"in ilk sayı çap olunduqdan 8 ay sonra – 6 dekabr 1906-cı ildə Təbrizdə "Azərbaycan" jurnalı nəşrə başladı. Jurnalın redaktoru tanınmış publisist və yazıçı, Mirzə Cəllillə şəxsi dostluq münasibətlərində olan Əliqulu Səfərov idi. O, şeir və felyetonlarını "Hacı Baba" imzası ilə dərc edirdi. Bəzi mənbələrə görə, Ə.Səfərov "Molla Nəsrəddin"in nəşrində də iştirak etmişdi (10) . Jurnalda tez-tez "Molla Nəsrəddin"in karikaturaları və materiallarına uyğun yazı və şəkillər verilirdi. Məhz "Molla Nəsrəddin" ənənələrini, üslubunu davam

etdirdiyinə görə idi ki, jurnal İran Azərbaycanının "Molla Nəsrəddin"i adını qazanmışdı. Məcmuənin birinci sayında "Azərbaycan" jurnalı Molla Nəsrəddinlə İran Azərbaycanını təmsil edən Hacı Babanın şəkilləri verilmişdi: Molla Nəsrəddin danışır, Hacı Baba da ona diqqətlə qulaq asır – ustad-şagird kimi. M.S.Ordubadi yazırdı: "Səttarxan "Azərbaycan" jurnalının birinci nömrəsini gördükdə: "Bu gün Azərbaycan xalqının milli bayramıdır" demiş və ağlamışdı". Təbriz fədailərinin rəhbəri Səttarxan jurnalı öz himayəsinə götürmüş, onun nəşri və fəaliyyəti ilə daima ilgilənmişdir. Səttarxanın rəhbərliyi ilə Məşrutə hərəkatı geniş vüsət aldıqca "Azərbaycan" jurnalınında da maraqlı yazılar yer alırdı. Məsələn, məcmuənin ikinci nömrəsinin baş məqaləsində Rusiyada baş vermiş inqilabdan və rus-yapon müharibəsindən bəhs olunur. Jurnal oxucularının nəzərinə çatdırdı ki, İran mütləqiyyətindən daha qüvvətli olan rus çarizmini zəhmetkeş kütlə sarsıda bilmişdir, deməli, İran mütləqiyyətini də sarsıtmaq olar (11).

Jurnal cəmi bir il - 1907-ci ilin sentyabrınadək dərc olundu. Səttarxan hərəkatı böyük təhlükə qarşısında qalanda jurnal da ağır vəziyyətə düşdü. "...ölkədə siyasi vəziyyətin dərinləşməsi, təqib və repressiyalar jurnalın bağlanmasına gətirib çıxardı (12). Çox az – cəmi 21 sayı dərc olunsa da, "Azərbaycan" jurnalı İran Azərbaycanı ədəbiyyatı və mətbuatı tarixini öyrənmək üçün əhəmiyyətli mənbədir.

XX əsrin əvvəllərini "Azərbaycan satirik jurnalistikasının renessans dövrü" adlandırsaq, fikrimcə, heç bir mübaliğəyə yol vermərik. Belə ki, təkcə Bakıda nəşr edilən "Bəhlul"(1907), "Zənbur"(1909-1910), "Vay-vay"(1909, rus dilində), "Mirat" (1910), "Arı"(1910-1911), "Kəlniyyət"(1912-1913), "Baraban"(1912-1913, rus dilində), "Tuti" (1914-1917), "Məzəli" (1914-1915), "Babayi Əmir" (1915-1916), "Şeypur" (!918-1919), "Zənbur" (1919-1920), "Məşəl" (1919-1920) və s. jurnallar "Molla Nəsrəddin" ənənələrini yaşatdı və satirik jurnalistikamızın inkişafında misilsiz xidmətlər göstərdi.

Onu da qeyd edək ki, İrəvanda "Lək-lək"(1914 - indiki Ermənistanda türk dilində nəşr olunan ilk mətbuat orqanı), Tiflisdə "Tartan-Partan"(1918), "İstanbulda "Qaragöz" (1908-1968), "Xoca Nəsrəddin" və bir çox başqa mətbu orqanları "Molla Nəsrəddin" jurnalistika məktəbinə təzə ruh və təravət gətirdilər, "Molla Nəsrəddin"in xələfi oldular.

"Molla Nəsrəddin" jurnalının rəhbərləri ciddi müqavimətlərə rast gəlir, həcvlər, təhdidlər, hücumlarla üzləşməli olurdular. Onun fəaliyyəti hökumət tərəfindən bir neçə dəfə dayandırılmış, redaktorları cəzalandırılmış, nömrələri müsadirə olunmuşdu. Bu xüsusda Ömər Faiq Nemanzadə yazırdı: "...Biçarələr elə güman edirdilər ki, "Molla Nəsrəddin" bağlanmaqla onların eyibləri örtüləcək. Dəxi bilmirlər ki, aləm sürətlə dəyişilməkdədir. Bu az maarifimizlə də olsa, içimizdə bir çox Molla Nəsrəddinlər var. Bu gün Molla Nəsrəddin batar, sabah Molla Xeyrəddin çıxar... Bu gün "Molla Nəsrəddin" bağlanar, amma "Molla Nəsrəddin"i meydana gətirən fikirlər bağlanılmayacaq" (13,3).

Zaman Ömər Faiqin haqlı olduğunu sübut etdi: jurnal bağlandı, fəqət "mollanəsrəddinçilik" ölmədi. "Molla Nəsrəddin"in yayından çıxan "Uklar", "Molla Nəsrədin"in cəhalətə endirdiyi "Muştum"lar, "Toxmaq"lar hədəfdən yan keçmədi; "Molla Nəsrəddin"in sevdiyi, uğrunda mübarizə apardığı "Azərbaycan" bu gün də yaşayır. Hətta XXI əsrdə də jurnalın ideyalarının davamçıları var. Müxtəlif veb-saytlarda və sosial şəbəkələrdə "Molla Nəsrəddin" səhifələri yaradılır, jurnalın müxtəlif saylarındakı məqalələr və karikaturalar oxucularla paylaşılır. Bu jurnal istər özünün varlığı ərzində, istərsə də sonra dünyanın bir sıra görkəmli şərqşünas alimləri tərəfindən tədqiq və təqdir edilmişdir. Demək, "Molla Nəsrəddin" yenə yaşayır, yenə gülür – azad, müstəqil diyarı ilə birlikdə!

İstifadə edilmiş ədəbiyyat

1. Həbibbəyli İ. "Molla Nəsrəddin" ədəbi məktəbi və mollanəsrəddinçilik. "Azərbaycan" qəzeti, 7 aprel 2016
2. Məmmədquluzadə C. Əsərləri, 2 cild, s. 502.
3. Baltobayev H. Cəlil Məmmədquluzadə və özbək ədəbiyyatı
4. Binnətova Almaz (Ülvi). Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri. Dövrlər, simalar, janrlar, təmayüllər. Bakı: Qartal, 2008, s.102
5. Qasımov Y. Sabir və XX əsr özbək satirası. "Ədəbiyyat və incəsənət" qəzeti, 1 iyun 1979
6. Axundov N. Azərbaycan satira jurnalları (1906-1920-ci illər). "Azərbaycan EA nəşriyyatı", B., 1968. s.304
7. Ruhi Ə. "Molla Nəsrəddin" və "Toxmaq" jurnalı. "Azərbaycan" jurnalı, 1966, №12 s.136
8. Kerbabayev B. "Literaturnıy Azerbaydjan" jurnalı, 1962, №5, s.41
9. Binnətova Almaz(Ülvi). "Qabdulla Tukay yaradıcılığı və özbək ədəbiyyatşünaslığı"
10. Axundov N. Azərbaycan satira jurnalları. Bakı, 1968, s.64
11. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_(jurnal,_1906)
12. Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. Bakı, 1989, s.37
13. "İrşad"qəzeti, 13 iyul, 1907, № 110(s.3)

İ.Soltanova

"Molla Nasreddin" spiritedatire herals of the ancient East
or the travellers of honourable way through "Molla Nasreddin"

Summary

As it is known, the publication "Molla Nasreddin", being an excellent "work" of writer, playwright, journalist, public figure Jalil Mammadquluzadeh who enriched Azerbaijan literary treasure with unique artistic examples, also became the first satire magazine of Turkish-Muslim world. The similar and different features among "Molla Nasreddin" and many satire magazines which were published at the beginings of the XX century are looked over in the article. In the article it is informed about the press agencies in many countries ar from Azerbaijan that were under the influence of the magazine turning into the head of democratic press caravan. It is mentioned about the impact of the journal to Uzbek, Turkmen, Tatar and other peoples' satirical literature which did a lot of work for the improvement of these peoples' economical and cultural level in the fight againist the remains of old age. The influence of the ideas to the fraternal peoples' satirical press connected with "Molla Nasreddin"'s democratic and national awakeness that jumped out into the battlefield in wide geografical range, its close creative relations with them are mentioned as the brightest pages of XX century Azerbaijan's cultural development history.

In the article it is also spoken about national magazines that did unexampled (or unparelleled) work in the development of our satirical journalism and lived up "Molla Nasreddin"'s traditions and had peerless service in the progress of Azerbaijan satirical journalism at the beginnings of XX sentury.

Key words: "Molla Nasreddin", J.Mammadquluzadeh, national awakeness, satirical journalism, democratic press.

Redaksiyaya daxil olma tarixi: 14.12.2019
Çapa qəbul olunma tarixi: 26.012020
Filologiya elmləri doktoruYaşar Qasımov tərəfindən
çapa tövsiyə olunmuşdur.

RƏQSANƏ ZEYNALOVA
Sumqayıt Dövlət Universiteti
43 mehelle
rqsan@mail.ru

ŞAMİL SALMANOVUN YARADICILIĞINDA TƏNQİDİN TƏNQİDİ

Xülasə

Azərbaycan ədəbi tənqid tarixində öz fərdi tənqidçi üslubu ilə seçilən Şamil - Salmanovun da xüsusi çəkisi vardır. Ədəbiyyatşünas-tənqidçi Azərbaycan ədəbiyyatının müxtəlif nəzəri-metodoloji problemlərini, eləcə də nəsr, poeziya, dramaturgiya, tənqid və ədəbi prosesi araşdırmışdır.

Məqalə Şamil Salmanovun tənqidçilik yaradıcılığında yer almış bir problemə - tənqidin tənqidinə həsr olunmuşdur. Araşdırmadan belə nəticəyə gəlmək olur ki, Şamil Salmanov Azərbaycan tənqidinin təşəkkül və inkişafında xidmətləri olan tənqidçilərin yaradıcılığını elmi-nəzəri təhlilə cəlb etməklə, ədəbi-tənqidi fikir tariximizdə onların mövqeyini, üslubunu, mövzu dairəsini müəyyənləşdirmiş, bir növ "tənqidin tənqidini" yaratmışdır.

The image of a Muslim woman of a certain period or even of every century may differ depending on the distinguishing features of a certain historical period. Tolstoy leads a polemic with Pushkin and Lermontov, exposing the "false" poetics of romanticism; more important for him is not the inner world of a man disappointed in life and longing for freedom, the writer gravitates to a believable depiction of war and to the image of a hero who does not give up under the influence of circumstances, but overcomes them thanks to endurance, intelligence, and inflexibility of spirit.

Key words: Russian literature, the Caucasus, the theme, the prisoner, a Muslim girl, image

Elnura Ragimova

A. Puşkin, M.Yu.Lermontov və L.N.Tolstoyun "Qafqaz əsiri" əsərlərində müsəlman qadın obrazının müqayisəli təhlili

Xülasə

Qafqaz mövzusu uzun müddət rus ədəbiyyatında mövcud olsa da, XIX əsr rus yazıçı və şairlərinin (Puşkin, Lermontov, Polejhaev, A. Bestujev-Marlinsky, L. Tolstoy və başqaları) əsərlərində xüsusi yer tutur. Q.V.-nin əsərlərində Qafqaza istinadlar tapırıq. Lomonosov, A.N. Radishchev, V.A. Jukovski. Buna baxmayaraq, Qafqaz mövzusu romantizm ədəbiyyatında əsl çiçək alır (XIX əsrin əvvəlləri).

Məqalədə müsəlman qəhrəmanlarının təsvirlərini bütöv bir münasibət bəxş edən Puşkin, Lermontov və Tolstoyun "Qafqaz əsiri" filmindəki müsəlman qızların şəkilləri təhlil edilmişdir, lakin təəssüf ki, görüntülərini ətraflı və fərqləndirməmişdir.

Müəyyən bir dövrün və hətta hər əsrin bir müsəlman qadının obrazı müəyyən bir tarixi dövrün fərqləndirici xüsusiyyətlərindən asılı olaraq fərqlənə bilər. Tolstoy Puşkin və Lermontovla bir polemika aparır, romantizmin "saxta" poetikasını ifşa edir; onun üçün daha vacib olan həyatda məyus olan və azadlığa can atan bir insanın daxili dünyası deyil, yazıçı inanılmaz bir müharibə təsvirinə və vəziyyətlərin təsiri altında təslim olmayan, ancaq dözümlülük, zəka və ruhun dəyişməzliyi sayəsində onları üstələyən bir qəhrəman obrazına çəkilir.

Açar sözlər: Rus ədəbiyyatı, Qafqaz, mövzu, əsir, müsəlman qızlar, obraz

Redaksiyaya daxil olma tarixi: 28.12.2019
Çapa qəbul olunma tarixi: 26.01.2020
Filologiya elmləri doktoru, professor Leyla Gərayzadə tərəfindən çapa tövsiyə olunmuşdur.

KƏMALƏ BAYRAMOVA
Azərbaycan Universiteti
Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
mrs.bayramova.kemale@gmail.com

SÜLEYMAN VƏLİYEVİN "MÜBAHİSƏLİ ŞƏHƏR" ROMANINDA MÜHARİBƏ GERÇƏKLİKLƏRİ

Xülasə

Məqalədə yazıçı S.Vəliyevin "Mübahisəli şəhər" romanında müharibə gerçəklikləri araşdırılır. Göstərilir ki, müharibə mövzusu Azərbaycan bədii nəsrindən qırmızı xətlə keçir. Bu mövzuda çoxlu hekayələr, povest və romanlar yazılıb. Bu əsərlərin bir çoxu müharibə dövründə yazılmışsa, böyük bir qismi 60-70-ci illərdə yazılmışdır. S.Vəliyevin bu romanı 40-cı illərin sonlarında yazılsa da, yalnız on il sonra işıq üzü görmüşdür. Buna səbəb romanda mövcud sovet rejiminin senzurasından keçməyən bəzi həyati gerçəkliklərin təsvir olunması olmuşdur. "Mübahisəli şəhər" romanının əsasında real həyati gerçəkliklərin olduğunu görürük. Roman konkret faktlar, qeydlər əsasında yazılıb. Yazıçı romanı yaşadığı hadisələri, tarixi faktları quru qeydlər, rəqəmlərin, hadisələrin xronologiyası kimi yox, bədii təxəyyül süzgəcindən keçən real həyati gerçəkliklərin sintezi olaraq qələmə almışdır. S.Vəliyevin əsirlikdən qaçaraq partizan dəstəsinə qoşulması, hadisələrin canlı şahidi olması və bunları romanda təsvir etməsi əsəri daha maraqlı edir.

Hadisələr Triyest şəhəri yaxınlığında baş verir. Şəhər faşistlərin işğalı altında olsa da, əhali partizan hərəkatını dəstəkləyir və ərzaq, geyim cəhətdən onlara yardım edir. Bu da partizan hərəkatının güclənməsinə, sistemli fəaliyyət göstərməsinə səbəb olur. Romanda partizan dəstələrinin uğur qazanmasının başlıca sirri olan gizlilik və kəşfiyyatçılıq məsələsi real hadisələr zəminində təsvir olunur.

Romanın əsas qəhrəmanları düşərgədən qaçıb partizan dəstələrinə qoşulan hərbi əsirlərdir. Onlar az zaman müddətində partizan dəstələrindəki nizam-intizam qaydalarını mənimsəyir və müxtəlif döyüşlərdə göstərdikləri qəhrəmanlığa görə fərqlənməyi bacarırlar. Əsas tələb olan kəşfiyyatçılıq bacarığına yiyələnməklə onlar da şəhərin azadlığa çıxmasına öz töhfələrini verirlər. Romanda partizanların qələbələri ilə yanaşı verdikləri itkilər, müharibənin doğurduğu acı nəticələr də öz əksini tapmışdır. Yazıçı bu əsərdə özünün də iştirak etdiyi döyüşlərlə yanaşı yarımçıq insan talelərinin, şahidi olduğu dəhşətlərin bədii təsvirinə geniş yer verib. Bütün bunlar "Mübahisəli şəhər" romanının ədəbiyyatımızda tutduğu yeri və mövqeyi görümlü edir.

Açar sözlər: Süleyman Vəliyev, roman, partizan hərəkatı, müharibə, gerçəklik

Müharibə mövzusu Azərbaycan bədii nəsrindən qırmızı xətlə keçir. Müharibənin başlanmasında indiyə kimi bu mövzuya çoxlu hekayələr, povest və romanlar həsr edilib. Bu əsərlərin bir çoxu müharibə dövründə yazılmışsa, böyük bir qismi 60-70-ci illərdə yazılmışdır. Əgər müharibə dövründə yazılan əsərlərdə birtərəflilik və sxematiklik özünü göstərirdisə, 60-cı illərdən başlayaraq əsərdə qoyulan problemlər daha aktual və psixologizm kontekstində olmuşdur. Azərbaycan bədii nəsrində müharibə mövzulu əsərləri bir neçə yerə bölmək olar:

1. Müharibənin gedişi zamanı yazılan əsərlər. Bu dövrdə daha çox hekayə və oçerklər yer tuturdu. Tələsik yazılmış bu əsərlərdə faşizmə açıq tendensiya ilə münasibət bildirilir, təsvirlər sovet nöqteyi-nəzərdən aparılırdı.

2. Bu əsərlərdə xalqlar dostluğu ideyası başlıca yer tutur, təsvirlərdə rus, gürcü, ukrayna xalqlarının dostluğuna geniş yer verilirdi.

3. Müharibə mövzusunda yazılmış əsərlərin bir çoxunun müəllifi bilavasitə müharibədə iştirak etmiş, müharibədən qayıtdıqdan sonra bu gerçəklikləri bədii təsvirə cəlb etmişdir.

4. 60-cı illərdən başlayaraq yazılan əsərlərdə müharibənin dağıtılarından, müharibədə baş verən hadisələrdən daha çox onun gətirdiyi fəlakətlər tendensiyası təsvir edilirdi.

Müharibə nəsrinin özünəməxsus çatışmazlıqları da vardı. Xüsusilə, müharibə dövründə və ondan keçən onillikdə birtərəfli təsvirlər, sxematizm mühüm yer tuturdu. Bunu nəzərdə tutan B.Əhmədov yazır: "...bu mövqedən yazılmış əsərlərdə real, təbii mənzərələrlə yanaşı, yazıçının görmək istədiyi bədii həqiqətlərə də rast gəlinirdi. Əsərlərdə xalqlar dostluğunun geniş planda təsvir edilməsinə rəğmən, müharibə zamanı rus hərbçilərinin "kiçik xalq"ların nümayəndələrinə qarşı qeyri-adekvat münasibətinə yer verilmirdi, onlar həmişə hadisələrin mərkəzində göstərilirdi" (2, 363). Əbülhəsən, İ.Şıxlı, M.Aranlı, S.Qədirzadə, H.Seyidbəyli, M.Hüseyn, İ.Əfəndiyev və başqaları hekayələrində müharibə və ondan sonrakı dövrün həyatı əks etdirilirdi. Əbülhəsənin "Müharibə" romanı dövrü əks etdirən ilk əsərlərdəndir. İ.Hüseynovun povestlərində müharibə gerçəklikləri arxa cəbhənin təsviri ilə yeni bir mərhələyə daxil olur. İ.Şıxlının "Kerç gündəliyi" müharibəyə sənədli münasibətin ən yaxşı nümunələrindən biri olur. Müharibə mövzusu Azərbaycan bədii nəsrinə yeni mövzu və problematika gətirdi, əhatəsi bir qədər də artdı. Müharibə mövzulu ədəbiyyatının araşdırıcısı akademik Bəkir Nəbiyev bu ədəbiyyatdakı ümumi cəhətləri bu cür qiymətləndirir: “Bu əsərləri səciyyələndirən məziyyətlərdən biri də budur ki, onların müəllifləri öz vəzifələrini yalnız döyüş səhnələrini, yaxud kəşfiyyat əməliyyatlarını göstərməklə kifayətlənmir, yeri gəldikcə surətlərin daxili-mənəvi aləminin təsvirinə də yer ayırır, onların bütöv təqdim olunmasına səy edirlər” (3,120).

Müharibə mövzusunu zənginləşdirən əsərlərdən biri də Süleyman Vəliyevin "Mübahisəli şəhər" romanı olmuşdur. Məlumdur ki, yazıçının bioqrafiyasından müharibə və sürgün həyatı keçmiş, keşməkeşli yollarla irəliləməyə məcbur olmuşdur. Müharibədə iştirak edən S.Vəliyev 1942-ci ildə Krım yaxınlığında əsr düşmüş və

əsirlik həyatı yaşamışdır. 1944-cü ildə bombardman zamanı düşərgədən qaçmışdır. Bütün bunlar yazıçının həyatından və yaradıcılığından qırmızı xətlə keçir. Müharibə mövzusu onun yaradıcılığının əsasını təşkil edir. Çünki müharibəyə gedərkən S.Vəliyev artıq tanınmış bir yazıçı idi; bir çox hekayələri və kitabı dərc edilmişdi. Buna baxmayaraq müharibədə bilavasitə iştirak edən yazıçı sadəcə döyüşməmiş, yaşadıqlarını və müşahidələrini yazıçı təxəyyülündən istifadə edərək qələmə almışdır. Onun "Mübahisəli şəhər" romanı İkinci dünya müharibəsi mövzusunda yazılan ən yaxşı romanlardan biri hesab olunur. Müharibənin bitməsindən bir neçə il sonra (1947-1948) qələmə alınan əsər müxtəlif səbəblərdən yalnız 1957-ci ildə işıq üzü görmüşdür. Tədqiqatçı Faiq Şirinov bu fikirdədir ki, bu roman yazıçının ən böyük uğurlarından hesab olunur: "...yazıçının müharibə mövzusunda ən böyük uğuru "Mübahisəli şəhər" romanı hesab olunur. Bu, qeyd olunduğu kimi, Azərbaycan ədəbiyyatında İkinci Dünya müharibəsində müqavimət hərəkatını işıqlandıran ilk romandır" (4, 5).Romanda yazıçı müharibə dəhşətlərini, əsir düşən sovet döyüşçülərinin taleyini, partizan dəstələrinin təşkili, daxili nizam-intizam qaydaları və başqa məsələləri təsvir edir. Müəllif Aslanın simasında Triyest şəhərinin azadlığı uğrunda döyüşən partizanın keçdiyi məşəqqətli həyat yolunu təsvir edir. Əsərin süjet xəttinə daxil edilən italyan qızı Anita ilə məhəbbəti hadisələrin məcrasına əlvanlıq gətirir. Romanda avtobioqrafizm əsərin əvvəlindən sonunadək davam etdirilir. Sila obrazı yazıçının müharibə dövründə keçdiyi həyat yolunu əks etdirir. Lakin digər azərbaycanlı obrazlar da var ki, yazıçı bu obrazları da gerçəklikdən götürmüş, özü ilə birgə döyüşən insanların həyatını göstərmək istəmişdir. Aslanın həyat yolu da yazıçının döyüşə getdiyi yoldan başlanır: "Aslan 1942-ci il iyun ayının 4-də Sevastopol uğrunda döyüşlər zamanı kontuziya oldu. Gözünü açdıqda özünü əsir düşərgəsində gördü. Bu elə gözlənilməz bəla, elə ağır zərbə idi ki... əgər balaca bir imkan olsaydı, özünü dərhal öldürərdi. Ancaq iş-işdən keçmişdi. O, sonra çox şeyləri xatırladı" (3, 32).

Aslan özü üçün son gülləni saxlasa da, düşmən buna imkan verməmiş, onu əsir götürmüşdü. Müharibənin dəhşətli səhnələri bəzən hadisələr zəminində, bəzən də qəhrəmanların öz aralarındakı söhbətlərində təqdim olunur. On günə qədər Cankoy düşərgəsində əsir qalması, partizan dəstələrinə qaçıb qoşulmaması üçün ciddi nəzarətdə saxlanılması, ac, paltarları yırtılmış vəziyyətdə olmaları onun buradan çıxmaq şansını azaltsa da, ümidini kəsmirdi. 30-40 kilometr əsirləri piyada apararaq bir yerə gətirirlər. Ac-susuz əsirlərin acınacaqlı halını yazıçı belə təsvir edir: "Qaş qaraldıqda nəzarətçilər əsirləri saxlayıb istirahət elan edirdilər. Xoşbəxtlikdən yaz fəsli idi. Havalar isti keçirdi, gündüz günəşdən qızan torpaq gecə də soyumayırdı. Açıq havada yatmaq mümkündü. Bəs aclıq? Ona qalib gəlmək asandırmı? Böyük bir səadət isə bu yerlərin cincilim, gicitkan kimi otlarla dolu olması idi. Əsirlər üzü üstə bu otların üzərinə döşənirdilər" (4, 34).

Yazıçı Aslanın iştirak etdiyi hadisələr zəminində müharibənin, əsir düşərgəsinin, əsirliyin, faşist amansızlığının əsl simasını açıb göstərir. Yük qatarında

daşınan əsirlərə su vermək istəyən ukraynalı qadınların güllələnmə səhnəsi də bunun bariz nümunəsidir. Aslan nəhəyət, bir gün yaxınlıqda bomba partlamasından istifadə edib düşərgədən qaça bilir və yaxınlıqda qərar tutan partizan dəstəsinə qoşulur. Tezliklə Aslan verdiyi ağıllı qərarlar, göstərdiyi cəsarətə görə burada böyük hörmət qazanır.

Aslan obrazı bütün əsər boyu fəaliyyətdədir, daim yeni planlar cızır, qəlbən inandığı qələbəyə can atır. Aslan cəsur olmaqla yanaşı, təmkinli və uzaqgörən olmağı ilə seçilən obrazdır. Bunu partizan dəstəsindəki kəşfiyyatçının kimliyinin təyin edilməsi zamanı xain Mrvadan şübhələnməsi zamanı aydın görmək olar. Əsərdəki real gerçəklikləri dövrün ədəbiyyatşünaslığı da təsdiq edirdi. "Azərbaycan sovet ədəbiyyatı tarixi" kitabının ikinci cildində S.Vəliyevin "Mübahisəli şəhər" romanını nəzərdə tutaraq yazılır: "Süleyman Vəliyev müxtəlif millətlərdən olan əsirlərlə birlikdə həbs düşərgəsindən qaçmış, partizanlara qoşularaq İtaliya müqavimət hərəkatında fəaliyyət göstərmişdir. Onun "Mübahisəli şəhər" (1957) romanında həmin hadisələr qələmə alınmışdır" (1, 269).

Romanda cərəyan edən hadisələr bir tərəfdən, tarixi fakt və hadisələrə söykənirsə, digər tərəfdən yazıçının canlı müşahidə və təəssüratlarına əsaslanır. Bu cəhət təsvir olunan hadisələrin inandırıcılığını və bütövlükdə əsərin oxunaqlılığını təmin edir. Yazıçı hadisələrin axarında müharibə insanının həyəcanlı, bəzən acı, bəzən qorxunc, bəzən şanslı taleyini real cizgilərlə əks etdirir. Partizan dəstələri üçün ən vacib məsələlərdən biri gizlilik, ciddi nizam-intizam, sayıqlıq və s. qaydalarıdır ki, bunlar da real hadisələr zəminində öz əksini tapır.

Əsərin əsas xüsusiyyətlərindən biri partizan hərəkatının xarakterinin yaradılmasıdır. Çünki partizan dəstəsi haqqında müxtəlif əsərlər yazılsa da, S.Vəliyev özü bu hərəkatın içində olduğundan onun daxili nizam-intizam qaydalarına əməl etmiş və müşahidə aparmışdır. Aslan və onun partizan yoldaşları qələbəyə qəlbən inanır, daxili qayda-qanunlara ciddi riayət edirlər. Onların gizli mübarizə apardığını nəzərə alsaq, bu qədər gizliliyin, daxili qayda-qanunların əhəmiyyətinin səbəbi aydın olur. Yazıçı şəxsən partizan dəstəsində döyüşlərdə iştirak etdiyindən, hadisələrin canlı şahidi olduğundan onun təsvirləri daha inandırıcı və canlı verir: “Üçlük qaydasında işləməyi qət etdilər. Hər kəs təşkilatın üç üzvünü tanıyırdı… Şər deməsən xeyir gəlməz. Əgər ifşa olunan adam ağır cəza işgəncələrinə tab gətirməyib xain çıxarsa, özündən başqa yalnız ikisini qələmə verə bilərdi” (3,45). Bu ona görə vacibdir ki, qələbələrin qazanılmasında partizan hərəkatının da böyük rolu olmuşdur. Yazıçı bu mühitdə insanların ən ağır şəraitdə belə mübarizə aparmasına, birləşməsinə səbəb olan yeganə vasitə kimi faşizmə qarşı mübarizəni göstərir.

Əsərdə partizan dəstəsinin xarakterinin əhəmiyyətliliyi müxtəlif hadisələrlə təsvir edilir. Hərəkatdakı qaydalara görə, hətta gizliliyi ciddiyə almayan partizanlar ölüm cəzası ilə cəzalandırıla bilərdilər. Bu bədii fakt Herman adlı alman əsirin qaçmağa cəhd etməsi ilə bağlı hissədə əks olunur. Partizanlar döyüşlərin birində

almanlardan üç nəfər əsir götürürlər. Əsirləri güllələməyə aparan zaman qoca alman soldatı ailəsi ilə çəkdirdiyi şəkli göz yaşları ilə sinəsinə sıxır və rəhm diləyir. Rəhmdil olan komandir Radenin qocaya yazığı gəlir və onu güllələmək əmrini ləğv etdirə bilir. Əsir Herman Çuq adlı partizanın nəzarətindəki dəstədə çalışır, can-başla əmrləri yerinə yetirir. Bir dəfə Çuq ona meşədən odun yığmağı tapşırdığı zaman Herman yoxa çıxır. Dəstədən əsirin qaçması artıq qərərgahın yerinin dəyişməsini zəruri edirdi. Çünki qaçan əsir onların yerini faşistlərə nişan verə bilərdi. Əsirin qaçmasına imkan yaradan isə ən ağır cəzayə məhkum olunurdu. "Avqust (qərərgah rəisi-K.B) sözündə möhkəm durmuşdu:

-Nəzarətçi onun üstündə göz olsaydı, heç bir əzaba düşməzdik. Məncə onu güllələsək, hamıya dərs olar. Düşməni əldən buraxmaq-dostların həyatını qorxu altına salmaq deməkdir. Bu böyük xəyanətdir.

İttihamnaməni dinləyən Çuq sapsarı saralmışdı, boyu daha da kiçilmişdi. Bir az bundan əvvəl yaxın dostları olan partizanlar indi Çuqdan üz döndərib, onu güllələmək üçün buradan dərəyə aparırdılar" (3,30).

Ağıllı qərar verərək hamı getdikdən sonra da əsirin yoxa çıxdığı yeri gözətləyən Aslan Hermanı böyük bir ağacın koğuşundan çıxaraq qaçmaq istəyən zaman tutur və dostu Çuqu ölümdən xilas edir.

Partizan dəstələrinin xarakterini müəyyən edən amillərdən biri də kəşfiyyatçılıq idi. Bu cəhət romanda da dəqiq təsvir edilib. Partizan dəstələrindəki kəşfiyyatçıların hər biri mübarizə meydanına, döyüşlərə can atsalar da əsas mübarizənin məhz elə kəşfiyyatdan keçdiyini anlayırlar. Sila və Zora obrazları romanın yaddaqalan kəşfiyyatçı obrazlarıdır. Onların hər ikisi Triyest şəhərinin azadlığı üçün arxa cəbhədə mübarizə aparır, düşmənin gizli planlarını partizanlara xəbər verirlər. Ailə üzvlərini müharibədə itirən bu insanların hər ikisinin ancaq ataları sağdır və partizan dəstəsində çiyin-çiyinə vuruşurlar. Digər partizanlar kimi Sila və Zoranın da mübarizəsinin əsasında isə qələbəyə olan böyük inam dayanır, onları heç bir çətinlik qorxutmur. Faşist agenti Yeja ilə qarşılaşarkən Zora necə təmkinlidirsə, Yejanı aldadıb, növbəti döyüş planını əlindən alaraq onu axmaq vəziyyətinə salan Sila da o qədər tədbirlidir. Partizanlar kəşfiyyat və təbliğat məsələsində bəzən ən təhlükəli yollara əl atırlar. Əsərin bir hissəsində Aslanın "İl Piqqolo" adlı faşist qəzeti kimi tərtib edilmiş təbliğat xarakterli yazının yayılmasında faşist soldatından istifadə etməsi buna sübutdur. Aslanın təcili pula ehtiyacı olduğu üçün qəzetlərin hərəsini bir lirəyə satdığını eşidən faşist soldat sevinir. Qəzetləri alır və beş lirəyə satır. Qəzetin mətnini oxumaq isə ağlına gəlmir. Beləliklə partizan qəzeti az müddət ərzində əldən-ələ keçir, sovet döyüşçülərinin, o cümlədən, Mehdi Hüseynzadə, Mirdaməd Hüseynovun və başqa Azərbaycan oğullarının döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar dildən-dilə düşür.

Romanda diqqəti çəkən əsas məsələ tez-tez yer dəyişən partizanların yerinin müəyyən olunması faşistlər üçün bu qədər çətin ikən, dəstəyə qoşulmaq istəyən hər kəsin yolu asanlıqla tapmasıdır. Buna səbəb yerli əhalinin partizanlara bəslədiyi

sevgi və inamdır. Bunu həyat yoldaşı polis olan qadının Aslan üçün qapını açdıqda onu ələ verməməsi, partizanların yerini nişan verməsi, yoxsul kəndlinin un ilə dolu çuvallarını bomba gizlətmək üçün partizanlara verməsi, hətta yoxsul qadınların xüsusi təşkilat yaradıb partizanlara geyim cəhətdən kömək etməsi kimi hadisələrin təsviri zamanı aydın görmək olar. Romanda müharibənin ancaq qəhrəmanlıqdan, qələbədən ibarət olmadığı da diqqətə çatdırılır. Qazanılan hər bir addımın qurbanlar verməklə əldə olunması oxucunu təəssüfləndirir, kədərləndirir: "Stansiyaya əlli metr qalmışdı. Ancaq bu kiçik məsafəni keçmək də partizanlara baha başa gəldi. Aslan bir yerdə əkizlərin-Həsənlə Hüseynin meyitini gördükdə tükləri biz-biz oldu. Bu dəhşətli səhnə idi. "Ananız sizi böyütmək üçün nə qədər iztirab çəkmişdi, sizin üstünüzdə yarpaq kimi əsmişdi ki, başınızdan bir tük əskik olmasın, ikiniz də sağ-salamat qalasınız. İndi isə siz bir yerdə Triyest uğrunda həlak oldunuz" Aslanı göz yaşları boğdu" (3,233). Süleyman Vəliyevin digər əsərləri kimi "Mübahisəli şəhər" romanı da həyat həqiqətlərinə söykənir. Şair Famil Mehdi "Mübahisəli şəhər" romanının bu məziyyətini yüksək qiymətləndirir. F.Mehdi uzun illərdən bəri tanıdığı bu "sakit və dinməz adamın", "cild-cild əsər yazmış insanın" öz həyatının, həqiqətən, bir qəhrəmanlıq dastanının mövzusu olduğuna diqqət çəkərək yazır:. "Bəs onun özü tərəfindən qələmə alınmış "Mübahisəli şəhər" romanı bilavasitə müəllifin şahidi olduğu səhnələr və ya öz başına gələn hadisələr deyilmi? Axı, Süleyman Vəliyev İtaliya dağlarında müqavimət hərəkatının iştirakçısı kimi "Harribaldi" partizan dəstəsində vuruşmuş, partizan Sila adı ilə məşhurlaşmışdır" (3, 7).

Beləliklə, S.Vəliyevin "Mübahisəli şəhər" romanının əsasında real, həyati gerçəkliklərin olduğunu görürük. Roman konkret faktlar, qeydlər əsasında yazılsa da onun bədiiliyinə, oxunaqlığına xələl gətirməyib. Yəni yazıçı romanı yaşadığı hadisələri, tarixi faktları quru qeydlər, rəqəmlərin, hadisələrin xronologiyası kimi yox, bədii təxəyyül süzgəcindən keçən real həyati gerçəkliklərin sintezi olaraq qələmə almışdır. Bütün bunlar "Mübahisəli şəhər" romanının ədəbiyyatımızda tutduğu yeri və mövqeyi görümlü edir.

Ədəbiyyat

1. Azərbaycan sovet ədəbiyyatı tarixi. 2 cilddə, 2 c., Bakı, 1967, 500 s.
2. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı. Mərhələlər, problemlər, istiqamətlər. Bakı, Elm və təhsil, 2015, 552 s.
3. Famil M. Sənətkarın qüdrəti. Vəliyev S. Seçilmiş əsərləri. 2 cilddə, I c., Bakı, Yazıçı, 1983, 518 s
4. Şirinov F. Repressiya həəqiqətlərindən söz açan ilk memuar əsərin müəllifi. Azərbaycan, 2017, 7 yanvar, s. 5.

К. Байрамова

Военные истины в романе Сулейман Велиева «Спорный город»

Резюме

В данной статье расследуются проблемы войны, описанные в романе Сулеймана Велиева «Спорный город». Как мы знаем в азербайджанской прозе тема войны проходит через красной линии. На нашей литературе этой теме посвящены повести, романы и статьи. Какая то часть этих произведений написаны во время войны, но основная часть создавалась в 60-70-ых годах прошлого века. Несмотря на то, что этот роман был написан С.Велиевым в 40-ые годы, но издан через 10 лет. А причина этого заключается в том, что в романе описывались такие откровенные явные действия, которые не могли проходить через советскую цензуру. На основе романа «Спорный город» лежит реальные жизненные конкретные факты и явления. Писатель, создавая литературное произведенение, обосновывался на сухие факты, числа и хронологические события истории. Все это проходило через творческое мышление писателя. В романе замечается синтез жизненных прав и истин.

С.Велиев убежал из лагеря военно-пленных и объединялся с партизанским отрядом. Таким образом, он был живым свидетелем тяжелых неравных боёв и военных событий. Все вышеуказанные детали воздействуют становления данного литературного произведения более интересным. События в романе описываются по хронологическому порядку.

В своём произведении С.Велиев конкретно пишет о военных действий вблизи города Триест. Город Триест был завоеван фашистами. Население данного города изо всех сил поддерживают партизанское движение. Жители даже свои последние продукты и одежду отдавали партизанам. Это служило основной расширения партизанского движения. Партизаны действовали по определенной ими системой. В романе художественными приёмами описываются реальные жизненные события и военные планы. Предотвращение этих военных планов могло было бы осуществлятся в жизнь только путём разведки и военных тайн. Главные герои романа-военнопленные, которые бежали из лагерей и соединялись партизанскими отрядами. Они за короткий срок усвоивали конкретные строгие законы и уставы партизанов. В боях они отличались своими героическими поступками. Самой главной целью была контрразведкой освободить город Триест. Наряду с достижениями партизанских отрядов описываются также тяжёлые потери партизанов в этих неравных боях. Писатель в своём романе даёт разные горкие человеческие судьбы, как свидетель той ужасной поры.

Именно эти свойства делают романа незаменимым но занимаема месту в азербайджанской литературе.

Ключевые слова: Сулейман Велиев, роман, партизанское движение, война, реальность

K. Bayramova

The realities of war in the novel "Disputed city" by Suleyman Valiyev

Summary

The article examines the realities of war in the novel "Disputed city" by the writer S.Valiyev.It is shown that the theme of war goes through the red line of Azerbaijani art. Numerous stories, narratives and novels have been written on the subject. Many of these works were written in the 1960s and '70s. This novel by S.Valiyev was written in the late 40s, but was published only ten years later. The reason for this is that the novel depicts some of the vital realites that do not go beyond censorship of the current Soviet regime. We see that the realities of life are based on the novel "Disputed city". The novel is based on concrete facts and notes. The writer wrote the novel, his experiences, historical facts as a synthesis of real life realities that go through the filter of artistic imagination, not as chronology of notes, figures or events. S.Valiev's escape from captivity and joining a guerilla group, live witness of events and portrayal of them in the novel makes the work even more interesting.Events occur near the city of Trieste. Although the city is under an invasion of fascism, the population supports guerilla movement and helps them in terms of food and clothing. This also causes to the strengthening and systematic functioning of the guerilla movement. In the novel, the issue of privacy and intelligence which is the secret to the success of guerilla groups is depicted on the basis of real events.The main characters of the novel are military soldiers who escaped from the camp and joined guerilla groups. They soon learn the rules of discipline in guerilla groups and are able to distinguish for their heroism in different battles. Mastering the intelligence skills that are essential they also contribute to the liberation of the city. In the novel, in addition to the victories of the guerillas, the losses and the bitter consequences of the war are reflected. In addition to the battles in which the writer participated, in the novel he gave extensive coverage to the artistic portrayals of unfortunate human fates and the horrors he witnessed.

All these show the place and position of the novel "Disputed city" in our literature.

Key words: Suleyman Valiev, the novel, guerrilla movement, war, the reality

Redaksiyaya daxil olma tarixi: 09.12.2019
Çapa qəbul olunma tarixi: 24.01.2020
Filologiya elmləri doktoru, professor Ramazan Qafarli tərəfindən çapa tövsiyə olunmuşdur.

NƏSİMİ MƏHƏRRƏMOV
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Həsənli Bilal
E-mail:
nesimi.meherremov2018@mail.ru

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ "DƏRZİ ŞAGİRDI ƏHMƏD" NAĞILININ TƏHLILİNDƏ İNTERAKTİV METODLARDAN İSTİFADƏ İMKANLARI

Xülasə

Dərs prosesinin ən vacib amili düzgün nəticənin müəyyənləşdirilməsidir. Şagirdlərin tədqiqatçılıq bacarığı, mövzunun qavrama səviyyəsi məhs çıxarılan nəticə ilə müəyyənləşdirilir. Bu zaman müəllim yığcam, yekun fikirlərlə şagirdləri düzgün nəticəyə doğru istiqamətləndirə bilər. Ədəbiyyat derslərində epik folklor nümunələri, əsasən, V-VIII siniflərdə keçirildiyinə görə elə ilk vaxtlardan bu nümunələrin təlimi və tərbiyəvi cəhətləri şagirdlərə aşılana. Təlim prosesində interaktiv metodlardan düzgün istifadə etməklə dərslikdə verilən epik əsər nümunələrinin oxşar və fərqli cəhətlərini müəyyən etmək olar. Eyni zamanda bu və ya digər epik əsər nümunəsinin hansi məqsədlə dərsliyə salındığını da müəyyən etmək vacibdir. Unutmayaq ki, təlimin əsas məqsədə yiyələnməsi, nəticənin əldə edilməsi vacib şərtdir. Epik folklor nümunələrinin tədrisi zamani qarşıya qoyulan əsas tələblərdən biri də folklor və folklor janrlarının nəzəri əsaslarını şagirdlərə təlim öncəsi düzgün öyrətməkdir. Təlim prosesinin sonunda şagird folklor janrlarının xüsusiyyətlərini, onlar arasindaki oxşar və fərqli cəhətləri müəyyənləşdirə bilməlidir.

Sonda isə qeyd etmək istərdik ki, şifahi xalq ədəbiyyatı nümunələrinin yaşaması mexanizminin mayasında məhz öyrənilmə və öyrədilmə dayanmışdır. Yaxşı məlumdur ki, keçilən yol bir aynadır. Bu aynaya baxılmazsa, ədəbiyyat öz məqsədlərinə çata bilməz.

Açar sözlər: Dərslik, ədəbiyyat, nağıl, müəllim, şagird.

Humanist və demokratik ideyaları əks etdirən ədəbiyyatımızın ümumtəhsil məktəblərində tədrisi milli dövlətçilik maraqları baxımından böyük əhəmiyyət kəsb edir. Məktəb ədəbiyyatı kursu həqiqi vətəndaşın və müasir dünyagörüşlü şəxsiyyətin yetişməsində mühüm rolu olan fənlərdəndir.(1, 110)

Müasir ədəbiyyat dərsliklərində epik folklor nümunələrinə kifayət qədər rastlanılır. Bildiyimiz kimi ədəbiyyat tərbiyəni aşılayan əasas mənbədir. Tərbiyə prosesini həyata keçirmək üçün ədəbiyyatımızın müraciət etdiyi əsas vasitə folklor

ədəbiyyatıdır. Bir xalqın ədəbiyyatı o xalqın soykökü ilə sıx bağlıdır. Ədəbiyyat nə qədər dərinliyi ilə araşdırılıb öyrənilərsə, həmin xalqın adət-ənənələri də bir o qədər dərinliyi ilə öyrənilmiş olar. Məlumdur ki, tərbiyə prosesi insanlarda hələ ilk gündən başlanılır. Buna görə də ədəbiyyatın əsas vəzifəsi olan tərbiyənin formalaşdırılması da hələ aşağı siniflərdən başlanılmalıdır. Bunu nəzərə alan metodistlər ədəbiyyat dərs vəsaitlərini təsis edərkən aşağı siniflərin ədəbiyyat proqramlarında folklor nümunələrindən, nağıllardan daha sıx istifadə edirlər. Xüsusən, V və VIII siniflərin ədəbiyyat dərsliklərində bunu görmək mümkündür. Ədəbiyyat dərslərində nağılların tədris edilməsində qarşıya qoyulan əasas məqsədin həyata keçirilməsi məhz bir başa müəllimin pedaqoji bacarığından asılıdır.

Azərbaycan ədəbiyyatı əsrlərdir təlim-tərbiyə məktəbi funksiyasını yerinə yetirir. Gözünü dünyaya açan körpəni ananın oxşamaları, laylaları qarşılayır, dil açıb yeriməyə başlayanda sanamalar, düzgülər, tapmacalar, yanıltmacalar, uşaq nağılları onun nitqini, təfəkkürünü inkişaf etdirir, həyat üçün zəruri olan ilkin bacarıqlar formalaşdırır. (2, 86)

Görkəmli metodist Fəxrəddin Yusifovun da qeyd etdiyi kimi, "ədəbiyyat həyatı ümumiləşdirilmiş şəkildə, obrazlar vasitəsi ilə əks etdirən söz sənəti kimi şagirdlərin müstəqil həyata hazırlanmasında, həyatı əhəmiyyət kəsb edən bacarıqlara yiyələnməsində mühüm rol oynayır. Bədii ədəbiyyatın "insanşünaslıq", "həyat dərsliyi" adlandırılması bu fənnin hər bir şagird-oxucu üçün özünü, həyatı, insanı dərk etmək vasitəsi kimi əhəmiyyətini ifadə edir". (1, 111)

Bəs fənn müəllimi bunu necə edəcək? O, bu və ya digər dərslikdə işlədilmiş folklor nümunəsinin hansı məqsədlə işlədildiyini necə müəyyənləşdirəcək? Təbii ki, bu prosesdə müəllimin dadına yetəcək ilkin mənbə metodik vəsaitdir. Müəllim bu və ya digər metodik vəsaitin istifadəsi zamanı həmin sinif dərsliyində işlənən mövzunun nə məqsədlə, hansı standartlarla qeyd edildiyini müəyyənləşdirəcək. Güclü təfəkkürə malik müəllim metodik vəsaitdə verilən standartları, iş formalarını, iş metodlarını daha müsbət nəticə almaq üçün və ya daha keyfiyyətli dərs prosesi ərsəyə gəlsin deyə öz sinfinin təfəkkür səviyyəsinə uyğun dəyişdirə bilər.

Bəs folklor nümunələri ədəbiyyatda necə təsis edilməli? Təbiidir ki, bu kimi dərs nümunələri zamanı şagird qabaqcadan folklor, folklor janrları kimi terminləri bilməli, janrların özünəməxsus xüsusiyyətlərini ayırd edə bilməlidir.

VII sinif ədəbiyyat dərsliyinin birinci həftəsində təsis edilən "Dərzi şagirdi Əhməd" nağılı əsasında epok folklor janrlarından biri, nağılın necə öyrədilməsinə nəzər salaq. Adı çəkilən mövzuya VII sinif metodik vəsaitdə qeyd olunduğu kimi 3 saat vaxt ayrılmışdır. Birinci və ikinci saatlar əsərin məzmunu üzərində iş olsa da üçüncü saat təhlil üzrə işə ayrılmışdır. İlk növbədə təhlil üzrə iş zamanı gəlinəcək təlim nəticələrinə nəzər salaq:

1. Şifahi xalq ədəbiyyatı janrı nağılın və yazılı ədəbiyyat janrı hekayənin oxşar və fərqli cəhətlərini müəyyən edə bilir.
2. Əsərdəki obrazları öz xüsusiyyətlərinə görə səciyyələndirə bilir.

3. Əsərin təsir gücünü artıran amilləri göstərə bilir.
4. Mövzunun ideyasını əsaslandırılmış nümunələrlə şərh edə bilir.
5. Müxtəlif oxu növlərindən istifadə edərək məzmunu çatdıra bilir və s.

"Dərzi şagirdi Əhməd" nağılı mövzusunun tədrisi zamanı metodik vəsaitdə də qeyd olunduğu kimi əsasən Azərbaycan dili və Xarici dil fənləri ilə fənlərarası inteqrasiya olunur. Lakin, müəllim təlim məqsədinə uyğun olaraq mövzunu digər fənlərlə də inteqrasiya edə bilər. Məsələn, Həyat bilgisi, təsviri incəsənət və s.

Dərs prosesi kurikulum sisteminin tələblərinə uyğun şəkildə həyata keçirilməlidir. İlk növbədə dərsin mərhələləri, hər bir mərhələdə görüləcək işlər icbari planlaşdırılmada qeyd olunmalıdır. Belə ki,

1. Dərsin gedişində ev tapşırıqlarının müxtəlif yollar, metodlarla yoxlanılması, müvafiq qiymətləndirmə meyyarlarından istifadə etməklə qiymətləndirmə həyata keçirilir.

2. Motivasiya, problemin qoyuluşu. Bu mərhələ müxtəlif şəkildə yerinə yetirilə bilər. VII sinif dərsliyində mövzunun əvvəlində motivasiya üçün müvafiq suallar qeyd olunmuşdur. Müəllim istərsə, problemli sitiuasiya yaratmaq üçün həmin suallardan istifadə edə bilər. İkinci halda isə müəllim şagirdlərdə mövzuya maraq yaratmaq, tədqiqat sualını müəyyənləşdirməkdə fəallıq göstərmələrinə səbəb olacaq daha ideal suallar verə bilər.

3. Tədqiqat sualı. Burada isə daha çox fərqli cavablar alına biləcək suallar verilir və həmin cavablar dinlənilərək qeyd olunur. Fərziyyələrin hansının doğru, hansının daha düzgün olduğunu müəyyən etmək üçün "Dərzi şagirdi Əhməd" nağılının ətraflı öyrənilməsi məqsədə uyğundur.

4. Tədqiqatın aparılması. Tədqiqatın aparılması üçün vacib olan şərtlərdən birincisi nağılın oxusu, məzmununun maksimum səviyyədə qavranılmasından əmin olmaqdır. Müəllim dərslikdə yer alan "Oxuda aydınlaşdırın" adlı tapşırıq üzərində dayanmalı, oxu zamanı onun yerinə yetirilməsini şagirdlərə xatırlatmalıdır. Müəllimin məsləhəti ilə şagirdlər ya fərdi, ya da cütlüklər şəklində suallara cavab hazırlayırlar. Bundan sonra sinif kiçik və yaxud böyük qruplara ayrılaraq bütün sualların cavabları qrup daxilində aparılan fikir mübadiləsi əsasında dəqiqləşdirilir. Sonda hər bir qrup gəldiyi nəticəni təqdimatlar şəklində təqdim edir. Bununla da bütün sinif müzakirəyə qoşulur.

5. Qiymətləndirmə. Gündəlik qiymətləndirmə fənn müəllimi tərəfindən müəyyənləşdirilmiş meyarlarla aparmaq olar.

Fənn müəlliminin dərs prosesində bir sıra interaktiv təlim metodlarından istifadə etməsi zəruridir. Bununla dərs daha da səmərəli keçiriləcək. Əqli hücum, venn diaqramı, BİBÖ, klaster və s. Metodlardan istifadə etmək daha məqsədə uyğundur.

Tədqiqat göstərir ki, ədəbiyyat dərslərində epik folklor nümunələrinin interaktiv metodların tətbiqi ilə öyrənilməsi şagirdlərin ədəbi biliklərə dərindən yiyələnməsi, onlara milli mənəvi dəyərlər aşılanması baxımından çox əhəmiyyətlidir. Epik folklorun müxtəlif janrlarının təhlili zamanı müasir metodlardan məqsədyönlü istifadə təlimin səmərəliliyini artırır, qarşıya qoyulan təlim nəticələrinin reallaşdırılmasını təmin edir.

Ədəbiyyat

1.Yusifov F, Ədəbiyyatın tədrisi metodikası. Bakı 2018 (səh 350)
2.Aslan Y, Ədəbiyyatın tədrisi: ənənə və müasirlik. Bakı, 2011. (səh 210)
3.Həsənli B, Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2016. (səh 425)
4.Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı. Bakı, 2003. (səh 257)
5.Ümumitəhsil məktəblərinin VII sinif üçün "ədəbiyyat" dərsliyi. Bakı 2016.(səh 208)
6.Ümumitəhsil məktəblərinin VII sinif müəllimi üçün "ədəbiyyat" metodik vəsaiti. Bakı 2016 (səh 208)

N.Maharramov

Opportunities of use from the interactive methods in
the analysis of tale "Sailor's student Ahmad" in literature lessons

Summary

The key significant factor of the teaching process is the determination of the correct result. The skills of research of students is determined by the level of understanding of topic and made conclusion. In this case, teacher may direct the students to correct results by brief and final ideas.Due to epic folklore samples are held in the literature lessons in V-VIII grades, since the primary times, training and educational features of such samples are penetrated to students. In the training process, by correctly using from interactive methods, it is possible to determine similar and different features of the epic masterpiece samples issued in the textbook. Moreover, it is very necessary to determine why this or other epic masterpiece sample is included in textbook and which its purpose is. We should not forget that, it is very necessary to determine which purpose does training bears for the obtaining of result. During teaching of epic folklore samples, one of the fronted requirements is a correct teaching of the students with the theoretical basis of folklore and folklore genres before training. At the end of the training process, student should be able to determine the features of folklore genres and to determine the similar and different features between them.

At the end, we want to indicate that, survival of the verbal folk samples is based on the teaching and learning of the mechanism. It is also known that, passed way is a mirror. If you do not look at such mirror, literature cannot reach its goals.

Key words: Textbook, literature, story, teacher, student.

Н. Магеррамов

Возможности использования интерактивных методов в процессе анализа сказки «Ученик портного Ахмед» на уроках литературы

Резюме

Самым важнейшим фактором процесса урока является установление правильного результата. Исследовательские навыки, уровень освоения темы учеников определено именно полученными результатами. В это время учитель может направлять учеников к самым верным и правильным результатам благодаря самым компактным и заключительным соображениям. Образцы эпического фольклора на уроках литературы в основном, проходят в 5 – 7 классах и в это время с первых пор ученикам прививаются образовательные и воспитательные черты данных образцов. При этом правильно используя интерактивные методы в процессе обучения можно определить сходные и отличительные черты образцов эпических произведений, заданных в учебниках. Одновременно, необходимо установить с какой целью внесены в учебник образцы тех или других эпических произведений. Не следует забывать, что главным условием является освоение основной цели процесса обучения, и получение результата. Во время преподавания образцов эпического фольклора одним из важнейших требований является правильное изучение учениками теоретических основ фольклорного жанра и фольклора. В конце процесса обучения ученик должен определить схожие и отличительные черты между фольклорными жанрами и особенности фольклорных жанров. А в конце хотим отметить, что основу механизма увековечивания образцов устной народной литературы именно составляют изучение и обучение. Всем хорошо известно, что пройденный путь не что иное, как зеркало. Если не взглянуть на это зеркало, то литература не может достигнуть своей цели.

Ключевые слова: Руководство, литература, рассказ, учитель, ученик.

Redaksiyaya daxil olma tarixi: 28.12.2019
Çapa qəbul olunma tarixi: 19.012020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli tərəfindən
çapa tövsiyə olunmuşdur

KÖNÜL FƏRƏCBƏYLİ
Pedaqogika üzrə fəlsəfə doktoru
ADU
Rəşid Behbudov 134
fgultacbk.ru

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ XALQ YARADICILIĞI NÜMUNƏLƏRİNDƏN İSTIFADƏNİN METODİKASİ

Xülasə

Son illərdə Azərbaycanda təhsil sisteminin inkişafı sahəsində mühüm dəyişikliklər baş vermişdir. Bu da təhsil sahəsində keyfiyyət göstəricilərini yüksəltmiş, tədrisin səmərəliliyini artırmışdır. Müasir dünyada xüsusi əhəmiyyətə malik olan və qloballaşma dövründə əsas kommunikasiya vasitəsi olan ingilis dilinin yüksək səviyyədə mənimsənilməsi təhsil müəssisələri qarşısında duran əsas tələblərdən biridir. Bu gün ingilis dilinin ünsiyyət vasitəsi kimi öyrənilməsinin zəruriyyəti danılmazdır. Eyni zamanda qeyd etmək lazımdır ki, ingilis dilini öyrənənlər həmin dildən ünsiyyət vasitəsi kimi istifadə etməyə meyl göstərirlər. İngilis dili vasitəsilə qabaqcıl texnologiyalardan istifadə etməklə tələbələr özlərinin peşə sahələri ilə bağlı olan dünya təcrübəsindən bəhrələnmək və ondan səmərəli şəkildə istifadə etmək qabiliyyətinə yiyələnməli, lazım olan bilikləri mənimsəməlidirlər. Burada da motivasiya amili ən öndə gedən proses olmaqla uğura atılan addımı şərtləndirir.Təlim- müəllimin məqsədyönlü, planlı və mütəşəkkil rəhbərliyi ilə dilöyrənənlərin sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərə yiyələnmələri və bu zaman onların psixoloji qüvvələrinin inkişaf etdirilməsi və tərbiyə olunmaları prosesidir.Öyrədici vəzifə ilə yanaşı, inkişafetdirici və tərbiyələndirici vəzifələrin olduğunu bilmək və təlim zamanı bu cəhətləri nəzərə almaq müəllim üçün böyük əhəmiyyət kəsb edir. Təlim zamanı inkişafetdirici və tərbiyələndirici imkanların olduğunu bilən və bunları nəzərə alan müəllim şagirdlərini əqli cəhətdən inkişaf etdirməklə yanaşı onların mənəvi cəhətdən düzgün tərbiyə olunmasına da nail olmuş olur.İkinci dilin tədrisində bu vəzifələri kompleks şəkildə həyata keçirmək üçün təlim materialları müəllimlərə geniş imkanlar verir.

Xarici dilin tədrisində etnopedaqoji materiallardan istifadənin didaktik əsası məhz bu materialların tərbiyəedici xüsusiyyətə malik olmasından qaynaqlanır. Bu ədəbi nümunələr xalqın dəyərlərini, düşüncə tərzlərini özündə ehtiva edən minillik tarixə malik olan nadir sənət nümunələridir.

Şifahi xalq ədəbiyyatı nümunələrinin hamısı toplu halında pedaqoji bilikləri özündə ehtiva edən zəngin ədəbi qaynaqlardır. Bu rəngarəng və zəngin mənbə xalqın tərbiyə haqqında düşündüyü və bu prosesdə çəkinmədən arxalandığı həmişəyaşar silahdır.

Açar sözlər: kommunikasiya, innovasiya, tədris materialları, texnologiya, nitq

Məlumdur ki, xalqın tərbiyə haqqındakı fikirləri, mülahizələri şifahi xalq ədəbiyyatı nümunələrində öz əksini tapır. Metaforik şəkildə folkloru sərhədi olmayan xəzinəyə bənzədə bilərik. Əfsanələr, atalar sözləri, rəvayətlər, zərb məsəlləri, rəvayətlər, laylalar, bayatılar, oxşamalar, nazlamalar, sayaçı sözlər, yanıltmaclar, tapmacalar, nəğmələr, oyunlar, tamaşalar, nağıllar, dastanlar, aşıq şeri və s. eləcə də xalqın sahib olduğu milli adət – ənənələr həmin xəzinənin mənbələridir. Uzun illər boyunca xalq kamil insan yetişdirmək üçün öz fikir və qənaətlərini bu mənbələrdə qəlibləmiş və gələcək nəsillərə ötürmüşdür.K.O.Uşinski yazır: "Xalq mənəvi sərvətlərin yeganə və tükənməz mənbəyi, öz yaradıcılığının gözəlliyi və dərinliyi etibari ilə birinci yerdə duran, yer üzünün böyük poemalarını və ümumdünya mədəniyyət tarixini yaratmış ilk filosof və şair olduğu kimi, həm də ilk pedaqoqdur" [4, 40].Keçmiş zamanlardan bəri xalq cəmiyyətin tərbiyəsinə yüksək tələbkarlıqla yanaşmışdır. Bunun nəticəsidir ki, xalqın zaman süzgəcindən keçən nümunələrinin hər biri tərbiyəvi imkanlara malikdir. Nağıl, atalar sözləri, məsəllərdə bu mövzuda süjetlər çoxdur. Bunların hər biri müəllimə şagirdi yenidəntərbiyə etmək imkanı verdiyi üçün təhsildə diqqətdən kənarda saxlanılmaması lazım olan materiallardır.

K.D.Uşinski: "Xalqın yarandığı tarixdən bəri tərbiyə mövcud olmuşdur. Tərbiyə onunla bərabər doğulmuş, boy atmış, onun yaxşı və pis cəhətlərini özündə əks etdirə bilmişdir. Hamı üçün ümumi olan təkcə bir meyl vardır ki, tərbiyə ona hər zaman qeyri-şərtsiz arxalana bilər. Biz buna xəlqilik adı veririk" [1, 45]. Bu dəyərli fikirlər bir daha tərbiyə prosesində şifahi xalq ədəbiyyatına arxalanmağın vacibliyini təsdiq edir.Mövcud ədəbiyyatın təhlili göstərir ki, şifahi xalq ədəbiyyatı nümunələrindən didaktik vasitə kimi təlim-tərbiyə işində istifadə edilməsi filosofların, pedaqoqların, alimlərin nəzərindən də yan keçməmişdir. Folklor ədəbiyyatı xalqın əqlinin, mədəniyyətinin, inamının və dünyaya baxışının inikasıdır .

Atalar sözlərini, məsəlləri, nağılları ümumilikdə bütün ədəbi janrları incələdikdə onlar içərisində xalqın ağlının, mədəniyyətinin, inamının və dünyaya baxışının bir parçasını görmək olur.Prof. Ə.Həşimov bu mövzu ətrafında dərin fikirlər səsləndirmişdir: "Xalqın bizə çatan yadigarları, materialları müdriklik dəfinəsidir. Onlar yığcamlığı, obrazlılığı, dərin ictimai pedaqoji məzmunu, ədəbi-tarixi koloriti, əxlaqi-etik tövsiyəsi, nəsihətamiz ruhu ilə xalqın kamal dünyasıdır. Etnopedaqoji materialların hər birində həyatın, tərbiyənin bu və ya digər məsələsi üzrə, zəhmətkeş kütlələrin real qənaəti, inamı, etiqad və təsəvvürü əks olunmuşdu.Məhz bu səbəbdən biz folkloru ümümxalq sərvəti kimi dəyərləndiririk" [2, 59].Ə.Həşimovun vurğuladığı fikirlərini təhlil etdikdə bu bədii nümunələrə dərs prosesində yer verilməsinin zəruriliyi aydınlaşır. Akademikin və eyni zamanda bizim fikrimizcə dili öyrədən zaman şagirdin əxlaqi, əqli, əmək tərbiyəsi də mərkəzdə dayanmalıdır. Bu prosesi kompleks halda həyata keçirməyə imkan verən nümunələr isə sözsüz ki etnopedaqoji materiallar ola bilər.

A.V.Lunaçarskinin fikrinə görə, yeni nəsillər köhnə nəsillərin təcrübəsini qavrayırlar, onlar köhnə nəsillərin çiynində dururlar, min illər boyu ötən nəsillərin əldə etdiyi bütün qiymətli şeyləri əxz edirlər, lakin bununla bərabər xürafatı da, eyibləri də, bütün çirkabı , üfunəti də qəbul edirlər. Harada isə süzgəc, harada isə tor qoymaq lazımdır ki, o, bütün qiymətli şeyləri, qüdrətli axını, yaxşı adətləri, ənənələri, fikirləri, nailiyyətləri özündən keçirsin, çirkabı, xıltı və üfunəti isə buraxmasın [3, 34].Qeyd etdiyimiz kimi, bədii nümunələr xalq tərəfindən anonim şəkildə yaradılan nümunələrdir. Təlim-tərbiyə prosesində həmin materiallardan istifadə edilməsi pedaqoji ustalıq tələb edir. Dərs prosesi zamanı istifadə ediləcək atalar sözləri və məsəllərlə ehtiyatlı olmaq zəruridir. Çünki onların içərisində ilk baxışda həqiqət kimi görünən yanlış fikirlər gizlənmiş olur. İfadə edilən əsas mənanı düzgün şəkildə dərk etməyə hamı nail ola bilmir. Yadda saxlamaq lazımdır ki, atalar sözləri həqiqi və məcazi, yəni dolayı mənanı özündə ehtiva edir.

Nəzərə almaq lazımdır ki, keçmiş nəsil məktəbə getmədən mövcud pedaqoji ədəbiyyatla tanış olmadan ailədə, əmək prosesində öz həmyaşıdları ilə və başqaları ilə ünsiyyətdə olan zaman tərbiyə olunaraq özlərinin mütərəqqi ideyalarını yaratmış və uşaqlarını bu istiqamətdə tərbiyə etmişlər. Həmçinin müxtəlif dövrlərin pedaqoqları tərbiyə sistemini yaradarkən ilk növbədə xalqın pedaqoji irsinə bu sahədəki təcrübəsinə əsaslanmışdır.İnsan nə qədər dahi olsa da, kütlələrin, ötən nəsillərin tərbiyə sahəsindəki təcrübəsindən üz döndərsə, müdrik xalq kəlamlarından bəhrələnməsə, onun üçün tərbiyə prosesində uğur qazanmaq bir o qədər əlçatmaz olar. Eləcə də təlim-tərbiyə prosesində ədəbi nümunələrdən istifadə edilməssə, müəllimlər yalnız öz fikirlərinə istinad edərək şagirdə nəyisə aşılamağa çalışarlarsa bu özlüyündə təlim-tərbiyə prosesinin uğursuzluqla nəticələnməsinə gətirib çıxaran başlıca amilə çevrilə bilər.

ƏDƏBİYYAT

8. Van Patten B. Input Processing and Grammar Instruction in Second language Acquisition. Norwood: Ablex Press, 1996.
9. Willis D. and Willis J. Doing Task-Based Teaching. Oxford: Oxford University Press, 2007.
10. Vygotsky's Educational Theory in Cultural Context. Edited by Alex Kozulin, Boris Gindis, Ageyev V.S, Suzanne M.Miller. Cambridge: Cambridge University Press, 2003, 477 p.
11. Yuan F. and Ellis R. The effects of pre-task planning and on-line planning on fluency, complexity. Oxford, 2003, 252 p.

K. Farajbayli

The methodology of using oral national creativity in ELT

Summary

Of all the language arts, are those most often used on a daily basis at home, school and work or in the community. Skill in speaking is universally recognized as a primary indicator of a person's knowledge, skill and credibility. In person, by phone or through video, good listening and speaking skills are essential to sending, receiving and understanding messages. To understand messages spoken by others, students must be able to listen carefully, using specific techniques to clarify what they have heard. For speaking properly and making messages understood, grammar, sentence structure, tone, expression and emphasis must be part of students' repertoires.If you plan your outline, your list of main points may be all you need. Even so, you will find it helpful to arrange them according to their order of importance. Which idea or ideas will you use in the main part of your discussion? Which will you use at the end? As a minimum, write down your main points in some kind of orderly arrangement before you begin to write.For longer papers and reports, you will find a detailed outline is usually a better aid in organizing your material. Even though developing the outline can be a difficult process, it forces you to align your main and supporting ideas in logical order before you begin writing. Otherwise, distractions of all kinds can confuse you and make your writing job much more difficult than it should.It is not necessary to be overly concerned with form in outlining. Use any form that works! Although most writing texts lay out elaborate formats for topic and sentence outlines, your purpose in planning is to arrange main and supporting ideas in a visible framework that permits you to see and test your logic on paper. Then, if some ideas do not fit together or flow naturally, you can rearrange them before you get under way with your big job. There are no "absolutes" for organizing; every teacher has his or her own mental approach to the task.

Key words: communication, innovation, teaching materials, echnology, speech

К. Фараджбейли

Методика использование устное народное творчество на преподавании английского языка

Резюме

Первоочередная задача в процессе использования коммуникативного подхода состоит во всемерном содействии использованию изучаемого языка в самых различных коммуникативных ситуациях. Совершенно очевидно,

что приоритетным направлением в процессе обучения тому или иному языку должно стать использование языка в процессе коммуникации, а не рассуждения о языке. Однако, говоря о новых методах и подходах к материалов обучения следует отметить, что в некоторых случаях стратегий устаревшего подхода должны быть изменены. Однако, в действительности само понятие коммуникативного подхода означает гораздо больше. Роль и задачи обучения, в частности, домашнему чтению как в существующей системе образования , так однако практически в любом контексте существует потребность в знании получении информации и в коммуникативной компетентности людей, изучающих те или иные иностранные языки. Прежде всего, учителя должны быть сами компетентны в этой области. Они должны быть чувствительными в лингвистическом отношении и коммуникативно компетентными. Далее, современные учителя иностранного языка должны уметь видеть себя глазами других и быть готовы считаться с тем, как они их видят. Также они должны быть готовы к экспериментам, должны быть готовы и способны делиться опытом и эмоциями с носителями других культур и своими студентами; должны находиться в постоянном поиске того, какими средствами современные языки могут содействовать пониманию на глобальном уровне. Учителя не должны ограничиваться передачей знаний своим студентам и сообщением тех или иных данных, они должны уметь организовать занятия таким образом, чтобы студенты были вовлечены в процесс обсуждения, дискуссий в качестве активных, инициативных участников. Современный учитель иностранного языка должен обладать стремлением к приобретению знаний о социально-культурном окружении и основах общества и страны изучаемого языка, должны приобретать знания о своей стране и своем обществе, и о том, каким их видят люди, принадлежащие к другим культурам.

Ключевые слова: коммуникация, инновация, обучения материалов, технология, речь

Redaksiyaya daxil olma tarixi: 20.12.2019
Çapa qəbul olunma tarixi: 16.01.2020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Zenfira Quliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ƏSMƏR HÜSEYNOVA
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
e.posta: esmer74.17@mail.ru

ƏKBƏR AĞAYEVİN ELMİ İRSİNDƏ ƏDƏBİ ƏLAQƏLƏR BİR PROBLEM KİMİ

Xülasə

Məqalə professor Əkbər Ağayevin keçən əsrə təsadüf edən tənqidçilik və tərcüməçilik fəaliyyətinə həsr olunur. Azərbaycan ədəbi mühitinin mövzu – ideya sənətkarlıq axtarışları təhlil edilir, tərcümə ilə bağlı ədəbi əlaqələr göz önünə gətirilir. Alimin ən müxtəlif yaradıcılıq sahələrində və istiqamətlərində bəhrələnmə prinsipi təcrübi şəkildə göstərilir. Qeyd olunur ki, Əkbər Ağayev ədəbi əlaqələri tərcümə fonunda qarşılıqlı faydalanma təsiri kimi məqsədəuyğun sayır. Məqalədə alimin ədəbi əlaqələr sahəsinə elmi marağından danışılır, onun xalqlar arasında mənəvi ünsiyyət körpüsü yaradan bədii tərcüməsini ən yaxşı məziyyətlərdən biri hesab olunur.

Alimin tərcüməçilik fəaliyyətinin milli ədəbiyyatlararası ədəbi əlaqələrin inkişafına və təbliğinə xidmət etdiyi diqqətə çatdırılır. Onun Azərbaycan dilinə tərcümə etdiyi hər hansı bir mətnin nəticə etibarilə son dərəcə inandırıcı və dəqiq olması oxucusunu inandırmaq cəhdi və qabiliyyəti nəzərə çatdırılır. Alimin keçən əsrin 30-cu illərinin ikinci yarısından etibarən milli - ədəbi tarixi təcrübənin inkişaf xüsusiyyətlərini, xüsusi olaraq klassik sənətkarların yaradıcılıq irsini Avropa və dünya ədəbi – bədii fikrinin nailiyyətləri ilə tarixi – müqayisəli aspektdə öyrənilməsi məsələsi prioritet istiqamət kimi götürülür. Keçən əsrin 50–60–cı illərinə qədər Əkbər Ağayevin tərcüməçilik fəaliyyətində müəyyən dərəcədə durğunluq müşahidə edilsə də, az sonra ardıcıl olaraq ərsəyə gətirdiyi kitabları ayrı – ayrı nəşriyyatlarda işıq üzü görür. Alimin tərcümənin nəzəri məsələləri və təcrübi imkanları ilə bağlı irəli sürülən müxtəlif mülahizələrində belə bir qənaətə gəlinir ki, ədəbi əlaqələrin inkişafında zəruri bir sahəyə hesab edilən, xalqlar arasında mənəvi ünsiyyət körpüsü yaradan vasitələrdən biri kimi faydali yaradıcılıq işi aparmış ədəbiyyatşünaslardan biridir. Əkbər Ağayev tərcümə nəzəriyyəsi və onun sənətkarlıq məsələləri ilə bağlı qələmə alınan məqalələrin müəllifi olmaqla yanaşı, həm də praktik tərcüməylə ardıcıl məşğul olan peşəkar tərcüməçi idi.

Onun ilk tərcümələrinin rus və Avropa nəzəri – estetik irsindən olması bu mənada təbii görünür. Bu, onun, hər şeydən əvvəl, bir tənqidçi - ədəbiyyatşünas kimi haqqında söhbət gedən sahələrə kifayət qədər bələdliyindən irəli gəlir. Bir cəhəti xatırlatmaq lazımdır ki, bu istiqamətdə o ardıcıl və məhsuldar fəaliyyəti ilə kifayət qədər tanınırdı. Alimin tərcümə prosesində uşaq psixologiyasını və yaş xüsusiyyətlərini nəzərə almsı diqqətdən kənarda qalmır. Və yaxşı haldır ki, uşaq

dünyasını onun maraq dairəsini əks etdirən bu əsərlər sadə və oxunaqlı bir dildə uşaqlara çatdırılır. Belə sadəliyi və təhkiyədəki axıcılığı həmin əsərlərin sərgüzəşt və nağıl janrında qələnmə alınması ilə izah etmək olar. Mütərcim tərcümə prosesində bu vacib tələbləri nəzərə almış, nəticədə azyaşlı uşaqların və yeniyetmələrin maraq dairəsinə cavab verən əsərlər yaratmışdır.

Açar sözlər: Əkbər Ağayev, milli ədəbiyyat, ədəbi əlaqələr, tərcüməçilik fəaliyyəti, bədiilik.

Milli ədəbiyyatların tarixi inkişaf təcrübəsi əyani surətdə təsdiqləyir ki, hər hansı bir regionuna məxsus ədəbi fakt və hadisə özünün məhdud mövzu dairəsi, surətlər aləmi və bir küll halında ideya – bədii xüsusiyyətləri ilə nə geniş ədəbi arenaya, nə də çoxsaylı oxucu kütlələrinin mənəvi ehtiyaclarını ödəmək iqtidarına sahib çıxa bilər.

Bu mənada millilik sözün yaxşı mənasında heç də məhdud və məhəlli çərçivələri özündə ehtiva edən anlayış mənasında başa düşülməməlidir. O, əksinə olaraq xalqın tarixi taleyini, xarakterini, psixologiyasını, həyat və məişətinə məxsus ən səciyyəvi cəhətləri özünəməxsus bədii ifadəsinə hesablanan bir yaradıcılıq məziyyətini bədii şəkildə canlandıran bir vasitə funksiyasını icra etmək gücündədir.

Tədqiqatçıların böyük əksəriyyəti qarşılıqlı ədəbi əlaqələri məhz bu aspektən dəyərləndirir, onun daha fəal bir yaradıcılıq məcrasında inkişafını müasir dövrün tələb və ehtiyaclarından irəli gələn bir zərurət hesab edirlər. Bu baxımdan ədəbi əlaqələr üzrə tanınmış tədqiqatçı Arif Hacıyev irəli sürdüyü mülahizələr müəyyən əks etdirir: “Ölkəmizdə (SSRİ nəzərdə tutulur – Ə.H) ədəbi əlaqələr iki sosial - ədəbi funksiyanı yerinə yetirir: 1) ayrılıqda hər bir milli ədəbiyyatın daxili inkişafına və zənginləşməsinə yaxından kömək edir; 2) vahid çoxmillətli sovet ədəbiyyatının yaranması və mövcudluğunun başlıca formasına çevrilir. Bu isə o deməkdir ki, hərhansı bir milli ədəbiyyatda (indiki halda Azərbaycan ədəbiyyatında) sosialist realizminin inkişafında ədəbi əlaqələrin rolundan bəhs edərkən bu əlaqələrin konkret tarixi formalarda özünü göstərən ikitərəfli xarakterini və funksiyasını nəzərə almaq lazımdır.” (1; s.328)

Ədəbi əlaqələrə aid məlumat xarakterli mənbələrdə bu sahəyə məxsus məziyyətlərin ümumi cəhətləri belə müəyyənləşdirilir: “Ədəbi əlaqələr - bir ədəbi hadisənin başqa bir ədəbi hadisə ilə ideya – yaradıcılıq əlaqələridir. Ədəbi əlaqələr ayrı – ayrı yazıçıların səviyyəsində, yaranır; məsələn, bir ədəbi dövr başqa bir ədəbi dövrə bu və ya digər təsir göstərir. Ədəbi əlaqə daha geniş aspektdə də olur: ədəbiyyatla sənətin digər növləri – teatr, rəssamlıq, musiqi, kino, televiziya arasında əlaqə və qarşılıqlı təsir olur” (2; s.77)

Bu qeydlər bir daha onu təsdiqləyir ki, ədəbi əlaqələr bədii yaradıcılığın, o cümlədən də incəsənətin geniş və əhatəli sahələrini və spektrini çevrələyir, məhz

onun sayəsində qarşılıqlı təsir və faydalanma, ən müxtəlif yaradıcılıq sahələrində və istiqamətlərində bəhrlənmə təcrübi şəkildə reallaşır.

Diqqəti cəlb edən bir mühüm cəhət də odur ki, ədəbi əlaqələr bir milli ədəbiyyatın hüdudlarında da reallaşmaq imkanlarını gerçəkləşdirə bilir. Bu daha çox özünü ənənə və varislik prinsipi əsasında özünü büruzə verir. Məsələn, Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Qazi Bürhanəddin, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Səməd Vurğun kimi müxtəlif dövrlərin sənətkarlarının yaradıcılıq irsindən bəhrələnmə və ədəbi təsir də ədəbi əlaqənin məhz milli ədəbiyyat daxilində mövcudluğunun əyani bir göstəricisidir.

Şübhəsiz ki, yuxarıda adları sadalanan sənətkarların böyük əksəriyyəti ədəbi məktəb yaradan qələm sahibləridir. Onların öz dövrlərində və daha sonrakı yaradıcılıq mərhələlərində ədəbi irsindən faydalanan və təsirlənən ədəbi nəslin meydana gəlməsi də sözün həqiqi mənasında, ədəbi əlaqənin milli və ədəbi – bədii düşüncədə mövcudluq imkanlarını əyani surətdə təsdiqləməkdədir. Biz doğru olaraq dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılığını həm milli ədəbiyyatın daxilində, həm də onun hüdudlarından kənarda ədəbi əlaqənin və ədəbi təsirin bir nadir hadisəsi kimi qiymətləndirə bilərik. Söz yox ki, böyük şairin burada yaratdığı ədəbi məktəbdən də yan keçmək olmaz. Bu mənada ədəbi məktəb anlayışı elə ədəbi təsir və əlaqənin sayəsində gerçəkləşən, daha sonralar bir ideya – estetik səviyyəyə yüksələn faktor kimi formalaşmağa yardımçı olur. Belə bir analoji müqayisəni digər milli ədəbiyyatların tarixi təcrübəsindən şıxış edərək aparmaq olar.

Bir cəhəti də qeyd etmək lazımdır ki, ədəbi əlaqənin yetkin bir səviyyəyə çatmasında milli və ümumbəşəri dəyərlərin müstəsna əhəmiyyətini də mütləq şəkildə nəzərə alınması lazımdır. Bu da bir həqiqətdir ki, milli ədəbi – bədii təcrübəyə söykənən elə fakt və hadisələr meydana çıxa bilər ki, o milli və bəşəri dəyərləri bütün parametrləri ilə mətn içərisində bir vəhdət halında ifadəsını gerçəkləşdirmək imkanlarına malik olsun. Belə bir yaradıcılıq məziyyəti bir daha onu təsdiqləyir ki, bəşərilik millilikdən öz başlanğıcını götürür. Milli olmayan ədəbi dəyərlərin bəşəriliyi həmişə şübhə altındadır.

Filologiya elmləri doktoru, professor Əkbər Ağayevin ədəbi əlaqələrə həsr olunan tədqiqatlarında bu qəbildən araşdırma predmeti seçilən bədii nümunələr belə bir meyar və prinsip əsasında təhlilə cəlb edilməsi ilə əlamətdar keyfiyyətlər qazanır. O ədəbi əlaqələri bir ədəbiyyatın diğər ədəbiyyat üzrərində hegemonluğu, pis mənada təsiri kimi deyil, qarşılıqlı faydalanma təsiri kimidəyərləndirilməsini məqsədəuyğun sayır.

Alimin ədəbi əlaqələr sahəsinə elmi marağı keçən əsrin 30-cu illərin sonları və Böyük Vətən müharibəsinin başlandığı ilk illərinə təsadüf edir.

Şübhəsiz ki, ədəbi əlaqələr anlayışının ehtiva etdiyi komponentlərin hamısı demək olar ki, bu vaxtdan başlayaraq Əkbər Ağayevin elmi – nəzəri və təcrübi fəaliyyətində mühüm yerlərdən birini tutur. Bu baxımdan alimin qələmə aldığı ilk

məqalələrin tərcümə məsələlərinə, tərcümənin ədəbi – bədii təcrübədə artan roluna həsr olunması və bununla əlaqədar olaraq dövri mətbuat səhifələrində silsilə yazılarla çıxış etməsi təbii qanunauyğunluqdan irəli gəlirdi. Şübhəsiz ki, burada siyasi – ideoloji ab – havanın, keçmiş təbircə deyilsə, inkişaf etmiş sosialist ölkələrinə məxsus ədəbiyyatlarını önə çəkilməsi də istisna hal deyil, bu dövrün mühüm tələblərindən irəli gələn bir yaradıcılıq vəzifəsi idi. Ayrı – ayrı xalqlar və milli ədəbiyyatlar arasında qarşılıqlı əlaqələrin yaranmasında tərcümənin üzərinə düşən mühüm yaradıcılıq məsələlərinin çözülməsi də Əkbər Ağayevin bu istiqamətdəki elmi axtarışlarının mühüm və təxirəsalınmaz bir məziyyəti kimi diqqəti cəlb edirdi.

Bu baxımdan Əkbər Ağayev respublikada ədəbi əlaqələr sahəsində məhsuldar fəaliyyət göstərən, rus, Avropa və dünya xalqlarının ədəbi – mədəni irsinin Azərbaycanda tədqiqi və təbliği sahəsində ciddi araşdırmalar aparan alimlərdən biri kimi tanınırdı. Onun ilk tədris vəsaiti kimi nəşr olunan "Qədim yunan ədəbiyyatına dair oçerklər" (1938) kitabı bu sahədə ilk addım hesab oluna bilər. Doğrudur, kitab Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Pedaqoji Universitetinin – Ə.H) tələbələri üçün dərslik səviyyəsində qələmə alınsa da, bu alimin ədəbi əlaqələr və xarici ölkələr ədəbiyyatı ilə bağlı ilk elmi axtarışları kimi mühüm əhəmiyyət daşıyır, sonrakı tədqiqatları üçün bir təməl rolu oynayır.

Bir qədər sonra Əkbər Ağayev "Puşkinin davamçısı" (1938), "A.İ.Gertsen (1940), "Puşkin yaşayır" (1941) adlı məqalələr qələmə alır ki, bu da Azərbaycan – rus ədəbi əlaqələrinə həsr olunan və bilavasitə ayrı – ayrı ədəbi şəxsiyyətlərin Azərbaycan ədəbi – mədəni mühiti ilə əlaqə və bağlılığını araşdıran monoqrafiyaların meydana gəlməsi ilə nəticələnir.

Onu da qeyd etmək lazımdır ki, bir küll halında Əkbər Ağayevin ədəbi əlaqələr sahəsindəki elmi axtarışlarında rus ədəbi – mədəni mühiti və bu zəmində yetişən ədəbi şəxsiyyətlərin yaradıcılıq irsi, bilavasitə onun Azərbaycanla əlaqə və münasibətləri prioritet istiqamətlərdən biri kimi müəyyənləşir. Bu baxımdan alimin 1941-ci ildə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən nəşr olunan "M.Y.Lermontov və Azərbaycan" kitabı demək olar ki, ədəbi əlaqələrə həsr edilən ilk sanballı təşəbbüs kimi dəyərləndirilə bilər.

Kitabda, hər şeydən əvvəl, bir sənətkar kimi Mixail Yuriyeviç Lermontovun şəxsiyyəti, yetişdiyi mühit, orijinal yaradıcılığı, yaşadığı dövrün ictimai – siyasi, ədəbi – mədəni mənzərəsi barədə yetərincə bilgilər verilir ki, bu da şairin bir yaradıcı şəxsiyyət kimi fərdi keyfiyyətlərini, dünyagörüşünün, azadlıq və istiqlal mübarizəsinə münasibətinin üzə çıxarılması üçün münbit zəmin hazırlayır.

Alimin tərcümənin nəzəri məsələləri və təcrübi imkanları ilə bağlı irəli sürülən mülahizələrində belə bir qənaətə gəlinir ki: "Qarşılıqlı ədəbi əlaqələrin inkişafında zəruri bir sahəyə çevrilən, milli mədəniyyətləri, ədəbiyyatları bir – birinə yaxınlaşdıran, xalqlar arasında mənəvi ünsiyyət körpüsü yaradan vasitələrdən biri kimi Ə.Ağayev tərcüməyə, tərcümə sənətinin nəzəri məsələlərinə ümumi ədəbi – nəzəri fəaliyyətinin tərkib hissələrindən biri kimi xüsusi əhəmiyyət vermiş, həm

praktik tərcümə ilə, həm də onun əhəmiyyət doğuran aktual problemlerinin tədqiqi istiqamətində faydali yaradıcılıq işi aparmış ədəbiyyatşünaslardan biridir.” (3; s.115)

Maraq doğuran bir fakt da odur ki, alimin elmi – nəzəri fəaliyyətə başladığı və mətbuat səhifələrində ilk debütü kimi nəşr olunan məqalə və resenziyaları da elə tərcümə məsələlərinə həsr olunması bu mənada təsadüfi qarşılanmamalıdır.

Əkbər Ağayev tərcümə prosesində yol verilən nöqsanları dilin imkanlarından yetərincə istifadə olunmamasını da ciddi qüsurlardan biri hesab edir və belə qənaətə gəlir ki: “...tərcümənin mənfi cəhətlərindən birisi də odur ki, mütərcim əruz vəzni xatirinə öz tərcüməsində həddindən artıq: həvadis, əçələ, çürm, məşrut, xitabət, əsrar və sairə kibi ərəb və fars sözlərini işlətmişdir. Bu isə tərcümənin dilinin səlisliyini və onun anlaşılmasını çətinləşdirir.” (4; bax)

Real həqiqəti əks etdirən faktlara münasibət, ruscadan sətri tərcümə vasitəsilə Azərbaycan dilinə tərcümə olunan hər iki mətnin müqayisəsi əsasında prinsipial mövqedən fikir və mülahizələr irəli sürmək, nəticə etibarilə son dərəcə inandırıcı və dəqiq mülahizəni ortaya qoymaq və oxucunu belə bir münasibətin obyektivliyinə inandırmaq cəhdi məqalənin diqqəti çəkən ən yaxşı məziyyətlərindən biri hesab edilməlidir.

Dünya klassiklərinin əsərləri əsasən rus dili vasitəsilə Azərbaycan dilinə tərcümə olunmuş, əslində belə bir ənənə müəyyən mənada tərcümənin xeyrinə olmamış, burada ilkin mənbəyə istinad bir qədər arxa plana keçmişdir. Diqqət yetirilərsə, aydın görünə bilər ki, məqalə müəllifi orijinalı, onun hansı dildə yazılma məsələsini də burada kifayət qədər qabartmaq, məhz çevrilən dilin əsas mətn kimi önə çəkilməsini də vacib və zəruri tələblərdən biri hesab edir ki, bu da özlyündə tərcümə prosesində mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri olmaqla indi də öz aktuallığını qoruyub saxlayır.

Əkbər Ağayevin rus ədəbi – tənqidi – estetik fikrinin Vissarion Qriqoriyeviç Belinski və Nikolay Aleksandroviç Dobrolyubov kimi son dərəcə geniş fəlsəfi dünyagörüşə, mürəkkəb ictimai – tarixi – siyasi bir şəraitdə yaşayıb yaradan şəxsiyyətlərinin yaradıcılıq irsinin Azərbaycan elmi ictimaiyyətinə yüksək səviyyədə çatdırmaq təşəbbüsü də belə məqamlarda üzə çıxır.

1948 – ci ildə böyük rus tənqidçisi və filosofu Vissarion Qriqoroyeviç Belinskinin (1811 – 1948) vəfatının 100 illiyi münasibəti ilə onun ədəbi – tənqidi məqalələrindən və nəzəri istiqamətli tədqiqlərinin tərcümə olunması məhz bu hadisə ilə bağlı idi.

Əkbər Ağayevin tərcüməçilik fəaliyyəti də əslində ayrı – ayrı milli ədəbiyyatlararası ədəbi əlaqələrin inkişafına və təbliğinə xidmət edirdi. Onun dünya xalqlarının ədəbi – bədii nümunələrindən etdiyi tərcümələr keçən əsrin 40 - cı illərdən etibarən başlayır və ayrıca kitab halında nəşr olunur.

İlk nümunə kimi Daniel Defonun “Dənizçi Robinzon Kruzonun həyatı və qəribə sərgüzəştləri” (Bakı, Uşaqgəncnəşr, 1948), Arkadi Qaydarın “Seçilmiş hekayələri” (1949), Maksim Qorkinin “Nağıllar” (Bakı, Uşaqgəncnəşr, 1949),

F.Lankerin "Uşaqlar və xəncər" (Bakı, Uşaqgəncnəşr, 1951), "Bolqar xalq nağılları" (Bakı, Uşaqgəncnəşr, 1952) əsərlərini göstərmək olar. Bu tərcümə nümunələri, məlum olduğu kimi, əsasən uşaq ədəbiyyatı örnəkləridir. Şübhəsiz ki, tərcümə prosesində uşaq psixologiyasını və yaş xüsusiyyətlərini nəzərə almaq mühüm şərtdir. Və yaxşı haldır ki, uşaq dünyasını onun maraq dairəsini əks etdirən bu əsərlər sadə və oxunaqlı bir dildə uşaqlara çatdırılır. Diğər tərəfdən belə sadəliyi və təhkiyədəki axıcılığı həmin əsərlərin sərgüzəşt və nağıl janrında qələnmə alınması ilə izah etmək olar. Mütərcim tərcümə prosesində bu vacib tələbləri nəzərə almış, nəticədə azyaşlı uşaqların və yeniyetmələrin maraq dairəsinə cavab verən əsərlər kimi deyd oluna bilər. Alimin tərcümə prosesində uşaq psixologiyasını və yaş xüsusiyyətlərini nəzərə almaq mühüm şərtdir. Və yaxşı haldır ki, uşaq dünyasını onun maraq dairəsini əks etdirən bu əsərlər sadə və oxunaqlı bir dildə uşaqlara çatdırılır. Belə sadəliyi və təhkiyədəki axıcılığı həmin əsərlərin sərgüzəşt və nağıl janrında qələmə alınması ilə izah etmək olar. Mütərcim tərcümə prosesində bu vacib tələbləri nəzərə almış, nəticədə azyaşlı uşaqların və yeniyetmələrin maraq dairəsinə cavab verən əsərlər kimi deyd oluna bilər.

Keçən əsrin 50–60–cı illərinə qədər Əkbər Ağayevin tərcüməçilik fəaliyyətində müəyyən dərəcədə durğunluq müşahidə edilsə də, (bu, cəmi iki əsər!) az sonra V.Korolenkonun "Qəribə qız" (Bakı, Azərnəşr, 1960), O.Sekoranın "Qarışqalar təslim olmur" (Bakı, Uşaqgəncnəşr, 1961), N.Kalmanın "Qara Salli" (povest), (Bakı, Uşaqgəncnəşr, 1961), A.Dodenin "Taraskonlu Tartapenin qeyri – adi macəraları" (roman), (Bakı, Uşaqgəncnəşr, 1962), S.F.Antonovun "Kremldə görüş" (Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1962), Ə.Q.Bikçentayevin "Səfirin qızı" (Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1964), V.K.Jeleznikovun "Altıncı "B" – nin qəribə şagirdi" (Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1965), Jül Vernin "Apxipelaq alovlanır" (Bakı, "Gənclik" nəşriyyatı, 1969), Carlz Dikkensin "Oliver Tvistin macəraları" (Bakı, "Gənclik" 1969) kitabları ayrı – ayrı nəşriyyatlarda işıq üzü görür.

Maraq doğuran bir cəhət də odur ki, bu tərcümə faktları professor Əkbər Ağayevin mövzu və janr baxımdan daha geniş və əhatə nümunələrə müraciət etdiyini əyani surətdə göstərməkdədir.

Ədəbiyyat siyahısı:

1. Hacıyev A. Sovet realizminin təşkili və ədəbi əlaqələr. Sovet realizmi müəyyən mərhələdə (kollektiv), Bakı, "Elm", 1988. səh. 328
2. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq Ensiklopedik lüğət, Bakı, "Azərbaycan Ensiklopediyası" Nəşriyyat – Poliqrafiya Birliyi, 1998, səh.77
3. Mirzəzadə Q. Ə.Ağayev bədii tərcümənin milli mədəniyyətlərin yaxınlaşmasında rolu barədə, Tənqidçi dünyası (Əkbər Ağayevin ədəbi – tənqidi görüşləri, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2000, səh. 115)

4. Ağayev Ə. Yüksək keyfiyyətli bədii tərcümə uğrunda. (Latın qrafikası ilə), “Ədəbiyyat qəzeti”, 31yanvar 1937. Tərcümə edəni: Ə.Ağayev, C.Məmmədov, M.Cəfər, Ə.Mirəhmədov, R.Nurullayev. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1948

Е.Гусейнова

Литературные связи в научном наследии
переводоведения Акбара Агаева
Резюме

Статья посвящена деятельности профессора Акбара Агаевав сфере литературной критики и переводоведения в прошлом столетии. Тема анализируется в рамках идейно-тематических творческих поисков литературной среды Азербайджана, выявляются литературные связи в рамках переводоведения. Посредством примеровобосновывается принцип полезности ученого в различных сферах и направлениях творческой деятельности. Отмечается, что Акбар Агаев рассматривает литературные связи как процесс взаимовыгодных отношений в контексте перевода. В статье раскрываются научные интересы ученого к области литературных связей и показывается, что одним из лучших последствий художественного перевода является формирование основ для духовного общения между народами. Уточняется, что переводческая деятельность ученого способствовала развитию и пропаганде межнациональных литературных связей. Любой текст, который он переводил на азербайджанский язык, был точным и убедительным, что, в конечном счете, отражалось на мнении и предпочтениях читателя. Начиная со второй половины 30-х годов прошлого столетия, приоритетным является изучение, особенно исторического наследия классических художников с достижениями европейского и мирового литературного и художественного мышления. Хотя до 50-60-х годов прошлого века в переводческой деятельности Акбара Агаева был некоторый застой, книги, которые он опубликовал позже, публиковались в разных изданиях. Различные соображения ученого по теоретическим вопросам и практическим возможностям перевода приходят к выводу, что это необходимое направление в развитии литературных отношений. Одним из литературных критиков является, который сделал полезную творческую работу в качестве одного из инструментов для создания духовного моста между народами, в качестве необходимой области для развития литературных отношений.

Акбар Агаев был автором статей по теории перевода и его произведений по искусству, а также профессиональным переводчиком. Кажется

естественным, что его первые переводы были о русском и европейском теоретико-эстетическом наследии.

Это связано с тем, что он, в первую очередь, хорошо информирован в тех областях, где он является критиком - литературным критиком. Стоит отметить, что он был известен своей последовательной и продуктивной работой в этом направлении.

Процесс перевода ученого не остался незамеченным детской психологией и возрастными особенностями. Хорошо, что эти произведения, отражающие мир интересов ребенка, передаются детям простым и читаемым языком. Простота и плавность основ могут быть объяснены тем фактом, что эти произведения остаются в жанре приключений и сказок. Переводчик учел эти важные требования в процессе перевода и создал работы, которые отвечают интересам детей младшего возраста и подростков.

Ключевые слова: Акбар Агаев, национальная литература, литературные отношения, переводческая деятельность, художественный подход.

E.Huseynova

Literary relations in the scientific heritage
of Akbar Agayev are in the context of translation

Summary

The article is devoted to the critical and translational activities of Professor Akbar Agayev that occurred in the last century. Thesearch of thematic and ideological mastery of the Azerbaijani literary environment is analysed, and literary relations with translation are revealed.The benefit principle is practically shown in various fields and areas of creativity of the scientist. It is emphasized that Akbar Aghayev considers literary relations expedient as an influence of mutual benefit in the context of translation.The article highlights the scientist's scientific interest in the field of literary relations and his artistic translation that creates a bridge for spiritual communicationamong nationsis deemedone of the best merits.The scientist's translation activity is stressed as development and propaganda of literary relations among national literatures.

The consequent extreme persuasiveness and accuracy of any text translated by him into Azerbaijani, as well as endeavour and ability to convince his reader are brought to the attention. Starting from the second half of the 1930 s, the study of the peculiarities of the development of local literary and historical experience, in particular the achievements of European and world literary and artistic thinking of the classical artists, is a priority. Although there was some stagnation in Akbar Aghaev's translation activity until the 50-60s of the last century, the books that he

published later were published in different publications. The scientist's various considerations on theoretical issues and practical possibilities of translation come to the conclusion that it is a necessary area in the development of literary relations. is one of the literary critics who has done useful creative work as one of the tools for creating a spiritual bridge between peoples, as a necessary area for the development of literary relations. Akbar Aghayev was the author of articles on translation theory and his works on art, and was also a professional translator.

Akbar Aghayev was the author of articles on translation theory and his works on art, and was also a professional translator. It seems natural that his first translations were of Russian and European theoretical-aesthetic heritage. This is due to the fact that he is, first and foremost, well-informed in the areas where he is a critic - a literary critic.

It is worth mentioning that he was well-known for his consistent and productive work in this direction. The fact that a scientist takes into account child psychology and age features in the translation process is not left unnoticed. It is good that these works reflecting the child's world of interest are conveyed to children in a simple and readable language. Such simplicity and fluidity in the basics can be explained by the fact that these works are kept in the genre of adventure and fairy tales. The translator has taken into account these important requirements in the translation process, and has created works that meet the interests of young children and adolescents.

Keywords: Akbar Aghayev, national literature, literary relationships, translationactivities, artistic approach.

Redaksiyaya daxil olma tarixi: 16.12.2019
Çapa qəbul olunma tarixi: 24.01.2020
filologiya üzrə fəlsəfə doktoru, dosent Qürbət Mirzəzadə tərəfindənçapa tövsiyə olunmuşdur.

HÜLYA CƏBİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistrant
E-mail : cebiyevahulya6@gmail.com

ORTA MƏKTƏBLƏRDƏ NƏSR ƏSƏRLƏRİNİN TƏDRİSİNDƏ TƏHLİL DƏRSLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ YOLLARI

Xülasə

Nəsr əsərlərin tədrisi ədəbiyyat tədrisi metodikasının əsaslarından birini təşkil edir. Digər ədəbi növlərdə olduğu kimi epik növdə yazılan nəsr əsərləri də ciddi təhlilə cəlb etmədən düzgün tədris etmək qeyri – mümkündür. Janrından asılı olmayaraq bu əsərlərin tədrisində sujet və kompozisiya elementləri, obrazların təsviri və s. məsələlər diqqət mərkəzində olmalıdır. Yadda saxlamaq lazımdır ki, bədii zövqün əsası, bünövrəsi məktəbdə qoyulur. Məhz bu əsas üzərində isə müasir oxucular öz zövqlərini inkişaf etdirir və formalaşdırır. Nəsr əsərlərinin şagirdlər tərəfindən dərk olunmasının təşkili bir sıra amillərlə bağlıdır. Bunlardan ən başlıcası odur ki, müəllim mütaliə zamanı dərk olunmanın psixoloji məsələlərinə xüsusi fikir versin. Məktəbdə verilən biliklərin möhkəm və davamlılığı, həyatla, quruculuq işi ilə bağlılığının təmin olunmasını şərtləndirmək üçün indi psixoloji problemlərlə yalnız bu sahənin mütəxəssisləri deyil, başqa ixtisas sahibləri də maraqlanır və məşğul olurlar. Həmin psixoloji problemlərdən biri də məktəbdə surətlərin səciyyələrində olan zidd cəhətləri, hər birinin dünyagörüşünü, həyata baxışlarını müqayisəli surətdə daha yaxşı öyrənməkdən ibarətdir. Müqayisə surətlərin səciyyəsini qarşılıqlı öyrənmək üçün çox əlverişli və maraqlıdır. Mənfi və müsbət obrazın şagirdə göstərəcəyi hər hansı təsiri müəllim əvvəlcədən müəyyənləşdirməyi bacarmalıdır. Belə ki, müəllim şagirdin mənfi deyil, məhz müsbət obrazın xarakterik xüsusiyyətlərini örnək götürməsi üçün bu obrazları daha çox ön plana çıxarmalıdır. Təcrübə göstərir ki, V-IX sinif şagirdləri surətləri müqayisə etməyə böyük meyl göstərir, işə həvəslə girişirlər. Janrların həcmindən asılı olaraq bu əsərlərdə obrazların sayı az və çox ola bilər. Bu obrazların hər birinin təhlili təlimin əsas istiqamətlərindən biri olmalıdır. Bədii əsərlərin mahiyyətinin dərk olunması şagirdlərin mütaliəsi ilə, zövqü ilə çox bağlı olan prosesdir. Nəsr əsərlərinin dərk olunması elə təşkil olunmalıdır ki, şagirdlər onun köməyi ilə bədii zövqə yiyələnə bilsinlər. Bu işdə müəllim bədii əsərlərin mütaliəsindən, bu əsərlərin şagirdlərə bədii zövq tərbiyəsi üçün verdiyi imkanlardan səmərəli istifadə etməli, onu istiqamətləndirməyi bacarmalıdır. Məsələn, müasir metodik ədəbiyyat qeyd edir ki, XI sinif şagirdi artıq bədii zövqləri, maraqları tam inkişaf etmiş bir səxsdir. O, əsəri oxuyarkən ondan aldığı zövqü, müəllifin ona çatdırmaq istədiyi fikri tam aydın dərk etməlidir.

Açar sözlər: ədəbiyyat, kurikulum, hekayə, təlim, janr, metod

Metodist Bilal Həsənli qeyd edir ki, "…Şagirdlərdə surətləri müqayisə etmək bacarığı yaratmaq üçün elə əsərlər götürülməlidir ki, o, təhlil üçün münasib və əlverişli olsun, müqayisə etmək zəruriyyəti tələb etsin. Surətin səciyyəsini tamamlamağa kömək edən vasitələrdən biri də təbiət təsvirləridir. Təcrübə göstərir ki, bəzi müəllimlər V – IX siniflərdə əsərin süjeti ilə bağlı olan surətlərin səciyyəsini başa düşməyə kömək edən bədii təsvirlərin əhəmiyyətinə az diqqət yetirir, təbiət təsvirinin əsərdə nə münasibətlə və necə verildiyini çox zaman nəzərdən qaçırırlar. Bu isə ciddi səhvdir. Nəsr əsərlərində təbiət (peyzaj) və əşya təsviri əsərdəki hadisə və məfkurə ilə sıx surətdə bağlıdır. Ədəbiyyat dərslərinin əsas vəzifələrindən biri də bu əlaqəni konkret misallarla göstərməkdir. Bədii əsərdə gözəl bir bağın, ətəyi güllü-çiçəkli, başı isə qarlı dağın, şiddətli yağışın və boranın, soyuq qış gecələrinin, gözəl baharın və s. təsviri təsadüfi verilmir. Bu təsvir insan taleyini və insan səciyyəsini açmağa kömək edir, onlarla bağlı olur. "(1, 253).Məsələn, C.Məmmədquluzadənin «Poçt qutusu» hekayəsinin sonunda oxuyuruq: «Hava qaranlıqlaşmışdı. Novruzəli ac-acına çuvallarını ac ulağın üstünə salıb, qatdı qabağına və zoğal ağacı ilə döyə-döyə getdi kəndə». (2, 356). Bu təsvir surətin keçirdiyi həyəcanı və düşdüyü vəziyyəti tamamlayır. Müəllim çalışmalıdır ki, V-IX sinif şagirdlərini bu cür əsərlər üzərində işlədərkən onlar təbiət təsvirlərini oxumağa meyl etməklə kifayətlənməsinlər, təbiət təsvirlərinin hansı məqsədlə işlənildiyini, nəyə xidmət etdiyini əsərin ideyası ilə əlaqədar olaraq mənimsəsinlər.Səciyyə tərtibi. Əsərdə iştirak edən surətlərin səciyyəsini müəyyənləşdirmək çox əhəmiyyətli bir məsələdir. Bu, şagirddən xüsusi hazırlıq, bacarıq və vərdiş tələb edir. Təcrübə göstərir ki, bəzi məktəblərdə şagirdlər səciyyə tərtib etməyi bacarmır və bu sahədə iki cəhəti – surətin həyatı ilə səciyyəsini bir-birindən fərqləndirməkdə çətinlik çəkir və ya qarışdırırlar. Məsələn, Novruzəli surətinin hansı səciyyəvi sifətləri vardır? soruşduqda bəzi şagirdlər Novruzəlinin İtqapan kəndinin sakini olduğunu, onun kənddən xana sovqat gətirdiyini, xanın təkidi ilə poçtxanaya getdiyini, verilən məktubu qutuya atdığını, divanxanaya düşdüyünü və s.-ni axıra qədər sadalayırlar. Çox təəssüf ki, bəzi müəllimlər şagirdlərin bu cür cavabları ilə razılaşır, hətta yeri gəldikcə özləri də surətlərin səciyyəsini, onun həyat yolunu da və ya başına gələnləri sadalamaqda görürlər. Fərdi səciyyə. Ədəbiyyat materiallarının xüsusiyyətindən asılı olaraq bədii əsərin surətlərini müxtəlif şəkildə səciyyələndirmək olar. Surəti fərdi səciyyələndirmək işinin daha düzgün təşkili üçün müəyyən plan üzrə hərəkət etmək lazımdır. Müəllim fərdi səciyyə zamanı şagirdlərin diqqətini təhlil olunan surətin əsas cəhətlərinə cəlb etməlidir. Çünki şagirdlər surətin əsas əlamətlərini yaxşı öyrəndikdə onu həm düzgün səciyyələndirər, həm də əsərdə iştirak edən başqa şəxslərin və hadisələrin mövqeyini düzgün təyin edə bilərlər.

Müəllimin verdiyi plan üzrə səciyyə. Təcrübə göstərir ki, şagirdlər surətləri fərdi surətdə səciyyələndirməyi öyrəndikdən sonra, bu sahədəki işi onlara müstəqil icra etdirmək də olar. Odur ki, müəllim şagirdlərin surətləri fərdi səciyyələndirmək haqqındakı bilik və vərdişlərində istifadə edib, əvvəlcədən verdiyi plan üzrə də

onları işlədə bilər. Şagirdlərin əsər üzərində müstəqil işlərini təşkil etmək üçün bu, ən faydalı bir üsuldur.

Müəllimin verdiyi plan üzrə səciyyə tərtib edərkən mətndən nümunələr seçmək və planın maddələrini bu nümunələr əsasında aydınlaşdırmaq çox vacibdir.

Müqayisəli səciyyə. Səciyyə tərtibində ən mükəmməl üsul müqayisəli səciyyədir. Müqayisə təlimdə əsasdır. K.D.Uşinski müqayisə vasitəsinin əhəmiyyətindən danışaraq demişdir: «Müqayisə hər cür anlamanın başqa cür təfəkkürün əsasıdır»

Müqayisə üsulu o zaman yaxşı nəticə verir ki, təbii və yerində olsun.

Süni və yersiz müqayisələr nə müqayisə edilən surətlərin səciyyəsini başa düşməyə kömək edir, nə də şagirdə yeni bilik verir.

Müəllim surətləri səciyyələndirərkən həm bir əsərin surətləri, həm də müxtəlif əsərlərdəki surətləri (bu surətlər oxşar və zidd səciyyəli ola bilər) bir-biri ilə qarşılaşdırıb səciyyələndirə bilər.

Surətlərin səciyyəsini müqayisə edərkən, müqayisə olunan surəti şagirdlərin vaxtilə öyrəndikləri əsərlərdəki surətlərlə də müqayisə etmək olar. Məsələn, «Məktub yetişmədi» hekayəsindəki Qurban surətindən danışarkən onun səciyyəsini şagirdlərin bundan əvvəl öyrəndikləri Novruzəli ("Poçt qutusu") surəti ilə müqayisə etmək faydalıdır. Bu üsül həm keçmiş materialı möhkəmləndirmək, həm də yeni materialı aydınlaşdırmaq və yaxşı başa düşmək üçün şagirdlərə çox kömək edir.

1. Məktəbin yuxarı siniflərində bədii obrazların təhlili. Bədii əsərlərin mətni üzərində şagirdlərin fəallığını təmin edərkən çalışmaq lazımdır ki, onlar ayrı-ayrı yazıçının özünəməxsus sənətkarlıq xüsusiyyətlərini, yaradıcılıq nailiyyətlərini mükəmməl mənimsəsin və qiymətləndirməyi bacarsınlar. Təcrübə göstərir ki, bəzi müəllimlər əsərin ideya-məzmunu, bədii xüsusiyyətləri üzərində şagirdlərin sinifdə və sinifdənxaric müstəqil işlərini, onların fikri fəallığını təmin etmədən özləri əsər haqqında ümumi mülahizə söyləməklə kifayətlənirlər. Belə olduqda, şagirdlər obrazın necə yaradıldığını, məktəbdə təhlil olunan obrazlar silsiləsində ayrı-ayrı qəhrəmanın yerini və mövqeyini müəyyənləşdirməkdə çətinlik çəkirlər.

Obrazın portreti. Bədii əsərdə portret yaratmaq əsil sənətkarlıq tələb edən mühüm məsələlərdən biridir. Portret fransızca "partrait" sözündən alınmışdır. Mənası insanın xarici əlamətlərini, geyimini, görkəmini təsvir etmək deməkdir. Bəzən portretə «qəhrəmanın mənəvi portreti» də deyilir. Bu zaman əsərin qəhrəmanının mənəvi keyfiyyətləri nəzərdə tutulur. Görkəmli sənətkarlar həmişə təsvir etdikləri obrazların yalnız zahiri görkəmini yaratmaqla kifayətlənmir. onların daxili aləmini də əlvan boyalarla əks etdirirlər. Bu xüsusiyyət bədii əsərlərdə, əsasən, aşağıdakı kimi özünü göstərir: a) obrazın zahiri əlamətləri gözəl, xoşagələn, cazibədar olduğu kimi, mənəvi aləmi, işi, əməli də gözəl, nəcib olur. b) obrazın zahiri gözəlliyi və səliqəsi mənəvi aləmi ilə ziddiyyət təşkil edir. «Sevil» pyesində Dilbərin zahiri səliqəsi və gözəlliyi «öz yerində» olsa da, bu, onun çürük əməllərini, pozğunluğunu gizlədə bilmir.Bədii portret, xarakteri daha yaxşı başa düşmək və möhkəm yadda

saxlamaq üçün bir vasitə rolunu oynayır. Bədii portret xarakteri tamamlayır, onun canlı və dolğun çıxmasına səbəb olur. Əlbəttə, bədii portret haqqında məlumat verərkən bütün əsərlərə eyni tələblə yanaşmaq olmaz. Çünki bədii portret əsərin janr xüsusiyyətlərindən asılı olaraq müxtəlif cür yaranır.Camal Əhmədov bədii əsərlərin təhlili ilə bağlı apardığı tədqiqatda bildirir ki, "… hər bir müsbət obrazın mənəvi siması, onun əsərdəki obrazlar silsiləsindəki yeri, yazıçının bu obrazı yazanadək əxlaqi keyfiyyətlərinin məhz hansı cəhətlərini əsas götürdüyü və s. tələblər baxımından qiymətləndirilməlidir.Deməli, bədii əsərlərdəki müsbət xarakterli obrazların təhlili zamanı çalışmaq lazımdır ki, bu obrazların mənəvi aləmini yaradan sənətkarların özlərinə məxsus bədii boyalardan necə istifadə etdiklərini əsərin janr xüsusiyyətləri, orada təsvir olunan konkret tarixi şərait və s. əsasını şagirdlər möhkəm mənimsəsinlər. Bu, əsərin ideya və dəyərini başa düşmək üçün də əhəmiyyətlidir. " (3, 126).Yekun məşğələsində görüləcək işlər: keçilənlərin təkrarı; alınmış biliyin möhkəmləndirilməsi; müvafiq nəticənin çıxarılması və biliyin hesaba alınması. Keçilənlərin təkrarı alınan biliyin möhkəmləndirilməsinə kömək edir. Odur ki, müəllim mətnin oxusu və təhlili üzərində apardığı işləri qurtardıqdan sonra keçdiyi materialları təkrar etməlidir. Tədris prosesində təkrarın təşkili müəllimdən pedaqoji-metodik bacarıq tələb edir. Təkrar o zaman səmərəli olar ki, müəllim təkrarı ümumiləşdirmə yolu ilə aparsın, şagirdlərin yeni bilikləri köhnə biliklərini, yeni məlumatları köhnə məlumatlarını tamamlasın və dərinləşdirsin. Keçilənləri müqayisə yolu ilə təkrarlamaq alınan biliyin möhkəm olmasına çox kömək edir.

Ədəbiyyat

1. Həsənli B.A. Ədəbiyyat tədrisi metodikası. Bakı. "Müəllim" nəşriyyatı. 2016. 450 s.
2. C.Məmmədquluzadə. "Seçilmiş əsərləri" "Öndər" nəşriyyatı. Bakı. 2004. 664 s.
3. Əhmədov C.X. Ədəbiyyat tədrisində bədii təhlil. Bakı: "Maarif" nəşriyyatı 1983, 132 s.
4. Vahabova S. İ. C. Məmmədquluzadə nəsrinin poetikası. Bakı 2013. 164 s.

Джабиева Хульйа

Пути проведения аналитических уроков при обучении литературных произведений в средних школах.

Резюме

Обучение литературных произведений составляет одну из основ методического обучения литературы. Обучение эпических литературных

произведений почти что не возможно без серьезных анализов как это делается в других литературных видах. При обучении этих произведений элементы сюжетов и композиций. Показ образов и другие задачи должны быть в центре внимания независимо от жанра. В зависимости от объема жанра в этих произведениях количество образов могут быть по разном мало и много. Анализ каждого из этих образов должен быть одним из основных направлений обучения. Надо запомнить что основа и фундамент ложиться в школе. Именно на этой основе современные читатели развивают и формируют свои литературные вкусы. Организация правильного восприятия учениками литературных произведений связаны по некоторым причинам. Самый главный из этих причин то что учитель должен обратит особое внимание психологическим вопросам при обучении. Для того чтобы обусловит мощность и прочность школьных знаний. ..обеспечит их связь с жизнью и созидательностю сейчас с психологическим проблемами занимаются и интересуются не только специалисты этого профиля ну и другие специалисты. Одна из психологических проблем в школе заключается в изучении отрицательных черт каждого образа в сравнении мировозрения и взгляда на жизнь каждого из них. Сравнение полезно интересно тем что дает возможность раскрыт сущность каждого образа в отдельности. Учитель должен умеет определить за ранее как будет действовать на ученика отрицательные и положительные образы .он должен дать правильную характеристику этим образам чтобы ученики не склонялись к отрицательному образу а брали пример с положительного образа..опыты показывают что ученики 5-9 классов стремятся и с интересом идут на сравнение образов . изучение сути художественных произведений -это процесс который очень связан с обучением и литературным вкусом учеников.этот процесс должен организоватся таким образом что с его помощью ученики смогли приобрести свой литературный вкус.учитель должен восползоватся всеми возможностями что бы дать правильное направление ученику.например современная методическая литература отмечает что ученик 11-го класса уже личность который имеет свои вкусы и интересы .во время произведения он должен полностью ясно понят суть которую автор хочет довести до него.

Ключевые слова: литература, учебная программа, история, обучение, жанр, метод

Jabieva Hulya

Ways of implementing analytical lessons
in teaching prose works in secondary schools

Summary

The teaching of prose works is one of the foundations of the literature teaching methodology. As with other literary types, it is impossible to teach epic type works without proper analysis. Regardless of the genre, the teaching of these works includes plot and composition elements, image descriptions, etc. issues should be in the spotlight. It should be remembered that the foundation of artistic taste is laid at school. It is on this basis that modern readers develop and shape their tastes. The organization of student perceptions of prose works is related to a number of factors. The most important of these is that the teacher pays special attention to the psychological issues of reading comprehension. Now, not only specialists in this field, but other professionals are also engaged in psychological problems to ensure that the school's knowledge is strong and durable, and that it is linked to life and construction. One of these psychological problems is the comparative study of the inherent contradictions in the character of schools, their outlook, and their outlook on life. Comparisons are very useful and interesting for mutual study of the nature of the pictures. The teacher should be able to predict in advance the negative and positive image of the student. Thus, the teacher must put these images at the forefront in order to emulate the characteristics of the positive, not the negative, student. Experience shows that V-IX Grade students tend to compare copies and are eager to get started. Depending on the size of the genres, the number of images in these works may be small and large. Analysis of each of these images should be one of the main areas of training. Understanding the essence of fiction is a process that is very much related to student reading and enjoyment. Understanding of prose works should be organized in such a way that students can acquire artistic taste with their help. In this work, the teacher should be able to effectively utilize the reading of fiction, the opportunities provided by these works for the development of artistic pleasure for students. For example, modern methodological literature notes that the 11th grade pupil is a figure whose artistic tastes and interests are fully developed. He must clearly understand the pleasure of reading the work and the idea that the author wants to convey.

Key word: literature, curriculum, story, training, genre, method

Redaksiyaya daxil olma tarixi: 12.12.201
Çapa qəbul olunma tarixi: 17.012020
Filologiya üzrə fəlsəfə doktoru, dosent Vaqif Əliyev tərəfindən
çapa tövsiyə olunmuşdur.

MÜNDƏRİCAT

DİLÇİLİK

İSMAYIL TEMİROĞLU
DİLİN LEKSİK-SEMANTİK QURULUŞUNUN ƏSAS CƏHƏTLƏRİ
VƏ MƏNA DƏYİŞMƏLƏRİ HAQQINDA 3
VÜQAR QARADAĞLI
HƏFS İLƏ VƏRŞ RƏVAYƏTLƏRİNDƏ SAİTİ İNFLEKSİYA 15
AFAQ AĞAYEVA
AZƏRBAYCAN DİLİ HAQQINDA..... 50
KÖNÜL DƏNZİYEVA
AZƏRBAYCAN FOLKLOR MATERİALLARINDA TƏKTƏRKİBLİ
CÜMLƏ STRUKTURLARI 57
ZƏRİFƏ AVİLOVA
MƏFKURƏ HÜSEYNOVA
NƏRİMAN NƏRİMANOVUN AZƏRBAYCAN DİLİNİN,
ƏDƏBIYYATININ VƏ MƏTBUATININ
İNKİŞAFINDA ROLU 65
FƏRİDƏ ŞAHLAROVA
ZAMİRƏ MƏMMƏDOVA
MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ İNKARLIQ KATEQORİYASININ
LİNQVİSTİK TƏHLİLİ 72
TOFİQ QULİYEV
İNGİLİS DİLİNDƏ SOMATİK İDİOMATİK BİRLƏŞMƏLƏRİN
MİLLİ-MƏDƏNİ XÜSUSİYYƏTLƏRİ 77
GÜNAL SƏFƏRLİ
AZƏRBAYCAN DİLİNİN DİALEKT VƏ ŞİVƏLƏRİ MÜASİR
DÖVRÜN TƏLƏBLƏRİ KONTEKSTİNDƏ 84
RƏFİQ CƏFƏROV
QLABOLLAŞAN DÜNYADA DİLLƏRİN İNTEQRASİYASI
PROSESİNDƏ RUS DİLİ VASİTƏSİLƏ AZƏRBAYCAN DİLİNƏ
KEÇƏN AVROPA MƏNŞƏLİ SÖZ VƏ TERMİNLƏRİN
LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ 94
RƏNA HÜSEYNOVA
MÜASİR İNGİLİS DİLİNDƏ İNDİKİNIN ZAMANDA İFADƏSİ99
SAHILA MUSTAFAYEVA
THE USAGE OF RHETORIC DEVICES DURING
TOURISTIC TRAVEL 109
NURİYYƏ ƏLİYEVA
İNGİLİS DİLİNİN XÜSUSİ MƏQSƏDLƏRLƏ TƏDRİSİNİN
SƏMƏRƏLİ YOLLARI 116
ELMİRA ƏLİYEVA
SİFƏTİN ƏNƏNƏVİ DİLÇİLİKDƏ TƏDQİQİNƏ DAİR 121

İMARƏ SÜLEYMANOVA
MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİNDƏ İŞLƏNMİŞ
FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ÜSLUBİ MƏQAMLARI 128
GÜLTƏKİN SALMANOVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ
VAHİDLƏRİN QARŞILIQLI TƏRCÜMƏSİ 136
ÜLVİ TAĞIZADƏ
KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN OMONİMLİYİNİN TƏDRİSİ ÜSULLARI 146
ŞƏHANƏ YAQUBLU
MƏHDUD DAİRƏDƏ İŞLƏNƏN SÖZLƏRİN SƏRHƏDLƏRİNİN TƏYİN
EDİLMƏSİ..... 156
NİSƏXANIM SALAMOVA
YENİ SÖZ YARADICILIĞI 163
NAİLƏ YUSİFOVA
AZƏRBAYCAN DİLİ - ANA DİLİMİZ, MİLLİ SƏRVƏTİMİZDİR! 173
AYTAN AFANDİYEVA
LANGUAGE,MEANING AND CONTEXT 179
AYTAN SULEYMANOVA
HOW STANDARDIZED TESTS LIMIT STUDENTS'
ENGLISH LANGUAGE LEARNING AT SCHOOLS IN
AZERBAIJAN: ARE SCHOOLS GETTING TONGUE-TIED? 186
SEVİL XƏLİLOVA
LEYLA İBRAHİMOVA
FƏLSƏFİ KATEQORİYA İNKARIN-İNKAR
QANUNUNUN MÜASİR ALMAN VƏ AZƏRBAYCAN
DİLÇİLİYİNDƏ İFADƏ ÜSULLARI.....197
MARAL QƏNDİLOVA
İRADƏ BƏDƏLOVA
INGILIS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ
BİRLƏŞMƏLƏRİN NÖVLƏRİ, ONLARIN OXŞAR VƏ FƏRQLİLİYİ 202
ŞƏHLA MƏMMƏDOVA
KÖNÜL MƏMMƏDOVA
MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ
VAHİDLƏRİN FUNKSİYA ÜZRƏ TƏSNİFATI VƏ ONLARIN
LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ..... 207
СЕВИНДЖ БАБАЕВА
ОСОБЕННОСТИ ВЫБОРА МЕТОДИКИ НАЧАЛЬНОГО КУРСА
ПРЕДВУЗОВСКОГО ЭТАПА ОБУЧЕНИЯ ИНОСТРАННЫХ ГРАЖДАН
ОБЩЕТЕОРЕТИЧЕСКИМ ДИСЦИПЛИНАМ..... 212
FƏXRİYYƏ ZAHİDOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV SƏRİŞTƏNİN
FORMALAŞDIRILMASINDA ƏSAS STRATEJİ FƏALİYYƏTLƏR..... 218

SEVİNC NAMƏTOVA,
ZÜMRÜD QAFARLI
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNDƏ ŞİFAHİ NİTQİN FORMALAŞDIRILMASINDA AUDİO VƏ VİDEO MATERİALLARDAN İSTİFADƏ METODİKASI 223
NÜŞABƏ ƏLİYEVA
İSMAYIL ŞIXLININ "DƏLİ KÜR" ROMANINDA ATALAR SÖZLƏRİ VƏ ZƏRB-MƏSƏLLƏRDƏN İSTİFADƏ 228
NILUFƏR MAHMUDOVA
АББРЕВИАТУРА В СРЕДСТВАХ МАССОВОЙ ИНФОРМАЦИИ.....238
RUBABE MUSAEVA
THE PERSON'S USAGE OF ENGLISH IN CULTURAL AND PUBLIC SPACE OF THE USA 243
RASİMƏ TEYMUROVA
İQTİSAD TƏMAYÜLLÜ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ DƏRSİN TƏŞKİLİ VƏ MOTIVASIYANIN ROLU *248*
SEVİNC HÜSEYNOVA
ATALAR SÖZLƏRİ VƏ ZƏRBİ-MƏSƏLƏLƏRİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ TƏRCÜMƏ PROSESİNDƏ OPTİMAL VARİANTIN TAPILMASI 253
ZÜLEYXA YUSİFOVA
MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ EKVİVALENTLİK TƏŞKİL EDƏN PAREMOLOJİ CÜTLÜKLƏRİN SİSTEMLƏŞDİRİLMƏSİ VƏ LİNQVİSTİK TƏHLİLİ.....258
SARIGÜL SADIXOVA
COMMUNICATIVE COMPETENCE IN LEARNING ENGLISH AS A FOREIGN LANGUAGE 263
NƏSRİN ƏLİBƏYLİ
"SƏYAHƏT" KONSEPTİNİN PAREMIOLOJİ VAHİDLƏRDƏ İFADƏSİ 272

ƏDƏBİYYATŞÜNASLIQ

HƏCƏR VƏLİYEVA
"MƏNAQIB-I İBRAHİM GÜLŞƏNI" ƏSƏRİNDƏ ŞEYX İBRAHİM GÜLŞƏNİNİN FÖVQƏLTƏBİİ BACARIQLARININ TƏSVİRİ 280
АЙБАНИЗ ИСМАЙЛОВА
ИДЕИ ФЕМИНИЗМА В ПРОИЗВЕДЕНИЯХ ВИРДЖИНИИ ВУЛЬФ.....288
NİGAR MİRZƏYEVA
LE ROMANTISME ET LE RÉALISME DANS LA LITTERATURE FRANÇAISE.....300

GÜLARƏ QULUZADƏ
SEHRLİ QIRĞIZ NAĞILLARININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ.....308
İLHAMƏ SULTANOVA
QOCA ŞƏRQİN "MOLLA NƏSRƏDDİN" RUHLU SATİRA MÜJDƏÇİLƏRİ VƏ YA "MOLLA NƏSRƏDDİN"DƏN BAŞLANAN ŞƏRƏFLİ YOLUN YOLÇULARI.....317
RƏQSANƏ ZEYNALOVA
ŞAMİL SALMANOVUN YARADICILIĞINDA TƏNQİDİN TƏNQİDİ.....324
ФАРИДА МЕХБАЛИЕВА
ОБУЧЕНИЕ НАВЫКАМ КРИТИЧЕСКОГО МЫШЛЕНИЯ 333
ЭЛЬНУРА РАГИМОВА
СОПОСТАВИТЕЛЬНЫЙ АНАЛИЗ ОБРАЗОВ МУСУЛЬМАНСКИХ ДЕВУШЕК В «КАВКАЗСКОМ ПЛЕННИКЕ» А.С.ПУШКИНА, М.Ю.ЛЕРМОНТОВА И Л.Н.ТОЛСТОГО 339
KƏMALƏ BAYRAMOVA
SÜLEYMAN VƏLİYEVİN "MÜBAHİSƏLİ ŞƏHƏR" ROMANINDA MÜHARİBƏ GERÇƏKLİKLƏRİ 347
NƏSİMİ MƏHƏRRƏMOV
ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ "DƏRZİ ŞAGİRDI ƏHMƏD" NAĞILININ TƏHLILİNDƏ İNTERAKTİV METODLARDAN İSTİFADƏ İMKANLARI 355
KÖNÜL FƏRƏCBƏYLİ
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞİFAHİ XALQ YARADICILIĞI NÜMUNƏLƏRİNDƏN İSTIFADƏNİN METODİKASİ.....360
ƏSMƏR HÜSEYNOVA
ƏKBƏR AĞAYEVİN ELMİ İRSİNDƏ ƏDƏBİ ƏLAQƏLƏR BİR PROBLEM KİMİ.....365
HÜLYA CƏBİYEVA
ORTA MƏKTƏBLƏRDƏ NƏSR ƏSƏRLƏRİNIN TƏDRİSINDƏ TƏHLİL DƏRSLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ YOLLARI.....374

«Elm və təhsil» nəşriyyatının direktoru:
Filologiya elmləri doktoru, professor Nadir MƏMMƏDLİ

Dizayn: Kamran İbrahimov
Texniki redaktor: Yadigar Mirbagırzadə

Çapa imzalanmış 15.02 2020
Şərti çap vərəqi 41,5 Sifariş № 3
Kağız formatı 60x84 1/8. Tiraj 300.

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində hazır elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.